# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## YÜZ OTUZ YEDDİNCİ KİTAB

## MAY 2024

AZƏRNƏŞR
BAKI - 2024

# İLHAM ƏLİYEV

ÇIXIŞLAR • NİTQLƏR

BƏYANATLAR • MÜSAHİBƏLƏR

MƏKTUBLAR • MƏRUZƏLƏR

MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI - 2024

Buraxılışına məsul

**ƏLÖVSƏT AĞALAROV**

**ƏLİYEV İLHAM**

**İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2024, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Bakı Ekspo Mərkəzində XVII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı «Caspian Agro» və XXIX Azərbaycan Beynəlxalq Qida Sənayesi «Interfood Azerbaijan» sərgiləri ilə tanışlığına, İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə dövlət sərhədində görüşünə, Araz çayı üzərində inşa edilmiş «Xudafərin» hidroqovşağının istismara verilməsi və «Qız qalası» hidroqovşağının açılışı mərasimində iştirakına, həmçinin ölkəmizdə səfərdə olan Belarus və Tacikistan respublikalarının prezidentləri ilə görüşlərinə dair materiallar toplanmışdır.

Kitabda, həmçinin dövlət başçısının Füzuli, Ağdam, Cəbrayıl rayonlarına, Şuşa şəhərinə səfərlərinə, Xocalı şəhərinə köçmüş sakinlərlə görüşünə aid materiallar, o cümlədən Berlində keçirilmiş 15-ci «Petersberq İqlim Dialoqu»nun yüksək səviyyəli seqmentində iştirakı zamanı «Euronews» telekanalına müsahibəsi, dünya liderlərinin və nüfuzlu şəxslərin 28 May – Müstəqillik Günü münasibətilə Azərbaycan Prezidentinə göndərdiyi məktubları yer almışdır.

**ISBN 978-9952-8100-7-3**

© Azərnəşr, 2024

## BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*16 may 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mayın 16-da mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli Aleksandr Qriqoryeviç!

Hörmətli qonaqlar!

Əziz dostlar!

Bu gün biz Azərbaycana dövlət səfəri ilə gəlmiş əziz qonağı, böyük dostumuz Aleksandr Qriqoryeviç Lukaşenkonu qəbul edirik. Aparılan danışıqlar – təkbətək və geniş tərkibdə görüşlər ölkələrimizin mehriban dost olduğunu bir daha əyani şəkildə nümayiş etdirir. Bu gün münasibətlərimizin son illərdə inkişafını müfəssəl şəkildə təhlil etdik və bu münasibətlərin dinamik inkişafını məmnuniyyətlə qeyd etdik, həmçinin daha da mühüm olanı – gələcəkdə qarşılıqlı fəaliyyət yollarını müəyyənləşdirdik. Razılığa gəldik ki, yaxın vaxtlarda Minskdə keçiriləcək hökumətlərarası birgə Komissiyanın növbəti iclasına qədər müvafiq

dövlət strukturlarına verilmiş tapşırıqlar müfəssəl şəkildə təhlil olunacaq və icra müddəti üzrə konkret addımlar, həmçinin qarşılıqlı iqtisadi-ticari əməkdaşlıq potensialını daha da artırmaq üçün həmin tapşırıqların verildiyi məsul şəxslər və strukturlar müəyyən ediləcək.

Mən məktub göndərmişəm, lakin bu gün bir daha Aleksandr Qriqoryeviçi noyabrda Bakıda keçiriləcək iqlim sammitində iştirak etməyə şəxsən dəvət etdim. Həmin vaxta qədər müvafiq tapşırıqlar verilib, biz onların yerinə yetirilməsi üzrə məruzələri dinləyəcəyik. Bu gün müzakirə etdiyimiz məsələlərin hamısı kifayət qədər konkret xarakter daşıyır. İlk növbədə, söhbət sənaye kooperasiyasından, Belarusda, Azərbaycanda birgə istehsalın təşkili və artıq bir çox illər öncə yaradılmış birgə istehsal potensialının artırılmasından gedir. Bu ilk növbədə, maşınqayırmadır. Həmçinin hərbi-sənaye kompleksində, kənd təsərrüfatında, nəqliyyatda əlaqələrin inkişafı məsələləri, başqa sözlə desək, ölkələrimizin iqtisadiyyatının inkişafı üçün praktiki əhəmiyyət daşıyacaq məsələlər geniş şəkildə müzakirə olundu.

Belarus nümayəndə heyətinin üzvləri dünəndən Bakıdadırlar və azərbaycanlı həmkarları ilə danışıqlar aparıblar. Bu bir daha göstərir ki, hər iki tərəf Belarus Prezidentinin dövlət səfərinə məsuliyyətlə yanaşaraq, sonradan dövlət başçılarının təsdiqinə təqdim ediləcək bir çox məsələləri əvvəlcədən müzakirə edib və razılaşdırıblar. Zənnimcə, əməkdaşlığın bu səmərəli forması daha düzgündür və konkret nəticəyə yönəlib. Əminəm ki, gələcəkdə, həm də çox uzaq

olmayan gələcəkdə münasibətlərimizin yeni hüdudlarını, yeni müəssisələri, yeni iş yerlərini, həmçinin əməkdaşlığın yeni istiqamətlərini görəcəyik. Mən artıq bu barədə danışmışam, bir daha demək istəyirəm ki, Belarus şirkətlərini Qarabağ və Şərqi Zəngəzur bölgələrinin bərpasında fəal iştirak etməyə dəvət etmişəm. Hazırda gördüyümüz və həyata keçirəcəyimiz işlərin miqyası çox genişdir. Demək olar ki, ərazini sıfırdan bərpa etmək lazım gəlir, müqayisə üçün deyim ki, Livanın ərazisindən 1,5 dəfə böyük bir sahədir. Bütün bunları sadəcə, daşın daş üstündə qalmadığı ərazidə görüləcək işləri təsəvvür etmək üçün söylədim. İşğal illərində hər şey dağıdılıb. İnfrastrukturu, yaşayış sahələrini, ictimai binaları, tarixi abidələri və digərlərini sıfırdan bərpa etmək lazım gəlir. Ona görə də Belarus şirkətlərini bu prosesə fəal qoşulmağa dəvət edirik.

Bu gün, həmçinin konkret tapşırıqlar verilib. Belarusun çox yaxşı şəhərsalma təcrübəsi, müasir texnologiyaları – bu barədə də danışdıq – aqroşəhərciklərin tikintisi təcrübəsi vardır. Əlbəttə, bizim birincidərəcəli vəzifəmiz keçmiş məcburi köçkünləri tikiləcək doğma evlərinə mümkün qədər tez qaytarmaqdır. Həmçinin onları müvafiq işlə təmin etmək lazımdır ki, azad olunmuş ərazilərə qayıdanlar da yüksək əməkhaqqı olan işlərdə çalışsınlar.

Biz bu gün, həmçinin regionumuzda MDB məkanında təhlükəsizliklə bağlı məsələləri müzakirə etdik. Mən Aleksandr Qriqoryeviçə Cənubi Qafqaz regionunda postmünaqişə şəraiti haqqında məlumat verdim. Təbii ki, dünya siyasətinin aktual məsələləri üzrə də fikir mübadiləsi apardıq. Dünyada vəziyyət

sürətlə və bir qayda olaraq, mənfi istiqamətdə dəyişir. Yeni münaqişələr, yeni qeyri-sabitlik ocaqları yaranır. Təəssüf ki, bir qayda olaraq, mövcud münaqişələr öz həllini tapmır. Cənubi Qafqazda Azərbaycanın beynəlxalq hüquqa, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, BMT-nin Nizamnaməsinə və bütün dünya ictimaiyyətinin bu gün tanıdığı beynəlxalq humanitar hüquqa tam uyğun olaraq hərbi-siyasi yolla həll etdiyi münaqişə istisna olmaqla.

Əlbəttə, diskussiyalar üçün mövzu olduqca çoxdur. Biz Aleksandr Qriqoryeviçlə son 20 ildə fəal işləyirik. Bu illər ərzində müxtəlif şəraitlərdə həmişə dəyərlərimizə – xeyirxahlığa, ləyaqətə, münasibətlərdə dürüstlüyə və nəticəyə hədəflənməyə sadiqliyimizi qoruyub saxlamışıq. Düşünürəm ki, ölkələrimizin rəhbərləri arasında etimada əsaslanan münasibətlər təbii olaraq, bütün digər dövlət qulluqçularına impuls verir ki, onlar, həmçinin öz aralarında ünsiyyət saxlasınlar, çalışsınlar, dostluq etsinlər, öz ölkələrinin rifahı və ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi naminə fəaliyyət göstərsinlər. Zənnimcə, bu gün bu münasibətlərin dostluq xarakteri daşıması əyani şəkildə nümayiş etdirilir.

Aleksandr Qriqoryeviç, bir daha minnətdarlıq hissi ilə demək istəyirəm ki, Sizin səfərinizi dostluq və hörmət əlaməti kimi qəbul edirəm. Ötən illərdə bir neçə qarşılıqlı rəsmi və işgüzar səfərlər etmişik. Dövlət səfəri həm forma, həm də məzmun etibarilə həmişə fərqlidir. Sizi salamlamağıma şadam. Sizə və dost, qardaş Belarus xalqına yeni uğurlar və qələbələr arzulayıram. Sağ olun.

## Belarus Prezidenti Aleksandr Lukaşenkonun bəyanatı

İlham Heydər oğlu! Belarus xalqının və mənim ünvanıma söylədiyiniz xoş sözlərə görə çox sağ olun. Biz bunu qiymətləndiririk.

Geniş tərkibdə danışıqlarımızın əvvəlində söylədim ki, Azərbaycan son illər böyük nailiyyətlər əldə edib. Hər şeydən əvvəl özünün əsas problemini – uzun müddət səhraya çevrilmiş torpaqların qaytarılmasını həll edib. İlham Heydər oğlu deyir ki, bu torpaqları dirçəltmək, hansısa yeniliklər etmək lazımdır. Amma orada vəziyyət hələ pisdir, dirçəlişdən əvvəl bir çox şeyləri təmizləmək lazımdır. Bu, az iş deyil, keçmişin ağır fəsadlarıdır, amma torpaqlar qaytarılıb və onları dirçəltmək lazımdır. Bu, Azərbaycanın həll edəcəyi daha uzunmüddətli ağır problem və vəzifədir.

Mən hələ müharibədən əvvəl İlham Heydər oğlu ilə bu problemi müzakirə etdiyimiz vaxtları xatırlatdım. O mənə deyirdi ki, qarşıda insanları qaytarmağın lazım olacağı çox ağır dövr durur. Siz çox düzgün kurs götürmüsünüz. İnsanları qaytarmaq azdır, onları yaxşı, rahat evlərdə yerləşdirmək lazımdır, çünki onların bir çoxu artıq şəhərdə anadan olublar. Yeni iş yerləri yaratmaq lazımdır. Mən ilk dəfə belə bir həcm barədə eşitdim ki, bu, Livanın bütün ərazisi, üstəgəl bütün bu ərazinin 50 faizi qədər sahədir. İlham Heydər oğlu, bu torpaqları dirçəltmək üçün hələ uşaqlar da çox iş görməli olacaqlar.

Mən bunu ona görə söylədim ki, biz sizə qardaş və çox dost ölkəyik, təkcə İlham Heydər oğlu ilə köhnə

dostlar deyilik, bizim Heydər Əliyev ilə də yaxşı münasibətlərimiz var idi. Uzun müddət olmasa da, onunla çox səmimi şəkildə çalışmışıq. Mən sovet dövründə bu insana böyük hörmət bəsləyirdim. İlham Heydər oğluna tez-tez deyirəm ki, təbiət nadir hallarda övlada atanın istedadını bəxş edir. Siz çox işlər görmüsünüz. Bu gün ona birbaşa dedim ki, siz cənnətdə yaşayırsınız. Sizin təbiətiniz cənnətdir. Torpaqlarınızı qaytarmağınız və onu dirçəltməyiniz əsrlərboyu, uzun illər yaddaşlarda qalacaq. Bütün bunları ona görə deyirəm ki, əgər həmin torpaqların dirçəldilməsi üzrə bu böyük prosesdə bizə yer tapılarsa, onda bu yükün altına girməyə hazırıq və bu sizin üçün sərfəli olacaq. Məsuliyyətlə bildirirəm ki, biz bunu böyük məmnuniyyətlə və dünyada heç kimin edə bilməyəcəyi səviyyədə edəcəyik. Çünki Belarusun və Azərbaycanın qardaş xalqları arasında dərin hörmət və münasibətlər vardır. Azərbaycan Prezidentinin əvvəldə söylədiyi sözlərə diqqət yetirmənizi xahiş edirəm. Bizim irəlilədiyimiz və təxminən 400 milyon dollar əmtəə dövriyyəsinə çatdırdığımız bir «Yol xəritəmiz» vardır. Razılığa gəlmişik ki, bu «Yol xəritəsi» hökumətlərarası birgə Komissiyanın Minskdə keçiriləcək növbəti iclasında bugünkü razılaşmalar və nazirlərimizin burada iki gün ərzində çalışdıqları, hələ üzərində işləyəcəkləri məsələlər nəzərə alınmaqla aktuallaşdırılacaq. Bəzi məsələlər artıq köhnəlib, yeni problemlər meydana çıxır. Bütün bunlar həmin planda öz əksini tapacaq. Burada iqlim üzrə beynəlxalq konfrans keçirildikdə, çox güman ki, mən orada iştirak edəcəyəm, bunu planlaşdırıram. Biz İlham Heydər oğlu ilə daha

məhdud tərkibdə və yenidən görüşəcəyik. Görüşdə hökumətlərarası birgə Komissiyamızın həmsədrləri bu xəritənin nədən ibarət olması, hansı işlərin görüldüyü barədə məruzə edəcəklər. Biz nazirlərin xəritəni tərtib etmələrini gözləməyəcəyik, bu işə yeni ildən başlayacağıq. Digər məsələlər üzrə belə də olacaq. Amma bir sıra məsələlər var ki, onları işləyib hazırlamaq deyil, sabahdan başlamaq lazımdır. Biz kompleks mineral gübrələrin birgə istehsalı üzrə razılaşdıq, gecikməyin mənası yoxdur. Kompleks qarışıq gübrələr istehsal etmək və Azərbaycanın hər hansı gübrə ilə bağlı xahiş etməməsi üçün daxili bazardan başlamaq, onu burada istehsal etmək lazımdır. Bizim texnologiyalarımız var, bunu həyata keçirməyə və bütün regionu təmin etməyə hazırıq. Region isə çox böyükdür – İran, Pakistan, Hindistan. Onlar böyük miqdarda mineral gübrələr tələb edir. Biz onlara kompleks şəkildə gübrə təklif edəcəyik. Ona görə də məsələ belədir – artıq həll etməyə başlamaq və noyabra qədər irəli getmək lazımdır. Qarşıya bu vəzifələr qoyulub.

Biz bütün məsələləri müzakirə etdik. Bağlı mövzular olmadı. Bu, təkcə texnika və MT3 deyil, MAZ texnikasının birgə istehsalı, yanğınsöndürən texnikasının birgə istehsalı, lift avadanlığının, xüsusən sovet binalarında dəyişdirilməli olan köhnə lift hissələrinin birgə istehsalıdır. Biz azərbaycanlı dostlarımızla bu texnikanı birgə istehsal etməyə hazırıq. Prezident xahiş etdi ki, dəmir yolu hərəkət texnikasının – həm platformaların, həm də çənlərin istehsalına diqqət

yetirək. Bizim yaxşı təcrübəmiz var. Bunları istehsal edən şirkətlərimiz, zavodlarımız mövcuddur. Bu texnikanın burada birgə istehsalını təşkil etməyə hazırıq. Kənd təsərrüfatında buraya cins mal-qara, hər şeydən əvvəl, süd məhsullarına, iribuynuzlu mal-qara ətinə tələbatı tam təmin etmək üçün tədarüklə bağlı böyük proqramlarımız var. Biz bu mal-qaranı sizə tədarük edəcəyik. Bundan başqa, sizin azad etdiyiniz ərazilərdə, xüsusən aqrar torpaqlarda Belarus təcrübəsi üzrə aqroşəhərciklər və bütün infrastrukturu yaratmağa, iş yerləri açmağa, yəni komplekslər tikməyə, həmçinin fermer təsərrüfatları yaratmağa hazırıq. Venesueladan başlayaraq, bizim belə bir təcrübəmiz var. Amma bura Venesuela deyil, yaxındır, eyni dildə danışırıq, bir-birimizi başa düşürük. Ona görə də həmin torpaqlarda sizin üçün ilk növbədə, iş yerləri olan aqroşəhərcik tikəcəyik. Baxarsınız, sizə uyğun olarsa, biz onların sayını artırarıq. Belə ki, bu gün Prezidentə böyük sərvətimizin – meşələrimizin olduğunu söylədim. Bizdə o qədər taxta-şalban var ki, bu, Azərbaycanda qıtdır. Bu məsələdə təbiət bizi mükafatlandırıb. Biz orada sizin üçün evlər yaratmağa hazırıq. Belarusda taxta evlər təcrübəsi geniş yayılıb. Evi hissələrlə vaqonlarda gətiririk, bir həftə ərzində bünövrəsi üzərində tikib qurtarırıq. Biz Belarusda belə edirik. Əgər sizə uyğun gələrsə, tədarük edə və sizin dirçəldilən ərazilərdə belə evlər tikə bilərik. Bir sözlə, çox böyük planımız var. Biz işləməyə davam edəcəyik.

Əczaçılığa, dərmanlara gəldikdə isə biz lap elə sabahdan sizin çox ehtiyac duyduğunuz dərmanları

tədarük etməyə və burada Belarus texnologiyası əsasında dərman və preparatlar üçün birgə istehsalat qurmağa hazırıq. Bu da çox böyük proqramdır və Azərbaycanda heç kimə işləməyə mane olmur. Biz burada heç kimlə ziddiyyət yaratmırıq, heç kimlə rəqabət də aparmırıq. Halbuki rəqabət olmalıdır.

Bir sözlə, çox iş görə bilərik. Həm humanitar sahədə, həm də idmanda. Siz ölkədə MDB oyunlarını qəbul edəcəksiniz. Biz də qoşulacağıq, həm də axı bu oyunları Sizinlə birgə xilas etmişik. Əgər Belarus və Azərbaycan olmasaydı, yəqin ki, bu oyunlar süquta uğrayardı. Biz onu xilas etdik. Ötən oyunlar bizim ölkədə keçirildi, bu dəfə isə estafeti bizdən siz qəbul etdiniz. Bir vaxtlar Avropa oyunlarının estafetini də biz sizdən qəbul etmişdik. Ona görə də təcrübəmiz böyükdür. Sizinlə idman, səhiyyə, təhsil, o cümlədən, əvvəllər TPM adlandırdığımız texniki peşə məktəblərimizin təcrübəsi sahəsində əməkdaşlıq edəcəyik. Biz burada texniki peşə təhsili verən obyektlərin təşəkkül tapmasına və yeni əsaslarla yaradılmasına kömək etməyə hazırıq. Bizim bu sahədə təcrübəmiz böyükdür. Həm də biz onları sovet vaxtından bəri qoruyub saxlamışıq. Bu gün isə peşə ixtisaslarına həm bizim ölkədə, həm Rusiyada, həm digər MBD ölkələrində, həm Azərbaycanda böyük tələbat var. İlham Heydər oğlu bu işlə məşğul olmağımızı bizdən xahiş edib. Biz də sizin mütəxəssislərlə birlikdə bu işi mütləq birlikdə həyata keçirəcəyik.

Bəli, biz regionlarımızda təhlükəsizlik məsələlərini müzakirə etdik. İlham Heydər oğlu burada baş verənlərlə bağlı mənə ətraflı məlumat verdi, qeyri-sabit

regiondur, Tanrıya şükür olsun ki, burada Azərbaycanın timsalında olduqca güclü, normal lider ölkə mövcuddur. Siz Qafqaz regionunu nəzarətdə saxlamağa qadirsiniz. Bu, artıq təkcə Azərbaycana görə məsuliyyət daşımaq demək deyil, siz bütün Qafqazdakı vəziyyətə cavabdehsiniz, biz – Qafqazda yaşamayan xalqlar buna çox böyük ümid bəsləyirik. Ona görə də bu sizin üçün əlavə yük deməkdir, halbuki öz problemləriniz də var, lakin nə etmək olar. Zaman Sizi seçib, bizdə belə deyirlər və Siz lider olaraq Qafqaz regionuna görə məsuliyyət daşıyırsınız.

Mən bizim regionda Ukraynadakı münaqişə ilə bağlı nə baş verdiyi barədə məlumat verdim. Həm də ətraflı şəkildə. Bununla bağlı qiymətləndirmələrimiz, baxış bucaqlarımız həm yaxındır, həm də üst-üstə düşür. Siz bizim mövqemizi bilirsiniz. Bizə indi orada heç də asan deyil, ancaq orada sülh olması üçün əlimizdən gələni edəcəyik. Bu istiqamətdə hərəkət edəcəyik. Bu məsələdə Azərbaycanın müharibədən sonrakı quruculuqla, sülh quruculuğu ilə bağlı təcrübəsi bizim region üçün də çox vacibdir. Biz bir-birimizlə etimad əsasında söhbət edirik, nə şəxsi, nə də dövlətlərarası planda gizli sirrimiz yoxdur. Bu isə bizim ölkə nazirlərimizin də artıq bu notlar üzərində danışmağa başlamasına və danışmasına xidmət edir. Buna görə də mən şəxsən burada səfərdə olan hökumət nümayəndələrimizdən bu ölkədən azərbaycanlı tərəfdaşları ilə quracaqları əməkdaşlıq proqramı ilə ayrılacaqlarını gözləyirəm. Xoşagələn hal odur ki, ticarət dövriyyəmiz 400 milyona yaxındır və bu gün artıq azərbaycanlı nazirlərin təşəbbüsü ilə bu

rəqəmi 1 milyarda çatdırmaq niyyətindəyik. Bu çox böyük addım olacaq. Ola bilsin ki, biz bunu iki mərhələdə həyata keçirəcəyik. Əvvəlcə ticarət dövriyyəmizin 500 milyona çatdırılmasına, il ərzində isə digər yarısını əldə etməyə müvəffəq olarıq. Müəyyən vaxtdan sonra bu rəqəmi 1 milyarda çatdıracağıq. Bunun üçün əlimizdən gələni edəcəyik. Əgər, məsələn, Azərbaycanda da istehsal edilən məhsulu dost olmayan ölkələrdən satın alırıqsa, biz heç nəyə baxmayaraq, dərhal ondan imtina etməli və buradan almalıyıq. Eynilə, Azərbaycan da bizə qarşı belə addım atacaq. İlham Heydər oğlu, mən Sizi Belarusa dəvət edirəm.

**İlham Əliyev:** Sağ olun.

**Aleksandr Lukaşenko:** Noyabrda Sizin ölkəyə gələcəyəm, müzakirə edərik, Siz də Belarusa səfər edəcəksiniz. Bir-birimizin ölkəsinə tez-tez səfər etməyimizə baxmayaraq, danışdığımız kimi, Sizin bizim ölkəyə səfərinizi hazırlayacaq Baş Nazirinizi respublikamızda görməyə şad olacağıq. Ən başlıcası isə, dost kimi və mənim şəxsən dostum kimi, Sizə və qardaş Azərbaycan xalqına bu ağır dirçəliş dövrünü itkilərsiz başa vurmağı və qarşınıza qoyduğunuz planları yerinə yetirməyi arzu edirəm. Əminəm ki, Siz bunu edəcəksiniz, həm də istərdim ki, tez edəsiniz, Siz bunu bacarırsınız. Siz bütün dünyaya göstərdiniz ki, Sizdən əvvəlki nəsillərin dövründə həll olunmayan ən mürəkkəb məsələləri həll etməyi bacarırsınız. Sizə xoşbəxtlik və uğur arzulayıram.

## BAKI EKSPO MƏRKƏZİNDƏ XVII AZƏRBAYCAN BEYNƏLXALQ KƏND TƏSƏRRÜFATI – «CASPİAN AGRO» VƏ XXIX AZƏRBAYCAN BEYNƏLXALQ QİDA SƏNAYESİ – «INTERFOOD AZERBAİJAN» SƏRGİLƏRİ İLƏ TANIŞLIQ

*Bakı Ekspo Mərkəzi*

*16 may 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mayın 16-da Bakı Ekspo Mərkəzində XVII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı – «Caspian Agro» və XXIX Azərbaycan Beynəlxalq Qida Sənayesi – «InterFood Azerbaijan» sərgiləri ilə tanış olmuşlar.*

*Kənd Təsərrüfatı naziri Məcnun Məmmədov dövlət başçılarına sərgilərlə bağlı məlumat verdi.*

*Bildirildi ki, Bakı Ekspo Mərkəzinin bütün 4 zalını və açıq sahəsini əhatə edən sərgilərə ümumilikdə 38 ölkədən 500-ə yaxın şirkət qatılıb. Regionun ən böyük kənd təsərrüfatı sərgisi olan «Caspian Agro» kənd təsərrüfatı texnikası, obyektləri və avadanlıqları, suvarma sistemləri, qablaşdırma, bu sahədə innovasiya texnologiyaları, heyvandarlıq, quşçuluq, istixana, yemlər, baytarlıq, bitkiçilik, gübrə, həmçinin*

*meyvə və tərəvəzlərin yetişdirilməsi sahələrini əhatə edir. «InterFood Azerbaijan» sərgisində isə dondurulmuş qidalar və yarımfabrikatlar, qənnadı və un məhsulları, konservləşdirilmiş qidalar, ət və süd məmulatları, meyvə-tərəvəzlər, yağ məhsulları, şirələr, çay, sağlam qidalar, eləcə də meyvə-tərəvəz emalı üçün avadanlıqlar, paketlər və bir sıra digər məhsullar təqdim olunur.*

*Azərbaycan və Belarus prezidentləri sərgilərlə tanış oldular.*

*Yerli istehsal və ixracat, ailə təsərrüfatı stendi ilə tanışlıq zamanı bildirildi ki, bu stenddə «FA Valley» və «Bal10» şirkətlərinin məhsulları təqdim edilir. «FA Valley» şirkətinin istehsal etdiyi şərablar 100 faiz «Sangiovese» şərablarıdır. Şərabların hazırlanması prosesində yalnız yerli mayalardan istifadə olunur. Məhsullar başqa xarici ölkələrdə də təqdim edilir. «Bal10» şirkəti isə Azərbaycanda yerli sahibkar tərəfindən Aran zonasında yetişən biyan bitkisindən hazırlanan bal məhsulları istehsal edir. Şirkətin məhsulları Qətərdə və Malayziyada təqdim olunur.*

*Belarus Respublikasının Milli Qrupunun qida məhsulları stendləri ilə tanış olan dövlət başçılarının diqqətinə çatdırıldı ki, stendlərdə 40-a yaxın şirkət, o cümlədən «Gomselmash», «Brestmiasomolprom» zavodları, Slutsk pendir fabriki, Minsk süd kombinatı, Qrodno ət-qablaşdırma, Volkovsk və Mogilev ət emalı zavodları, «Belvetfarma», «Belqospişçeprom», «Belinterexpo», «Bresteysky pekar», «Bremor», «Brestmeat», «Slodych», «Spartak», «Algon», «Grodno azot» və digər şirkətlər öz məhsullarını təqdim edir.*

*Sərgidə yer alan şirkətlərdən biri də Azərbaycanda fəaliyyət göstərən «MAN-AGRO» MMC-dir. Şirkət kənd təsərrüfatı sahəsində bir neçə istiqamətdə yerli və xarici bazarlara çıxmağı bacarıb. Ümumilikdə 360 hektara yaxın müxtəlif çeşidli tumlu və çəyirdəkli meyvə bağlarına sahib olan şirkət həmin meyvələrin saxlanılmasını və satışını, eləcə də meyvə tinglərinin yetişdirilməsini, inkişafını və yeni sortların alınmasını, ağaclar üçün gübrə və digər dərmanların satışını həyata keçirir. Fəaliyyəti ölkəmizin bütün ərazisini əhatə edən şirkətin ümumilikdə 10 min ton tutuma malik soyuducu anbarları vardır. Şirkətin ixrac istiqamətləri Rusiya, Belarus, BƏƏ, Qətər və Maldiv adalarıdır.*

*«Absheron Olive Garden» MMC 700 hektarlıq zeytun bağları ilə yanaşı, həm də ölkəmizdə, eləcə də bütövlükdə regionda ən böyük və müasir zeytun yağı emalı və süfrəlik zeytun məhsulları istehsalı zavodlarından ibarətdir. İllik 35 min ton xam zeytun qəbul etmək gücündə olan zavodda soyuq sıxım üsulu ilə «Extra Virgin» zeytun yağları istehsal edilir. Süfrəlik zeytun istehsalı zavodunda isə yaşıl, qara, çəyirdəkli, çəyirdəksiz, dilimlənmiş, içlikli və s. növ süfrəlik zeytun məhsullarının istehsalı üçün şərait mövcuddur. İstehsal olunan məhsullar daxili bazara çıxarılmaqla yanaşı, Rusiya, İsrail, Kanada, Türkiyə və İspaniyaya ixrac edilir.*

*Dövlət başçılarına Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin stendləri haqqında da ətraflı məlumat verildi. Bildirildi ki, ölkəmizdə həyata keçirilən aqrar islahatlar kənd təsərrüfatının inkişafını gücləndirir. Bu məqsədlə dövlət tərəfindən əhəmiyyətli*

*dəstək tədbirləri həyata keçirilir. Bu il ölkəmizin COP29-a ev sahibliyi etməsi, Prezident İlham Əliyev tərəfindən 2024-cü ilin «Yaşıl dünya naminə həmrəylik ili» elan olunması ilə əlaqədar sərgilərdə ətraf mühitin qorunması, «yaşıl enerji», resurslardan səmərəli istifadə və orqanik istehsal prinsiplərinə əsaslanan müasir kənd təsərrüfatı istehsal vasitələrinin nümayişinə daha çox yer ayrılıb. Kənd Təsərrüfatı Nazirliyi iqlim dəyişikliyinin təsirlərini minimuma endirmək və iqlim risklərinin qiymətləndirilməsi istiqamətində fəal təşəbbüslər irəli sürür.*

*2014-cü ildə fəaliyyətə başlayan «Agro Dairy» MMC Azərbaycanda kənd təsərrüfatı sahəsində qabaqcıl şirkətlərdəndir. Şirkətin məqsədi müasir texnologiyaların, innovativ həllərin tətbiqi ilə Azərbaycanın kənd təsərrüfatı sektorunda köklü dəyişikliklər etməkdir. Şirkət əsasən buğda, arpa və qarğıdalı kimi dənli bitkilərin becərilməsini, həmçinin yonca və şəkər çuğundurunun yetişdirilməsini həyata keçirir.*

*Sonra Azərbaycan və Belarus prezidentləri Bakı Ekspo Mərkəzinin açıq sahəsindəki stendlərlə tanış oldular.*

*Məlumat verildi ki, «Gəncə Avtomobil zavodu» İstehsalat Birliyi müxtəlif modifikasiyalı Belarus traktorları, MAZ və KamAZ markalı yük avtomobilləri, müxtəlif təyinatlı qoşqular, ekskavatorlar, xüsusi traktorlar, digər texnika və avadanlıqlar istehsal edir.*

*Belarus milli stendinin açıq sahədəki pavilyonunda iki şirkət – «Gomselmash» və Minsk Avtomobil zavodu (MAZ) təmsil olunur. MAZ Şərqi Avropada sərnişin, xüsusi, kommunal və qoşqu avtomobillərinin is-*

*tehsalı üzrə aparıcı müəssisədir. Ən böyük kənd təsərrüfatı texnikası istehsalçılarından olan «Gomselmash»ın kombaynları bir sıra ölkələrə ixrac olunur.*

*Azərbaycanın sərgidə təmsil olunan «Agrosystems» şirkəti aqrobiznes nümayəndələri üçün innovativ həll yolları təqdim edir. Ölkəmizdə istehsal edilən «AGROMAX 10000-TUN» hidrosoyutma aparatı keyfiyyəti, yüksək soyutma gücü, münasib qiyməti və aşağı enerji sərfiyyatına görə dünya bazarında digər nümunələrdən fərqlənir. Soyutma gücü saatda 10 ton təşkil edən bu texnologiya sayəsində məhsulların ömrü 3 dəfə artır. Meyvə və tərəvəzlərin yığılması üçün nəzərdə tutulmuş hidravlik «AGROLAF-4000» platforması 3,5 metr hündürlüyə qədər qalxır. Bu platforma 8 nəfərin iş prosesində səmərəliliyini və rahatlığını təmin etməyə imkan verir. Zədələnmədən fındıq məhsulunu toplamaq üçün yaradılmış innovativ qurğu isə fındıq yığımı prosesini daha səmərəli və sürətlə həyata keçirmək imkanı yaradır.*

*Mayın 17-dək davam edəcək sərgilərin təqdimat zonasında Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı ilə Beynəlxalq Aqrar İnnovasiyalar Forumu təşkil olunacaq. Həmçinin bu il ilk dəfə olaraq, «Yaşıl dünya naminə həmrəylik ili» çərçivəsində Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə «GreenAgroHack» hakaton yarışması da keçiriləcəkdir.*

## BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKONUN ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ DÖVLƏT ZİYAFƏTİNDƏ İŞTİRAK

*Gülüstan sarayı*

*16 may 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından mayın 16-da Gülüstan sarayında Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun şərəfinə dövlət ziyafəti verilmişdir.*

*Hər iki dövlət başçısının iştirak etdiyi ziyafətdə Azərbaycan və Belarus musiqilərindən ibarət konsert proqramı təqdim olundu.*

## FÜZULİ RAYONUNA SƏFƏR

*17 may 2024-cü il*

*Azərbaycan Respublikasında dövlət səfərində olan Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mayın 17-də Füzuli rayonuna gəlmişdir.*

*Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qarşıladı.*

*«Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Samir Rzayev Belarus Prezidentinə Füzuli, Zəngilan və Laçın Beynəlxalq Hava limanları barədə məlumat verdi.*

*Bildirildi ki, «Qarabağın hava qapısı» adlandırılan Füzuli Beynəlxalq Hava Limanı 2021-ci il oktyabrın 26-da istifadəyə verilib. Ən müasir səviyyədə inşa olunmuş bu aeroport istənilən tip hava gəmisini qəbul etmək imkanına malikdir. Uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metrdir. Hava limanının müasir infrastrukturla təchiz olunmuş terminalı saatda ən azı 200 sərnişinə xidmət etməyə imkan verir. Zəngilan Beynəlxalq Hava Limanının açılışı 2022-ci il oktyabrın 20-də olub. Bu hava limanı bütün növ təyyarələri, o cümlədən geniş gövdəli ağır yük təyyarələrini qəbul edir. Təməli 2021-ci ildə qoyulmuş La-*

*çın Beynəlxalq Hava Limanının inşasının bu il tamamlanması planlaşdırılır. Hava limanının uçuş-enmə zolağının uzunluğu 3000 metr, eni isə 60 metr olacaq. Bu hava limanları bölgəyə səfərə gələnlərin rahatlığını təmin edəcək, işğaldan azad olunmuş ərazilərimizdə aparılan quruculuq işlərinin daha da sürətlənməsinə töhfə verməklə, ümumilikdə Qarabağın və Şərqi Zəngəzurun sosial-iqtisadi inkişafında müstəsna rol oynayacaq.*

### Füzuli şəhərinin baş planı ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mayın 17-də Füzuli şəhərinin dağıdılmış yerlərinə baxmış və şəhərin baş planı ilə tanış olmuşlar.*

*Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov Belarus Prezidenti Aleksandr Lukaşenkoya işğalçı Ermənistanın 30 il ərzində Füzuli rayonunun ərazisində törətdiyi dağıntılar, vandalizm aktları, həmçinin şəhərin baş planına uyğun olaraq həyata keçirilən və görüləcək işlər barədə məlumat verdi.*

**Emin Hüseynov:** Hörmətli cənab prezidentlər, sabahınız xeyir, xoş gəlmisiniz!

**İlham Əliyev:** Bu regiondakı xüsusi nümayəndədir.

**Aleksandr Lukaşenko:** Üç rayonda?

**İlham Əliyev:** Bəli, üç rayonda. Füzuli haqqında danışın.

**Emin Hüseynov:** Füzuli bir vaxtlar əhalinin sıx yaşadığı, çiçəklənən şəhər idi. Şəhər azad ediləndən sonra biz onun xarabalıqlarını gördük. Bu, şəhərin əsas yaşayış massivlərinin və ictimai binaların olduğu tarixi mərkəzidir. Tağın olduğu yerdə sovet dövründə məşhur «Araz» qəzetinin redaksiyası yerləşib. Yaxınlıqdakı üçbucaqlı bina Mədəniyyət evi olub. Sonra prokurorluğun binası gəlir.

**İlham Əliyev:** Sizin burada gördüklərinizin hamısı, bütün bu ərazidə olanlar, dediyim kimi, Livanın ərazisindən 1,5 dəfə çoxdur, təxminən 15 min $km^2$-dir. Hamısı xarabalığa çevrilib. Təkcə onların qanunsuz məskunlaşdığı iki-üç yerdə tikililər hələ də qalırdı. Amma bu zona – Füzuli və Ağdam tamamilə yerlə yeksan edilib.

**Aleksandr Lukaşenko:** Amma burada heç nə bərpa olunmayacaq?

**İlham Əliyev:** Yox, bir hissəsini xatirə kimi saxlayacağıq. Bu hissə hamının buraya gəlməsi və bu vəhşiliyi görməsi üçün konservasiyada qalır. Şəhərin özü isə bu hissədə salınır, birinci məhəllə tikilir. Orada isə böyük park olacaq.

**Emin Hüseynov:** Bunlar şəhərin aşkar etdiyimiz bəzi fotoşəkilləridir. Biz Füzuli şəhərini bu vəziyyətdə gördük, faktiki olaraq, o, yer üzündən silinmişdi. Bizim səkkiz belə şəhərimiz var.

**Aleksandr Lukaşenko:** İlham Heydər oğlu deyir ki, ən başlıcası bunlar döyüşlər zamanı deyil,

işğal dövründə baş verib. Sadəcə, məqsədyönlü şəkildə dağıdırdılar.

**Emin Hüseynov:** 30 il ərzində sistemli şəkildə hər şeyi – bizim milli, tarixi, mədəniyyət obyektlərimizi dağıdıb, talayıb və artıq məhv ediblər.

**İlham Əliyev:** Qəbiristanlığı yerlə yeksan ediblər. Qəbiristanlıqlarda kənd təsərrüfatı məhsulları əkib-becəriblər.

**Emin Hüseynov:** Bu, təkcə islam dininə, tarixinə və mədəniyyətinə aid obyektlər deyil. Orada pravoslav kilsələri də var.

**İlham Əliyev:** Pravoslav kilsəsini də dağıdıblar. Bunun fotoşəkilləri var.

**Aleksandr Lukaşenko:** Bu, su anbarıdır?

**İlham Əliyev:** Bəli, su anbarıdır, biz oradan keçdik.

**Emin Hüseynov:** Bu Sizin təyyarənizin endiyi aeroportdur. Buradan şəhərin mənzərəsi görünür.

**İlham Əliyev:** Bu isə şəhərdir.

**Aleksandr Lukaşenko:** Bu, şəhər olacaq?

**Emin Hüseynov:** Bu, birinci məhəllədir. İkinci məhəllə iki hissədən ibarətdir. Üçüncü məhəllədə isə artıq tikilmiş 1 saylı məktəb vardır.

**Aleksandr Lukaşenko:** Aşağıda çay axır.

**Emin Hüseynov:** Bu çay Çaykənd adlanır.

**İlham Əliyev:** Orada çay, su anbarı var. Həmin çay birbaşa parkın ərazisindən keçəcək.

**Emin Hüseynov:** Bu hissə şəhər parkıdır, şəhərin mərkəzi parkı, bu isə cənab Prezidentin dediyi kimi, Memorial parkıdır. Şəhərdə yeganə yer-

dir ki, biz gələcək nəsillərə çatdırmaq üçün bu xarabalıqları qoruyacaq, konservasiya edəcəyik.

**Aleksandr Lukaşenko:** Daha sonra yenə şəhər olacaq?

**Emin Hüseynov:** Yaşayış massivləri, binalar olacaq. Sonra ikimərtəbəli, üçmərtəbəli bloklu binalar və özəl tikililər gəlir. Bura isə bizim inzibati mərkəzimizdir.

**İlham Əliyev:** Necə görünəcəyini slaydlarda göstər.

**Emin Hüseynov:** Bax, bu, qarşımızdakı, gözlərimizin önündəki tikilmiş 1-ci məhəllədir. Burada artıq 822 ailə məskunlaşıb. Onlar çox razıdırlar, xoşbəxtdirlər və artıq çalışırlar.

**Aleksandr Lukaşenko:** İşləyirlər?

**Emin Hüseynov:** Bəli, onların hamısı işlə təmin edilib, əsasən tikintidə, amma dövlət və özəl müəssisələrdə də işləyənlər var.

**İlham Əliyev:** Məktəbdə, Yaradıcılıq Mərkəzində, polisdə, tibb sahəsində, yəni dövlət müəssisələrində və sahibkarlıq üzrə.

**Emin Hüseynov:** Artıq 300 müraciət var, onlardan 100-nü seçmişik.

**İlham Əliyev:** İctimai, ticarət, xidmət obyektləri.

**Emin Hüseynov:** Bu belə görünür. Yaxınlıqda isə artıq 2-ci kompleksdir. Onun tikintisinə ilin sonunda başlayacağıq, layihələndirmə işləri aparılır. Kompleks iki hissədən ibarətdir, ümumilikdə 653 mənzil olacaqdır. Burada 2288 nəfər yaşayacaq.

**İlham Əliyev:** İndi nə qədərdir?

**Emin Hüseynov:** İndi 3127. Onun yaxınlığındakı 3-cü məhəllədir. Burada 863 mənzil olacaq. Sentyabra qədər 3000-dən çox sakin köçürüləcək.

**Aleksandr Lukaşenko:** Sonra yekunda 10 min nəfərə yaxın olacaq.

**Emin Hüseynov:** Füzuli şəhərində təxminən 10 min nəfər. Ümumilikdə Füzuli rayonunda isə təqribən 25 min sakin məskunlaşacaq.

**İlham Əliyev:** Biz hazırda kəndləri də bərpa edirik. Bu rayonda yalnız 10 kənd var.

**Aleksandr Lukaşenko:** Bu, Füzuli şəhəridir, bəs başqa şəhərlər?

**İlham Əliyev:** Digər şəhərlər – Laçın tam məskunlaşdırılıb, orada proses gedir, artıq 450 ailə köçüb. Ağdam indi tikilir. Növbəti ildə təhvil verəcəyik.

**Emin Hüseynov:** Bu ilin sonunadək 3 kəndi təhvil verəcəyik.

**İlham Əliyev:** Bu yaxınlarda ilk dəfə keçmiş köçkünlər, qaçqınlar Şuşada məskunlaşıblar. Başqa yerlərin hamısında tikinti işləri gedir – Cəbrayılda, Kəlbəcərdə. Yəni bu il 20 minə yaxın insanı yerləşdirəcəyik.

**Aleksandr Lukaşenko:** 5 rayon var idi və 2-si qismən işğal edilmişdi?

**İlham Əliyev:** Bəli, üstəlik keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti də.

**Aleksandr Lukaşenko:** Deməli, bu 5 rayonda rayon mərkəzləri var idi.

**İlham Əliyev:** Bax, Füzuli rayonunun mərkəzi onlardan biridir.

**Aleksandr Lukaşenko:** 5 rayonun hamısında tikinti işləri gedir?

**İlham Əliyev:** 7-sində.

**Aleksandr Lukaşenko:** 7-sinin hamısında, üstəlik keçmiş vilayətin daxilində...

**İlham Əliyev:** Keçmiş Dağlıq Qarabağda. Orada azərbaycanlılar da yaşayırdılar. Məsələn, ermənilərin soyqırımı törətdikləri Xocalı şəhəri. Orada kəndləri bərpa edirik. Yəni ilin sonunadək 20 min nəfərə yaxın, 2026-cı ilin sonuna qədər isə 140 min nəfərə yaxın sakini yerləşdirməyi planlaşdırırıq. Bu bizim minimum planımızdır. Amma daha çox ola bilər. 1993-cü ilə qədər bizdə 8 milyon insana 1 milyon qaçqın və köçkün düşürdü.

**Emin Hüseynov:** Ən böyük əmsaldır...

**İlham Əliyev:** Adambaşına düşən ən böyük əmsaldır. Onlar çadırlarda, vaqonlarda, uşaq bağçalarında, yataqxanalarda yaşayırdılar. Biz 2007-ci ildə çadır şəhərciklərini ləğv etdik, lakin hələ də yataqxanalarda yaşayan insanlar vardır. Buna görə də onları oradan buraya köçürürük. Hər şey pulsuzdur. Onlar burada yaşayırlar.

*Bildirildi ki, baş planda 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Müasir standartlara və memarlıq xüsusiyyətlərinə uyğun inşa ediləcək Füzuli işğaldan azad edilmiş ərazilərdə ən böyük şəhərlərdən biri olacaq. Füzuli şəhərinin dayanıqlı inkişafına, sakinlərin və sahibkarların rifahına töhfə verəcək rəqəmsal həllərdən istifadə etməklə, ənənəvi şəbəkə və xidmətlərin daha səmərəli olmasının*

*təmin edilməsi məqsədilə hazırlanmış «ağıllı şəhər» konsepsiyası irəli sürülüb. Şəhərdə rahat və müasir həyat şəraitinin təmin edilməsi üçün orta və azmərtəbəli yaşayış binaları, həyətyanı torpaq sahələri olan fərdi evlər inşa ediləcək, təhsil, səhiyyə, mədəniyyət, istehsalat müəssisələri, rekreasiya və digər təyinatlı zonalar yaradılacaq. Burada şəhərsalmanın bütün müasir tələblərinə cavab verəcək 3 yaşayış kompleksi inşa olunur. Komplekslərdə ümumilikdə 2462 mənzil olacaq. Baş plana əsasən, təxminən 22,5 hektar ərazidə Mərkəzi park yaradılacaq. Parkda istirahət zonaları, Botanika bağı, sıx meşə zonası, piknik və idman meydançaları, «Poeziya» meydanı, amfiteatr, kafe-restoranlar və s. fəaliyyət göstərəcək. Tikiləcək Füzuli Memorial Kompleksində dağıdılmış binaların xarabalıqları olduğu kimi qorunub saxlanılacaq. Kompleksdə İşğal və Zəfər muzeyləri yaradılacaq. Füzulidə müayinə və müalicənin yüksək səviyyədə aparılması üçün ən müasir tibbi avadanlıqlarla təchiz ediləcək 180 çarpayılıq Füzuli Rayon Mərkəzi Xəstəxanası inşa olunacaq.*

*Həmçinin bildirildi ki, 2021-ci ilin oktyabrında təməli qoyulmuş və inşası sürətlə davam edən Ağdam–Füzuli avtomobil yolu Qarabağ iqtisadi rayonu ərazisində icra olunan, işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq layihələrdən biri sayılır. Bərdə–Ağdam avtomobil magistralının davamı olan bu yolun uzunluğu 64,8 kilometrdir.*

## ŞUŞA ŞƏHƏRİNƏ SƏFƏR

*17 may 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mayın 17-də Şuşa şəhərinə səfər etmişlər.*

*Dövlət başçıları həmin gün Şuşada Azərbaycan ilə Belarusun birgə istehsalı olan avtobusa və Belarus Prezidentinin hədiyyə etdiyi traktorlara baxdılar.*

### Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin gülləbaran edilmiş heykəllərinə baxış

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mayın 17-də Şuşada Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin işğal dövründə ermənilər tərəfindən gülləbaran edilmiş heykəllərinə baxmışlar.*

*Bildirildi ki, işğal zamanı ermənilər həmin heykəlləri Ermənistana apararaq əritmək istəyiblər. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra həmin heykəllər*

*Prezident İlham Əliyevin göstərişi ilə əvvəlki yerlərinə qaytarılıb.*

**Aydın Kərimov:** Qıraqdakı iki heykəldən birincisi Azərbaycan klassik musiqisinin banisi, müsəlman Şərqində ilk operanın müəllifi Üzeyir Hacıbəylinindir. Sonuncu heykəl Polad Bülbüloğlunun atası, məşhur xanəndə Bülbülün heykəlidir. Ortadakı isə xan qızı Natəvanındır. O, Qarabağ xanının sonuncu varisidir. Baxın, bu heykəllər 1992-ci ilədək burada – Mədəniyyət evinin qarşısındakı bağın yaxınlığında yerləşirdi.

**İlham Əliyev:** Mədəniyyət evi dağıdılıb.

**Aydın Kərimov:** Mədəniyyət evi yerlə yeksan edilib, heykəllər isə vandalizmə məruz qalıb. Siz onların üzərində güllə yerlərini görə bilərsiniz. Onları güllələbaran ediblər.

**Aleksandr Lukaşenko:** Qoy elə belə də qalsın.

**İlham Əliyev:** Bəli, məhz belə də qalır.

**Aleksandr Lukaşenko:** Qoy hamı görsün.

**İlham Əliyev:** Bax, görürsünüz, mən bunları 2021-ci ilin yanvarında buraya gələndə gətirtmişəm. Onları əridilməyə göndərmişdilər. Polad Bülbüloğlu heykəllərin əridilmək üçün ermənilər tərəfindən Gürcüstana göndərildiyini öyrəndikdə atama müraciət edib. Biz onları satın alaraq, ölkəyə gətirtdik, şəhərin mərkəzindəki İncəsənət Muzeyinin həyətində yerləşdirdik, onlar, demək olar ki, 30 il orada qaldı.

**Aleksandr Lukaşenko:** «5-45» avtomatıdır.

**Aydın Kərimov:** Daha sonra isə Polad Bülbüloğlu cənab Prezidentə müraciət etdi ki, onlar

orada daha nə qədər qalacaqlar, gəlin onları Bakı şəhərindəki gözəl parklardan birinə qoyaq. Prezident bildirdi ki, qəti surətdə olmaz, biz onları Şuşadakı öz yerlərinə qaytaracağıq.

**Aleksandr Lukaşenko:** Düzdür.

**Aydın Kərimov:** Bu, 11-12 il bundan əvvəl olmuşdu.

**İlham Əliyev:** Şuşaya ilk dəfə gələndə mən onları buraya gətirtdim və olduqları yerə qoydurdum. O (*Üzeyir Hacıbəyli – red.*) bizim himnimizin müəllifidir. Baxın, indi səslənən həmin himn budur. Ən maraqlısı odur ki, bu, 1918-ci il Azərbaycan Demokratik Respublikasının himnidir, bu dahi bəstəkar həm də sovet Azərbaycanının himninin müəllifidir. O çox istedadlı bəstəkar, bənzəri olmayan insan olub. Üzeyir Hacıbəyli iki himn bəstələyib, həm Azərbaycan Demokratik Respublikası üçün, həm də Azərbaycan Sovet Sosialist Respublikası üçün. O, əslən Şuşa şəhərindəndir.

**Aydın Kərimov:** Onların hamısı Şuşa şəhərindəndir. Şuşa bir çoxlarının, onlarla məşhur insanın vətənidir.

**İlham Əliyev:** Bu, Qarabağın qurucusunun nəticəsi şairə Natəvandır. Onun həm də barmağını sındırmışdılar. Arxadakı bina isə onun sarayıdır, vaxtilə yaşadığı kompleksdir. O dağıdılıb. Bu isə bizim məşhur müğənnimiz Bülbüldür, ona bülbül quşunun adı verilib.

Bu onun təxəllüsüdür. Onun da heykəli vandalizmə məruz qalıb. O da Şuşada doğulub və böyüyüb.

**Aleksandr Lukaşenko:** Bunlar danışan heykəllərdir. Maraqlı şəhərdir.

**İlham Əliyev:** Bəli, qaya üzərində yerləşir.

**Aydın Kərimov:** Dəniz səviyyəsindən 1400–1600 metr hündürlükdədir. Aşağıda qala divarının və Natəvanın sarayının qalıqları görünür.

## Bülbülün ev-muzeyi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mayın 17-də Şuşada Azərbaycan peşəkar vokal sənətinin banisi, SSRİ Xalq artisti, ictimai xadim, professor Bülbülün ev-muzeyində olmuşlar.*

*Muzey barədə məlumat verən Polad Bülbüloğlu bildirdi ki, ümummilli lider Heydər Əliyevin göstərişi əsasında keçmiş Şuşa Şəhər Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsi 1982-ci il 31 avqust tarixli Qərarı ilə Bülbülün doğulduğu və yaşadığı evin muzeyə çevrilməsi barədə qərar qəbul etmişdir. Bina ötən əsrin 82–83-cü illərində təmir olunub, muzey ekspozisiyası qurulub və önündə inzibati bina inşa edilib. Ev-muzeyi 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq fəaliyyətini dayandırıb. Şuşa işğaldan azad olunduqdan sonra isə Bülbülün ev-muzeyində də bərpa işləri aparılıb və 2021-ci il avqustun 29-da muzeyin açılışı olubdur.*

**Polad Bülbüloğlu:** Aleksandr Qriqoryeviç, sovet dövründə Heydər Əliyevin göstərişinə əsasən burada Bülbülün muzeyi yaradılıb. Atam SSRİ Xalq artisti, ümumittifaq mükafatları laureatı olub.

**Aleksandr Lukaşenko:** Bilirəm, mənə artıq bu barədə deyilib.

**Polad Bülbüloğlu:** Təsəvvür edirsiniz, belə bir vandallıq törədilib və güllələr heykəlin çənə hissəsində qalıb.

**Aleksandr Lukaşenko:** İkonalara və heykəllərə atəş açanlar vəhşidirlər.

**Polad Bülbüloğlu:** Onlar bizim görkəmli şairəmiz Natəvanın, bəstəkarımız Üzeyir Hacıbəylinin heykəllərini sürüyə-sürüyə aparmışdılar, daha sonra Heydər Əliyev bununla bağlı lazımi tədbirlər gördü, onları geri qaytarmağa nail oldu. Sonra İlham Heydər oğlu onları gətirib öz yerinə qoydurdu. Xudmani evdir. Bu evdə mənim atam anadan olub. Evin divarlarının qalınlığına baxın. Divarlar qalın olduğuna görə, ev qışda isti, yayda sərin olur. Burada ötən illərin xatirələri toplanıb. İnsanlar, bax, belə yaşayıblar, etnoqrafik nöqteyi-nəzərdən də maraqlıdır.

**İlham Əliyev:** Fotoşəkillərdə həmin dövrün ruhu əks olunub.

**Polad Bülbüloğlu:** Baxın, bu qardaşımdır, onlar qohumlardır. Bu şəkildə isə atam 7-8 yaşındadır, onu artıq şənliklərə mahnı oxumağa dəvət edirdilər. Həmin məclislərdən sonra o, müğənnilik etməyə başlayıb. Daha sonra Gəncəyə dəvət olunub. Sonra isə Tbilisiyə. Beləliklə, o çox məşhur müğənni olub. Burada biz beş dildə yazılmış belə bir lövhə hazırlamışıq. Atama mərkəzi küçədə abidə ucaltmışıq.

**İlham Əliyev:** Onun adını daşıyan küçədə.

**Polad Bülbüloğlu:** Aleksandr Qriqoryeviç, qeyd etmək istərdim ki, 1926-cı ildə Bakıda artıq

rus dilində afişalar var idi. Bu bizim dahi bəstəkarımız Üzeyir Hacıbəylidir. Bu şəkildəki isə başqa bir məşhur Qarabağ xanəndəsi Cabbar Qaryağdıoğludur, o, 80 yaşına qədər zil səslə oxuyub. O, məşhur xalq mahnı və muğamların bilicisi olan bənzərsiz insan idi. Bu abidə İlham Heydər oğlunun sayəsində Bakıda onun xatirəsini yad etmək məqsədilə ucaldılıb. Baxın, burada elə soyadlar var ki, onların hamısını bütün dünya tanıyır, hətta onlar Bülbül haqqında xoş sözlərini ifadə ediblər. Budur, Şostakoviç, Rostropoviç və dünyada məşhur olan digər incəsənət xadimləri.

**İlham Əliyev:** Stanislavski.

**Polad Bülbüloğlu:** Bəli, Stanislavski. Onlar sovet dövrünün elitası idi. Bu, yeri gəlmişkən, atamın Böyük Teatrda 1959-cu ildəki sonuncu çıxışıdır. Moskvada Azərbaycan dekadası keçirilirdi. Bu isə xalq qəhrəmanımız Koroğlunun obrazıdır. O vaxt Heydər Əlirza oğlu da çıxışlarının birində qeyd etmişdi ki, biz Koroğlu deyəndə gözlərimizin önünə Bülbül gəlir, Bülbülün adı çəkiləndə isə mütləq gözlərimizin önündə böyük xalq qəhrəmanımızın obrazı canlanır.

Bu isə çox nadir əl yazısıdır, mən belə deyərdim, Heydər Əliyevin avtoqrafına tez-tez rast gəlmək mümkün olsa da, İlham Heydər oğlunun anası Zərifə Əziz qızı Əliyevanın imzası olduqca nadirdir. Çox gözəl əl yazısıdır. Onlar Bülbülün ev-muzeyində ayrı-ayrı vaxtlarda olsalar da, hər ikisi öz xatirə yazısını qeyd etməyi unutmayıblar və mən hər zaman İlham Heydər oğluna deyirəm ki, biz bu yazıları göz bəbəyimiz kimi qoruyuruq. O hər zaman mənə və Müs-

lümə (*Maqomayev – red.*) himayədarlıq edib. Eləcə də, yaradıcılıqla məşğul olmağa başlayan hər kəsə kömək edib. Özü fortepianoda çox gözəl ifa edirdi. Mən canlı şahidiyəm, Zərifə xanım ifa edirdi, Heydər Əlirza oğlu isə oxuyurdu.

**Şuşanın baş planı ilə tanışlıq**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkoya Şuşanın baş planı barədə məlumat verilmişdir.*

*Bildirildi ki, şəhərin baş planı hazırlanarkən onun tarixi simasının qorunub saxlanılması əsas götürülüb. Azərbaycanın mədəniyyət paytaxtında həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulub. Baş planda Şuşada orta, yüksək və qarışıq sıxlıqlı yaşayış binalarının inşası, şəhər mərkəzinin, yeni tikiləcək və qorunub saxlanılacaq tarixi binaların və abidələrin yerləri əksini tapıb. Hazırda baş plan əsasında Şuşada bərpa və yenidən qurulma işləri davam etdirilir.*

**Aydın Kərimov:** Bu, 20 illik perspektiv üçündür. Burada şəhər inşa edəcəyik, gördüyünüz kimi, onu çox yükləməyəcəyik.

**İlham Əliyev:** Yükləməyəcəyik ki, yer çox olsun, sərbəstlik olsun.

**Aleksandr Lukaşenko:** Tamamilə doğrudur.

**Aydın Kərimov:** Tarixi məhəllələr çoxdur. Əlbəttə, bütün bu işlərə başlamaq üçün cənab Prezidentin göstərişi ilə əvvəlcə Zəfər yolu, tunellər tikildi. Siz

bu gün həmin yoldan keçdiniz. Bu, böyük həcmdə işdir – 9 viaduk, 7 tunel. Bu bizim Füzulidən Şuşaya rahat getməyimiz üçündür. İlk işlər infrastrukturun bərpası üzrə aparılıb. Burada hər şey dağıdılmışdı. Hətta istilik şəbəkəsi çəkdik, indi də şəhərə qaz çəkilib. Bizdə yaşayış kompleksində mərkəzləşdirilmiş istilik sistemi vardır. Orada artıq istilik və isti su verilir. Su təchizatı üçün dağlarda sututarlar yaratmışıq ki, daimi suyumuz olsun, su çatışmazlığını hiss etməyək. Küçə-yol şəbəkəsi – 56 kilometr uzunluqda şəhərdaxili yol şəbəkəsi, 81 küçə və müxtəlif kateqoriyalar 10–12 metr enindən dar yollaradək. Təbii ki, şəhər mədəniyyət paytaxtıdır. Hazırda bizdə rəsmi olaraq 196 abidə vardır. Lakin təəssüf ki, gördüyünüz kimi, onların əksəriyyəti, demək olar, hamısı bu vəziyyətdədir. Cənab Prezidentin və hörmətli Mehriban xanımın səyləri sayəsində biz onlardan bəzilərinin bərpasına başlamışıq. Biz bu məhəllədə bir neçə binanın konsepsiyasını hazırlayırıq.

**Aleksandr Lukaşenko:** Pis olmazdı.

**İlham Əliyev:** Çünki onun möhkəmliyinə də, necə istifadə olunmasına da baxmaq lazımdır. Dağılmış evlərin bir hissəsi belə də qalacaq. Konservasiya olunaraq, burada nələrin baş verməsi barədə xatirə kimi saxlanılacaq.

**Aydın Kərimov:** Bu, bərpa olunmuş abidələrdən nümunələrdir – Mehmandarovların malikanəsi, Saatlı məscidi, Yuxarı məscid, Xalça evi, Vaqifin məqbərəsi.

**İlham Əliyev:** Şair Vaqifin məqbərəsi, onun köhnə şəkilləri yoxdur, yəqin ki, buradadır. O da

tamamilə dağıdılmışdı. İlk bərpa etdiyimiz abidələrdən biridir.

**Aydın Kərimov:** Bulaqlar bərpa olunur. Hər məhəllədə – burada 16 məhəllə olub – məscid, bulaq və hamam olub. Hamamlardan yalnız biri qalıb, bulaqların hamısı, demək olar ki, yararsız vəziyyətə salınıb. Əsas binaların yerləşəcəyi ümumi planlaşdırma belədir. Bəziləri artıq tikilib, bəziləri tikilir. Azad olunanda bu mərkəz belə görünüşdə idi. Beşmərtəbələr köhnə və əsasən dağılmış vəziyyətdədir. Yeni baş plana uyğun olaraq, belə görünəcək. Bu yay onu təhvil verəcəyik. Tarixi ərazidə kiçik evlər olacaq. Bax, orada gözəl terraslı, yaşıllıqların olduğu kompleks tikiləcək. Həm ofislərin, həm mağazaların olduğu biznes-rayonun, habelə digər ərazinin də salınması nəzərdə tutulub. Bu Sizinlə indicə olduğumuz həmin yaşayış kompleksidir. O belə planlaşdırmaya malikdir. Bu isə şəhər məktəbimizdir. Artıq tikilib və sentyabrda öz şagirdlərini qəbul etməyə hazırdır, 300-ə yaxın şagird burada təhsil alacaq.

**İlham Əliyev:** Təxminən 1000 nəfərlik olacaq.

**Aydın Kərimov:** Şəhər xəstəxanamız 90 çarpayılıqdır. Payıza qədər onun tikintisi başa çatacaq. O, şəhərin yuxarı hissəsində yerləşir. Bu, «Realnı» məktəbinin binasıdır, musiqi və incəsənət kolleci kimi fəaliyyət göstərəcək. Hazırda sahəsinə görə Şuşada ən böyük abidədir. Bu isə poçt binası və dövlət xidmətləri mərkəzidir.

**İlham Əliyev:** O, əvvəl belə idi.

**Aydın Kərimov:** Sovet modernizmi. Yəni olduğu kimi.

**İlham Əliyev:** Biz onu olduğu kimi, həmin üslubda bərpa edirik.

**Aleksandr Lukaşenko:** Bəli, bu gözəldir.

**Aydın Kərimov:** «Qarabağ», «Şuşa» mehmanxanaları. Bu, «Yasəmən» mehmanxanasıdır. Belə butikli tarixi hotel. Şuşanın yaxınlığında Daşaltı kəndi var.

**İlham Əliyev:** Bax, bu Şuşadır. Yuxarı qayanı görürsünüz, bax, o həmin qayanın üstündədir. Üç tərəfdən dik qayalardır.

**Aydın Kərimov:** Burada isə ətəkdə kənddir. Həmin kənd hazırda özəl sektor tərəfindən turizm obyekti kimi tikilir.

**İlham Əliyev:** Orada mehmanxana da olacaq.

**Aydın Kərimov:** Bu yaxınlarda cənab Prezident bizim rayonda Şuşa ilə Laçın arasında tikiləcək ilk qəsəbənin təməlini qoydu, buradan 18 kilometr məsafədədir. Turşsu qəsəbəsi. Çox gözəl mənzərəli yerdir, 323 ev, yəni ailə. İlk 50 ailə artıq bu ilin noyabr ayında köçəcək.

* * *

*Prezidentlər daha sonra Heydər Əliyev Fondu tərəfindən bərpa edilmiş Yaradıcılıq Mərkəzində «Heydər Əliyev və Qarabağ» sərgisinə baxdılar.*

*Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov dövlət başçılarına mərkəz və sərgi barədə məlumat verdi.*

*Bildirildi ki, Yaradıcılıq Mərkəzi Heydər Əliyev Fondu tərəfindən aparılmış bərpa işlərindən sonra*

*ötən il mayın 10-da istifadəyə verilib. Bina ölkə əhəmiyyətli memarlıq abidələri siyahısındadır. «Heydər Əliyev və Qarabağ» sərgisində ulu öndərin Qarabağda sosial, iqtisadi, siyasi və mədəni inkişaf sahələrindəki xidmətlərini əks etdirən nadir fotoşəkillər, sənədlər və videomateriallar nümayiş olunur. Həmçinin sərgidə ümummilli liderin vaxtilə Qarabağa səfərlərinə, burada keçirdiyi görüşlərə, müxtəlif tədbirlərə aid fotolar yer alıb.*

*Məlumat verildi ki, 1969-cu ildən etibarən Qarabağın və Şərqi Zəngəzurun tarixində böyük dönüş dövrü başlanıb. Doğma xalqının böyük təəssübkeşi olan Heydər Əliyev mürəkkəb tarixi şəraitdə bölgə həyatının bütün sahələrində geniş islahatlar aparmağa nail olub. 1979-cu il yanvarın 12-də ümummilli liderin iştirakı ilə Ağdam–Xankəndi dəmir yolu açılıb. Bu, ulu öndər Heydər Əliyevin Qarabağın Azərbaycanın digər rayonları ilə təsərrüfat və iqtisadi cəhətdən daha çox birləşdirilməsi baxımından strateji addımı və böyük tarixi xidməti idi. Ulu öndər Şuşanın inkişafına da xüsusi əhəmiyyət verir və bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirirdi.*

## ŞUŞADA SALINMIŞ 1-ci YAŞAYIŞ KOMPLEKSİNƏ BAXIŞ

*17 may 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mayın 17-də Şuşa şəhərində salınmış 1-ci yaşayış kompleksinə gəlmişlər.*

*Buraya avtobusla gələn dövlət başçılarına Şuşa rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov kompleks barədə məlumat verdi.*

**Aydın Kərimov:** Hörmətli cənab Prezident qarşı tərəfdə bu yaxınlarda 3-cü kompleksin təməlini qoyub. 2026-cı ilin sonunadək Böyük Qayıdış Proqramı üzrə şəhərdə 111 çoxmərtəbəli ev tikiləcək. Onlar dördmərtəbəli, beşmərtəbəli, altımərtəbəli evlər olacaq. Biz artıq onlardan 23-nü tikmişik. Bura isə Bayraq meydanımızdır. Bu bayrağı cənab Prezident ucaldıb. Burada Zəfər Muzeyi, həmçinin digər yaşayış kompleksi tikiləcək.

**İlham Əliyev:** Biz 1-ci yaşayış kompleksinə yaxınlaşırıq.

**Aydın Kərimov:** Bu, XIX əsrə aid memarlıq abidəsidir, gimnaziya olub.

**İlham Əliyev:** Bunlar yeni evlərdir, Şuşa şəhərinin ənənəvi memarlıq üslubunda tikilib.

**Aydın Kərimov:** Üzləmədə yerli daşdan istifadə olunur.

**İlham Əliyev:** Qədim Şuşa evləri əsasən bu daşlarla tikilib.

**Aydın Kərimov:** Buraya artıq 244 nəfər – 58 ailə köçüb.

*Ali qonaq kompleksdə və mənzillərdə yaradılmış şəraitlə tanış oldu.*

*Bildirildi ki, 23 binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 8 hektara yaxındır. Kompleksin təməli 2021-ci il avqustun 29-da qoyulub. Yaşayış kompleksi 28-i birotaqlı, 195-i ikiotaqlı, 190-ı üçotaqlı, 30-u dördotaqlı və 7-si beşotaqlı olan 450 mənzildən ibarətdir. Mayın 10-da Prezident İlham Əliyev və xanımı Mehriban Əliyevanın iştirakı ilə 1-ci yaşayış kompleksinin açılışı olub. Artıq yaşayış kompleksinə köç qrafikinə əsasən, 58 ailə olmaqla 224 nəfər köçürülüb.*

* * *

*Avtobusla şəhəri gəzən Belarus Prezidentinə Şuşada görülən işlər barədə məlumat verildi.*

**İlham Əliyev:** Burada, Şuşada xüsusi memarlıq üslubu mövcuddur. Vəhşilər hər şeyi dağıdıblar. Soldakı «Qarabağ» mehmanxanasıdır. Mənim atamın vaxtında tikilib. Biz buraya qayıdanda o, artıq yarıdağılmış vəziyyətdə idi, vur-tut iki mərtəbəsi fəaliyyət göstərirdi. Biz onu əsaslı şəkildə təmir etdik. Saatlı məscidi də dağıdılmışdı, bax, soldadır. Biz onu da bərpa etdik.

**Aydın Kərimov:** Keçmiş baş poçtun binasıdır, indi bura dövlət xidmətləri mərkəzi olacaq. Bu park isə şuşalıların sevimli istirahət yeri olub.

**İlham Əliyev:** Meriyanın binası, Şuşanı azad edən vaxt bizim bayrağımız burada ucaldılıb. İndi biz oranı da əsaslı şəkildə bərpa etmişik.

* * *

*Sonra Azərbaycan və Belarus prezidentləri Cıdır düzünə çıxdılar. Prezident Aleksandr Lukaşenkoya məlumat verildi ki, Cıdır düzü Şuşanın rəmzlərindən biri, tarixən cıdır yarışlarının və Qarabağ xanlığı dövründən yerli türk əhalinin Novruz bayramını və digər el şənliklərini keçirdiyi ərazidir.*

*Daha sonra dövlət başçıları Şuşa qala divarlarına baxdılar.*

*Belarus Prezidentinə Şuşa şəhərinin tarixi, qala divarlarının tikilməsi barədə məlumat verildi. Bildirildi ki, Qarabağ xanı Pənahəli xan tərəfindən inşa edilmiş qala uzun müddət şəhəri xarici müdaxilələrdən qoruyub, alınmazlıq rəmzi olub. İşğal dövründə qala divarları erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra qalada təmir-bərpa işləri aparılıb.*

### Şuşada birgə nahar

*Azərbaycan Prezidenti İlham Əliyev və Belarus Prezidenti Aleksandr Lukaşenko Şuşada birgə nahar etdilər.*

* * *

*Ali qonaqların Qarabağa səfərləri artıq ənənə halını alıb. Bu, qonaqlara işğalçının törətdiyi vandalizm aktlarını, Azərbaycan dövlətinin quruculuq siyasətini və sülh gündəliyini nümayiş etdirmək imkanı verir.*

*Mədəniyyət paytaxtı Şuşa ilə tanışlıq Belarus Prezidentində dərin təəssürat doğurdu.*

## QAZAXISTAN PREZİDENTİ KASIM-JOMART TOKAYEV İLƏ TELEFONLA GÖRÜŞ

*17 may 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə telefonla zəng etmişdir.*

*Prezident İlham Əliyev Kasım-Jomart Tokayevi ad günü münasibətilə təbrik etdi, ona cansağlığı və dövlətçilik fəaliyyətində uğurlar arzuladı.*

*Kasım-Jomart Tokayev göstərilən diqqətə və təbrikə görə təşəkkürünü bildirdi.*

*Telefon söhbəti zamanı yüksək səviyyəli qarşılıqlı səfərlərin əməkdaşlığımızın daha da möhkəmlənməsi işinə xidmət etdiyi vurğulandı, bu baxımdan bir müddət əvvəl Qazaxıstan Prezidentinin ölkəmizə səfərinin önəminə toxunuldu.*

*Dövlət başçıları Azərbaycan ilə Qazaxıstan arasında dostluq münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini bildirdilər, əməkdaşlığın perspektivləri və gələcək təmaslar barədə fikir mübadiləsi apardılar.*

## CƏBRAYIL RAYONUNA SƏFƏR

*18 may 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Cəbrayıl rayonuna səfər etmişdir.*

*Dövlət başçısı əvvəlcə Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndinin təməlqoyma mərasimində iştirak etdi.*

*Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlət başçısına kəndin baş planı üzrə görüləcək işlərlə bağlı məlumat verdi.*

*Bildirildi ki, Böyük Mərcanlı kəndi Araz vadisində, Cəbrayıl şəhərindən 22 kilometr məsafədə yerləşir. Cəbrayıl rayonunun ən iri yaşayış məntəqələrindən biridir.*

*Baş plana əsasən, kəndin ümumi sahəsi 362 hektar təşkil edir. 2040-cı ilədək 6230 nəfər əhali üçün 1074 fərdi ev və bir neçə mərtəbəli yaşayış binaları layihələndirilib. Burada inzibati bina, klub-icma mərkəzi, çoxfunksiyalı bina, idman və ailə-sağlamlıq mərkəzləri, mərasim evi, bazar kompleksi və digər qeyri-yaşayış obyektlərinin tikintisi nəzərdə tutulur. Həmçinin Böyük Mərcanlı kəndində əhalinin tələbatına uyğun olaraq 2 məktəb və 5 uşaq bağçası inşa olunacaq.*

*2026-cı ilədək dövrü əhatə edən «Böyük Qayıdışa dair I Dövlət Proqramı»na müvafiq olaraq, birinci*

*mərhələdə layihələndirilən ərazinin sahəsi 41 hektardır. Bu mərhələdə Böyük Mərcanlıya 542 nəfərin köçürülməsi üçün 149 fərdi ev tikiləcək. İnşa ediləcək evlər iki, üç, dörd və beşotaqlı olacaq.*

*Prezident İlham Əliyev Böyük Mərcanlı kəndinin təməlini qoydu.*

## Karxulu kəndinin təməlqoyma mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Cəbrayıl rayonunun Karxulu kəndinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlət başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.*

*Bildirildi ki, Cəbrayıl rayonunun inzibati ərazisinə daxil olan Karxulu kəndi şimaldan Əhmədbəyli–Horadiz–Mincivan–Ağbənd avtomobil yolu, cənubdan və cənub-şərqdən Horadiz–Ağbənd dəmir yolu xətti ilə əhatə olunub.*

*2040-cı ilədək kəndin layihələndirilən ərazisi 313 hektar təşkil edir və bu müddət ərzində kənddə 4428 sakin üçün 940 fərdi ev və bir neçə mərtəbəli bloklu evlərin layihələndirilməsi, eləcə də tikintisi nəzərdə tutulur.*

*Kənddə inzibati bina, klub-icma, ailə və idman sağlamlıq mərkəzləri, ticarət və məişət xidməti binası, kiçik sahibkarlıq obyektləri inşa olunacaq. Bundan başqa, baş plana müvafiq olaraq, kənddə əhalinin tələbatına uyğun 2 tam orta məktəb və 4 uşaq bağçası tikiləcək.*

*2026-cı ilədək dövrü əhatə edən «Böyük Qayıdışa dair I Dövlət Proqramı»na müvafiq olaraq, birinci*

*mərhələdə layihələndirilən ərazinin sahəsi 125 hektardır. Bu mərhələdə 691 sakin üçün 145 fərdi evin layihələndirilməsi və tikintisi nəzərdə tutulub.*

*Dövlət başçısının tapşırıqlarına əsasən, bütün işlər ən yüksək səviyyədə yerinə yetiriləcək.*

*Prezident İlham Əliyev Karxulu kəndinin təməlini qoydu.*

**Sarıcallı kəndinin təməlqoyma mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Cəbrayıl rayonunun Sarıcallı kəndinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlət başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.*

*Bildirildi ki, Cəbrayıl rayonunun Sarıcallı kəndi şimaldan yeni salınan Əhmədbəyli–Horadiz–Mincivan–Ağbənd avtomobil yolu, şimal-şərqdən Şükürbəyli kəndi, cənubdan və cənub-şərqdən Horadiz–Ağbənd dəmir yolu xətti, cənub-qərbdən və qərbdən isə Soltanlı kəndi ilə əhatə olunub.*

*Qeyd olundu ki, baş planda kəndin ümumi sahəsi 330 hektar təşkil edir. 2040-cı ilədək 4740 nəfər əhali üçün 1185 fərdi evin və bir neçə mərtəbəli bloklu binaların layihələndirilməsi nəzərdə tutulur. Burada inzibati bina, klub-icma, ailə və idman sağlamlıq mərkəzləri, ticarət və məişət xidməti binası, yanğınsöndürmə deposu, aqrotexniki park, mərasim evi, kənd bazarı, kiçik sahibkarlıq obyektləri tikiləcək. Bundan başqa, əhalinin tələbatına uyğun 2 tam orta məktəb və 4 uşaq bağçasının layihələndirilməsi də nəzərdə tutu-*

*lur. Ümumiyyətlə, bu yaşayış məntəqəsində əhalinin məşğulluğunun təmin edilməsi də diqqət mərkəzində olacaq.*

*2026-cı ilədək dövrü əhatə edən «Böyük Qayıdışa dair I Dövlət Proqramı»na müvafiq olaraq, birinci mərhələdə layihələndirilən ərazinin sahəsi 104 hektardır. Bu mərhələdə kəndə 1016 sakinin köçürülməsi üçün 242 fərdi ev inşa olunacaq.*

*Prezident İlham Əliyev Sarıcallı kəndinin təməlini qoydu.*

## Maşanlı kəndinin təməlqoyma mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Cəbrayıl rayonunun Maşanlı kəndinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlət başçısına kəndin baş planı üzrə görüləcək işlər barədə məlumat verildi.*

*Bildirildi ki, 2040-cı ilədək kəndin layihələndirilən ərazisi 157,54 hektar olacaq. Həmin müddətdə kənddə 2360 sakin üçün 590 fərdi evin layihələndirilməsi, eləcə də tikintisi nəzərdə tutulub.*

*Vurğulandı ki, kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Bu kənddə də inzibati bina, klub-icma, idman sağlamlıq mərkəzləri, həkim məntəqəsi, mərasim evi, bazar kompleksi, ticarət, ictimai-iaşə, kiçik sahibkarlıq obyektlərinin layihələndirilməsi planlaşdırılır. Bundan başqa, baş plana əsasən, kənddə tam orta məktəb üçün bina və 2 uşaq bağçasının tikintisi nəzərdə tutulub.*

*«Böyük Qayıdışa dair I Dövlət Proqramı»na əsasən, burada məskunlaşacaq əhalinin yaşayış yükü nəzərə alınaraq, kəndin salınmasının birinci mərhələsi üçün 50 hektar yer ayrılıb. Bu mərhələdə 944 sakin üçün 236 fərdi ev tikiləcək.*

*Prezident İlham Əliyev Maşanlı kəndinin təməlini qoydu.*

## ZƏNGİLAN RAYONUNDA «AĞALI» HOTELİNİN AÇILIŞI MƏRASİMİ

*18 may 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 18-də Zəngilan rayonunun Ağalı kəndində «Ağalı» hotelinin açılışı mərasimində iştirak etmişlər.*

*Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev hoteldə yaradılmış şərait barədə dövlət başçısına və xanımına məlumat verdi.*

*Bildirildi ki, «Ağalı» hoteli Zəngilan şəhər mərkəzindən 20 kilometr məsafədə, Həkəri çayı vasitəsilə yaradılmış süni gölün sahilində yerləşir. Hotelin binası üç mərtəbədən ibarətdir. Birinci mərtəbədə qonaqları foye və rahat gözləmə zonası qarşılayır. Foyenin sağ və sol hissələrində restoranlar fəaliyyət göstərəcək. Birinci mərtəbənin sağ qanadında 60 nəfərlik tədbir otağı, həmçinin işgüzar görüşlər üçün 20 nəfərlik iclas zalı mövcuddur. Sol qanadda isə xüsusi qonaqların qarşılanması üçün tədbir zalı və 76 nəfərlik restoran vardır.*

*Hotelin ikinci və üçüncü mərtəbələri eyni tipli otaqlardan ibarətdir. Hər mərtəbədə 39 otaq vardır. Həmçinin hotelin hər mərtəbəsində fiziki məhdudiyyətli qonaqlar üçün xüsusi dizayn edilmiş otaqlar da*

*mövcuddur. «Ağalı» hotelinin zirzəmi hissəsində qonaqların sağlamlıq və istirahətini təmin etmək məqsədilə fitnes mərkəzi yaradılıbdır.*

*İşğaldan azad olunmuş ərazilərimiz tarixi-mədəni dəyərləri ilə yanaşı, füsunkar təbiətə, yeraltı və yerüstü sərvətlərə, geniş turizm imkanlarına malikdir. Bölgədə müalicəvi turizm, istirahət turizmi, ekoturizm və turizmin digər növlərinin inkişaf etdirilməsi üçün böyük imkanlar vardır. Bu ərazilərin turizm potensialının səmərəli istifadəsi, regionun rəqabətqabliyyətli turizm məkanına çevrilməsi üçün geniş tədbirlər həyata keçirilir. Bu baxımdan Füzuli və Zəngilanda tikilmiş, Laçında tikintisi davam edən beynəlxalq hava limanları azad edilmiş ərazilərimizin turizm potensialının reallaşmasında, turistlərin cəlb olunmasında mühüm rol oynayacaq.*

**Mincivan qəsəbəsinin təməlqoyma mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Zəngilan rayonunun Mincivan qəsəbəsinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlət başçısına qəsəbənin baş planı üzrə görüləcək işlərlə bağlı məlumat verildi.*

*Bildirildi ki, layihələndirilən ərazi rayon mərkəzindən 13,2 kilometr cənub-şərq istiqamətində, Araz çayının sahilində – respublika əhəmiyyətli Əhmədbəyli–Horadiz–Mincivan–Ağbənd yolu və Horadiz–Ağbənd dəmir yolu xətti üzərində yerləşir.*

*Qəsəbənin sahəsi 301,51 hektardır. 2040-cı illədək qəsəbədə 9088 nəfər üçün 630 fərdi ev və bir neçə*

*mərtəbəli yaşayış binalarının tikilməsi nəzərdə tutulub. Mincivan qəsəbəsində yaşayacaq əhalinin məşğulluğunun təmin olunması məqsədilə idarəetmə, mədəniyyət və əyləncə, iqtisadi inkişaf obyektləri, xidmət və kommersiya müəssisələri yaradılacaq. Belə ki, qəsəbədə inzibati bina, mədəniyyət mərkəzi, kitabxana və çoxfunksiyalı bina, restoran, idman-sağlamlıq, ailə-sağlamlıq mərkəzləri, hotel, Bayraq meydanı, ticarət, məişət və baytarlıq xidmətləri obyektləri, mebel mağazası, mərasim evi, yanğın deposu, bazar kompleksi, emalatxana və satış köşklərinin yaradılması nəzərdə tutulub. Mincivan qəsəbəsində tam orta məktəb, uşaq bağçası, poliklinika, avtovağzal binası, yanacaqdoldurma məntəqəsi, anbar və logistika binaları, ağac emalı və mebel sexləri, digər istehsalat müəssisələri də inşa olunacaq.*

*«Böyük Qayıdışa dair I Dövlət Proqramı»na müvafiq olaraq, birinci mərhələ üçün layihələndirilən ərazinin sahəsi 153,4 hektardır. Bu mərhələdə Mincivan qəsəbəsinə 3146 nəfərin köçürülməsi üçün 628 fərdi ev və 92 mənzildən ibarət bir neçə mərtəbəli 4 yaşayış binasının tikintisi nəzərdə tutulur.*

*Prezident İlham Əliyev Mincivan qəsəbəsinin təməlini qoydu.*

## «Zəngilan» və «Şayıflı» Su-Elektrik stansiyalarının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də «AzərEnerji» Açıq Səhmdar Cə-*

*miyyətinin «Zəngilan» və «Şayıflı» Su-Elektrik stansiyalarının açılışı mərasimində iştirak etmişdir.*

*«AzərEnerji» ASC-nin prezidenti Baba Rzayev dövlət başçısına görülmüş işlər barədə məlumat verdi.*

*İşğaldan azad edilmiş ərazilərdə «yaşıl enerji» zonasının yaradılması, rayonların karbonsuz zonaya çevrilməsi ilə bağlı Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, «AzərEnerji» ASC tərəfindən Oxçuçayın Zəngilan rayonunun ərazisindən keçən hissəsində hər birinin gücü 10,5 meqavat olmaqla, 4 yerdə ümumi gücü 42 meqavat olan «Zəngilan» Su-Elektrik stansiyaları silsiləsi layihələndirilərək qısa vaxt ərzində tikilib. İşğaldan azad edilmiş ərazilərdə ən böyük silsilə su-elektrik stansiyası olan Zəngilan silsiləsindən «Cahangirbəyli» SES 2023-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə istismara verilib. «Şayıflı» və «Zəngilan» SES-lər açılışa hazır vəziyyətə gətirilib, «Sarıqışlaq» SES-də isə işlər başa çatdırılıb.*

*Bildirildi ki, Araz çayının sol qolu olan Oxçuçay üzərində inşa edilmiş SES-ləri su ilə təmin etmək üçün dəniz səviyyəsindən 600 metr yüksəklikdə baş suqəbuledici qurğu tikilib. Ümumi uzunluğu 83 kilometr olan və 36 kilometrlik hissəsi Ermənistan ərazisindən keçən çaya mütəmadi olaraq Qacaran, Zəngəzur mis-molibden, Qafan dağ-mədən kombinatlarının ağır metal tərkibli mədən tullantıları axıdılır. Bu amillərə görə Oxçuçayın üzərində baş suqəbuledicinin yaradılması enerji istehsalından əlavə, ekoloji cəhətdən olduqca əhəmiyyətli hadisədir. Belə ki, baş suqəbuledicinin tikilməsi ermənilər tərəfindən sənaye üsulunda çirkləndirilən çay yatağının təmizlənməsinə,*

*flora və faunanın dirçəlməsinə yardım edəcək. Çünki suqəbuledicinin yaradılması çirkləndirici maddələrin çökməsinə şərait yaratmaqla yanaşı, aşağı axın zonasına təmiz suyun ötürülməsinə və çay ekosisteminin özünübərpasına zəmin yaradır. Eyni zamanda, daşqınların qarşısının alınması və su itkisinə yol verilməməsi üçün suqəbuledicinin yaradılması olduqca əhəmiyyətli hadisədir. Ona görə də burada dib sutullayıcı, suaşıran, lil ötürücü və balıq vətəgə qurğuları yaradılıb. Baş suqəbuledicidən çıxan suyun 35 faizi çay məcrasında saxlanılaraq, kaskad üsulla tikilmiş SES-lərə giriş-çıxış olmaqla, ümumilikdə 23,5 kilometr məsafədə qoşa derivasiya boruları çəkilib və borudan çıxan su təkrar çaya buraxılır.*

*Qeyd edildi ki, Oxçuçay üzərindəki SES-lərin tikilməsi ilə bağlı Dövlət Ekoloji Ekspertiza Agentliyi tərəfindən aidiyyəti dövlət qurumlarının əməkdaşlarının, elm adamlarının, media və QHT-lərin nümayəndələrinin iştirakı ilə açıq ictimai dinləmələr keçirilib və layihəyə yüksək qiymət verilibdir.*

*Diqqətə çatdırıldı ki, hər birinin gücü 10,5 meqavat olmaqla, ümumi gücü 21 meqavat olan «Zəngilan» və «Şayıflı» SES-lər üçün maşın zalları tikilib. Çətin iqlim və sərt relyefli ərazidə yerləşməsinə baxmayaraq, burada böyük həcmli torpaqlama, betonlama və digər işlər həyata keçirilərək sıfırdan yeni SES-lər tikilib. İstər derivasiya boruları çəkilərkən, istər maşın zalı tikilərkən, istərsə də digər quraşdırma işləri aparılarkən layihəyə uyğun olaraq, ekoloji normalara riayət edilib. Maşın zallarının hər birində 4 «yaşıl sertifikat»lı Avropa istehsalı olan iki ekoturbin və gene-*

*ratorlar quraşdırılıb. Bu turbinlər çayda su azaldıqda ekoloji normaların qorunması üçün avtomatik özünü dayandırmaq, suyun keyfiyyətinə təsir etmədən istiqamətləndirici aparat vasitəsilə yağ və digər zərərli maddələrin suya qarışmasının qarşısını almaq qabiliyyətinə malikdir.*

*«Yaşıl enerji» zonası konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edəcək «Zəngilan» və «Şayıflı» SES-lərdə rəqəmsal qaydada məlumatların axını mərkəzə ötürülməklə yanaşı, məsafədən idarəedilməsi təmin olunub. Bunun üçün mikro SCADA sistemi yığılıb, 25 kilometr məsafədə yüksəkgərginlikli yeni elektrik verilişi xətləri və 24 damarlı optik kabel xətti çəkilib. «Zəngilan» və «Şayıflı» SES-lərdə il ərzində hər birində 30 milyon kilovat-saat olmaqla, ümumilikdə 60 milyon kilovat-saat «yaşıl enerji» istehsal ediləcək və bununla da 14 milyon kubmetr qaza qənaət edilməklə yanaşı, atmosferə atılan karbon qazının həcmi 28 min ton azalacaqdır.*

*Dövlət başçısı «Zəngilan» və «Şayıflı» SES-lərin tikintisindən və yaradılmış şəraitdən bəhs edən videoçarxa baxdı.*

*Prezident İlham Əliyev stansiyaları işə saldı.*

*Məlumat verildi ki, bu günə qədər «AzərEnerji» ASC tərəfindən Zəngilan rayonunda 30 nəfər, əsasən yerli sakin daimi işlə təmin edilib. Ümumilikdə işğaldan azad edilmiş ərazilərdə indiyədək Prezident İlham Əliyevin məşğulluq və məskunlaşma siyasətinə uyğun olaraq, «AzərEnerji» tərəfindən 400-ə yaxın daimi iş yeri yaradılıb. Yaxın gələcəkdə 10-dan artıq kiçik su-elektrik stansiyalarının (KSES) istismara*

*verilməsi və əlavə KSES-lərin tikintisinə başlanılması ilə işçi sayı 550-ni keçəcək. İşçilərin 70 faizi məhz işğaldan azad edilmiş rayonların sakinləridir.*

*Qarabağ və Şərqi Zəngəzur regionlarında «AzərEnerji» ASC tərəfindən 2 yeni müəssisə – «Qarabağ Regional Elektrik Şəbəkəsi» MMC və «Yaşıl Enerji Elektrik Stansiyası» MMC yaradılıb. İşəgötürmə zamanı ilk növbədə «AzərEnerji» ASC-də hazırda işləyən keçmiş məcburi köçkünlər arasından seçim edilib. Eyni zamanda, regionlarda məskunlaşdırılmış sakinlərin işə cəlb edilmələri zamanı peşəsi olmayan kadrlar üçün təlimlər keçirilib, sertifikatlaşdırılma aparılıbdır.*

## Zəngilan məscidinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 18-də Zəngilan məscidinin açılışı mərasimində iştirak etmişlər.*

*Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov dövlət başçısına və xanımına görülmüş işlər barədə məlumat verdi.*

*Zəngilanda yeni məscidin təməli şəhər işğaldan azad edildikdən sonra – 2021-ci il aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qoyulub. Məscidin tikintisini Heydər Əliyev Fondu «PAŞA Holdinq» MMC-nin dəstəyi ilə həyata keçirib.*

*Ermənistan 30 illik işğal dövründə əzəli Azərbaycan torpaqlarında olan bütün dini abidələrimizə qarşı vəhşiliklər törədib. Ermənilər şəhər və rayonlarımızda yaşayış və inzibati binaları, bütün infrastrukturu*

*dağıdıb, təbii sərvətlərimizi talan edib, bu ərazilərdəki dini, tarixi, mədəniyyət abidələrimizi vandalizm aktlarına məruz qoyub. O cümlədən Zəngilan rayonundakı tarixi, dini, mədəniyyət abidələrimiz erməni təcavüzünün qurbanları sırasındadır. Burada da müqəddəs ocaqlarımız ermənilər tərəfindən dağıdılıb, təhqir edilib. İşğal dövründə Zəngilan şəhərindəki tarixi məsciddən tövlə kimi istifadə olunub. XIX əsrdə inşa edilmiş və memarlıq abidəsi kimi inventarlaşdırılmış məscid dağıdılıb, ilkin görkəmini 70 faizə qədər itirib.*

*İşğal altında olan ərazilərimiz azad edildikdən sonra Qarabağdakı tarixi, dini və mədəniyyət abidələrinin bərpası layihələri çərçivəsində Zəngilan məscidində bərpa-tikinti işlərinə başlanılmışdı. Yerli və xarici ekspertlərdən ibarət İşçi qrup məscidin mövcud binasında qiymətləndirmə aparmış və buna əsasən, binanın konservasiyasına qərar verilmişdi.*

*Konservasiya olunan tarixi məscidin yanında yeni məscid inşa edilib. Yeni məscid binası düzbucaqlı plan quruluşlu, iki minarəli, üç nefli layihələndirilib. Məscid binasında 220 və 100 nəfərlik ibadət zalları yaradılıb. Məscidin minarələri və günbəzi kaşı və kərpicdən yığılıb. İnteryerdə nəqqaşlıq işləri aparılıb, mehrab kaşıdan yığılmış nəbati naxışlarla işlənib. Minbər və şəbəkə elementləri təbii ağacdan hazırlanıb.*

*İşğal dövründə dağıdılmış tarixi Zəngilan şəhər məscidinin ərazisində isə açıq səma altında sərgi yaradılıb. Sərgi Qarabağ və Şərqi Zəngəzur ərazilərində mövcud olmuş bir sıra dini abidələrimizə qarşı törədilmiş vandalizmin ümumi mənzərəsini əks etdirir. Burada işğalın ən ağır fəsadlarından biri kimi, bəşəri*

*əhəmiyyətə malik mədəni irsimizin, o cümlədən islam dininə aid abidələrin qəsdən dağıdılması və məhv edilməsinə dair faktlar yer alıb. Bu ərazilərdə yüzlərlə müsəlman qəbiristanlığının məhv edildiyi, müsəlman dini ibadət yerlərinin, məscid və türbələrimizin təyinatının dəyişdirilərək saxtalaşdırıldığı, bir çox hallarda isə tövlə kimi istifadə olunaraq, orada dinimizdə haram sayılan heyvanların saxlanıldığı aşkar edilibdir.*

**Zəngilan şəhərinin daxili yol-kommunikasiya şəbəkəsinin təməlqoyma mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Zəngilan şəhərinin daxili yol-kommunikasiya şəbəkəsinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri Saleh Məmmədov dövlət başçısına görüləcək işlər barədə məlumat verdi.*

*Bildirildi ki, layihə üzrə şəhərdaxili yolların ümumi uzunluğu 31 kilometrdir. Layihənin birinci mərhələsində ümumilikdə 17,14 kilometr uzunluğunda yollar salınacaq. İki və dörd hərəkət zolaqlı bu yolların eni 18–34 metr olacaq. Yolboyu velosiped və piyada zolaqları yaradılacaq, yaşıllıqlar salınacaq.*

*Dövlət başçısına Horadiz–Zəngilan avtomobil yolunda görülmüş əsaslı təmir işləri barədə də məlumat verildi.*

*Horadiz–Zəngilan avtomobil yolu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan*

*və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biridir. Hacıqabul–Bəhrəmtəpə–Mincivan–Ermənistan ilə dövlət sərhədi avtomobil yolunun Horadiz–Zəngilan hissəsi ötən əsrin 80-ci illərində inşa edilib və otuzillik işğal dövründə tamamilə sıradan çıxarılaraq, yararsız vəziyyətə salınıbdır.*

*Uzunluğu 61 kilometr olan Horadiz–Zəngilan avtomobil yolunun əsaslı təmiri dövlət başçısının müvafiq sərəncamına əsasən, həyata keçirilib. Təmir-tikinti işləri Hacıqabul–Bəhrəmtəpə–Mincivan–Ermənistan ilə dövlət sərhədi avtomobil yolunun Horadiz–Zəngilan hissəsində aparılıb. 3-cü texniki dərəcəyə uyğun olaraq, əsaslı şəkildə yenidən qurulmuş yolun torpaq yatağının eni 12 metrdir. Yolboyu mövcud asfalt-beton örtüyü qazılaraq kənarlaşdırılıb, yol yatağının və yol əsasının tikintisi, müxtəlifölçülü suötürücü boruların inşası, körpülərin təmiri, həmçinin kommunikasiya xətlərinin köçürülməsi işləri görülüb. Tikinti işlərinin vaxtında yekunlaşdırılması üçün əraziyə lazımi sayda işçi qüvvəsi və texnika cəlb olunub.*

*Sonra Prezident İlham Əliyev Zəngilan şəhərinin daxili yol-kommunikasiya şəbəkəsinin təməlini qoydu.*

## İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ SEYİD İBRAHİM RƏİSİ İLƏ DÖVLƏT SƏRHƏDİNDƏ GÖRÜŞ

*Cəbrayıl*

*19 may 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi mayın 19-da Azərbaycan Respublikası ilə İran İslam Respublikasının dövlət sərhədində görüşmüşlər.*

**Seyid İbrahim Rəisi:** Salaməleyküm.

**İlham Əliyev:** Əleykümsalam.

**Seyid İbrahim Rəisi:** Sizi görməyimə məmnunam.

**İlham Əliyev:** Mən də çox şadam Sizi görməyimə.

**Seyid İbrahim Rəisi:** Bu çox gözəl yerdə bir-birimizi gördük.

**İlham Əliyev:** Tarixi bir görüşdür. Bu çox gözəl tədbirdir və inşallah, xeyirli olacaq.

**Seyid İbrahim Rəisi:** Cənab İlham Əliyev, burada çox böyük bir iş görülüb. İnsafən deməliyik ki, bu, bölgənin əhalisi üçün faydalı bir iş olacaq. Bu bəndin suyundan həm içmək üçün, həm də kənd

təsərrüfatı sahəsində istifadə ediləcək, o cümlədən 40 min insan üçün burada iş yerləri yaranacaq. Bu su bəndini inşa edən mühəndislər dünya səviyyəsində tanınmış mühəndislərdir. Çünki İran dünyada su bəndi tikmək sahəsində ilk dördlüyə daxil olan ölkələrdən biridir. Araz su bəndinin inşasından 50 il sonra bu bəndin tikilməsi ölkələrimiz arasında əlaqələri daha da inkişaf etdirəcək. Bu su bəndi bizim aramızda çox gözəl işlərdən biridir və arzumuz budur ki, gələcəkdə belə işlər çox olsun. Hər halda, bu gün çox mübarək bir gündür.

**İlham Əliyev:** Mən Sizinlə tamamilə razıyam. Bu bəndin Sizin tərəfinizdən inşası çox yüksək peşəkarlıqla həyata keçirilib. Arazın iki sahilini birləşdirən gözəl bir rəmzi layihədir. Qeyd etdiyiniz kimi, suvarma, içməli su təchizatı üçün, eyni zamanda, elektrik enerjisinin istehsalı məqsədilə gələcəkdə inşa ediləcək elektrik stansiyalarının fəaliyyətinin nəticəsində də çox böyük faydalar olacaq və bu, bölgələrə qayıdacaq insanlara böyük bir üstünlük verəcək. Mən İran tərəfdə gözəl binaları, yaşayış məntəqələrini görürəm, inşallah, yaxın gələcəkdə Arazın bu tayında da ona oxşar mənzərə olacaq.

**Seyid İbrahim Rəisi:** Mütləq. Biz Azərbaycanın uğurunu, nailiyyətini öz nailiyyətimiz bilirik. Bizim Azərbaycanla münasibətlərimiz, bağlılığımız təkcə qonşuluq bağlılığı deyil, aramızda qəlb bağlılığı, tarixi bağlılıq və kök bağlılığı vardır. Bu, iki ölkə, iki xalq arasında tarixi bir hadisənin əsası olacaq və tarixə həkk ediləcək.

**İlham Əliyev:** Biz ta qədimdən gələn ulu əcdadlarımızın arzularını indi həyata keçiririk. Əminəm ki, bundan sonra da iki qardaş xalq bir-biri ilə sıx təmasda yaşayacaq, quracaq, belə gözəl xariqələr yaradacaq.

**Seyid İbrahim Rəisi:** Cənab Prezident, mən buraya – bu bəndə gəlməmişdən qabaq Kəlalə–Ağbənd yoluna baxdım. İşlər çox gözəl şəkildə həyata keçirilir. Bizim, yəni Azərbaycan ilə İran arasındakı əməkdaşlığın nəticələri bu su bəndi və eyni zamanda, o körpü və yoldur.

**İlham Əliyev:** Ağbənd istiqamətində inşa edilən körpü həm növbəti nəqliyyat bağlantısıdır, eyni zamanda da növbəti dostluq rəmzidir. Biz faktiki olaraq, Şimal–Cənub nəqliyyat dəhlizinin bir istiqamətini də Ağbənd istiqamətindən salırıq. Mənə bu yaxınlarda video, fotosənədlər göstərildi, gördüm ki, həqiqətən, qısa müddət ərzində çox böyük işlər görülüb.

**Seyid İbrahim Rəisi:** Mən gedib körpünün inşa olunduğu əraziyə baxış keçirdim və orada gördüm ki, körpü ilə bağlı bir çox işlər görülüb, eyni zamanda, körpünün ərazisində torpaq sahələrinin ayrılması istiqamətində də böyük uğurlar əldə edilib. Hazırda 6 istiqamətdə işlər həyata keçirilir. Dostlarımız plan üzrə belə proqnozlaşdırırlar ki, bu layihəni 36 aya başa çatdırsınlar. Ancaq mən belə görürəm ki, işlər sürətlə davam edir, yəni bu, tez bir zamanda yekunlaşacaq.

**İlham Əliyev:** Mən qarşıya vəzifə qoymuşam ki, gələn ilin sonuna qədər bitməlidir və orada da

Sizinlə bərabər gözəl bir mərasim keçirərik. Ondan sonra dəmir yolu körpüsü də yəqin ki, razılaşdırılacaq.

**Seyid İbrahim Rəisi:** İnşallah. Yaddaqalan bir an oldu. İnşallah, hər iki dövlət və xalq üçün uğurlu bir il olacaq.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN VƏ İRAN İSLAM RESPUBLİKASI PREZİDENTİNİN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN İŞTİRAKI İLƏ DÖVLƏT SƏRHƏDİNDƏ GÖRÜŞ

*Cəbrayıl*

*19 may 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin nümayəndə heyətlərinin iştirakı ilə mayın 19-da Azərbaycan Respublikası ilə İran İslam Respublikasının dövlət sərhədində görüşü olmuşdur.*

**Seyid İbrahim Rəisi:** Allahın adı ilə. Cənab Prezident, çox xoşbəxtəm ki, Azərbaycan Respublikasının hörmətli Prezidenti cənab İlham Əliyev ilə yenə də bir daha yaxından görüşürük və birgə müzakirəmizi yenidən nəzərdən keçiririk. Böyük xoşbəxtlik ondan ibarətdir ki, bu görüş bir yerdə baş tutur, burada böyük bir layihə həyata keçirilib və bu, iki xalq üçün çox uğurlu bir görüşdür. Hazırda biz istismara verilməsi iki xalq və iki dövlət üçün çox əhəmiyyət kəsb edən bir layihənin açılışında iştirak edəcəyik. Bunun özü əlamətdar bir hadisədir

ki, iki xalq, iki dövlət arasında da çox mühüm böyük layihələr həyata keçirilə bilər. Ola bilsin ki, bəziləri bizim bu görüşlərimizi və birgə uğurlarımızı bəyənməsinlər. Bunlar bizim üçün əhəmiyyət kəsb etmir. Əsas odur ki, ölkələrimiz, dövlətlərimiz və xalqlarımız üçün nə xeyirlidirsə, biz onu birgə həyata keçirdik.

**İlham Əliyev:** Hörmətli cənab Prezident, mən hesab edirəm ki, bugünkü görüş və mərasim İran–Azərbaycan əlaqələrinin tarixində gözəl, parlaq səhifə kimi qalacaq. Çünki bu gün açılışını edəcəyimiz layihə həm texniki nöqteyi-nəzərdən çox önəmlidir, eyni zamanda da iki xalqı, iki dövləti daha da sıx birləşdirəcək. Xalqlarımızın birgə uğuru təbii ki, dostlarımızı sevindirir, bunu bəyənməyənlər isə hesab edirəm ki, öz işləri ilə məşğul olsalar, daha yaxşı olar. Əsas odur ki, İran və Azərbaycan dövlətləri bu gün çox güclü birgə siyasi iradə göstərirlər, öz xalqlarına və bütün dünyaya açıq bəyan edirlər ki, biz birlikdəyik və bundan sonra da birlikdə olacağıq. İran–Azərbaycan əlaqələri bölgəmizdə sabitliyin önəmli şərtidir. Təbii ki, belə gözəl layihə xalqlarımızın rifahını yaxşılaşdıracaq və iş yerlərini artıracaq, beləliklə, uğura doğru növbəti addım olacaq. Əminəm ki, gələcəkdə buna oxşar birgə layihələrin sayı çox olacaqdır.

## ARAZ ÇAYI ÜZƏRİNDƏ İNŞA EDİLMİŞ «XUDAFƏRİN» HİDROQOVŞAĞININ İSTİSMARA VERİLMƏSİ VƏ «QIZ QALASI» HİDROQOVŞAĞININ AÇILIŞI MƏRASİMİ

*Cəbrayıl*

*19 may 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin iştirakı ilə mayın 19-da Araz çayı üzərində inşa edilmiş «Xudafərin» hidroqovşağının istismara verilməsi və «Qız qalası» hidroqovşağının açılışı mərasimi keçirilmişdir.*

*Əvvəlcə dövlət başçıları «Xudafərin» və «Qız qalası» hidroqovşaqlarını işə saldılar.*

*Sonra hidroqovşaqlarla bağlı videoçarx nümayiş etdirildi.*

*Azərbaycan Respublikası ilə İran İslam Respublikası dövlət sərhədində – Araz çayı üzərində inşa edilmiş «Xudafərin» və «Qız qalası» hidroqovşaqları elektrik enerjisi istehsalı və suvarma məqsədilə tikilib. Hidroqovşaqların layihələri Sovet İttifaqı ilə İran arasında 1977-ci ilin oktyabrında imzalanmış razılaşma əsasında hazırlanıb. Layihələri ötən əsrin 90-cı illərinin əvvəllərində yenidən işlənilən hidroqovşaqların tikintisi Azərbaycan ərazisinin 20 faizi Ermənistan tə-*

*rəfindən işğal edilməsi nəticəsində dayandırılsa da, sonrakı dövrlərdə tikinti işləri yalnız İran İslam Respublikası tərəfindən aparılıb.*

*2020-ci ildə Vətən müharibəsi nəticəsində Azərbaycanın torpaqları, o cümlədən hidroqovşaqların tikildiyi ərazi işğaldan azad edilib. Araz çayı üzərində «Xudafərin» və «Qız qalası» hidroqovşaqlarının və su-elektrik stansiyalarının tikintisinin davam etdirilməsi, istismara verilməsi ilə əlaqədar sərəncama əsasən, 2021-ci ildə «AzərEnerji» ASC Azərbaycan Respublikası tərəfindən sifarişçi kimi müəyyən edilib.*

*Araz çayının su ehtiyatlarından səmərəli istifadə olunmaqla, elektrik enerjisinin istehsalı və əkin sahələrinin su təminatının yaxşılaşdırılmasına xidmət edəcək «Xudafərin» və «Qız qalası» hidroqovşaqlarında su bəndlərinin tikintisi üzrə işlər tamamlanıb, su anbarlarının doldurulması işlərinə başlanılıb. Hazırda «Xudafərin» su anbarında 503 milyon kubmetr, «Qız qalası» su anbarında isə 42 milyon kubmetr su yığılıb ki, bu da ümumi tutumun 40 və 85 faizini təşkil edir.*

* * *

**Pərviz Şahbazov** (*Azərbaycanın Energetika naziri*): Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev!

İran İslam Respublikasının Prezidenti zati-aliləri cənab Seyid İbrahim Rəisi!

Hörmətli mərasim iştirakçıları, xanımlar və cənablar!

Sizi ölkələrimiz arasında əməkdaşlığın inkişafında yeni bir mərhələnin başlanğıcı olan «Xudafərin»

hidroqovşağının istismara verilməsi və «Qız qalası» hidroqovşağının açılışı mərasimində böyük məmnuniyyətlə salamlayıram.

Dövlətlərimizin rəhbərlərinin uzaqgörən siyasətinin, dəqiq hesablanmış strateji yanaşmalarının nəticəsidir ki, bu gün biz Araz çayının su və enerji ehtiyatlarının birgə istifadəsini nəzərdə tutan hidroqovşaqların istismara verilməsinin şahidiyik. Yaxın gələcəkdə isə birgə səylərimizlə su-elektrik stansiyalarının açılışına da nail olacağıq.

Ölkələrimiz arasında mehriban qonşuluq, qardaşlıq və dostluq münasibətlərinin inkişafını təmin edən siyasətin töhfəsi olaraq uzun illərdir fəaliyyət göstərən Araz, Mil-Muğan su anbarları və Araz Su-Elektrik Stansiyasından sonra Araz çayı üzərində «Xudafərin» və «Qız qalası» hidroqovşaqları və su-elektrik stansiyaları layihəsinin həyata keçirilməsi göstərir ki, Azərbaycan və İran öz aralarındakı sərhədi davamlı şəkildə səmərəli əməkdaşlıq imkanlarına uğurla çevirən ölkələrdir.

Su tutumu 1,6 milyard kubmetr olan «Xudafərin» və 56,75 milyon kubmetr su tutumuna malik «Qız qalası» hidroqovşaqları, həmçinin hər tərəf üçün ümumi qoyuluş gücü 140 MVt olan «Xudafərin» və «Qız qalası» su-elektrik stansiyaları paritet əsasda ölkələrimizin maraqlarına xidmət etməklə Azərbaycan–İran təcrübəsində transsərhəd sulardan istifadənin örnəkləri olacaq.

Bu layihə təkcə Azərbaycana mövcud 252 min hektar torpaq sahəsi üzrə suvarmanın yaxşılaşdırılması və 12 min hektar yeni əkin sahələrinin suva-

rılması, illik 358 milyon kilovat-saat elektrik enerjisi istehsalı, 80 milyon kubmetr qaza qənaət imkanı yaradacaq.

«Xudafərin» və «Qız qalası» hidroqovşaqları və suelektrik stansiyaları layihəsi üzrə 2016-cı ildə imzalanmış müvafiq hökumətlərarası Sazişə əsasən yaradılmış birgə Texniki Komissiya layihələrin icrası prosesindən irəli gələn məsələlərin müzakirəsi, razılaşdırılması və həllinə töhfə verir.

Fürsətdən istifadə edərək, mən İran İslam Respublikasının Energetika naziri cənab Əli Əkbər Mehrabiana səmərəli və konstruktiv əməkdaşlığa görə təşəkkürümü bildirmək istərdim.

«Xudafərin» və «Qız qalası» Şərqi Zəngəzurun «yaşıl enerji» zonası kimi, inkişafının mühüm elementlərindən olmaqla bərabər, regional əməkdaşlıq əlaqələrinə də təkan verəcək.

Stansiyaların qoşulacağı «Cəbrayıl» enerji qovşağı ölkəmizin Şərqi Zəngəzur və Naxçıvan bölgələri arasında yeni enerji bağlantısına xidmət edəcək. Bu layihələr eyni zamanda, «yaşıl enerji» sahəsində ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün yeni perspektivlər vəd edir.

Göründüyü kimi, «Xudafərin» və «Qız qalası» ölkələrimiz üçün ekoloji, enerji, iqtisadi əhəmiyyət daşıyan infrastruktur layihələri olmaqla bərabər, bölgədə inkişafa, təhlükəsizliyə, dostluğa xidmət edən uzunmüddətli əməkdaşlıq körpüsüdür.

İnanırıq ki, biz irəlidə daha çox körpülər inşa edəcəyik.

Sonda bir daha birgə layihələrimizin ölkələrimiz üçün xeyirli olmasını diləyirəm.

Diqqətiniz üçün təşəkkür edirəm.

**Əli Əkbər Mehrabian** (*İranın Energetika naziri*): Allahın adı ilə.

İmam Rza əleyhissalamın doğum günündə qardaş Azərbaycan xalqını təbrik edirəm!

Dəyərli qonaqları salamlayıram!

Bu gün 1403-cü ilin ordubehişt ayının, mayın 19-udur. Biz bu gün İran İslam Respublikasının Prezidenti cənab İbrahim Rəisinin və eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ev sahibliyi ilə bu tədbirdə iştirak edirik.

Əminliklə bildirirəm ki, iki ölkə arasındakı əlaqələrdə bu gün tarixi bir andır. İran dünyada bəndlərin və eyni zamanda, hidroqovşaqların yaradılmasında çox önəmli ölkələrdən biri sayılır. İranda İslam İnqilabından sonra 200-ə yaxın bənd və hidroqovşaq tikilibdir və bunların hamısı bizim tarixi göstərir. Araz çayı 4 ölkə arasında yerləşir və bu regionda yaşayan xalqlar arasında hər zaman diqqəti çox cəlb edib, hər zaman önəm kəsb edib. Bu çay hər zaman iqtisadi, mədəni və tarixi cəhətdən önəm daşıyıb, eyni zamanda, iqtisadi infrastrukturların inkişafına da səbəb olub. Həmçinin sərhədyanı ərazilərdə yaşayan insanların həyatlarının iqtisadi cəhətdən yaxşılaşmasına töhfə verib. 50 il ərzində bu bəndin, eyni zamanda, Araz çayının suyundan istifadə etmək üçün hər zaman əməkdaşlıq olmuşdur. Bildiyiniz kimi, Araz çayının üstündə 12 kilometr uzunluğu olan və eyni zamanda, sellərin qar-

şısını alan bu bəndin imkanlarından geniş istifadə edilir. Həmçinin bu bəndin suyundan əkin sahələrinin suvarılmasında da istifadə olunacaq.

Təəssüflər olsun ki, iqlim dəyişikliyi və ətraf mühitin çirklənməsi baxımından çətinlik, quraqlıq yaranır. Ona görə də torpaqlardan, enerjidən istifadənin önəmi daha da artır. Təbii ki, bu səbəbdən biz ənənəvi əkinçilik üsullarından daha müasir və modern üsullara keçməliyik. Buradakı 2 elektrik stansiyada 540 meqavat enerji istehsal olunacaq. Bu, su diplomatiyası sahəsində bənzərsiz bir layihədir. Bu layihə əslində ona səbəb olacaq ki, Azərbaycan və İrandan əlavə, digər qonşu ölkələrlə də su sahəsində əməkdaşlığımızı genişləndirək. Təbii ki, Araz çayı boyunca yerləşən ölkələr sudan və bundan əldə olunan enerjidən istifadə sahəsində əməkdaşlığı daha da artırmalıdır. Bu sahədə də Şimal–Cənub, Şərq–Qərb arasında memorandumlar imzalanır.

Bu gün haqqında danışdığımız bu bənd və eyni zamanda, su-elektrik stansiyası bizim mühəndislərin zəhmətinin nəticəsidir. Çox istərdim ki, İran su şirkətinin və eyni zamanda, Azərbaycanın su sahəsində işləyən müvafiq şirkətlərinin işçilərinə təşəkkürümüzü bildirək. Onlar bu sahədə çox zəhmət çəkiblər. Eyni zamanda, bu layihənin sərmayədarlarına və podratçılarına da təşəkkür etmək istəyirik. Ümidvarıq ki, bu uğurlar ölkələrimizin yüksəlişinə xidmət edəcək.

* * *

*Sonra dövlət başçıları çıxış etdilər.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Əziz dostlar!

Bu gün çox əlamətdar bir gündür. «Qız qalası» hidroqovşağının açılışı və «Xudafərin» hidroqovşağının istismara verilməsi, hesab edirəm ki, tarixi hadisədir. İlk növbədə, bu nəhəng obyektin inşasında iştirak etmiş bütün İran mütəxəssislərinə, fəhlələrinə, dostlarımıza təşəkkürümü bildirmək istəyirəm. Burada qeyd olundu ki, İranın bu layihələri ərsəyə gətirmək üçün geniş imkanları, böyük təcrübəsi vardır. Bu gün biz əyani şəkildə gördük ki, bu layihə doğrudan da böyük bilik, səriştə və təcrübə tələb edirdi.

Bu gün keçirilən mərasim dostluğumuzun növbəti təzahürüdür. Bu gün İran–Azərbaycan dostluğunun nə qədər möhkəm olmasını bütün dünya görür. Bu dostluğun dərin kökləri, dərin tarixi vardır. Əsrlərboyu İran və Azərbaycan xalqları bir yerdə yaşayıb yaratmışlar və bu gün bu möhkəm zəmin üzərində qurulan dövlətlərarası münasibətlər hesab edirəm ki, ən yüksək səviyyəyə qalxıb.

Bugünkü mərasimin tarixi əhəmiyyəti, o cümlədən ondadır ki, ilk dəfə olaraq İran və Azərbaycan prezidentləri sərhəddə görüşürlər. Bu bir daha onu göstərir ki, bu sərhəd dostluq sərhədidir, qardaşlıq sərhədidir. Qədim tarixdən gələn qarşılıqlı hörmət, anlaşma, dəstək hissləri bu gün həm bu nəhəng layihədə, aparılan danışıqlarda və əldə edilmiş razılaşmalarda özünü göstərir, eyni zamanda, gələcək planlarımızda özünü göstərəcəkdir.

Bu gün biz hörmətli Prezident Rəisi ilə bir çox məsələləri geniş müzakirə etdik və bir daha əmin olduq ki, bizim fikrimiz üst-üstə düşür, istər beynəlxalq məsələlərlə əlaqədar, istərsə də regional təhlükəsizlik məsələləri ilə bağlı. Bu çox önəmli bir amildir. Bölgənin sabitliyi üçün, gələcək təhlükəsizlik tədbirlərinin gücləndirilməsi üçün İran–Azərbaycan dostluğu, qardaşlığı önəmli amildir. Biz üzv olduğumuz bütün beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik və bundan sonra da bu dəstəyi göstərəcəyik. «Qoşulmama Hərəkatı»nda, İslam Əməkdaşlıq Təşkilatında, ECO-da və BMT-də bir-birimizə dəstək verməklə, eyni zamanda, öz siyasətimizi, öz niyyətimizi ifadə edirik.

Bizi birləşdirən layihələrin arasında təbii ki, nəqliyyat layihələri xüsusi rol oynayır. Bu gün nəinki ölkələrimiz üçün, daha geniş coğrafiya üçün böyük əhəmiyyət daşıyan Şimal–Cənub nəqliyyat dəhlizinin yaradılması ilə əlaqədar birgə səylər göstərilib. Bu günə qədər göstərilən səylər artıq real layihələrə çevrilib. Bundan sonra həm İran ərazisində, həm Azərbaycan ərazisində müasir dəmir yolu infrastrukturunun yaradılması və modernləşdirilməsi Şimal–Cənub nəqliyyat dəhlizini dünyanın ən önəmli nəqliyyat damarına çevirəcəkdir. Hər iki ölkə burada öz səylərini birləşdirib. Onu da bildirməliyəm ki, Şimal–Cənub nəqliyyat dəhlizi üzrə keçən il yükdaşımaların həcmi 50 faizdən çox artıb, bu ilin 3 ayında da artıb. Bütövlükdə isə İranla Azərbaycan arasındakı yükdaşımaların artımı 50 faizdən çoxdur və bu hələ

başlanğıcdır, dəmir yolu tam istismara veriləndən sonra bu rəqəmlər daha da artacaqdır.

Bu gün eyni zamanda, Ağbənd istiqamətində yeni avtomobil körpüsü tikilir. Bu körpü tikiləndən sonra o da Şimal–Cənub nəqliyyat dəhlizinin bir hissəsi olacaq. Bu körpü təkcə Azərbaycanın əsas hissəsini onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə birləşdirən körpü deyil, bu, beynəlxalq nəqliyyat dəhlizinin bir parçasıdır. Qeyd etdiyim kimi, həm Şimal–Cənub, həm də Şərq–Qərb nəqliyyat dəhlizlərinin bir hissəsi olacaqdır.

Azərbaycanın azad edilmiş torpaqlarında bu gün çox genişmiqyaslı nəqliyyat layihələri həyata keçirilir. Avtomobil yolları, hava limanları, dəmir yolu Ağbəndə qədər çəkilir və yaxın gələcəkdə istismara veriləcək. Beləliklə, biz birgə səylərlə həm ölkələrimizin gələcək inkişafını, eyni zamanda, bir çox ölkələrin nəqliyyat təhlükəsizliyini təmin edəcəyik.

Bizim energetika sahəsində çox böyük planlarımız var. Artıq qeyd olunduğu kimi, burada 280 meqavat gücündə 2 su-elektrik stansiyasının inşası nəzərdə tutulur. Enerji güclərinin də bərabər bölünməsi hər iki ölkəyə əlavə fayda verəcək.

Bildirməliyəm ki, azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bölgələri, eləcə də Naxçıvan bölgəsi Azərbaycanda «yaşıl enerji» zonaları elan edilib. Bu bölgələr bizim ərazimizin təxminən 25 faizini təşkil edir. Bu bölgələrdə «yaşıl enerji» mənbələrinin yaradılması bütün bölgə üçün fayda verəcək. İşğaldan azad edilmiş torpaqlarda son 3 il ərzində 270 meqavat gücündə su-elektrik stansiyaları inşa edilib. Bu stansi-

yaların istehsal gücünü 500 meqavata çatdırmaq üçün konkret proqramımız var və yaxın 2-3 il ərzində bu, həll olunacaq. Nəzərə alsaq ki, İranla Azərbaycan arasında elektrik xətlərinin müasirləşdirilməsi artıq həll olunub və qarşılıqlı təchizat məsələləri də həll edilib, bu, ölkələrimiz və digər ölkələr üçün də fayda gətirəcək layihələr olacaq.

Bizim digər sahələrdə də əməkdaşlığımız həm ölkələrimizi gücləndirir, həm də regional əməkdaşlığa fayda verir. Ticarət dövriyyəsinin artırılması, yeni birgə müəssisələrin yaradılması göz qabağındadır. Təbii ki, bütün planları həyata keçirmək üçün gələcəkdə də yaşadığımız bölgədə sülh, əmin-amanlıq, sabitlik olmalıdır. Əfsuslar olsun ki, uzun illər burada vəziyyət tam başqa istiqamətdə cərəyan edirdi. Bildiyiniz kimi, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış əraziləri 30 ilə yaxın Ermənistanın işğalı altında idi. Bax, burada – bu yaxınlıqda yerləşən ərazilər işğal altında idi. Torpaqlarımızın təxminən 20 faizi zəbt edilmişdi, oradan Azərbaycan əhalisi çıxarılmışdı, bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdı, 1 milyondan çox azərbaycanlı evsiz-eşiksiz qalmışdı. Uzun illər bu məsələ ilə məşğul olan ATƏT-in Minsk qrupu və onun həmsədrləri məsələni həll etmək üçün yox, məsələni dondurmaq üçün çalışırdılar. 28 il ərzində fəaliyyət göstərən, əslində fəaliyyətsiz olan Minsk qrupunun tamamilə ləğv edilməsi Azərbaycanın haqlı tələbidir. Onlar 28 il ərzində məsələni həll etməyə yox, yenə də deyirəm, dondurmağa səy göstərmişlər.

Azərbaycan Ermənistanla olan məsələni – öz ərazi bütövlüyünün bərpasını 2020-ci ildə hərbi-siyasi yollarla, beynəlxalq hüquq, beynəlxalq humanitar hüquq çərçivəsində həll edib və 2023-cü ildə öz dövlət suverenliyini tam bərpa edib. İndi isə Ermənistanla Azərbaycan arasında sərhədlərin müəyyən edilməsi prosesi gedir. Biz bu prosesin ilkin müsbət nəticələrini görürük və sərhədimizin şimal hissəsində artıq delimitasiya və demarkasiya başlanıbdır. Hesab edirəm ki, bu, ümidverici hadisədir. Çünki bu, ümid verir ki, nəhayət, uzun fasilədən sonra Azərbaycanla Ermənistan arasında sülh sazişi imzalana bilər.

Biz İranın bu məsələyə dair dəstəyini alqışlayırıq və bu gün hörmətli Prezident Rəisi ilə söhbət əsnasında bir daha gördüm ki, İran bölgədə sülhün, sabitliyin, təhlükəsizliyin təmin edilməsi istiqamətində çox önəmli və dəyərli səylər göstərir.

Bölgənin inkişafı bölgədəki ölkələrdə yaşayan xalqların iradəsi ilə təmin edilməlidir. Qeyri-regional ölkələrin bizim işlərimizə müdaxiləsi qəbuledilməzdir. Biz Azərbaycan olaraq, bütün ölkələrlə əlaqələri qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq və qarşılıqlı mənfəət əsasında qururuq və bundan sonra da quracağıq. Əgər kimlərsə – buradan minlərlə kilometr uzaqda yerləşən ölkələrin rəhbərləri bu bölgədə hər hansı bir nəticə əldə etmək istəyirlərsə, bizimlə danışsınlar. Yersiz və lazımsız müdaxilə bu günə qədər heç bir səmərə verməyib və verməyəcək. Hesab edirəm ki, Ermənistan səhv addım atmamalıdır. Regional məsələlər region ölkələrin bilavasitə iştirakı və iradəsi ilə həll olunmalıdır. Ermənistan uzun illər ər-

zində buradan uzaqlarda yerləşən ölkələrin himayəsinə, dəstəyinə bel bağlamışdı. Nəticə nə oldu? Nəticə onlar üçün o qədər də ürəkaçan olmadı. Yəni növbəti səhv buraxmasın. Bölgədə yaşayan xalqlar burada tarixən yaşayıb. Bölgə dövlətləri güclü dövlətlərdir, müstəqil siyasət aparan dövlətlərdir. Heç bir kənar qüvvə bu günə qədər bu dövlətlərin iradəsinə təsir etməyib və etməyəcək. Ümid edirəm ki, Ermənistan düzgün siyasət apararaq, regional əməkdaşlığa ziyan yox, töhfə verəcəkdir.

İran–Azərbaycan əlaqələrinin gələcək inkişafı da çox müsbətdir. Mən bu gün hörmətli Prezident Rəisini bu il Azərbaycanda keçiriləcək iqlim konfransına dəvət etmişəm. Hörmətli Prezident Rəisi məni İrana dəvət edib. Bu dəvətə görə təşəkkürümü bildirirəm. Əminəm, bizim bundan sonra da görüşlərimiz çox olacaq, son illər biz artıq 5-ci dəfədir ki, görüşürük, amma sərhəddə ilk dəfədir. Bundan sonra da bu görüşlər olacaq. Bu görüşlərin həm mahiyyət üzrə çox böyük əhəmiyyəti var, həm də xalqlarımıza, bölgəyə və dünyaya ciddi mesajdır. İran–Azərbaycan birliyi, dostluğu sarsılmazdır. Heç kim bizim aramıza girə bilməz. Bu səylər əbəsdir və biz bugünkü mərasimlə bunu bir daha sübut edirik.

Bir daha əziz dostlar, bu gözəl hadisə münasibətilə – bu nəhəng qurğuların açılışı və istismara verilməsi münasibətilə sizi təbrik edirəm. İran və Azərbaycan xalqlarına daim rifah və tərəqqi arzulayıram. Sağ olun.

**İran Prezidenti Seyid İbrahim Rəisinin çıxışı**

Allahın adı ilə.

Yerləri və aləmi yaradan Allaha şükür olsun! İmam Rza əleyhissalamın mövludu münasibətilə sizi təbrik edirəm. Əziz İran və Azərbaycan xalqlarına salamlarımı çatdırıram və hörmətimi bildirirəm. Ümid edirəm ki, İmam Rzanın mərhəmətindən və lütfündən yararlanarıq.

«Xudafərin» və «Qız qalası» bəndlərinin açılışı mərasimidir. Çox önəmli və mübarək bir gündür. Azərbaycanda və İranda yaşayan əziz və dəyərli xalqlarımız üçün bu çox yaddaqalan və tarixi bir gündür, xüsusilə də Şərqi Azərbaycan əyalətində, Ərdəbildə, Təbrizdə və sərhədyanı bölgələrdə yaşayan xalqlarımız üçün. Ümid edirəm ki, vətəndaşlarımız bu layihədən yararlanacaqlar.

Araz çayı hər zaman İran və Azərbaycan arasında, xalqlarımız arasında bir bağ olubdur. Xüsusilə də Şərqi Azərbaycan əyaləti, Azərbaycan və Ərdəbil arasında hər zaman bir bağ olubdur. Bu bağ 50 il əvvəl iki ölkə və iki xalq arasındakı əməkdaşlığın nəticəsində yaranıbdır və bu günə qədər də davam edir. 2 milyard kubmetrə yaxın su tutumu olan «Xudafərin» bəndi fəaliyyətə başlayır və bundan hamımız yararlanacağıq. Eyni zamanda, vətəndaşlar üçün 40 mindən çox iş yeri yaradılır. Həmçinin əkin sahələri üçün və içməli su mənbəyidir. Bu, təbii ki, bölgədəki inkişafın bir simvoludur. Bu layihə eyni zamanda, regionda iki ölkənin siyasi və əməkdaşlıq iradəsinin göstəricisidir. Bu layihə çox böyük önəm kəsb edir və

təbii ki, iki ölkənin xalqları arasında çox böyük ümid, düşmənlər üçün isə qısqanclıq yaradır.

Biz təbii ki, qardaş, qonşu və dost ölkələrik. Xüsusilə Ali Dini Rəhbərin bildirdiyi kimi, İranın Azərbaycanla olan əlaqəsi qonşuluq əlaqəsindən daha üstündür. Bu, qohumluq əlaqəsidir. Bu əlaqə və bağ çox möhkəm, çox dərin bir bağdır. Bu bağ, bu əlaqə iki ölkənin dərin tarixi, mədəni və dini əlaqələrinə söykənir. Təbii ki, bu əlaqə bizim ölkələrin tarixi əlaqəsi olaraq xalqlarımızı bir-birinə birləşdirir. Bu əlaqə qəlblərdədir, qəlblərdən gəlir və sarsılmazdır. İki ölkə arasındakı əlaqə heç nədən asılı olmayaraq xələl görməyəcək və sarsılmayacaq. Bu əlaqələr gündən-günə daha da artacaq və daha da möhkəmlənəcəkdir.

Azərbaycan Respublikasının cənab Prezidenti ilə görüşümdə bildirmişdim ki, regionda digər təmaslar çərçivəsində, bizim ikitərəfli görüşlərimizdə hər zaman iqtisadi-ticari və siyasi-mədəni sahələrdə əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulamışıq. Xüsusilə də təhlükəsizlik və müdafiə sahəsində iki ölkə arasında əlaqələr artırılmalıdır. Bizim siyasi iradəmiz də bu yöndədir ki, əlaqələr daha da çoxalsın. Şükürlər olsun ki, iki ölkə arasında əlaqələrdə çox böyük potensial mövcuddur. İran İslam Respublikasının siyasi iradəsi, eyni zamanda, Ali Dini Rəhbərin iradəsi nəticəsində əlaqələrdə inkişaf çox olub. Təbii ki, bizə qoyulan sanksiyalar nəticəsində inkişafımızı ləngitməyə çalışdılar, amma bacarmadılar. Biz gənclərimizin sayəsində, onların elm və texnologiya sahəsində gördükləri işlər nəticəsində böyük inkişafa nail olmuşuq. Bildiyimiz kimi, bizim İran

xalqı elm və texnologiya sahəsində çox güclü inkişaf etmiş ölkə yaratmışdır. Bununla bağlı mən cənab Prezident İlham Əliyevə bildirdim ki, İran İslam Respublikasının Azərbaycan Respublikası ilə əlaqələri inkişaf etdirmək üçün heç bir maneə yoxdur. Əlaqələrimiz bütün sahələrdə ən yüksək səviyyədə olmalıdır.

Bu bənd İran İslam Respublikasının mühəndislik sahəsindəki bacarığını göstərir. Bu əslində bizim mühəndislərin bacarıqlarının, eyni zamanda, İran İslam Respublikasının sahib olduğu texnologiyanın daha bir göstəricisidir.

Təbii ki, bizim mühəndislərin çalışqanlığı və savadı nəticəsində bu, İranı bəndlərin tikintisi sahəsində dünyanın ən əsas 4 ölkəsindən birinə çevirmişdir. Bu həmçinin İranın qonşu ölkələrlə, xüsusilə də Azərbaycanla həmin sahədə və digər sahələrdə əlaqələrinin inkişafına səbəb olur, Qarabağda əməkdaşlıqla bağlı çox önəmlidir.

Fürsətdən istifadə edərək, azərbaycanlı dostlarımızı təbrik edirik ki, ölkənin suverenliyini və ərazi bütövlüyünü bərpa etmişlər. Biz Qarabağın Azərbaycanın ərazisi olduğunu səlis formada, tam açıq şəkildə bildirən ilk ölkələrdən biri olmuşuq. Bu bölgədə, Qarabağda dirçəliş proqramı əsasında əməkdaşlığımızı hər zaman göstərməyə hazır olduğumuzu bir daha bildirmək istəyirəm. Kəlalə–Ağbənd bölgəsində 140 kilometr uzunluğunda dəmir yolu və avtomobil yolunun üzərində tikilən körpülər də strateji layihələrdir. Bu layihəni biz çox sürətlə davam etdiririk. Buraya gələrkən mən oraya baş çəkdim. Orada 6 istiqamətdə

işlər çox intensiv şəkildə davam etdirilir. Mən əməkdaşlarıma və Şəhərsalma nazirinə təkidlə tapşırdım ki, biz bu layihəni vaxtından əvvəl – 36 aydan tez bitirib istismara verməliyik. Çünki bu, iki ölkə arasındakı əlaqələrdə çox önəmli bir dəhlizdir.

Düşünürük ki, bu bizim üçün çox önəmlidir. Biz təkcə iki ölkə arasındakı əlaqələrin inkişaf etməsini deyil, eyni zamanda, bölgədə və bölgəmizdən kənarda, beynəlxalq qurumlarda, o cümlədən Şanxay Əməkdaşlıq Təşkilatında əməkdaşlığımızın daha da güclənməsini istəyirik. Təbii ki, biz çox istərdik beynəlxalq təşkilatlarda əməkdaşlığı dərinləşdirək və bəzi xüsusi məsələlərdə – buraya Fələstin məsələsi də daxildir – həmrəylik göstərək. Biz Azərbaycan və İran xalqlarının Fələstin xalqını və Qəzza əhalisini daim dəstəkləməkdə tərəddüd etmədiklərinə, sionist rejimə nifrət bəslədiklərinə şübhə etmirik. Əminik ki, islam ölkələri arasında, islam dünyasındakı problemlərin həlli yolunda əməkdaşlıq, şübhəsiz, çox böyük önəm kəsb edir. İki ölkə arasındakı əlaqələr regional əməkdaşlığa çevrilməli və təbii ki, beynəlxalq təşkilatlarda da davam etdirilməlidir.

Mən son olaraq bildirmək istəyirəm ki, ola bilər, iki ölkə arasındakı əlaqələrin inkişafı bəzi güclərin xoşuna gəlməsin. Amma əsas olan bizim maraqlarımızdır və iki ölkə arasındakı əlaqələr bizim üçün çox önəmlidir. Energetika, nəqliyyat, mədəniyyət, iqtisadiyyat, ticarət sahələrində əlaqələr ölkələrimizin xalqlarının mənafeyinə xidmət etməlidir. Bizim üçün ən vacib məsələ ölkələrimizin maraqlarıdır. Düşmənlər nə Azərbaycanın, nə də İranın inkişafını görmək istəmirlər. Düşünü-

rük ki, Azərbaycanın inkişafı bizim də inkişafımızdır. İki ölkə arasındakı sərhəddə təhlükəsizliyə təhdid yaradan hər hansı məsələ bizim üçün də təhlükə yarada bilər. Biz çalışırıq ki, sərhədləri ümid sərhədinə çevirək. Çalışırıq ki, sərhədlər bizim üçün narahatlıq yaratmasın. Sərhəd bizim üçün fürsət və ümid yaratmalıdır. Biz çalışırıq ki, sərhədləri fürsətə çevirək. Xüsusilə də sərhədyanı bölgələrin vətəndaşları üçün iqtisadiyyat və ticarət sahələrində inkişaf baxımından ümidə çevirək.

Allahın izni ilə İmam Rza xatirinə, biz bu gün iki böyük bəndin – «Xudafərin» və «Qız qalası» bəndlərinin istismarı üçün buraya toplaşmışıq. Düşünürəm ki, Allah bizə kömək edər və vətəndaşlarımız bundan yararlanar, eyni zamanda, əməkdaşlığımız və dostluğumuz bundan sonra daha da güclənər.

Cənab Əliyev ilə bu görüş iki ölkə arasında sıfır nöqtəsində – sərhəddə keçirilir. Burada hörmətli nazirlərimiz, İran İslam Respublikasının ali dini rəhbərinin nümayəndəsi, həmçinin sərhədyanı rayonların valiləri də iştirak edirlər. Bu gün onlara səmimi-qəlbdən təşəkkür edirəm. Bu layihəni gerçəkləşdirdiklərinə və bugünkü tədbiri təşkil etdiklərinə görə onlara təşəkkür etmək istəyirəm. Çox sağ olun.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN X SOSİAL ŞƏBƏKƏSİNDƏKİ RƏSMİ SƏHİFƏSİNDƏN

*19 may 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da İran İslam Respublikasının Prezidenti İbrahim Rəisini daşıyan helikopterin İranda qəza enişi etməsi ilə bağlı X sosial şəbəkəsindəki rəsmi səhifəsində paylaşım etmişdir.*

*Paylaşımda deyilir:* «Bu gün İran İslam Respublikasının Prezidenti İbrahim Rəisi ilə dostcasına xudahafizləşdikdən sonra ali nümayəndə heyətini daşıyan helikopterin İranda qəza enişi etməsi barədə xəbər bizi ciddi şəkildə narahat etdi. Uca Allahdan dualarımız Prezident İbrahim Rəisi və onu müşayiət edən nümayəndə heyəti ilədir. Qonşu, dost və qardaş ölkə olaraq, Azərbaycan Respublikası hər cür dəstək göstərməyə hazırdır».

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TELEFONLA GÖRÜŞ

*20 may 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə mayın 20-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan telefonla zəng etmişdir.*

*Söhbət zamanı Türkiyə–Azərbaycan əlaqələri, regional və qlobal proseslər müzakirə olundu.*

*President Rəcəb Tayyib Ərdoğan Azərbaycan ilə Ermənistan arasında sülh prosesinin müsbət istiqamətdə irəliləməsindən məmnunluğunu ifadə etdi və Türkiyənin prosesi yaxından izlədiyini bildirdi.*

*Türkiyə Prezidenti bölgədə təmin olunacaq ədalətli və davamlı sülhün həm Azərbaycan, həm Ermənistan, eləcə də bölgə ölkələri üçün yeni bir mühit yaradacağını vurğuladı.*

*Söhbət zamanı gələcək əməkdaşlıq haqqında fikir mübadiləsi aparıldı.*

## İRAN İSLAM RESPUBLİKASININ ALİ RƏHBƏRİ AYƏTULLAH SEYİD ƏLİ XAMENEİ HƏZRƏTLƏRİNƏ

Möhtərəm Ayətullah Xamenei həzrətləri!

Dost və qardaş İran İslam Respublikasına və xalqına üz vermiş ağır itki – İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin, Xarici İşlər naziri Hüseyn Əmir Abdullahianın və digər müşayiət edən şəxslərin helikopter qəzasında faciəli surətdə həlak olması xəbəri bizi olduqca sarsıtdı.

Prezident Seyid İbrahim Rəisinin simasında İran xalqı bütün həyatını ölkəsinə fədakarlıqla və sədaqətlə xidmət etmiş görkəmli dövlət xadimini itirdi. Onun əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır.

Bu hüznlü gündə uca Allahdan dost və qardaş İran xalqına səbir və dözüm diləyir, kədərinə şərik olduğumuzu bildirir, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 may 2024-cü il*

**KAMERUN RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB POL BİYAYA**

Hörmətli cənab Prezident!

Kamerun Respublikasının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost Kamerun xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 may 2024-cü il*

## LATVİYA SEYMİNİN SƏDRİ DAYQA MİERİNANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 may 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 20-də Latviya Seyminin Sədri Dayqa Mierinanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev dövlət başçıları səviyyəsində və digər səviyyələrdə həyata keçirilən qarşılıqlı səfərlərin əlaqələrimizin genişlənməsinə töhfə verdiyini qeyd etdi. Azərbaycan Prezidenti parlamentlərarası əməkdaşlığın önəminə toxundu.*

*Dövlətimizin başçısı bildirdi ki, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasından sonra regionda sülh üçün tarixi imkanlar yaranıb. Azərbaycan Prezidenti Minsk qrupunun həmsədrlərinin fəaliyyətinə toxunaraq, onun hər hansı nəticəyə hasil olmadığını, o zaman ərazilərimizin işğalının davam etdiyini vurğuladı. Hazırda isə sülh gündəliyinin irəli aparılması üçün çox yaxşı və əlverişli imkanların olduğunu deyən dövlətimizin başçısı sərhədlərin delimitasiyası və demarkasiyası istiqamətində də ikitərəfli*

*proses çərçivəsində müsbət razılaşmaların əldə olunduğunu qeyd etdi.*

*Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan bu münaqişəni həll etdi. Beləliklə, beynəlxalq münasibətlərdə bir münaqişə öz həllini tapdı. Lakin buna baxmayaraq, təəssüf doğuran haldır ki, dünyada yeni münaqişə ocaqlarının formalaşması baş verməkdədir.*

*Dövlətimizin başçısı Dayqa Mierinanın Qarabağa səfərinə də toxundu.*

*Latviya Seyminin Sədri Qarabağa səfər etmək üçün onlara imkan yaradıldığını deyərək, Şuşada və Qarabağın digər yerlərində olduqlarını məmnunluqla vurğuladı.*

*Qonaq ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30 illik müddəti əhatə etməsinə baxmayaraq, xalqlarımız arasında mədəni əlaqələrin tarixinin daha dərin köklərinin olduğunu dedi. Bu xüsusda o, 100 ildən də əvvəl latviyalı rəssam Yulie Straumenin Şuşada yaşadığını və orada müəllim işlədiyini, həmçinin onun Şuşada Azərbaycan xalçalarının kolleksiyasını yaratdığını məmnunluqla xatırlatdı.*

*Dayqa Mierina COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı.*

*Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi, COP29-da iştirak etmək üçün Latviya Prezidentinin də ölkəmizə səfər edəcəyini diqqətə çatdırdı.*

*Görüşdə beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimiz arasında əlaqələrdən və qarşılıqlı dəstəkdən məmnunluq bildirildi. Latviyanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə namizədliyinin dəstəklənməsinə görə Azərbaycana bir daha minnət-*

*darlıq ifadə olundu. Azərbaycan ilə Avropa İttifaqı və NATO arasında əməkdaşlığa Latviyanın göstərdiyi dəstək və ölkəmizin Avropa İttifaqına üzv ölkələrin enerji təhlükəsizliyinə töhfəsi yüksək qiymətləndirildi. «Orta Dəhliz»in inkişaf etdirilməsində Azərbaycanın rolu və region dövlətləri ilə birgə fəaliyyəti qeyd olundu.*

*Söhbət zamanı ölkələrimiz arasında kənd təsərrüfatı, turizm və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxunuldu, Latviyanın kənd təsərrüfatı sahəsində çox yaxşı təcrübəsinin olduğu bildirildi və bu sahədə Azərbaycan ilə əməkdaşlığa maraq ifadə edildi.*

## İNKİŞAF ETMƏKDƏ OLAN KİÇİK ADA DÖVLƏTLƏRİNİN «DAYANIQLI FİRAVANLIQ ÜÇÜN İSTİQAMƏTİN MÜƏYYƏN OLUNMASI» MÖVZUSUNDA KEÇİRİLMİŞ IV BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

Xanımlar və cənablar!

Azərbaycan həmişə inkişaf etməkdə olan kiçik ada dövlətləri ilə həmrəy olub, onların legitim maraqlarını və narahatlıqlarını müdafiə edib.

Azərbaycanın «Qoşulmama Hərəkatı»na 4 illik sədrliyi dövründə biz Hərəkatın gündəliyini irəli aparmaq üçün səylərimizi əsirgəmədik. «Qoşulmama Hərəkatı»nın institusional inkişafına, Hərəkatın birliyinin möhkəmləndirilməsinə və nüfuzunun artırılmasına xüsusi diqqət yetirildi.

«Qoşulmama Hərəkatı»na sədrlik Azərbaycana təşkilatın bütün üzv dövlətlərinin, o cümlədən inkişaf etməkdə olan kiçik ada dövlətlərinin ehtiyaclarını və narahatlıqlarını daha yaxşı anlamaq üçün imkan yaratdı.

«Qoşulmama Hərəkatı»nın sədri kimi, Azərbaycan COVID-19 pandemiyasına qarşı mübarizə üzrə qlobal səylərin önündə gedib və bu məsələ ilə bağlı BMT-nin xüsusi sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış edib. Azərbaycan «peyvənd millətçiliyi»nə

qarşı çıxış edərək, bütün ölkələr üçün vaksinlərə ədalətli və universal əlçatanlığı təşviq edib.

Pandemiya zamanı Azərbaycan, həmçinin 80-dən çox ölkəyə, o cümlədən 20-yə yaxın inkişaf etməkdə olan kiçik ada dövlətinə maliyyə və humanitar yardım göstərib.

Keçən ilin mart ayında «Qoşulmama Hərəkatı»nın sədri kimi, mən inkişaf etməkdə olan kiçik ada dövlətlərində pandemiyadan sonrakı bərpanı dəstəkləmək üçün fəaliyyətə qlobal çağırış elan etdim. Bu çağırışla mən beynəlxalq ictimaiyyəti pandemiyanın sosial-iqtisadi nəticələrinin aradan qaldırılması üçün inkişaf etməkdə olan kiçik ada dövlətlərinə maliyyə yardımı və birbaşa iqtisadi dəstək göstərməyə dəvət etdim. Azərbaycan bu çağırışa vəsait ayıran ilk ölkə oldu.

Xanımlar və cənablar!

Azərbaycan bu il COP29-a ev sahibliyi etmək şərəfinə nail olub. Azərbaycanın COP29-a ev sahibliyi ilə bağlı namizədliyinin yekdilliklə dəstəklənməsi beynəlxalq ictimaiyyətin Azərbaycana olan hörmət və etimadını əks etdirir.

İqlim dəyişikliyi bütün qitələrdəki hər bir ölkəyə təsir edir. İqlim dəyişikliyinin Azərbaycana da mənfi təsiri vardır. Çaylarımızın suyu azalır, Xəzər dənizinin səviyyəsi aşağı düşür.

Bununla belə, inkişaf etməkdə olan kiçik ada dövlətləri iqlim dəyişikliyinin təsirlərinə daha həssasdır. İqlim dəyişikliyinə heç bir təsiri olmayan bu ölkələr onun ən pis fəsadlarına məruz qalır, hətta ekzistensial təhlükə ilə üzləşirlər. İqlim dəyişikliyi

onların Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq istiqamətində irəliləyişinə də mane olur.

COP29-a sədrliyimiz zamanı iqlim dəyişikliyinin inkişaf etməkdə olan kiçik ada dövlətləri üçün yaratdığı problemlərin həlli prioritetlərimiz arasında olacaq. Biz Bakıda keçiriləcək COP zamanı inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Zirvə toplantısını keçirməyi planlaşdırırıq.

İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin səslərinin yüksək və aydın eşidilməsini təmin etmək üçün əlimizdən gələni edəcəyik.

Mən COP29 zamanı bütün ölkələri inkişaf etməkdə olan kiçik ada dövlətlərinin ehtiyaclarına və prioritetlərinə cavab verən razılaşma əldə etmək üçün maksimum səy göstərməyə çağırıram.

Azərbaycan öz növbəsində, artıq bir sıra inkişaf etməkdə olan kiçik ada dövlətlərində qasırğaların, zəlzələlərin, daşqınların və digər təbii fəlakətlərin törətdiyi fəsadların aradan qaldırılmasına öz dəstəyini göstərməkdədir. Biz bu ölkələrə yardım etmək üçün əməli addımlar atmağa davam edəcəyik. Azərbaycan 33 inkişaf etməkdə olan kiçik ada dövlətinin təmsil olunduğu Millətlər Birliyi, o cümlədən digər beynəlxalq qurumlar vasitəsilə texniki yardım proqramları üçün vəsait ayıracaq.

Biz həmçinin inkişaf etməkdə olan kiçik ada dövlətlərinin vətəndaşlarına Azərbaycan universitetlərində təhsil almaq üçün təqaüd imkanlarını genişləndirəcəyik. İndiyədək 10-dan çox inkişaf etməkdə olan kiçik ada dövləti Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatı və «Qoşulmama Hərəkatı»nın üzv dövlətləri

üçün təqdim etdiyi Təhsil Qrant Proqramlarından faydalanıb.

Azərbaycan, həmçinin COP29-da inkişaf etməkdə olan kiçik ada dövlətlərinin iştirakına dəstək verəcək.

Xanımlar və cənablar!

Bakıdakı COP üçün seçdiyimiz «Yaşıl dünya naminə həmrəy olaq» şüarı bizim COP29 missiyamızın ruhunu əks etdirir. Hamımız birlikdə bu vəziyyətlə üzləşdiyimiz üçün bütün ölkələri planetimizi xilas etmək naminə həmrəylik nümayiş etdirməyə çağırıram. Bu məqsədə çatmaq üçün bizə siyasi iradə və Azərbaycanın daim müdafiə etdiyi çoxtərəflilik lazımdır.

Mən bu ilin noyabrında Bakıda keçiriləcək COP29-da inkişaf etməkdə olan kiçik ada dövlətlərinin dövlət və hökumət başçılarının dəyərli iştirakını arzulayır və inkişaf etməkdə olan kiçik ada dövlətləri üzrə 4-cü Beynəlxalq Konfransa uğurlar arzulayıram. Sağ olun.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 may 2024-cü il*

## İRAN İSLAM RESPUBLİKASININ ÖLKƏMİZDƏKİ SƏFİRLİYİNDƏ

*21 may 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də İran İslam Respublikasının ölkəmizdəki səfirliyinə gəlmişdir.*

*Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin, Xarici İşlər naziri Hüseyn Əmir Abdullahianın və digər müşayiət edən şəxslərin helikopter qəzasında faciəli surətdə həlak olmaları ilə əlaqədar başsağlığı vermişdir.*

*İran İslam Respublikasının ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili Seyid Cəfər Ağayi dövlətimizin başçısını qarşıladı.*

*Azərbaycan Prezidenti matəm kitabına ürək sözlərini yazdı. Sonra səfirliyin müvəqqəti işlər vəkili ilə söhbət etdi.*

**İlham Əliyev**: İran İslam Respublikasının Prezidenti cənab Seyid İbrahim Rəisinin faciəli şəkildə həlak olması bizim hamımızı dərindən sarsıtdı. Onunla bərabər Xarici İşlər naziri Hüseyn Əmir Abdullahian və digər şəxslər faciəli şəkildə həlak olublar. Allah onlara rəhmət eləsin. İran xalqının başı sağ olsun. Bu, böyük itkidir. Bu itki təkcə İran xalqına, dövlətinə üz verməyib, bütün müsəlman aləminə üz verib.

Seyid İbrahim Rəisi böyük dövlət xadimi idi, görkəmli siyasətçi və İran xalqının etibarını qazanmış böyük şəxsiyyət idi. Onunla çoxsaylı görüşlərim hər zaman məndə çox böyük təəssürat izi buraxırdı. Onunla son görüşüm isə tarixi bir görüş idi. Həm o, həm də mən bu görüşü məhz tarixi görüş adlandırmışdıq. Dövlət sərhədində böyük infrastruktur layihəsinin açılışı mərasimində birgə iştirakımız İran–Azərbaycan əlaqələrinin nə qədər möhkəm olmasından xəbər verirdi, həm xalqlarımıza, həm bütün dünyaya çox açıq mesaj idi ki, biz dostuq, qardaşıq, bundan sonra da birlikdə olacağıq. Açılış mərasimindən sonra həm mərhum Prezident Rəisinin, həm də mənim rəsmi açıqlamalarımız çox ciddi siyasi məna daşıyırdı. Hər iki Prezident açıq bəyan etdi ki, bu bölgənin gələcək inkişafında bölgədə yerləşən ölkələr fəal iştirak etməlidirlər.

Faciənin baş verməsi böyük dərddir, həm onun yaxınlarına, həm onu tanıyanlara. Amma təsəlli verən odur ki, o öz həyatını İran xalqının inkişafına həsr etmişdi. İran dövlətinin milli maraqlarının müdafiə edilməsində onun xüsusi rolu var idi. Həm Prezident vəzifəsində çalışdığı zaman, həm ondan əvvəlki dövrlərdə o, İran xalqının rifahını yaxşılaşdırmağa çalışırdı və milli maraqların müdafiəsində onun böyük rolu olmuşdu.

Bildiyiniz kimi, faciədən əvvəl biz iki saatdan çox birlikdə idik. Bir saatdan çox davam edən ikitərəfli görüş əsnasında bir çox önəmli məsələlər müzakirə edilmişdi. İran–Azərbaycan əlaqələrinin inkişafının gələcək istiqamətləri bir daha təsdiqlən-

mişdi və hər iki tərəfin güclü siyasi iradəsi bir daha nümayiş etdirilmişdi. Bununla bərabər, biz konkret infrastruktur layihələri haqqında geniş fikir mübadiləsi aparmışdıq, önəmli qərarlar qəbul edilmişdi. O görüşdə iştirak edən şəxslər bunu əminəm ki, İranın yeni rəhbərliyinə çatdıracaqlar. Əldə edilmiş bütün razılaşmalar əminəm ki, icra ediləcək. Çünki bu, İran və Azərbaycan xalqlarının iradəsinə söykənir və biz mərhum Prezident Rəisi ilə söhbət əsnasında qəti iradəmizi bildirdik ki, bundan sonra böyük layihələrin sayı çox olacaq, həm ikitərəfli, həm çoxtərəfli formatda.

Əfsuslar olsun ki, gələcək layihələrin icrasını görmək ona nəsib olmadı. Tale ilə hər kəs barışmalıdır. Ancaq yenə də deyirəm, təsəlli verən amil odur ki, o öz həyatını İranın inkişafına qurban vermişdi və bizim yaddaşımızda, İran xalqının, Azərbaycan xalqının yaddaşında parlaq şəxsiyyət, böyük dövlət xadimi, Azərbaycan dövlətinin və xalqının böyük dostu kimi qalacaqdır. Bir daha başınız sağ olsun. Allah rəhmət eləsin.

* * *

*Seyid Cəfər Ağayi səfirliyə gələrək başsağlığı verdiyinə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirdi.*

## ÖZBƏKİSTAN RESPUBLİKASININ İNVESTİSİYA, SƏNAYE VƏ TİCARƏT NAZİRİ, HÖKUMƏTLƏRARASI BİRGƏ KOMİSSİYANIN HƏMSƏDRİ LAZİZ KUDRATOV İLƏ GÖRÜŞ

*21 may 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Özbəkistan Respublikasının İnvestisiya, Sənaye və Ticarət naziri, hökumətlərarası birgə Komissiyanın həmsədri Laziz Kudratovu qəbul etmişdir.*

*Qəbula görə minnətdarlığını bildirən Laziz Kudratov Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O qeyd etdi ki, Özbəkistan Prezidenti ölkələrimiz arasında tərəfdaşlıq münasibətlərinin səviyyəsini yüksək qiymətləndirir. Qonaq vurğuladı ki, Azərbaycan Prezidentinin uzaqgörən və müdrik siyasəti nəticəsində əldə edilmiş uğurlar Özbəkistanda sevinclə qarşılanır. Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmləndiyini, iqtisadiyyatımızın dinamik şəkildə inkişaf etdiyini, investisiyaların həcminin artdığını deyən Laziz Kudratov bildirdi ki, Azərbaycan qlobal çağırışlara baxmayaraq, inflyasiyanı saxlamağa uğurla müvəffəq olub.*

*Qonaq vurğuladı ki, işğal olunmuş ərazilərin Prezident İlham Əliyevin rəhbərliyi ilə qaytarılması və tarixi ədalətin bərpa olunması təkcə Azərbaycanın deyil, bütün türk dövlətlərinin tarixində mühüm hadisə olmuşdur. Nazir qeyd etdi ki, Özbəkistanda bu tarixi hadisə böyük sevinclə qarşılanmışdır. O, əməkdaşlığımızın möhkəmlənməsinə yönəlmiş təşəbbüslərin reallaşması işinə göstərdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.*

*Prezident İlham Əliyev Şavkat Mirziyoyevin salamlarına və ən xoş arzularına görə minnətdarlığını bildirdi, onun da salamlarını Özbəkistan Prezidentinə çatdırmağı xahiş etdi.*

*Dövlətimizin başçısı qeyd etdi ki, Özbəkistan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən inkişaf prosesləri Azərbaycanda böyük maraqla izlənilir. Özbəkistan Prezidentinin iqtisadi islahatlar, sosial və digər bütün sahələrin inkişafına yönəlmiş siyasəti konkret nəticələr verir. Prezident İlham Əliyev Özbəkistana səfərini məmnunluqla xatırladaraq, səfər zamanı bu ölkənin sənaye potensialı və tarixi-mədəni irsin qorunması ilə bağlı məsələlərin uğurla həll edilməsinin şahidi olduğunu dedi. Dövlətimizin başçısı əməkdaşlığımızın inkişafı ilə bağlı qarşılıqlı fəaliyyəti bundan sonra da davam etdiriləcəyinə əminliyini bildirdi.*

*Prezident İlham Əliyev xüsusi olaraq Azərbaycanın suverenliyinin bərpa olunması işində Özbəkistanın və özbək xalqının dəstəyini yüksək qiymətləndirdi. Dövlətimizin başçısı Şavkat Mirziyoyev ilə Füzuli və Şuşa şəhərlərinə səfərlərinə də toxunaraq, Füzulidə*

*Özbəkistan Prezidentinin və xalqının hədiyyəsi olan məktəbin açılışının rəmzi xarakter daşıdığını dedi.*

*Prezident İlham Əliyev Laziz Kudratovun ölkəmizə səfərinin iqtisadi əməkdaşlığın möhkəmlənməsi ilə bağlı layihələrin bir daha nəzərdən keçirilməsi üçün yaxşı imkan yaratdığını vurğuladı.*

## UKRAYNA PREZİDENTİ VOLODİMİR ZELENSKİ İLƏ TELEFONLA GÖRÜŞ

*21 may 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə mayın 21-də Ukrayna Prezidenti Volodimir Zelenski telefonla zəng etmişdir.*

*Söhbət əsnasında dövlət başçıları regional təhlükəsizlik, enerji, ticarət və digər sahələrdə ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə etdilər.*

*Eyni zamanda, hər iki ölkənin aidiyyəti qurumlarına birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsi ilə əlaqədar müvafiq tapşırıqların veriləcəyi bildirildi.*

**İORDANİYA KRALI ƏLAHƏZRƏT
II ABDULLAH İBN AL HÜSEYNƏ**

Əlahəzrət!

İordaniya Haşimilər Krallığının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən səmimi arzularımı çatdırıram.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İordaniya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 may 2024-cü il*

## APRELİN 26-da BERLİNDƏ KEÇİRİLMİŞ «15-ci PETERSBERQ İQLİM DİALOQU»NUN YÜKSƏK SƏVİYYƏLİ SEQMENTİNDƏ İŞTİRAKI ZAMANI «EURONEWS» TELEKANALINA QISA MÜSAHİBƏ

*23 may 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Almaniyanın paytaxtı Berlində keçirilmiş «15-ci Petersberq İqlim Dialoqu»nun Yüksək Səviyyəli Seqmentində iştirakı zamanı «Euronews» telekanalına qısa müsahibə vermişdir.*

**S u a l**: **Prezident Əliyev, Sizinlə söhbət etmək həmişə olduğu kimi, çox xoşdur. Biz Berlində Petersberq İqlim Dialoqu tədbirindəyik. Bu həqiqətən də COP29-a aparan yolun başlanğıcıdır. Yəqin ki, komandanız çox həyəcanlıdır. Builki COP-dan nə gözləyə bilərik, hansı məsələlər icra olunacaq və sadəcə, müzakirə olunmayacaq?**

**C a v a b:** Bütün tərəflərin özlərini rahat hiss etdiyi bir mühit yaratmaq istəyirik. Bizim «Qoşulmama Hərəkatı»nda körpü rolunu oynamaqda böyük təcrübəmiz var. Bildiyiniz kimi, Hərəkata 4 il sədrlik etdik. Hesab edirəm ki, 120 üzv ölkə ilə həqiqətən də böyük tərəqqiyə nail olduq. Biz Avropa İttifaqına üzv ölkələrlə fəal işləyirik. Bu gün konfransda dediyim kimi, üzv ölkələrin 9-u ilə strateji tə-

rəfdaşlıq haqqında Bəyannamə imzalamışıq və qəbul etmişik. Digər sözlə, Qlobal Cənub və Qərb: iqlim dəyişikliyi məsələlərinin öhdəsindən gəlmək üçün birlikdə bu prosesdə necə iştirak etməliyik, həmrəyliyi, ortaq məsuliyyəti necə gücləndirməliyik, iqlim dəyişikliyi məsələləri ilə bağlı müəyyən inamsızlığı necə azaltmalıyıq? Yəqin siz fərqli ideyaları, fərqli fikirləri bilirsiniz.

**S u a l**: **Qazıntı yanacağı ideyası ötən il Birləşmiş Ərəb Əmirliklərində keçirilmiş COP28-də üstünlük təşkil edirdi. Bilmək istərdim ki, Sizin fikrinizcə, COP tarixində qazıntı yanacağı hasil edən ölkənin dəyişikliklərin edilməsi və keçid prosesində aparıcı rola malik olması müsbət hadisə olaraq qiymətləndirilirmi?**

**C a v a b:** Biz məhz buna nail olmağa çalışırıq. Konfransda verdiyim mesajlardan biri də o idi ki, bizi malik olduqlarımıza görə mühakimə etməyin. Bizi onlardan necə istifadə etdiyimizə, gündəmimizə görə mühakimə edin. Avropadakı, «Qoşulmama Hərəkatı»ndakı iştirakımızla bağlı dediklərimdən əlavə, həmçinin bir məsələni də anlamaq vacibdir ki, biz həm də OPEC+ üzv ölkəsiyik. Biz COP-dan əvvəl daha çox maliyyələşməni təmin etmək üçün Azərbaycan və neft hasil edən digər ölkələrin hansı əlavə töhfələri ola bilər kimi həmrəylik paketini yaratmaq üçün bir çox neft hasil edən ölkələrlə işləyirik. Hesab edirəm ki, neft hasil edən ölkələr, xüsusilə neftin qiyməti yüksək olanda problemin öhdəsindən gəlmək üçün daha çox ödəniş etməli və daha çox töhfə verməlidir. Hesab edirəm ki, həmrəylik maliyyələşmənin və necə uğur qazanacağımızın ayrılmaz hissəsidir.

**S u a l: COP29-un davamlı mirası olaraq nəyi görmək istərdiniz?**

**C a v a b:** Əgər yaşıl dünyaya doğru əlavə və davamlı olan konkret addımlar ata bilsək, bu, ən vacib miras olacaq. Bildiyiniz kimi, COP üçün yenilik olan bir təşəbbüs bizim tərəfimizdən irəli sürülmüşdür – üçlük, 3 ölkə mexanizminin yaradılması. Burada məqsəd bu üçtərəfli əməkdaşlıq formatını yaratmaq üçün Birləşmiş Ərəb Əmirliklərinin, Azərbaycanın və sonra Braziliyanın təcrübəsindən istifadə etməkdir. Çünki hər 3 ölkə müxtəlif regional, iqtisadi, siyasi və sair məsələlərdə iştirak edir. Beləliklə, biz qarşılıqlı səylər, həmrəylik göstərməli, bir-birimizi günahlandırmağı dayandırmalıyıq. Nefti olmayan ölkələr nefti olan ölkələri ittiham etməməlidir, kiçik və inkişaf etməkdə olan ölkələr inkişaf etmiş böyük ölkələrə «siz iqlim fəlakətinə görə məsuliyyət daşıyırsınız» deməklə onlara qarşı tələblər irəli sürməməlidir. Beləliklə, bu diplomatiyadır, siyasətdir, maliyyədir və əlbəttə ki, ev sahibi ölkəsi kimi, biz bunun üçün bir platforma yarada bilərik.

**M ü x b i r:** Cənab Prezident, Sizinlə söhbət etmək xoş idi. Bu gün bizə vaxt ayırdığınıza görə çox sağ olun.

## TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMONUN RƏSMİ QARŞILANMA MƏRASİMİ

*23 may 2024-cü il*

*Azərbaycan Respublikasına dövlət səfərinə gəlmiş Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun mayın 23-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Tacikistan Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Prezidenti İlham Əliyev Tacikistan Prezidenti Emoməli Rəhmonu qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Tacikistan Prezidentinə raport verdi.*

*Prezident İlham Əliyev və Prezident Emoməli Rəhmon Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Tacikistan Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Tacikistan Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.*

*Azərbaycan nümayəndə heyəti Tacikistan Prezidentinə, Tacikistan nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Tacikistan Prezidenti Emoməli Rəhmonun qarşısından keçdi.*

*Dövlət başçıları rəsmi foto çəkdirdilər.*

## TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMON İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*23 may 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 23-də Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə təkbətək görüşü olmuşdur.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*23 may 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 23-də Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə geniş tərkibdə görüşü keçirilmişdir.*

**İ l h a m Ə l i y e v**: Hörmətli Emoməli Şaripoviç!

Hörmətli qonaqlar!

Sizi Azərbaycan torpağında salamlamağıma şadam. Çox şadam ki, Siz mənim dəvətimi qəbul etdiniz və Azərbaycana dövlət səfərinə gəldiniz. Görüşlərimiz müntəzəm xarakter daşıyır. Biz Tacikistanda, Azərbaycanda tez-tez görüşürük. Mən ötən il bir neçə dəfə ölkənizə səfər etmişəm, həmçinin Sizin dəvətinizlə Mərkəzi Asiya Dövlət Başçılarının Zirvə toplantısında iştirak etmişəm. Siz həmçinin ötən il Mərkəzi Asiya ölkələrinin və Azərbaycanın Zirvə toplantısı çərçivəsində ölkəmizdə səfərdə oldunuz. Beləliklə, yüksək səviyyəli təmaslar müntəzəm xarakter daşıyır və bu gün biz Sizinlə həm ikitərəfli gündəliklə, həm də beynəlxalq, regional problemlərlə bağlı bir çox mühüm məsələlər üzrə məsləhətləşmələri və müzakirələri davam etdirdik. Aydındır ki, dövlət səfərinin xüsusi statusu var və bu, münasibətlərimizin bugünkü yüksək səviyyəsinin təzahürüdür. Həmçinin münasibətlərin inkişafında mühüm mərhələlərdən biri bu

gün imzalayacağımız, bununla da münasibətlərimizin səviyyəsini rəsmi şəkildə yüksəldəcəyimiz Strateji Tərəfdaşlıq Bəyannaməsidir. Hərçənd qarşılıqlı münasibətlərin tarixinə və xarakterinə nəzər salsaq, onların çoxdan strateji tərəfdaşlıq xarakteri daşıdığını görərik.

Bizim hədəfimiz bütün istiqamətlər üzrə fəal qarşılıqlı fəaliyyətdir. Bildiyiniz kimi, Sizin səfərinizdən əvvəl biznes-forum olub. Azərbaycanda Tacikistanın Mədəniyyət Günləri keçirilir. Bütün bunlar münasibətlərimizi konkret məzmunla zənginləşdirir. İqtisadi xarakterli bir neçə sənəd imzalanıb. Bu gün nümayəndə heyətlərinin üzvləri ilə müzakirələr çərçivəsində əlaqələrimizə daha çox məzmun əlavə etmək üçün bu gündəliyi ətraflı nəzərdən keçirəcəyik. Çünki ticarət dövriyyəsinin statistik rəqəmləri ilə tanış olduqdan sonra, əlbəttə ki, onların hələlik bizi qane edə biləcəyini deyə bilmərik. Düşünürəm ki, bizim bu gün Sizinlə, sonra nümayəndə heyətlərinin üzvləri ilə artıq razılığa gəldiyimiz və müzakirə edəcəyimiz məsələlər ticarət dövriyyəsinin artmasına kömək edəcək. Təbii ki, müzakirə etdiyimiz mövzulardan biri də Tacikistanın və Azərbaycanın nəqliyyat-logistika infrastrukturunun yeni imkanlarının nəzərə alınması ilə nəqliyyat sektorunda əməkdaşlıqdır. Hesab edirəm ki, bu istiqamətdə səylərimizi birləşdirmək, addımlarımızı daha sıx əlaqələndirmək faydalı olacaq. Çünki Transxəzər nəqliyyat dəhlizi Avropa regionu və Mərkəzi Asiya regionu üçün getdikcə daha çox əhəmiyyət kəsb edir. Azərbaycan isə Avropa ilə Asiyanın kəsişməsində yerləşən birləşdirici ölkə kimi özünün nəq-

liyyat infrastrukturu ilə, əlbəttə ki, bu məsələdə mühüm rol oynayır.

Gündəliyimiz kifayət qədər genişdir. Təkcə nümayəndə heyətlərinin tərkibi bizim hansı istiqamətlər üzrə fəal qarşılıqlı fəaliyyət göstərdiyimizdən xəbər verir. Əminəm ki, nəticələr də çox yaxşı olacaq və səfər faydalı, həmçinin xoş keçəcək.

Bir daha xoş gəlmisiniz!

**E m o m ə l i  R ə h m o n:** Çox sağ olun, hörmətli İlham Heydər oğlu!

Əziz dostlar!

İlk növbədə, hörmətli İlham Heydər oğlu, yüksək diqqətinizə və səmimi qonaqpərvərliyinizə görə Sizə səmimi-qəlbdən təşəkkür etmək istəyirəm. Şadam ki, biz qarşılıqlı səfərlər ənənəsini yüksək səviyyədə davam etdiririk. Əminəm ki, bugünkü görüşlərin nəticələri ölkələrimizin əməkdaşlığını yeni inkişaf səviyyəsinə yüksəldəcək. Azərbaycan Tacikistanın etibarlı dostu və tərəfdaşıdır. Ölkələrimizi zamanın sınağından çıxmış münasibətlər birləşdirir. Bizim aktual regional və beynəlxalq məsələlərdə mövqelərimiz eynidir. Ölkələrimizin xalqlarının daha da yaxınlaşmasına yönələn humanitar əlaqələr fəal inkişaf edir.

Bu gün biz dövlətlərarası münasibətlərimizi strateji tərəfdaşlıq səviyyəsinə yüksəldən tarixi qərar qəbul edəcəyik. Bu, xalqlarımızın qardaşlığının və dostluğunun əsrlərdən bəri davam edən ənənələrinin ruhuna uyğundur. Bu qərarlar müstəqilliyimizin bütün dövründə qarşılıqlı fəaliyyətimizin irəliləməsində əldə olunan uğurları daha da möhkəmləndirir. Bu baxımdan qeyd etmək istərdim ki, bu prosesin başlanğıcını

Azərbaycan xalqının ümummilli lideri, çox hörmətli Heydər Əlirza oğlu Əliyev qoyub. Əminəm ki, bu gün əldə ediləcək razılaşmalar qardaş xalqlarımızın dərin maraqlarına cavab verəcək və Tacikistan–Azərbaycan münasibətlərinin möhkəm təməlinə çevriləcəkdir. Sizə təşəkkür edirəm.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*23 may 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun iştirakı ilə mayın 23-də Azərbaycan–Tacikistan sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon «Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə»ni imzaladılar.*

*Azərbaycanın Rəqəmsal İnkişaf və Nəqliyyat naziri Rəşad Nəbiyev və Tacikistanın Sənaye və Yeni Texnologiyalar naziri Kabir Şerali «Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Tacikistan Respublikasının Sənaye və Yeni Texnologiyalar Nazirliyi arasında Anlaşma Memorandumu»nu imzaladılar.*

*Azərbaycanın Ədliyyə naziri Fərid Əhmədov və Tacikistan Respublikası Hökuməti yanında İcra Xidmətinin rəisi Barno Saidvalizoda «Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Tacikistan Respublikası Hökuməti yanında İcra Xidməti arasında məhkəmə aktlarının və digər orqanların aktlarının icrası*

*sahəsində əməkdaşlıq haqqında Memorandum»u imzaladılar.*

*Azərbaycanın Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev və Tacikistan Respublikası Hökuməti yanında Ətraf Mühitin Mühafizəsi Komitəsinin sədri Baxodur Şeralizoda «Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Tacikistan Respublikası Hökuməti yanında Ətraf Mühitin Mühafizəsi Komitəsi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu imzaladılar.*

*Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarov və Tacikistanın İqtisadi İnkişaf və Ticarət naziri Zavki Zavkizoda «Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş»i və «Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında rəqəmsal ticarət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu imzaladılar.*

*Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov və Tacikistanın Daxili İşlər naziri Ramazon Raximzoda «Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlığa dair Saziş»i imzaladılar.*

*Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov və Tacikistanın Xarici İşlər naziri Muxriddin Sirodjiddin «Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında informasiyanın texniki mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş»i imzaladılar.*

## TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMON İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*23 may 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon mayın 23-də mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli Emoməli Şaripoviç!

Əziz dostlar!

Əziz qonağımız, Azərbaycanın böyük dostu, qardaş Tacikistanın Prezidenti Emoməli Şaripoviç Rəhmonu qəbul etmək bizim üçün böyük şərəfdir.

Bu gün nümayəndə heyətləri üzvlərinin iştirakı ilə geniş tərkibdə, həmçinin təkbətək görüş əsnasında qarşılıqlı fəaliyyətimizlə bağlı məsələlərin geniş spektrini müzakirə etdik, sənaye kooperasiyası, humanitar sahədə əməkdaşlıq üzrə iqtisadi xarakterli bir çox layihənin reallaşdırılmasına dair hökumətimizin üzvlərinə konkret tapşırıqlar verdik.

İlin sonunda Emoməli Şaripoviç yenidən ölkəmizə səfər edəcək, biz bir daha bütün məsələləri nə-

zərdən keçirəcək və verilən tapşırıqların yerinə yetirilməsinə nəzarət edəcəyik. Mən Tacikistan Prezidentini noyabrda keçiriləcək iqlim konfransında iştiraka dəvət etdim. Bu dəvət qəbul olundu. Biz bu beynəlxalq tədbirin keçirilməsinə fəal hazırlaşırıq və Tacikistanın aktiv iştirakını gözləyirik. Əminəm ki, tacik dostlarımız bu konfransın uğurla keçirilməsinə və yaxşı nəticələr əldə edilməsinə böyük töhfə verəcəklər.

Qarşılıqlı fəaliyyətimizin əsasında çoxəsrlik tarixboyu əməkdaşlıq etmiş, dost olmuş, birlikdə qurub-yaratmış xalqlarımızın iradəsi dayanır. Bu gün dövlətlərarası münasibətlərimiz ən yüksək səviyyəyə çatıb.

Biz indicə münasibətlərimizin xarakterini, ruhunu, həmçinin xalqlarımızın iradəsini əks etdirən Strateji Tərəfdaşlıq Bəyannaməsini imzaladıq. Bəyannamə qarşılıqlı fəaliyyətin, demək olar, bütün sahələrini əhatə edir. Bu sənəddə qarşılıqlı dəstək və konkret nəticələrə diqqət ifadə olunub.

Bu gün iqtisadi əməkdaşlıq məsələlərini ətraflı müzakirə etdik. Strateji Tərəfdaşlıq Bəyannaməsi ilə yanaşı, daha 13 sənəd, ümumilikdə 14 sənəd imzalanıb ki, onlardan bəziləri burada, bəziləri isə əvvəllər imzalanıb. Bu, münasibətlərimizin müqavilə-hüquq bazasını xeyli möhkəmləndirir. Tacikistan Prezidentinin səfəri ərəfəsində biznes-forum keçirildi, bu forumda da sənədlər və qarşılıqlı Anlaşma memorandumları imzalandı və bu barədə bu gün bizə məlumat verildi. Hesab edirəm ki, bu bizə qarşılıqlı ticarətin həcmini xeyli artırmağa imkan verəcək.

Bu günlərdə Azərbaycanda keçirilən və bir neçə gün, təxminən bir həftə davam edəcək Tacikistanın Mədəniyyət Günləri də ikitərəfli münasibətlərdə mühüm hadisədir. Düşünürəm və əminəm ki, o, tacik xalqının zəngin mədəniyyəti ilə tanış olmaq imkanı əldə edən Azərbaycan tamaşaçılarına sevinc bəxş edir.

Bu gün biz sənaye kooperasiyası ilə bağlı məsələləri ətraflı müzakirə etdik və əminəm ki, haqqında danışdığımız məsələlər, hökumət üzvlərinə verilən tapşırıqlar ən qısa zamanda icra olunacaq. Nəqliyyat sektoru da diqqət mərkəzimizdədir. Biz «Orta Dəhliz»i və onun bir hissəsi olan Transxəzər nəqliyyat dəhlizini Tacikistandan yükgöndərənlər üçün daha cəlbedici etmək məqsədilə logistika əlaqələrinə dair məsələləri ətraflı nəzərdən keçirdik. Mən həmkarıma məlumat verdim ki, Azərbaycan öz ərazisində bütün iri nəqliyyat və logistika layihələrini praktiki olaraq, başa çatdırıb və bu gün müxtəlif istiqamətlərdə – şərqdən qərbə və əks istiqamətdə, şimaldan cənuba və əks istiqamətdə böyük həcmdə yükləri qəbul etməyə hazırdır.

Bu gün, həmçinin geosiyasi dəyişikliklər, dünyadakı vəziyyət, regionlarımızdakı şərait ilə bağlı məsələləri müzakirə etdik. Biz təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və bu sahədə əməkdaşlığın inkişafı, təhsil, mədəniyyət və kənd təsərrüfatı ilə bağlı məsələləri ətraflı nəzərdən keçirdik. Bir sözlə, hətta ölkələrimizin nümayəndə heyətlərinin tərkibi də geniş gündəmdən xəbər verir. Amma əsas olan münasibətlərimizdəki səmimiyyət, Tacikistanla Azərbaycan arasındakı münasibətlərin dostluq, qardaşlıq xarakteri,

təbii ki, dövlət başçılarının şəxsi təmaslarıdır. Keçən il mən Tacikistanda iki dəfə – həm dövlət səfərində oldum, həm də Emoməli Şaripoviç məni Mərkəzi Asiya Dövlət Başçılarının Zirvə görüşünə fəxri qonaq qismində dəvət etdi. Həmçinin ötən il biz BMT-nin Mərkəzi Asiya İqtisadiyyatları üzrə xüsusi proqramının – SPECA-nın Sammitini keçirdik və Emoməli Şaripoviç ölkəmizə səfər etdi. Yəni bizim Tacikistan və Azərbaycanda müntəzəm təmaslarımız – hələ beynəlxalq tədbirlər çərçivəsində keçirilən görüşləri demirəm – əlbəttə ki, qarşılıqlı fəaliyyətimizin ən mühüm amilidir, münasibətlərin konkret olaraq zənginləşməsi üçün bütün sahələrə güclü təkan verir.

Hörmətli Emoməli Şaripoviç, bir daha Sizi səmimiyyətlə salamlayıram. Dəvətimi qəbul etdiyinizə və dövlət səfərinə gəldiyinizə görə təşəkkür edirəm. Qardaş Tacikistan xalqına Sizin rəhbərliyinizlə yeni qələbələr arzulayıram. Təxminən 20 il ərzində Tacikistana səfər edən bir şəxs kimi, hər dəfə irimiqyaslı dəyişikliklərin, iqtisadi, sosial inkişafın, şəhərsalma sahəsində uğurların şahidi oluram. Hər dəfə Düşənbədə olarkən şəhərin necə gözəlləşdiyini, onun sakinlər və qonaqlar üçün rahat olduğunu görürəm. Buna görə də bir daha bütün nailiyyətlər münasibətilə təbrik edirəm. Sizə və qardaş tacik xalqına yeni uğurlar arzulayıram.

## Tacikistan Prezidenti Emoməli Rəhmonun bəyanatı

Sağ olun, hörmətli İlham Heydər oğlu!

Hörmətli media nümayəndələri!

Xanımlar və cənablar!

İlk növbədə, ənənəvi qonaqpərvərliyə, yüksək diqqətə və səmimi qəbula görə Azərbaycan Respublikasının Prezidenti, əziz dostum və qardaşım İlham Heydər oğlu Əliyevə və qardaş Azərbaycan xalqına ürəkdən təşəkkür etmək istəyirəm.

Bu gün regionun ən böyük sənaye, iqtisadi və elmi-texniki mərkəzlərindən biri olan qədim tarixə malik gözəl Bakı şəhərini növbəti dəfə ziyarət etdiyimə görə çox şadam. Azərbaycan paytaxtının təkrarolunmaz siması ölkənin dinamik sosial-iqtisadi inkişafının və Azərbaycan xalqının rifahının davamlı olaraq yüksəlməsinin təcəssümüdür.

Bugünkü görüşlərimiz Tacikistan–Azərbaycan dostluq və əməkdaşlıq münasibətlərinə xas konstruktiv və etimad mühitində keçdi. Danışıqlar zamanı iki ölkə arasındakı münasibətlərin bütün kompleksini ətraflı müzakirə etdik. Bu münasibətlərin uzunmüddətli inkişafının təməlini əhəmiyyətli dərəcədə gücləndirən bir sıra vacib razılaşmalar əldə etdik.

Hörmətli İlham Heydər oğlu qeyd etdiyi kimi, bu gün biz dövlətlərarası münasibətlərimizin səviyyəsini strateji tərəfdaşlığa yüksəldən tarixi qərar qəbul etmişik. Bu qərar şübhəsiz ki, əməkdaşlığımızın tarixində yeni səhifə açır. Öz növbəmdə, müntəzəm siyasi

dialoqun bütün səviyyələrdə aparılmasının vacibliyini vurğulamaq istərdim.

Tacikistanda Azərbaycan Prezidenti İlham Əliyevin ölkələrimizin ikitərəfli münasibətlərinin inkişafına şəxsi töhfəsi yüksək qiymətləndirilir. Danışıqlar zamanı Azərbaycan Prezidentinin Tacikistana keçənilki dövlət səfəri zamanı əldə edilmiş razılaşmaların əməli surətdə həyata keçirilməsi məsələlərinə xüsusi diqqət yetirildi. İqtisadi-ticari sahədə əməkdaşlığımızın inkişafı diqqət mərkəzində saxlanıldı. Ölkələrimizin hökumətlərinə 2025-ci ilədək hökumətlərimiz arasında iqtisadi əməkdaşlıq üzrə Tədbirlər Planının tam icrasına ciddi nəzarət etmək tapşırıldı. İqtisadi-ticari əməkdaşlıq məsələləri üzrə hökumətlərarası birgə Komissiyanın daha səmərəli işləməsi məqsədilə biz onu həmsədrlər səviyyəsindən Baş nazirlərin müavinləri səviyyəsinə qaldırmağı təklif etdik.

Həmçinin parlamentlərarası dialoqun inkişafına dair fikir mübadiləsi aparıldı.

Danışıqlar zamanı bir daha Azərbaycan şirkətlərinin və maliyyə qurumlarının Tacikistanda layihə və proqramların həyata keçirilməsində iştirak imkanlarını prioritet qaydada nəzərdən keçirməyə hazır olduğumuzu bildirdik. Bakıda səfərimiz çərçivəsində keçirilmiş biznes-forum tərəflərin iqtisadi-ticari əlaqələrini inkişaf etdirmək üçün geniş imkanlara malik olduqlarını göstərdi. Ümidvaram ki, onun nəticələri bu gün imzalanmış ikitərəfli sənədlərlə yanaşı, bu istiqamətdəki əməkdaşlığımıza da təkan verəcək. Qeyd etmək lazımdır ki, forum çərçivəsində imzalanmış kommersiya müqavilələrinin

və sazişlərin ümumi məbləği bütövlükdə 700 milyon ABŞ dollarından çox olub. Müvafiq nazirliklərə və idarələrə ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılması məqsədilə qarşılıqlı tədarük olunan malların nomenklaturasının genişləndirilməsinə yeni yanaşmaların hazırlanması üçün konkret tapşırıqlar verildi.

Danışıqlar zamanı biz aqrar sahəyə də xüsusi diqqət yetirdik. Biz turizm sahəsində əməkdaşlığın inkişafına dair «Yol xəritəsi»nin imzalanmasını alqışladıq. Bununla bağlı müvafiq qurumlara paytaxtlarımız arasında birbaşa aviareyslərin bərpası üçün tədbirlərin görülməsi tapşırıldı.

Nəqliyyat və kommunikasiya sahələrinə xüsusi diqqət yetirildi. Tacikistanın dövlət və kommersiya strukturlarının Azərbaycan ərazisindən yükdaşımalarının həcminin artması tendensiyasını məmnunluqla qeyd etdik. Tacikistanın yükdaşıyıcılarına məqbul tranzit tarifləri təqdim etdiyinə görə Azərbaycan tərəfinə minnətdarlığımızı bildirdik.

Danışıqlarımızda mədəni-humanitar əməkdaşlıq məsələsi də mühüm yer tutdu. Bu baxımdan, təhsil sahəsində əməkdaşlığın inkişafına diqqət yetirildi. İki ölkənin universitetlərində təhsil almaq üçün qarşılıqlı olaraq ayrılan kvotaların sayını artırmaq barədə razılığa gəldik. Səfər çərçivəsində keçirilən mədəni tədbirlər ölkələrimizin vətəndaşlarının bir-birimizin mədəni nailiyyətləri ilə tanış olmaq marağını və istəyini bir daha sübuta yetirdi. Biz dostlarımıza təklif etdik ki, gələn il Tacikistanda Azərbaycan Mədəniyyət Günlərini keçirək və bu tədbir çərçivəsində Tacikistan və

Azərbaycan xalqları arasında Dostluq Festivalı təşkil edək.

Danışıqlar zamanı təhlükəsizliklə bağlı risklər və təhdidlər müzakirə edildi. Öz növbəmdə onu da qeyd etmək istərdim ki, beynəlxalq aləmdə mövcud vəziyyət mürəkkəb və gərgin olaraq qalmaqdadır. Fürsətdən istifadə edərək vurğulamaq istəyirəm ki, Tacikistan bütün ziddiyyətlərin və münaqişələrin sülh yolu ilə həllinin tərəfdarıdır. Biz Azərbaycanla təhlükəsizlik sahəsində səmərəli əməkdaşlığın səviyyəsindən və məzmunundan məmnunluğumuzu bildiririk. Bu baxımdan, terrorizmə və ekstremizmə, radikalizmin təzahürlərinə, transmilli mütəşəkkil cinayətkarlığa, o cümlədən kibercinayətkarlığa və narkotik qaçaqmalçılığına qarşı mübarizəyə mühüm yer ayırırıq. Bu xətt üzrə xüsusi xidmət orqanlarının və ixtisaslaşdırılmış digər idarələrin fəaliyyətinin əlaqələndirilməsinin gücləndirilməsini zəruri hesab edirik.

Beynəlxalq və regional təşkilatlar çərçivəsində ölkələrimizin təşəbbüslərinin qarşılıqlı şəkildə dəstəklənməsi təcrübəsinin davam etdirilməsinin tərəfdarı olduğumuzu bildirdik. Azərbaycanın bu il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının növbəti sessiyasını – COP29-u keçirməsi ilə bağlı qərarını alqışlayırıq.

Vurğulamaq istərdim ki, biz Tacikistan–Azərbaycan münasibətlərinin inkişaf perspektivlərinə nikbin baxırıq.

Sonda, hörmətli İlham Heydər oğlu, səmimi qəbula və qardaşcasına qonaqpərvərliyə görə Sizə və

qardaş Azərbaycan xalqına bir daha səmimi-qəlbdən təşəkkürümü bildirmək istəyirəm.

Onu da demək istərdim ki, mən konstruktiv dialoqumuzu davam etdirmək məqsədilə əziz dostum və qardaşım İlham Heydər oğlu Əliyevi böyük məmnuniyyətlə Tacikistana səfərə dəvət etmişəm.

Çox sağ olun. Diqqətinizə görə təşəkkür edirəm.

## UKRAYNANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ YURİ QUSEV İLƏ GÖRÜŞ

*25 may 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Ukraynanın ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Yuri Qusevin etimadnaməsini qəbul etmişdir.*

*Etimadnaməni qəbul etdikdən sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.*

*Səfir Ukrayna Prezidenti Volodimir Zelenskinin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Ukrayna Prezidentinə çatdırmağı xahiş etdi.*

*Dövlətimizin başçısı Prezident Volodimir Zelenski ilə bir neçə gün əvvəl telefon danışığını xatırladaraq, bu müstəvidə ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıq məsələlərinə toxunulduğunu diqqətə çatdırdı.*

*Söhbət zamanı ölkələrimizin müstəqilliklərinin bərpasından bəri Azərbaycan ilə Ukrayna arasında dostluq münasibətlərinin formalaşdığı və ölkələrimiz arasında ikitərəfli əsasda yaxşı əlaqələrin olduğu qeyd edildi, həmçinin dövlətlərimizin bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyi vurğulandı.*

*Səfir Ukraynaya göstərilən humanitar dəstəyə, xüsusilə Ukraynadan olan uşaqların Azərbaycanda reabilitasiyası üzrə təşkil olunan layihələrə görə təşəkkürünü bildirdi.*

*Yuri Qusev ötən gün Azərbaycanın Laçın şəhərinə səfər etdiyini və burada görülən bərpa-quruculuq işlərinin onda böyük təəssürat yaratdığını deyərək, İrpen və Laçın şəhərləri arasında qardaşlıq münasibətlərinin qurulması məsələsini qeyd etdi.*

*Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## İTALİYA RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ LUKA Dİ CANFRANÇESKO İLƏ GÖRÜŞ

*25 may 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də İtaliya Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Luka Di Canfrançeskonun etimadnaməsini qəbul etmişdir.*

*Etimadnaməni qəbul etdikdən sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.*

*Azərbaycana səfir təyin olunmasından məmnunluğunu bildirən Luka Di Canfrançesko İtaliya Prezidenti Sercio Mattarellanın salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İtaliya Prezidentinə çatdırmağı xahiş etdi.*

*Söhbət zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin xüsusi xarakter daşıdığı və strateji tərəfdaşlıq müstəvisində inkişaf etdiyi vurğulandı.*

*Səfir əlaqələrimizin bütün sahələrdə, o cümlədən elm və təhsil sahəsində uğurla inkişaf etdiyini deyərək, İtaliya universitetlərinin Azərbaycanda açılması istiqamətində aparılan işləri məmnunluqla qeyd etdi.*

*Prezident İlham Əliyev İtaliyanın Azərbaycanın Avropa İttifaqına üzv ölkələr arasında əsas ticarət tərəfdaşı olduğunu vurğuladı.*

*Görüşdə ölkələrimiz arasında siyasi və humanitar əlaqələrin, iqtisadi və təhsil sahəsindəki əməkdaşlığın dinamik surətdə inkişaf etməsindən məmnunluq ifadə olundu. Azərbaycan ilə İtaliya arasında əlaqələrin xüsusilə enerji sahəsindən başlandığı, sonra müxtəlif sahələri, o cümlədən mədəniyyət, informasiya-kommunikasiya texnologiyaları, nəqliyyat və digər sahələri əhatə etdiyi bildirildi.*

*Söhbət zamanı Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa-quruculuq işlərində dost və tərəfdaş ölkə olan İtaliya şirkətlərinin yaxından iştirakı məmnunluqla vurğulandı.*

*Görüşdə «Orta Dəhliz»in inkişafı və bu çərçivədə əməkdaşlığın perspektivləri müzakirə olundu.*

*Azərbaycan–Avropa İttifaqı əlaqələri və Avropa İttifaqına üzv ölkə olaraq İtaliyanın bu prosesdə Azərbaycana dəstəyi məsələsi də qeyd edildi.*

## «CRESCENT BAY» LAYİHƏSİNİN TƏQDİMATI VƏ «CRESCENT MALL» TİCARƏT MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*27 may 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 27-də Bakıda «Crescent Bay» layihəsinin təqdimatında və «Crescent Mall» ticarət mərkəzinin açılışı mərasimində iştirak etmişlər.*

*«PASHA Property Management» şirkətinin baş icraçı direktoru Elçin Qədimov Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya «Crescent Bay» layihəsi barədə məlumat verdi.*

*Sonra dövlətimizin başçısı və xanımı «Crescent Mall» ticarət mərkəzinin açılışını etdilər. «PASHA Malls Group» şirkətinin baş icraçı direktoru Yaman Şahin ticarət mərkəzində yaradılmış şərait barədə məlumat verdi.*

*«Crescent Mall» ticarət mərkəzi ənənənin innovasiyalarla qovuşduğu bir məkan kimi, Bakının müasir və dinamik inkişafını əks etdirir. 115 min kvadratmetr sahədə alış-veriş, əyləncə və istirahətin təklif edildiyi məkanda beşmərtəbəli müasir texnologiyalarla inşa edilmiş bina, üçmərtəbəli 1193 parkinq yeri, açıq havada yerləşən terras və restoran, həmçinin Azərbaycanda ticarət mərkəzində ilk dəfə fəaliyyət göstərəcək musiqili fəvvarə yer alıb.*

*Ticarət mərkəzində 107 geyim, qastronomiya, sağlamlıq, uşaq əyləncə mərkəzləri və digər mağazalar vardır. Bura gələn qonaqlar vaxtlarını səmərəli keçirə biləcəklər. «Crescent Mall»da alıcılara böyüklər və uşaqlar üçün geniş çeşiddə geyimlər, ev avadanlıqları və digər məhsullar təklif olunur.*

*Mərkəzdə 2400-ə yaxın işçi fəaliyyət göstərəcək.*

*Ticarət mərkəzinin açıq restoranlara qalxan hissəsində çoxmərtəbəli sütunda ölkəmizin mədəni irsinə istinad edən milli elementlərdən ibarət incəsənət nümunəsi həkk edilib. Rəsm əsərində təsvir edilmiş və sanki orta əsrlərin milli xalçalarından birbaşa sütuna köçmüş nar rəsmləri dünya, həyat və birlik simvoludur. Açan güllər və quşlar ilə zaman dinamikasında bir araya gələn «Həyat ağacı» isə sürətlə inkişaf edən, ənənələrimizə sadiq qalaraq, gələcəyə doğru inamla hərəkət edən, birlik və azadlıq rəmzini özündə təcəssüm etdirən Azərbaycan xalqını ifadə edir.*

*Bundan başqa, «Crescent Mall»da SPA, gözəllik və fitnes mərkəzləri də qonaqların xidmətində olacaq.*

*Qeyd olundu ki, ən müasir texnologiyalarla inşa edilmiş ticarət mərkəzində rəqəmsallaşan dünyanın yeni trendlərinə uyğun olaraq, süni intellektlə fəaliyyət göstərən məlumat bələdçisi xidməti də vardır. Burada fəaliyyət göstərən brendlər haqqında ətraflı məlumat verəcək bələdçi, həmçinin istiqamət göstərəcək və xidmətlərlə bağlı sorğuları cavablandıracaq. Bununla da qonaqların ticarət mərkəzi daxilində hərəkəti asanlaşacaq. Məlumat bələdçisi 140 dildə yazılı, Azərbaycan, ingilis və rus dillərində isə şifahi məlumatlar verə bilir.*

*Süni intellektin tətbiqi ilə ticarət mərkəzində müasir və dünyəvi trendlər tarixi və mədəni dəyərlərimizlə də əlaqələndirilib. Bu məqsədlə girişdə qonaqları qarşılayan süni intellektli robot «Leyli» adlandırılıb. Süni intellekt məlumat bələdçisi Leyli dahi Azərbaycan şairi Nizami Gəncəvinin «Leyli və Məcnun» poemasından müdriklik və gözəllik rəmzi olan Leylini simvolizə edir.*

*«Crescent Mall» ticarət mərkəzi kimi obyektlərin istifadəyə verilməsi ölkəmizin iqtisadi potensialını və vətəndaşlara xidmətin yüksək səviyyədə təşkilini nümayiş etdirir. Bundan başqa, ticarət mərkəzi dünyanın ən gözəl və müasir şəhərlərindən biri olan Bakının memarlığı, müasirliyi ilə harmoniya təşkil edərək, paytaxtımızı daha da gözəlləşdirir.*

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SOSİAL MEDİA HESABLARINDAN

*27 may 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial media hesablarında 28 May – Müstəqillik Günü münasibətilə paylaşım etmişdir.*

*Paylaşımdakı fotonun üzərində:* «28 May – Müstəqillik Günü» *sözləri yer alıb.*

## DÜNYA LİDERLƏRİNİN VƏ NÜFUZLU ŞƏXSLƏRİNİN 28 MAY MÜSTƏQİLLİK GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN PREZİDENTİNƏ GÖNDƏRDİYİ TƏBRİK MƏKTUBLARI

### TÜRKİYƏ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞANDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Əziz qardaşım!

Zati-alinizi və can Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə xalqım adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Türkiyə olaraq kədərdə də, sevincdə də bir olduğumuz qardaş Azərbaycanın 2023-cü ilin sentyabr ayında ərazi bütövlüyünü uğurla bərpa etməsindən sonrakı ilk Müstəqillik Günündə duyduğu haqlı qürur və sevincini ürəkdən bölüşürük. Azərbaycanın həm regionda, həm də yaxın coğrafiyada nail olduğu irəliləyişlərlə daim fəxr edir və yüksək səviyyəli strateji əlaqələrimizi «Bir millət – iki dövlət» ruhu ilə daha da gücləndirmək istiqamətindəki birgə iradədən böyük məmnunluq hissi keçiririk.

Fürsətdən istifadə edərək, zati-alinizə cansağlığı və xoşbəxtlik diləyir, qardaş Azərbaycan xalqının xoş günləri və rifahı üçün ən səmimi arzularımı bir daha ifadə edirəm.

## RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Azərbaycan sosial-iqtisadi inkişaf istiqamətində hamı tərəfindən qəbul edilən uğurlar qazanıb, dünya arenasında layiqli nüfuza malikdir və beynəlxalq gündəlikdəki mühüm məsələlərin həllində fəal iştirak edir. Bakı ilə müttəfiqlik münasibətlərinə böyük əhəmiyyət veririk. Əminəm ki, gələcəkdə də bütün sahələrdə məhsuldar ikitərəfli əməkdaşlığı, o cümlədən regional məsələlərdə səylərin əlaqələndirilməsini planlı şəkildə artırmağa birgə davam edəcəyik. Bu, şübhəsiz ki, dost xalqlarımızın maraqlarına cavab verir, Cənubi Qafqazda və Xəzər dənizində təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsi məcrasında davam edir.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən cansağlığı və uğurlar, bütün Azərbaycan vətəndaşlarına isə xoşbəxtlik və tərəqqi arzulayıram.

## AMERİKA PREZİDENTİ COZEF BAYDENDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Amerika xalqı adından Sizi və Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə təbrik edirəm.

Amerika Birləşmiş Ştatları Azərbaycan Respublikası ilə ikitərəfli münasibətlərinə dəyər verir. Diplomatik əlaqələrimizin 30 ildən artıq bir dövründə biz enerji təhlükəsizliyi, regional təhlükəsizlik və terrorçuluqla mübarizə də daxil olmaqla, birgə maraqlara söykənən tərəfdaşlıq qurmuşuq. Hər iki ölkəmiz Əfqanıstanda çiyin-çiyinə döyüşmüş və birlikdə «Cənub Qaz Dəhlizi»ni inkişaf etdirməklə regional enerji təhlükəsizliyi ilə bağlı çağırışlara sinə gərmişdir. Biz həmçinin Rusiyanın davam edən qəddar müharibəsi fonunda Azərbaycanın Ukraynaya göstərdiyi həyati əhəmiyyətli humanitar yardımı da yüksək qiymətləndiririk.

Prezidentliyinizin beşinci müddətinin başladığı bir vaxtda Amerika Birləşmiş Ştatları regional və qlobal məsələlərdə, o cümlədən iqlim dəyişikliyi və «yaşıl enerji»yə keçid sahəsində qarşılıqlı əməkdaşlığımızı dərinləşdirməyə səy göstərəcəkdir. Biz Azərbaycanı demokratik idarəetmənin gücləndirilməsi və bütün azərbaycanlıların insan hüquqları və fundamental azadlıqlarının qorunması üçün əsaslı addım-

lar atmağa dəvət edirik. Biz noyabrda Bakıda keçiriləcək COP29 çərçivəsində iqlimlə bağlı birgə məqsədlərimizin irəlilədilməsini arzulayırıq və tədbirin uğurla keçirilməsində Azərbaycana dəstək verməyə hazırıq.

Azərbaycanın müstəqilliyinin qeyd edildiyi bu bayramda Amerika Birləşmiş Ştatları Azərbaycanın müstəqilliyinə, ərazi bütövlüyünə və suverenliyinə dəstəyini bir daha təsdiq edir. Biz Azərbaycanın və Ermənistanın davamlı və ləyaqətli sülhün təmin edilməsinə yönəlmiş addımlarını alqışlayır və bu səyləri dəstəkləməyə hazırıq. Ən əsası isə biz Azərbaycan xalqı ilə tərəfdaşlığımızı inkişaf etdirməyi və əlaqələri möhkəmləndirməyi arzulayırıq.

Sizə və Azərbaycan xalqına ən xoş arzularımı yetirirəm.

## ÇİNİN SƏDRİ Sİ CİNPİNDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Sizə və Sizin simanızda dost Azərbaycan xalqına ölkənizin Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Hazırda Çin–Azərbaycan dostluq və əməkdaşlıq münasibətlərində dinamik inkişaf tendensiyası müşahidə olunur. İki ölkə arasında siyasi etimad möhkəmlənir, «Bir kəmər – bir yol»un birgə tikintisi çərçivəsində əməkdaşlıq dərinləşir və beynəlxalq arenada sıx qarşılıqlı fəaliyyət həyata keçirilir. Mən Çin–Azərbaycan münasibətlərinin inkişafına yüksək diqqət yetirirəm və iki ölkə arasında əməkdaşlığın müxtəlif sahələrdə dərinləşdirilməsi və ikitərəfli əlaqələrin yeni səviyyəyə yüksəldilməsi üçün Sizinlə birgə səylər göstərməyə hazıram.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Azərbaycana tərəqqi və qüdrət, onun xalqına isə xoşbəxtlik və firavanlıq arzulayıram.

## PAKİSTANIN BAŞ NAZİRİ MƏHƏMMƏD ŞAHBAZ ŞƏRİFDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Əlamətdar bayram – Müstəqillik Günü münasibətilə Sizə və qardaş Azərbaycan xalqına ən səmimi təbriklərimizi çatdırmaqdan böyük məmnunluq duyuram. Müstəqillik Günü Azərbaycanın qurucularının ölkənin taleyini formalaşdırmaq əzmini və uzaqgörənliyini nümayiş etdirir.

Pakistan Azərbaycanla ortaq inanca, dəyərlərə və səylərə əsaslanan güclü qardaşlıq əlaqələrini yüksək qiymətləndirir. Qarşılıqlı faydalı əməkdaşlığımızın inkişaf etməsi böyük məmnunluq doğurur. Ölkələrimiz əsl qardaşlar kimi, beynəlxalq forumlarda əsas maraq doğuran bütün məsələlərdə bir-birini dəstəkləyib və bundan sonra da dəstəkləyəcək.

Bakının bu ilin noyabrında COP29-a ev sahibliyi edəcək şəhər seçilməsi münasibətilə Azərbaycanı bir daha təbrik edirəm. Mən Sizin dəvətinizi almışam və COP29 Sammitində iştirak etməyi səbirsizliklə gözləyirəm. Pakistanın hərtərəfli dəstəyinə əmin ola bilərsiniz və bu mühüm tədbirin təşkilində Azərbaycana uğurlar arzulayıram. Əminəm ki, Sizin müdrik rəhbərliyinizlə COP29 Azərbaycan üçün parlaq diplomatik nailiyyət olacaqdır.

2023-cü ilin iyun ayında gözəl Bakı şəhərinə səfərim zamanı apardığımız məhsuldar müzakirələri, eləcə də bu yaxınlarda Ramazan bayramı ilə əlaqədar telefon danışığımızı böyük məmnunluqla xatırlayıram. Zati-alinizin qardaşlıq əlaqələrimizi daha yüksək zirvələrə qaldırmaqla bağlı mövqeyi məni həmişə ruhlandırıb.

Zati-aliləri, məhz bu ruhda Sizə münasib olan ən yaxın zamanda Pakistana rəsmi səfər etmək barədə dəvətimi bir daha bildirirəm. Bu səfər bizim zamanla sınanmış və davamlı dostluq əlaqələrimizə təkan verməklə yanaşı, həm də münasibətlərdə yeni və şərəfli bir səhifə açacaqdır.

Zati-alinizə möhkəm cansağlığı, rifah, qardaş Azərbaycan xalqına isə davamlı firavanlıq və tərəqqi arzulayıram.

Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## QAZAXISTAN PREZİDENTİ KASIM-JOMART TOKAYEVDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Qazaxıstan xalqı adından və şəxsən öz adımdan Sizi və bütün Azərbaycan xalqını milli bayramınız – Müstəqillik Günü münasibətilə təbrik edirəm.

Respublikanızın suveren inkişafı tarixində əlamətdar olan bu gün azərbaycanlıların xüsusi qürur mənbəyidir, ölkənin birliyini və həmrəyliyini, davamlı inkişaf və tərəqqi yolu ilə inamlı irəliləyişini təcəssüm etdirir.

Azərbaycanın dövlətçilik əsaslarının və beynəlxalq nüfuzunun möhkəmləndirilməsi üzrə böyük nailiyyətlər bu tarixi günü xüsusi rəmzlə tamamlayır. Qazaxıstanda qardaş Azərbaycanın uğurlarını böyük ruh yüksəkliyi ilə qarşılayır, dostluq və qarşılıqlı dəstək ruhunda əməkdaşlığın dərinləşdirilməsinə böyük diqqət yetirirlər. Əminəm ki, Qazaxıstan–Azərbaycan strateji tərəfdaşlığı və müttəfiqliyi bir-birinə yaxın xalqlarımızın tərəqqisi naminə bundan sonra da möhkəmlənəcəkdir.

Sizə milli lider kimi fəaliyyətinizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

## BÖYÜK BRİTANİYA KRALI ƏLAHƏZRƏT III ÇARLZDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Siz və Azərbaycan xalqı Müstəqillik Gününüzü qeyd edərkən, mən və həyat yoldaşım zati-alinizə və xalqınıza səmimi təbriklərimizi çatdırmaqdan böyük məmnunluq duyuruq.

Mən xalqlarımız arasındakı əlaqələri yüksək qiymətləndirirəm və ümid edirəm ki, ölkələrimiz gələcək nəsillərimizə fayda verəcək mühüm qlobal məsələlərdə, istər sülh və rifah, istərsə də ətraf mühit və iqlim dəyişikliyi məsələlərində sıx əməkdaşlığı davam etdirəcəklər.

Mən və həyat yoldaşım fürsətdən istifadə edərək, milli bayramınız münasibətilə Sizə və bütün azərbaycanlılara ən xoş arzularımızı çatdırırıq.

## İTALİYA PREZİDENTİ SERCİO MATTARELLADAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Ölkənizin milli bayramı – Respublika Günü münasibətilə Sizə və Sizin simanızda dost xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Azərbaycan–İtaliya strateji tərəfdaşlıq münasibətləri məmnunluq doğurur. Siyasi, ticari-iqtisadi, enerji, müdafiə, humanitar və digər sahələrdə əlaqələrimiz çoxtərəfli qaydada birgə fəaliyyətimiz ilə müşayiət olunur. Əməkdaşlığımızın prioritet istiqamətlərindən olan enerji sektorunda uğurlu işbirliyimiz Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayır.

Azərbaycan ilə İtaliya arasında müxtəlif sahələri əhatə edən və gündən-günə yeni məzmunla zənginləşən qarşılıqlı faydalı əməkdaşlığın yüksək səviyyəsini vurğulamaq istərdim. Azərbaycanın mühüm iqtisadi tərəfdaşlarından olan ölkəmizin şirkətləri Azərbaycanın iqtisadi həyatında fəal iştirak edirlər. İşğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması işlərində İtaliya şirkətlərinin səmərəli fəaliyyəti təqdirəlayiqdir. Bütün bunlar tərəfdaşlığımızın yüksək səviyyəsindən, mövcud əmək-

daşlığımızı daha da şaxələndirmək əzmimizdən xəbər verir. Biz bu əməkdaşlığı daim diqqət mərkəzində saxlayır və dəstəkləyirik.

Ölkələrimizi birləşdirən sıx humanitar əlaqələri, o cümlədən elm və təhsil sahəsində səmərəli işbirliyimizi xüsusi qeyd etmək istərdim. Azərbaycanın aparıcı ali təhsil müəssisələrindən biri olan ADA Universiteti ilə İtaliyanın qabaqcıl universitetləri arasında uğurlu əməkdaşlıq bunun bariz nümunəsidir. Heç şübhəsiz ki, mövcud potensialdan və yeni imkanlardan istifadə edərək çoxşaxəli əlaqələrimizi daha da genişləndirə, qeyri-neft sektorunda əməkdaşlığımızı əhəmiyyətli dərəcədə artıra bilərik. Cari ildə Azərbaycanın COP29-a, İtaliyanın isə G7-yə sədrliyi əməkdaşlığımız üçün yeni imkanlar yaradır.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq, Azərbaycan–İtaliya dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi, həm ikitərəfli, həm də Avropa İttifaqı çərçivəsində birgə fəaliyyətimizin dərinləşdirilməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İtaliya xalqına daim rifah və əmin-amanlıq arzulayıram.

## ALMANİYA PREZİDENTİ FRANK-VALTER ŞTAYNMAYERDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Sizə və Azərbaycan xalqına 28 May – Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi göndərirəm. İndiki dövr həll olunmamış münaqişələr və hamımıza təsir edən iqlim dəyişikliyinin nəticələrinin təhdidi baxımından bizi sınayır. Bizdən indi həmişəkindən daha çox tələb olunur ki, qarşılıqlı etimad və anlayış əsasında sülh içində gələcək üçün zəmin və planetimizdə harmoniya və firavanlıq dolu bir həyat üçün mühit yaradaq.

Sizin ölkənizlə qonşunuz Ermənistan arasında münaqişənin həlli üçün birgə səylər göstərmək istəyi ölkələrimizin hökumət və xalqlarını birləşdirir.

Builki COP29 iqlim konfransına ev sahibliyi edən Azərbaycan öz üzərinə xüsusi məsuliyyət götürmüşdür. Buna görə Sizə və Sizin həmvətənlərinizə təşəkkür etmək və Sizi iddialı iqlim siyasətinə mühüm təkan verməyə təşviq etmək istərdim. Sizə və həmvətənlərinizə qarşımızdakı dövrdə sülh, əmin-amanlıq və hər şeydən əvvəl cansağlığı arzulayıram.

**YUNANISTAN PREZİDENTİ KATERİNA SAKELLAROPULUDAN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycanın Müstəqillik Günü münasibətilə Sizə yunan xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırır, Azərbaycan xalqına firavanlıq və tərəqqi arzulayıram.

BMT Nizamnaməsinin prinsiplərinin müdafiəsinə və beynəlxalq hüquqa hörmətə əsaslanaraq, ölkələrimiz arasında qarşılıqlı fayda naminə əməkdaşlığın və dialoqun genişlənəcəyinə ümid edirəm.

Zati-aliləri, ölkənizin milli bayramı münasibətilə ən xoş arzularımı və ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## POLŞA PREZİDENTİ ANDJEY DUDADAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Müstəqilliyin elan edilməsinin və Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 106-cı ildönümü münasibətilə Polşa Respublikasının xalqı adından və şəxsən öz adımdan Sizə, eləcə də bütün Azərbaycan vətəndaşlarına ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Polşa ilə Azərbaycan arasında ənənəvi dostluq və əməkdaşlıq əlaqələrinə, eləcə də ümumi qəhrəmanlarımızın – general Maçey Sulkeviç və polkovnik Vəli bəy Yadigarın tarixi irsinə istinad edərək Sizi əmin etmək istərdim ki, Polşa həm ikitərəfli formatda, həm beynəlxalq təşkilatların forumlarında, həm də Avropa İttifaqı çərçivəsində qardaş xalqlarımız üçün faydalı əməkdaşlığın bütün sahələrini əhatə edən əlaqələrimizin daha da inkişafına daim sadiqdir.

Azərbaycan Respublikası bizim üçün Cənubi Qafqaz regionunda mühüm tərəfdaşdır. 2017-ci ildə Varşavaya səfəriniz zamanı imzalanmış Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında strateji tərəfdaşlıq və iqtisadi əməkdaşlığa dair «Yol xəritəsi» haqqında Birgə Bəyannamə münasibətlərimizin inkişaf istiqamətlərini müəyyən edən sənəd olaraq qalır.

Polşa iqtisadi əməkdaşlığımızın daha da inkişaf etdirilməsində və ölkələrimizin daim artan iqtisadi potensialına uyğun səviyyəyə çatdırılmasında xüsusilə maraqlıdır.

## İSRAİL PREZİDENTİ İSHAQ HERSOQDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Ölkəniz və xalqınız üçün əlamətdar gün olan Müstəqillik Günü münasibətilə İsrail Dövləti və xalqı adından Sizə və Azərbaycan vətəndaşlarına səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Xalqlarımız arasında uzun illərdir davam edən dostluq ildən-ilə dərinləşmiş və mühüm əhəmiyyət kəsb edən strateji tərəfdaşlığa çevrilmişdir. Ölkələrimiz arasındakı əlaqələr Azərbaycan xalqı ilə yəhudi xalqı arasında əsrlərboyu davam edən möhkəm təməl üzərində qurulan dostluq münasibətlərinə əsaslanır. Bizim tarixi əlaqələrimiz bu gün qarşılıqlı hörmət, etimad və səmimi münasibətlərə əsaslanan tərəfdaşlığa çevrilib və bu, genişlənməkdə, möhkəmlənməkdə davam edir.

İqtisadi, siyasi, təhlükəsizlik sahələrində ikitərəfli dialoqumuz və əməkdaşlığımız yeni zirvələrə yüksəlib və əminəm ki, bu əlaqələrimiz gələcəkdə də inkişaf edəcəkdir. İsraildə xeyli sayda Azərbaycan yəhudiləri yaşayır və bizim cəmiyyətimizin bu şərəfli üzvləri xalqlarımızı birləşdirən canlı körpü rolunu oynayır.

Keçən il bir sıra səmərəli müzakirələr aparmaq üçün gözəl ölkənizə səfər etmək Mixal və mənim

üçün xüsusi şərəf oldu. Mən Sizin və xanımınızın bizim nümayəndə heyətimizə göstərdiyiniz səmimi qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirirəm.

Biz xalqlarımız arasında möhkəm dostluq münasibətlərini yüksək qiymətləndiririk. Mən vəzifədə olduğum müddətdə əlaqələrimizi daha da genişləndirməyə sadiqliyimi bildirirəm. İmkanlar genişdir və ikitərəfli əlaqələrimizi möhkəmləndirməyə davam etmək üçün xalqlarımızın xoş niyyəti vardır.

Fürsətdən istifadə edərək, COP29-da iştirak etmək üçün dəvətə görə Sizə minnətdarlığımı bildirirəm. İqlim dəyişikliyi ilə bağlı məsələlərin həlli yollarının tapılmasına yönəlmiş bu mühüm beynəlxalq toplantıya ev sahibliyi etməyə hazırlaşdığınız vaxtda Sizə uğurlar arzulayıram. Mən şəxsən bu ilin sonunda bu mühüm tədbirdə iştirakı səbirsizliklə gözləyirəm.

Bir daha Sizə, xanımınıza və bütün Azərbaycan xalqına sülh və rifah arzulamaqdan şərəf duyuram.

## UKRAYNA PREZİDENTİ VOLODİMİR ZELENSKİDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Sizi Ukrayna xalqı adından və şəxsən öz adımdan Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə təbrik edirəm.

Bu gün Azərbaycan inkişaf yolu ilə inamla addımlayır, qlobal arenada mövqelərini möhkəmləndirir və beynəlxalq səviyyədə tanınmış ərazilərini geri qaytarıb. Rusiya Federasiyası ilə müharibə məcburiyyətində qalan Ukrayna da buna can atır.

Ukrayna və Azərbaycanın bir-birinin müstəqilliyi və ərazi bütövlüyünü qarşılıqlı şəkildə dəstəkləməsi son dərəcə vacibdir. Fürsətdən istifadə edərək, Ukrayna üçün həlledici məqamda göstərilən köməyə görə Sizə və Azərbaycan xalqına minnətdaram.

Qarşılıqlı maraq doğuran bütün sahələrdə Ukrayna–Azərbaycan tərəfdaşlığının möhkəmlənməsinə töhfə verən şəxsi konstruktiv dialoqumuzu yüksək qiymətləndirirəm. Sizin cari ilin iyun ayında İsveçrədə keçiriləcək 1-ci Sülh Sammitində iştirakınıza, eləcə də Azərbaycanın Ukraynanın Sülh Formuluna fəal şəkildə qoşulacağına ümid edirəm.

Zati-aliləri! Sizə möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə yeni nailiyyətlər, dost Azərbaycan xalqına isə sülh və rifah arzu edirəm.

**BELARUS PREZİDENTİ**
**ALEKSANDR LUKAŞENKODAN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Sizi və bütün azərbaycanlıları Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.

Ölkəniz əsas bayramını Sizin müstəqil, suveren dövlət quruculuğu kursunuz sayəsində əldə olunmuş yüksək iqtisadi inkişaf nəticələri və beynəlxalq arenada uğurlarla qarşılayır.

Bu yaxınlarda dost Azərbaycana səfərimi səmimiyyətlə xatırlayıram. Səfər zamanı bizim üçün mühüm olan məsələlərin geniş spektrini etimada əsaslanan və konstruktiv məcrada müzakirə etdik.

Geniş məzmunlu danışıqların yekunları strateji tərəfdaşlığın səviyyəsini təsdiqlədi, Minsk ilə Bakı arasında çoxtərəfli qarşılıqlı fəaliyyətin böyük potensialını nümayiş etdirdi.

Hörmətli İlham Heydər oğlu! Sizə və ailənizə möhkəm cansağlığı, səadət və qardaş Azərbaycan xalqına sülh və tərəqqi arzulayıram.

## ÖZBƏKİSTAN PREZİDENTİ ŞAVKAT MİRZİYOYEVDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Əziz qardaşım!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin şəxsinizdə qardaş Azərbaycan xalqını səmimi-qəlbdən təbrik etməkdən məmnunluq duyuram.

Sizin kimi müdrik, vətənpərvər və fədakar liderin, görkəmli siyasətçi və dövlət xadiminin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyü tam bərpa olunmuş, tarixi ədalət bərqərar edilmişdir.

Ölkənizdə həyata keçirilən genişmiqyaslı daxili və xarici siyasət, iqtisadi və sosial islahatlar bu gün öz bəhrəsini verir, Azərbaycanın beynəlxalq aləmdə etibarı və nüfuzu durmadan yüksəlir.

Xüsusilə vurğulamaq istərdim ki, biz Azərbaycan və Özbəkistan arasında yaranmış, qardaş xalqlarımızın ümumi məqsəd və istəklərinə tam uyğun gələn sıx əlaqələri xüsusi qiymətləndiririk.

Sizinlə fəallaşan açıq və səmərəli dialoqlarımız, eləcə də danışıqlarımız zamanı əldə edilmiş mühüm sazişlər və irimiqyaslı layihələr, təsdiq edilmiş «Yol xəritələri»nin tam həyata keçirilməsi, şübhəsiz ki, strateji tərəfdaşlığımızı tamamilə yeni səviyyəyə qaldıracaqdır.

Hörmətli İlham Heydər oğlu, əminəm ki, yaxın gələcəkdə çoxtərəfli formatlar çərçivəsində bənzərsiz Azərbaycan torpağına yüksək səviyyəli səfərlərimiz hərtərəfli tərəfdaşlığımızın daha da dərinləşməsinə xidmət edəcəkdir.

Daha əvvəl Sizinlə razılaşdığımız kimi, kimya, neft-qaz, mədənçilik, energetika, elektrotexnika, zərgərlik, maşınqayırma, əczaçılıq, tikinti materialları və bank-maliyyə sahələri daxil olmaqla, 10 yeni istiqamətdə tərəfdaşlığın gücləndirilməsinə yönələn böyük planlarımızın tam şəkildə reallaşacağına əminəm.

Bizim möhkəm siyasi iradəmiz və birgə səylərimiz sayəsində qarşılıqlı faydalı və uzunmüddətli tərəfdaşlığımız qardaş xalqlarımızın ümumi inkişafı naminə bundan sonra da davamlı şəkildə inkişaf edəcəkdir.

Fürsətdən istifadə edərək, zati-alinizə cansağlığı, ailə səadəti, Vətəninizin inkişafı naminə fəaliyyətinizdə böyük müvəffəqiyyətlər, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq, davamlı tərəqqi və firavanlıq arzulayıram.

## TÜRKMƏNİSTAN PREZİDENTİ SƏRDAR BERDIMƏHƏMMƏDOVDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Türkmənistan xalqı və Hökuməti adından, şəxsən öz adımdan Sizə və Sizin simanızda bütün qardaş Azərbaycan xalqına səmimi təbriklərimi, ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram. Bu gün Azərbaycan Respublikası tərəqqi və dinamik inkişaf yolu ilə inamla addımlayır, regional və beynəlxalq proseslərdə mühüm rol oynayır.

Əminik ki, Türkmənistan ilə Azərbaycan Respublikası arasında mehriban qonşuluğa, dostluğa və qarşılıqlı anlaşmaya əsaslanan qardaşlıq münasibətləri xalqlarımızın işıqlı gələcəyi naminə bundan sonra da dinamik şəkildə inkişaf edəcək.

Hörmətli İlham Heydər oğlu! Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

## TÜRKMƏN XALQININ MİLLİ LİDERİ, TÜRKMƏNİSTAN XALQ MƏSLƏHƏTİNİN SƏDRİ QURBANQULU BERDIMƏHƏMMƏDOVDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Əziz qardaşım!

Sizi və qardaş Azərbaycan xalqını milli bayramınız – Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Hazırda Azərbaycan malik olduğu böyük potensialdan bəhrələnərək, müxtəlif istiqamətlər üzrə sürətlə inkişaf edir. Ölkənin bütün dünyada getdikcə artan nüfuzu bunun sübutudur.

Türkmənistanda Azərbaycan Respublikası ilə çoxtərəfli əlaqələrin möhkəmləndirilməsinə böyük əhəmiyyət veririk. Əminəm ki, xalqlarımızın dostluğu və qardaşlığı gələcəkdə də Türkmənistan–Azərbaycan məhsuldar münasibətlərinin təkmilləşdirilməsinə kömək edəcəkdir.

Bu fürsətdən istifadə edərək, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti vəzifənizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

**TACİKİSTAN PREZİDENTİ EMOMƏLİ RƏHMONDAN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Tacik xalqının adından və şəxsən öz adımdan böyük məmnuniyyətlə Sizə və bütün dost Azərbaycan xalqına ölkənin milli bayramı münasibətilə səmimi təbriklərimizi çatdırıram.

Azərbaycan Respublikasının ölkənin sosial-iqtisadi və mənəvi həyatında böyük nəticələr əldə edərək, öz inkişafında durmadan irəlilədiyini qeyd etmək sevindiricidir. Həmçinin Azərbaycanın beynəlxalq arenada nüfuzu artır.

Ölkələrimizin qarşılıqlı münasibətlərinin əsaslarının hərtərəfli möhkəmlənməsi Tacikistanın xarici siyasət prioritetlərində mühüm yer tutur.

Birgə səylər sayəsində dövlətlərarası tərəfdaşlıq və dialoq bütün səviyyələrdə uğurla inkişaf edir ki, bu da dostluq münasibətlərimizin məhsuldar şəkildə genişlənməsinə kömək edir. Bunun əyani nümunəsi əlaqələrimizin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsidir.

Mən bu yaxınlarda Azərbaycana dövlət səfərim zamanı keçirdiyimiz görüşləri səmimiyyətlə xatırlayıram. Əminəm ki, bu səfər çərçivəsində əldə olunmuş razılaşmaların praktik reallaşması uzunmüddətli perspektivə hesablanmış Tacikistan–Azərbaycan məhsuldar əməkdaşlığına yeni təkan verəcəkdir.

İnanıram ki, biz gələcəkdə də strateji tərəfdaşlığımızın möhkəmləndirilməsi üçün zəruri birgə səyləri davam etdirəcəyik, ikitərəfli münasibətlərimizdə mövcud olan böyük potensialdan tam istifadə edəcəyik.

Əziz İlham Heydər oğlu! Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, bütün təşəbbüslərinizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına isə hər zaman aydın səma, əmin-amanlıq və dinamik tərəqqi arzulayıram.

**QIRĞIZ PREZİDENTİ SADIR JAPAROVDAN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizi təbrik edirəm.

Bu gün müstəqil Azərbaycanın müasir tarixində həm əhalinin rifah halının yüksəldilməsində, həm də güclü dövlətin qurulmasında əldə etdiyi böyük uğurların şahidi oluruq. Azərbaycan hazırda beynəlxalq arenada sanballı yerə malikdir. Azərbaycanlı qardaşlarımızın uğurlarına həmişə şadıq.

Əminəm ki, Qırğız Respublikası ilə Azərbaycan Respublikası arasında mövcud olan dostluq və qardaşlıq münasibətləri iki xalqın rifahı naminə gələcəkdə də ardıcıl inkişaf edəcəkdir.

İcazə verin, Sizə möhkəm cansağlığı, əmin-amanlıq və ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına sülh və tərəqqi arzulayım.

## AVSTRİYA PREZİDENTİ ALEKSANDR VAN DER BELLENDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Mən eyni zamanda, fürsətdən istifadə edərək, 2024-cü ilin noyabrında Bakıda keçiriləcək BMT-nin 29-cu İqlim Dəyişikliyi Konfransına COP29-a ev sahibliyi etməyiniz münasibətilə Sizi təbrik edir və bununla əlaqədar intensiv hazırlıq işlərində Sizə uğurlar diləyirəm.

Cənubi Qafqazda sülh, sabitlik və rifah Avstriya üçün xüsusi önəm kəsb edir. Bununla yanaşı, 2023-cü ildə ölkələrimiz arasında iqtisadi əlaqələr sevindirici şəkildə intensivləşmişdir.

Bu xoş fürsətdən istifadə edərək, Sizə şəxsi rifah, həmçinin Azərbaycan xalqına xoşbəxt və dinc gələcəklə bağlı ən gözəl arzularımı çatdırıram.

## CƏNUBİ KOREYA PREZİDENTİ YUN SOK YOLDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi çatdırıram.

Ötən illər ərzində ölkələrimiz arasında güclü əməkdaşlıq və tərəfdaşlıq münasibətləri qurulmuşdur. Bu münasibətlərin inkişaf edərək xalqlarımız arasında dostluq əlaqələrini daha da gücləndirəcəyinə ümidvaram.

Sizə cansağlığı və xoşbəxtlik, Azərbaycan Respublikasına daimi rifah arzu edirəm.

**ŞİMALİ KOREYA DÖVLƏT ŞURASININ SƏDRİ KİM ÇEN INDAN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və Sizin şəxsinizdə ölkənizin hökumətinə və xalqına səmimi təbriklərimi çatdırıram.

Fürsətdən istifadə edərək, əmin olduğumu bildirirəm ki, ölkələrimiz arasında ənənəvi dostluq və əməkdaşlıq münasibətləri gələcəkdə də möhkəmlənəcək və inkişaf edəcəkdir.

Sizə ölkənin sosial-iqtisadi inkişafı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

**ÇEX PREZİDENTİ PETR PAVELDƏN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və ölkənizin xalqına ən səmimi təbriklərimi çatdırıram.

Çex Respublikası Azərbaycan Respublikası ilə qarşılıqlı əlaqələrin səviyyəsini yüksək qiymətləndirir. Əminəm ki, ölkələrimiz arasında mövcud əməkdaşlıq bundan sonra da uğurla inkişaf edəcəkdir.

Zati-aliləri! Sizə möhkəm cansağlığı və uğurlar arzulayıram.

## HİNDİSTAN PREZİDENTİ DRAUPADİ MURMUDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Müstəqillik Günü münasibətilə Hindistan hökuməti və xalqı adından, şəxsən öz adımdan zati-alinizə, Azərbaycan Respublikasının Hökumətinə və dost xalqına ən səmimi salamlarımı və təbriklərimi çatdırıram.

Hindistan ilə Azərbaycan ortaq tarixi və mədəni əlaqələrə malikdir. Bizim həmrəyliyimiz bütün sahələrdə çoxtərəfli qarşılıqlı əməkdaşlığımıza yol açmışdır. Əminəm ki, həssas məqamlara və ortaq maraqlara qarşılıqlı hörmət nümayiş etdirərək, bizim münasibətlərimiz əməkdaşlığın yeni sahələrini əhatə etməklə genişlənəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək, zati-alinizə cansağlığı və xoşbəxtlik, Azərbaycan Respublikasının dost xalqına isə davamlı sülh, tərəqqi və inkişaf arzu edirəm.

Zati-aliləri! Xahiş edirəm ən yüksək ehtiramımı qəbul edin.

**BOLQARISTAN PREZİDENTİ RUMEN RADEVDƏN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Ölkənizin milli bayramı münasibətilə səmimi təbriklərimi, Azərbaycan xalqına sülh və firavanlıq arzularımı qəbul etməyinizi xahiş edirəm.

İcazə verin, ölkələrimiz və xalqlarımız arasında səmərəli qarşılıqlı fəaliyyət və əməkdaşlıqdan məmnun olduğumu bildirim. Bir daha təsdiq etmək istəyirəm ki, Bolqarıstan Respublikası Azərbaycan Respublikası ilə gözəl dostluq və strateji tərəfdaşlıq münasibətlərini yüksək qiymətləndirir.

Əminəm ki, son danışıqlarımızdan və bu il mayın 8-də Bakıda Bolqarıstan Respublikası ilə Azərbaycan Respublikası arasında strateji tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamənin imzalanmasından sonra son illərdəki intensiv ikitərəfli siyasi dialoq yeni məzmun kəsb edəcəkdir. İnanıram ki, ikitərəfli münasibətlərimizdə tətbiq etdiyimiz praqmatik yanaşma gələcəkdə də müsbət dinamikasını davam etdirəcək.

Hörmətli cənab Prezident! Sizə möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayır, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## RUMINİYA PREZİDENTİ KLAUS VERNER İOHANNİSDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə təbriklərimi çatdırır, xalqınıza firavanlıq və əmin-amanlıq arzulayıram.

Ölkələrimiz arasında sıx əlaqələr möhkəm prinsiplərə və ümumi strateji maraqlara əsaslanır. Rumıniya ilə Azərbaycan Respublikası arasında ikitərəfli və ya regional səviyyədə həyata keçirilən çoxsaylı layihələr münasibətlərimizin mükəmməl səviyyəsini əyani şəkildə nümayiş etdirir.

Azərbaycan Rumıniya üçün Cənubi Qafqaz regionunda yaxın və etibarlı strateji tərəfdaşdır. Rumıniya strateji tərəfdaşlığımızı gücləndirmək üçün ciddi səylər göstərir. Mən tam inanıram ki, bizim birgə səylərimizlə ikitərəfli əməkdaşlıq enerji, nəqliyyat, təhsil, ticarət və investisiya kimi böyük əhəmiyyət kəsb edən sahələrdə bundan sonra da inkişaf edəcək, Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında dialoqu dəstəkləmək üçün qətiyyətlə fəaliyyət göstərməyə davam edəcəkdir.

Cənab Prezident! Xahiş edirəm mənim xüsusi ehtiramımı qəbul edəsiniz.

## MİSİR PREZİDENTİ ƏBDÜLFƏTTAH ƏS-SİSİDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycanın Müstəqillik Gününün ildönümünün qeyd olunması münasibətilə zati-alinizə və dost Azərbaycan xalqına səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyur, ölkənizə tərəqqi və firavanlıq arzulayıram.

Ölkələrimizi möhkəm dostluq və əməkdaşlıq əlaqələri birləşdirir. Ümidvaram ki, dost ölkələrimiz arasında dinamik inkişaf edən münasibətlər xalqlarımızın ümumi maraqları naminə birgə fəaliyyətimiz və səmərəli əlaqələrimiz sayəsində bundan sonra da ardıcıl şəkildə möhkəmlənməyə davam edəcəkdir.

Hörmətli cənab Prezident! Sizə olan ən yüksək ehtiramımla yanaşı, səmimi salamlarımı, möhkəm cansağlığı, xoşbəxtlik və dost Azərbaycan xalqının davamlı rifahı, tərəqqisi ilə bağlı ən xoş arzularımı da qəbul etməyinizi xahiş edirəm.

## PORTUQALİYA PREZİDENTİ MARSELO REBELO DE SOUZADAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə zati-alinizə təbriklərimi çatdırıram.

Sizə cansağlığı, Azərbaycan xalqına isə tərəqqi və rifah arzulayıram.

## KUBA PREZİDENTİ MİGEL DİAS-KANEL BERMUDESDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Gününün 106-cı ildönümü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi çatdırıram.

Bu xoş fürsətdən istifadə edərək, ölkələrimiz arasındakı tarixi dostluq əlaqələrinin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində fəaliyyətimizi davam etdirmək istəyimizi bir daha ifadə edirəm.

Zati-aliləri! Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## MONQOLUSTAN PREZİDENTİ UXNAAQİYN XURELSUXDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda dost Azərbaycan xalqına səmimi təbriklərimi çatdırıram.

Monqolustan ilə Azərbaycan arasında ənənəvi dostluq münasibətlərinin və əməkdaşlığın davamlı şəkildə genişlənməsindən məmnunluğumu bildirirəm.

Bu xoş fürsətdən istifadə edərək, bu il Bakının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına ev sahibliyi etməsi münasibətilə səmimi təbriklərimizi çatdırır və tədbirin uğurlu olmasını arzulayıram.

Zati-aliləri! Monqolustanın COP29-a töhfə verəcəyinə əmin ola bilərsiniz.

Cənab Prezident! Sizə və ailənizə möhkəm cansağlığı, firavanlıq, dost Azərbaycan xalqına isə rifah diləyirəm.

## LATVİYA PREZİDENTİ EDQARS RİNKEVİÇSDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

İcazə verin, Azərbaycan Respublikasının milli bayramı münasibətilə Sizə ən səmimi təbriklərimi, həmçinin ölkənizə və xalqınıza sülh və firavanlıq arzularımı çatdırım.

Şadam ki, Latviya ilə Azərbaycan arasında yaxşı və konstruktiv münasibətlər mövcuddur, qarşılıqlı maraq doğuran müxtəlif sahələrdə uğurlu əməkdaşlıq inkişaf etmişdir. Mən Avropa İttifaqı–Azərbaycan tərəfdaşlığının əhəmiyyətini, müsbət gündəm və Avropa İttifaqı–Azərbaycan dialoqunun iqtisadi əməkdaşlıq, regional sabitlik baxımından gətirə biləcəyi faydalarla bağlı birgə fəaliyyətin davam etdirilməsinin önəmini vurğulayıram. Bu baxımdan Sizin Cənubi Qafqazda davamlı sülhə nail olmaq istiqamətində səylərinizi alqışlayıram.

Bu ilin noyabrında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına dəvətinizi qəbul etməkdən böyük məmnunluq duyuram. COP29 zamanı Sizinlə görüşmək imkanı olsa minnətdar olardım. Əminəm ki, COP29 uğurlu olacaq və iqlimlə bağlı fəaliyyətlərə təkan verəcəkdir.

Bu il biz Latviya ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edirik və mən qəti şəkildə inanıram ki, bu yubiley əlaqələrimizin müsbət dinamikasını daha da möhkəmləndirəcək. Bu baxımdan mən bu il Sizinlə Latviyada görüşməyimizi səbirsizliklə gözləyirəm.

Zati-aliləri! Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm. Sizə möhkəm cansağlığı, güc-qüvvət və məsul vəzifənizdə uğurlar arzulayıram.

**LİTVA PREZİDENTİ
GİTANAS NAUSEDADAN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Milli bayramınız – Müstəqillik Günü münasibətilə Sizə və bütün Azərbaycan xalqına səmimi təbriklərimi çatdırıram. Sizə, ölkənizə və xalqınıza sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Litva Azərbaycanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qətiyyətlə dəstəkləyir. Qəti əminəm ki, Siz bundan sonra da milli tərəqqiyə və transformasiyaya aparan islahatları həyata keçirməkdə davam edəcəksiniz.

Biz Sizin ölkənizin Ermənistanla sülh əldə etmək səylərini dəstəkləyir və yüksək qiymətləndiririk. Mən Ermənistanla sərhədlərin delimitasiyası ilə bağlı bu yaxınlarda əldə edilmiş və regionda davamlı sülh üçün tarixi imkan yaradan razılaşmanı alqışlayıram. Litvanın Cənubi Qafqazda etimadın yaradılmasına töhfə verməyə hazır olduğunu bir daha qeyd edirəm. İnanıram ki, dialoq və danışıqlar davamlı konsensusa nail olmağın yeganə yoludur.

Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq əhəmiyyətlidir.

Biz ölkənizlə Avropa İttifaqı arasında getdikcə inkişaf edən dialoqu dəstəkləyir və təşviq edirik. Bütün dünyanın artan çağırışlarla üzləşdiyi, Rusiya ilə

Ukrayna arasında müharibənin 3-cü ildir ki, davam etdiyi bir vaxtda beynəlxalq nizamı qorumaq, sabitliyi gücləndirmək üçün qarşılıqlı anlaşmanı möhkəmləndirmək və həll yollarını tapmaq çox vacibdir.

Müstəqillik Gününüzü bir daha təbrik edirəm. Cənab Prezident! Ən xoş arzularımı və ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## ESTONİYA PREZİDENTİ
## ALAR KARİSDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Ümidvaram ki, Estoniya ilə Azərbaycan arasında əməkdaşlıq gələcəkdə daha da dərinləşəcəkdir. Tarixin bu çətin dövründə sabitlik və yaxşı münasibətlər ən böyük dəyərdir, xüsusən də Ukraynada və Yaxın Şərqdə gedən müharibələrin bütün dünyaya dağıdıcı təsirini davam etdirdiyi və dünyada digər çoxsaylı böhranların yaşandığı bir vaxtda. Bu xüsusda ədalətli və davamlı sülhə doğru irəliləmək, eləcə də digər qlobal çağırışlarla mübarizə aparmaq üçün əməkdaşlığımız həmişəkindən daha vacibdir.

Hörmətli Prezident! Xahiş edirəm, mənim ən yüksək ehtiramımı, Azərbaycan Respublikasının, onun xalqının rifahı və firavanlığı naminə ən xoş arzularımı qəbul edin.

## MACARISTAN PREZİDENTİ
## TAMAŞ ŞUYOKDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

İcazə verin, Sizə Azərbaycanın milli bayramı – Müstəqillik Günü münasibətilə təbriklərimi çatdırım.

Mən şadam ki, son illər ölkələrimiz arasında qarşılıqlı hörmət və minnətdarlığa əsaslanan çoxşaxəli əməkdaşlıq inkişaf edir. Macarıstan Azərbaycanla dostluq əlaqələrinin dərinləşməsinə böyük əhəmiyyət verir və bunun üçün genişlənmiş strateji tərəfdaşlığımız çox gözəl əsas yaradır.

Sizi əmin edə bilərəm ki, mən çoxşaxəli siyasi, iqtisadi və mədəni əlaqələrimizin daha da möhkəmlənməsinə sadiqəm. Ümid edirəm ki, gələcəkdə bizim ümumi məsələlərlə bağlı şəxsən fikir mübadiləsi aparmaq imkanımız olacaqdır.

Xahiş edirəm ən yüksək ehtiramımı qəbul edin.

**FİNLANDİYA PREZİDENTİ
ALEKSANDR STUBDAN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Gününün 106-cı ildönümü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırır, ölkənizə və xalqınıza firavanlıq, tərəqqi arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək, 2024-cü il noyabrın 12-13-də Bakıda keçiriləcək İqlim Fəaliyyəti üzrə Dünya Liderlərinin Sammitinə dəvətinizə görə Sizə minnətdarlığımı bildirirəm. Mən Sizin dəvətinizi məmnunluqla qəbul etmişəm və COP29-da iştirak etməyi səbirsizliklə gözləyirəm.

Zati-aliləri! Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## MOLDOVA PREZİDENTİ
## MAYA SANDUDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizi və Azərbaycan vətəndaşlarını təbrik edirəm. Respublikanıza davamlı tərəqqi, firavanlıq və əmin-amanlıq arzulayıram.

Mən Moldova Respublikası ilə Azərbaycan Respublikası arasında möhkəm əlaqələri yüksək qiymətləndirirəm. Ölkəmizin ikitərəfli dialoqun daha da dərinləşdirilməsinə sadiq olduğunu bir daha təsdiq edirəm. Ehtiyac duyduğumuz anlarda yanımızda olduğunuzu həmişə xatırlayacağıq. Əminəm ki, birgə səylərimiz nəticəsində Moldova və Azərbaycan enerji, nəqliyyat, kənd təsərrüfatı, ticarət və investisiya kimi mühüm sahələrdə əməkdaşlığımızı genişləndirmək imkanlarından tam istifadə edəcək və nəticədə hər iki ölkə vətəndaşlarına fayda verəcəkdir.

Fürsətdən istifadə edərək, Birləşmiş Millətlər Təşkilatının Tərəflər Konfransının 29-cu sessiyasına ev sahibliyi etməyinizi yüksək qiymətləndirirəm. Əminəm ki, bu tədbir Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq və daha «yaşıl gələcəyə» kömək etmək istiqamətində birgə səylərimizi inkişaf etdirəcək.

Cənab Prezident! Ən xoş arzularımı və yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**İRLANDİYA PREZİDENTİ MAYKL HİGGİNSDƏN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Milli bayramınız – Müstəqillik Günü münasibətilə zati-alinizə və Azərbaycan xalqına İrlandiya xalqı adından, şəxsən öz adımdan səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Qoy gələcək illər Azərbaycan xalqına sülh, daha çox firavanlıq və xoşbəxtlik gətirsin!

## ALBANİYA PREZİDENTİ BAYRAM BEQAYDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

İcazə verin, ölkənizin Müstəqillik Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırım.

Mən Albaniya və Azərbaycanın dostluğun, əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində əldə etdiyi böyük nailiyyəti xüsusi olaraq məmnunluqla qeyd edirəm. Biz dostluq münasibətlərinin və ikitərəfli əməkdaşlığın möhkəmləndirilməsində çox maraqlıyıq. Əlaqələrimizin hər iki ölkənin mənafeyinə uyğun olaraq yeni səviyyələrə yüksəldilməsinin əhəmiyyətini vurğulayıram.

Fürsətdən istifadə edərək, bu ilin martında Azərbaycana səfərim zamanı mənə göstərilən qonaqpərvərliyə görə Sizə səmimi-qəlbdən təşəkkürümü bildirirəm.

Zati-alinizə və Azərbaycan xalqına davamlı uğurlar, inkişaf, firavanlıq və xoşbəxtlik arzulayıram.

## SERBİYA PREZİDENTİ ALEKSANDR VUÇİÇDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Sizi Serbiya Respublikası xalqı adından və öz adımdan Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, ölkənizə tərəqqi, xalqınıza yüksək rifah arzu edirəm.

Serbiya Respublikası Azərbaycan Respublikası ilə qarşılıqlı etimada, təqdir və hörmətə, eyni zamanda, beynəlxalq hüququn fundamental prinsiplərinə ardıcıl riayət olunmasına sadiqliyə əsaslanan münasibətlərin inkişafına xüsusi önəm verir.

İcazə verin, BMT Baş Assambleyasında yaxın zamanda keçirilmiş səsvermədə Azərbaycan Respublikasının göstərdiyi anlayış və mövqeyə, bununla da Serbiya Respublikasına, regionda sülh və sabitliyə dəstək verdiyinə görə minnətdarlığımı bildirim.

İstər ikitərəfli, istərsə də çoxtərəfli müstəvidə Serbiya Respublikası üçün mühüm əhəmiyyət kəsb edən məsələlərdə ölkənizin göstərdiyi kömək və dəstəyə görə dərin minnətdarlığımı bildirirəm. Böyük fəxr hissi ilə qeyd etmək istərdim ki, Azərbaycan Respublikası həyati mənafelərin müdafiəsində dəfələrlə səmimi tərəfdaşımız olduğunu nümayiş etdirib və biz Serbiya Respublikasında bunu unutmayacağıq.

Ölkələrimiz arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində iştirakınızı yüksək qiymətləndirirəm. Əminəm ki, Serbiya Respublikası ilə Azərbaycan Respublikası arasında strateji tərəfdaşlıq qarşıdakı dövrdə də qarşılıqlı maraq doğuran bütün sahələrdə, xüsusilə də iqtisadi sahədə möhkəmlənməyə və zənginləşməyə davam edəcək və Sizinlə birlikdə bu işə öz şəxsi töhfəmi verməyə hazır olduğumu bildirirəm.

Bizim üçün ən mühüm milli və dövlət əhəmiyyəti daşıyan Kosovo və Metohiya məsələsi ilə bağlı göstərdiyiniz diqqət və dəstəyə görə də təşəkkür edirəm. Serbiya Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında Azərbaycan Respublikasının göstərdiyi prinsipial və qəti dəstək ölkənizin beynəlxalq hüququn əsas prinsiplərinin qorunmasına sadiqliyinin göstəricisidir. Əmin olun ki, Serbiya Respublikası da Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü dəstəkləməyə davam edəcəkdir.

Hörmətli cənab Prezident! Sizə bir daha dərin ehtiramımı ifadə edirəm.

## BOSNİYA VƏ HERSEQOVİNA RƏYASƏT HEYƏTİNİN SƏDRİ DENİS BEÇİROVİÇDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Bosniya və Herseqovinanın Rəyasət Heyəti adından Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırır, ölkənizin daha da sürətli inkişafı naminə ən xoş arzularımı bildirirəm.

Əminəm ki, ikitərəfli münasibətlərimiz ümumi maraqlara cavab verən bütün sahələrdə dostluq ruhunda inkişaf edəcək, ölkələrimizin və xalqlarımızın rifahı naminə əməkdaşlığın gücləndirilməsinə töhfə verəcəkdir.

Zati-aliləri! Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## BOSNİYA VƏ HERSEQOVİNANIN SERB PREZİDENTİ MİLORAD DODİKDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə Serb Respublikasının xalqı və qurumları adından, şəxsən öz adımdan səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Sizin rəhbərliyiniz sayəsində Azərbaycan Respublikası sürətlə inkişaf edərək, regional liderə və iqtisadi gücə çevrilib. Fəxrlə demək istəyirəm ki, Serb Respublikası ilə Azərbaycan Respublikası arasında anlaşma və qarşılıqlı hörmətə əsaslanan sıx dostluq münasibətləri mövcuddur. Böyük tektonik geosiyasi dəyişikliklər, həm siyasi, həm də iqtisadi arenada çağırışlar zamanı hər bir ölkənin daxili işlərinə, eləcə də xarici siyasətinə anlayış və hörmət son dərəcə vacibdir.

Məmnuniyyətlə vurğulayıram ki, bir çox sahələrdə və seqmentlərdə ikitərəfli əməkdaşlığımız inkişaf edəcək və yüksələn xətlə davam edəcək. Mən səmimiyyətlə inanıram ki, əlaqələrimiz gələcək illərdə də hər iki xalqa xeyirli və faydalı olacaq şəkildə inkişaf edəcəkdir. Mənim qəti niyyətim dostluğumuzu və

dəstəyimizi hörmət əsasında qoruyub saxlamaq və daha da inkişaf etdirməkdir.

Hörmətli Prezident! Zati-aliləri, icazə verin, Sizə cansağlığı, dost Azərbaycan Respublikasının firavanlığı və inkişafı naminə fəaliyyətinizdə uğurlar arzulayım.

## XORVATİYA PREZİDENTİ ZORAN MİLANOVİÇDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Xorvatiya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimi, xalqınıza tərəqqi və firavanlıq arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Xorvatiya ilə Azərbaycanı çoxillik sıx əməkdaşlıq və dostluq əlaqələri bağlayır. İnanıram ki, biz qarşıdakı dövrdə ümumi əlaqələrimizi inkişaf etdirmək istiqamətində çalışmağa davam edəcəyik.

Cənab Prezident! Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## SLOVAKİYA PREZİDENTİ ZUZANA ÇAPUTOVADAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Slovakiya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan Sizi təbrik edirəm.

Şadam ki, Slovakiya ilə Azərbaycan arasında münasibətlər uzunmüddətli dostluq xarakteri daşıyır və ümumi maraqların yeni sahələrinə doğru genişlənir. Əminəm ki, qarşılıqlı əməkdaşlığımız ölkələrimizin vətəndaşlarının rifahı naminə bundan sonra da inkişaf edəcəkdir. Bizim əsas dəyərlərimiz demokratiya, qanunun aliliyi, insan hüquqları və çoxtərəflilik, eləcə də davamlı gələcək naminə sabitlik, firavanlıq və həmrəylikdir.

Hörmətli cənab Prezident! Sizə, həmçinin bütün Azərbaycan vətəndaşlarına möhkəm cansağlığı, əmin-amanlıq, sabitlik, firavanlıq və uğurlu inkişaf arzulayıram.

## MONTENEQRO PREZİDENTİ YAKOV MİLATOVİÇDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Sizi Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Monteneqro vətəndaşları adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm. Monteneqro ilə Azərbaycan arasında bir sıra sahələrdə çox yaxşı ikitərəfli münasibətlər və konstruktiv əməkdaşlıq mövcuddur. Əldə etdiyimiz dinamik və yüksək səviyyəli siyasi dialoq bizi birgə səylər sayəsində qarşılıqlı maraq doğuran sahələrdə sərmayə və infrastrukturla bağlı gələcək layihələrə yeni təkan verməyə həvəsləndirir.

Şadam ki, ölkəniz bu il COP29-a ev sahibliyi edəcək. Əminəm ki, Siz mənim də şəxsən böyük məmnuniyyətlə iştirak edəcəyim bu mühüm tədbirlə bağlı məsuliyyətli hazırlıqları və onun reallaşdırılmasını ən yüksək səviyyədə icra edəcəksiniz.

Ümidvaram ki, gələcək illərdə ölkələrimiz və xalqlarımız arasında daha sıx münasibətlər qurmağa davam edəcəyik və bu ilin noyabr ayında Sizinlə Bakıda görüşümüzü səbirsizliklə gözləyirəm.

Möhtərəm Prezident! Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## GÜRCÜSTAN PREZİDENTİ SALOME ZURABİŞVİLİDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə Gürcüstan xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırıram.

Bu tarix Azərbaycan xalqının müasir, güclü və inkişaf etmiş dövlətin formalaşmasına gətirib çıxaran müstəqillik və suverenlik yolunda əzmkarlığını və sarsılmaz ruhunu əyani şəkildə nümayiş etdirir.

Qəti şəkildə inanıram ki, biz birgə səylərimiz sayəsində Gürcüstan ilə Azərbaycan arasında dostluğu və strateji tərəfdaşlığı daha da möhkəmləndirəcəyik və beləliklə, firavanlığın, sabitliyin gücləndirilməsinə, regionun inkişafına təkan verilməsində ölkələrimizin rolunu artıracağıq.

Zati-aliləri! Sizə bir daha dərin hörmətimi bildirir, ölkənizə xidmət işində uğurlar, dost Azərbaycan xalqına isə sülh və firavanlıq arzulayıram.

## GÜRCÜSTANIN BAŞ NAZİRİ İRAKLİ KOBAXİDZEDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Gürcüstan Hökuməti adından və şəxsən öz adımdan Sizi və xalqınızı Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm. İcazə verin, Sizə və Azərbaycan xalqına dərin ehtiramımı ifadə edim, sülh, rifah və uğurlar arzulayım.

Gürcüstan və Azərbaycan Respublikası arasında strateji tərəfdaşlıq dərin, uzun əsrlik dostluq ənənəsinə əsaslanır ki, bu da ölkələrimizin səmərəli əməkdaşlığının inkişafı üçün mühüm amildir.

Xüsusilə vurğulamaq istərdim ki, Azərbaycanla ikitərəfli və mehriban qonşuluq münasibətlərinin dərinləşməsi bizim hökumətimizin ən əsas prioritetidir. Gürcüstan ilə Azərbaycan arasında qarşılıqlı etimad və dəstək prinsiplərinə əsaslanan strateji tərəfdaşlıq ölkələrimizin əlaqələrinin dinamikasının güclənməsinə müsbət təsir göstərmişdir. Əminəm ki, əməkdaşlığımız daha da möhkəmlənəcək və regionda rifahın, sabitliyin təmin olunmasına öz töhfəsini verəcəkdir.

Zati-aliləri! Fürsətdən istifadə edərək, Sizə bir daha dərin ehtiramımı ifadə edir, qardaş Azərbaycan xalqına firavanlıq, əmin-amanlıq və nailiyyətlər diləyirəm.

## MALTA PREZİDENTİ MİRİAM SPİTERİ DEBONODAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Malta xalqı adından və şəxsən öz adımdan Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Diplomatik əlaqələrin qurulduğu 1995-ci ildən bəri ölkələrimiz arasında qarşılıqlı hörmət və anlaşmaya əsaslanan davamlı dostluq münasibətləri daha da möhkəmlənib. Ölkələrimiz arasında çox böyük coğrafi məsafənin olmasına baxmayaraq, əminəm ki, Malta Respublikası və Azərbaycan Respublikası bundan sonra da ikitərəfli əməkdaşlığın möhkəmlənməsini dəstəkləyəcək. Bu, ölkələrimiz arasında münasibətlərin 30-cu ildönümünə doğru irəlilədiyimiz bir zamanda daha böyük əhəmiyyət kəsb edir.

Malta «Şərq Tərəfdaşlığı» kimi regional dialoq çərçivələri vasitəsilə Azərbaycanla əməkdaşlığı davam etdirməyi səbirsizliklə gözləyir. Bu, Avropa İttifaqı və onun Şərq tərəfdaşları, o cümlədən Azərbaycan Respublikası arasında daha sıx konstruktiv əməkdaşlıq istiqamətində nadir struktur olaraq qalır.

Beynəlxalq ictimaiyyətin bütün dünyaya öz təsirini göstərən mühüm çağırışlarla üzləşdiyi bir vaxtda Malta Respublikası çoxtərəfli və qlobal həlləri

qəti şəkildə dəstəkləyir. BMT Təhlükəsizlik Şurasının 2023–2024-cü illər üçün seçilmiş üzvü kimi, Malta çoxtərəflilik dəyərlərini qoruyub saxlamaq məqsədilə beynəlxalq sülhün və təhlükəsizliyin təmin olunmasına sadiq qalır. Buna görə də ortaq maraq doğuran məsələlərin həlli məqsədilə ölkələr arasında siyasi etimadın və iradənin həyata keçirilməsi üçün fəal şəkildə səylərimizi davam etdirməyimiz vacibdir. Belə bir dönəmdə Malta qlobal çağırışların qlobal həllərə ehtiyacı olduğuna inanır.

Bu xoş fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı və əmin-amanlıq, ölkənizə isə davamlı sülh, tərəqqi və firavanlıq arzulayıram.

Zati-aliləri! Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## NİKARAQUA PREZİDENTİ DANİEL ORTEQA SAAVEDRADAN VƏ VİTSE-PREZİDENT ROSARİO MURİYODAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri, əziz qardaşımız!

İcazə verin, Nikaraqua Respublikasının xalqı, Barışıq və Milli Birlik Hökuməti adından və şəxsən öz adımızdan Sizə, qardaş Azərbaycan xalqına və hökumətinə əlamətdar tarix – 28 May – Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimizi çatdıraq.

Daim firavan və müstəqil olan Nikaraquadan bu zəfərlər, milli suverenlik və müstəqillik tarixini qeyd etməkdə sizə qoşuluruq. Qardaş Azərbaycan xalqı və hökuməti ilə ənənəvi dostluq və əməkdaşlıq əlaqələrini bundan sonra da möhkəmləndirməyə sadiqliyimizi bir daha vurğulayırıq.

Hörmətli Prezident! Sizi qardaşcasına bağrımıza basır, dost Azərbaycan xalqına sülh, inkişaf və firavanlıq arzularımızı çatdırırıq.

**İSVEÇRƏ PREZİDENTİ
VİOLA AMHERDDƏN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və həmvətənlərinizə İsveçrə Federal Şurası və İsveçrə vətəndaşları adından təbriklərimi çatdırmaqdan məmnunluq duyuram. Bu fürsətdən istifadə edərək, ölkənizə və vətəndaşlarınıza xoşbəxt, uğurlu gələcək arzu edirəm.

Beynəlxalq hüquqa və BMT-nin Nizamnaməsində təsbit olunmuş ümumbəşəri prinsiplərə hörmət sülh və firavanlıq dünyasına doğru səylərimizdə bizim ən yaxşı bələdçimiz olaraq qalır. Məmnunam ki, ölkələrimiz arasında səmərəli əlaqələr davam edir.

Əminəm ki, biz gələcək illərdə həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlığımızı inkişaf etdirə və dərinləşdirə biləcəyik.

Zati-aliləri! Xahiş edirəm ən yüksək ehtiramımı qəbul edin.

**İSVEÇ KRALI
XVI KARL QUSTAVDAN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Sizə cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına firavanlıq arzu edirəm.

## CƏNUBİ AFRİKA PREZİDENTİ MATAMELA SİRİL RAMAFOSADAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Əlamətdar tarix, 28 May – Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Cənubi Afrika Respublikasının hökuməti və xalqı adından Sizə, Azərbaycan hökumətinə və xalqına ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Bu xoş fürsətdən istifadə edərək, zati-alinizə möhkəm cansağlığı arzulayır, ölkələrimiz arasında mövcud olan gözəl dostluq münasibətlərini daha da möhkəmləndirmək niyyətimizi bir daha bəyan edirəm.

Zati-aliləri! Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## MAVRİTANİYA PREZİDENTİ MƏHƏMMƏD ULD ŞEYX ƏL-QAZUANİDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri, əziz qardaşım!

Ölkənizin Müstəqillik Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyur, dost Azərbaycan xalqına daha çox inkişaf və firavanlıq diləyirəm.

Mən həmçinin ölkələrimiz arasında mövcud olan əməkdaşlıq münasibətlərinin dost xalqlarımızın maraqları naminə möhkəmləndirilməsi və inkişafı istiqamətində səyləri davam etdirmək niyyətimizi bir daha bildirirəm.

Zati-aliləri! Əziz qardaşım! Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**İNDONEZİYA PREZİDENTİ COKO VİDODODAN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Gününün 106-cı ildönümü münasibətilə zati-alinizə böyük məmnuniyyətlə İndoneziya Respublikasının Hökuməti və xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Bu xüsusda, icazə verin, İndoneziya ilə Azərbaycan arasındakı dostluq münasibətlərinə görə Sizə səmimi təşəkkürümü bildirim. Əldə edilən nailiyyətlər dövlətinizin uğurlu siyasətinin təsdiqidir. İnanıram ki, xalqlarımızın qarşılıqlı olaraq bir-birinə təklif edəcəyi çox məsələlər var və əməkdaşlığımızın ölkələrimiz üçün əhəmiyyətli faydalar hasil edəcəyinə əminəm.

Bu xoş fürsətdən istifadə edərək, zati-alinizə bir daha dərin ehtiramımı ifadə edirəm.

## UQANDA PREZİDENTİ YOVERİ KAQUTA MUSEVENİDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Uqanda Respublikasının Hökuməti və xalqı adından, şəxsən öz adımdan Sizə, Azərbaycan Respublikasının Hökumətinə və xalqına 28 May – Müstəqillik Günü münasibətilə təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Ölkələrimiz ortaq məqsədlər naminə birgə çalışır və biz əməkdaşlıq üçün yeni imkanların yaranmasına, həmçinin xalqlarımız arasındakı əlaqələrin daha da möhkəmləndirilməsinə ümid edirik. Əminəm ki, xalqlarımızın ənənəvi yaxın münasibətləri qarşıdakı illərdə genişlənməkdə və inkişaf etməkdə davam edəcəkdir.

Ölkənizin tarixindəki bu önəmli günü qeyd edərkən Sizə cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə davamlı inkişaf və rifah arzulayıram.

## URUQVAY PREZİDENTİ LUİS LAKALYE POUDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Uruqvay xalqı və hökuməti adından və şəxsən öz adımdan Azərbaycanın Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi, əziz xalqınıza sülh və firavanlıq arzularımı qəbul etməyinizi xahiş edirəm.

Ölkələrimiz arasında çox yaxşı ikitərəfli münasibətlər yaranıb və tam əminəm ki, bu münasibətlər mədəni, siyasi əməkdaşlıq zəminində möhkəmlənəcəkdir.

Cənab Prezident! Fürsətdən istifadə edərək, Sizə bir daha ən yüksək ehtiramımı ifadə edirəm.

**PARAQVAY PREZİDENTİ SANTYAQO PENYADAN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

28 May – Müstəqillik Günü münasibətilə zati-alinizə Paraqvay Respublikasının Hökuməti, xalqı, və şəxsən öz adımdan səmimi qardaşlıq salamlarımı çatdırmaqdan məmnunluq duyuram.

Bu xoş fürsətdən istifadə edərək, qardaş Azərbaycan xalqına sülh, xoşbəxtlik və firavanlıq, Paraqvay Respublikası ilə Azərbaycan Respublikasını birləşdirən dostluq və əməkdaşlıq əlaqələrinin daim möhkəmlənməsini arzulayıram.

Zati-alinizə ən yüksək hörmət və ehtiramımı bir daha bəyan edirəm.

## AVSTRALİYA İTTİFAQININ GENERAL-QUBERNATORU DEVİD CON HÖRLİDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə, Azərbaycan hökumətinə və xalqına Avstraliya hökuməti və xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Bu il Bakıda keçiriləcək Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Konfransına ev sahibliyi etməkdə sizə uğurlar arzulayıram.

Əminəm ki, ölkələrimiz arasında dostluq münasibətləri növbəti illərdə də inkişaf etməkdə davam edəcək.

## FƏLƏSTİN PREZİDENTİ MAHMUD ABBASDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə zati-alinizə, Sizin şəxsinizdə hökumətinizə və qardaş Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram. Sizə cansağlığı, xoşbəxtlik və müvəffəqiyyətlər, xalqınıza xeyir-bərəkət və tərəqqi arzu edirəm.

Fürsətdən istifadə edərək, ölkələrimizi və xalqlarımızı birləşdirən həmrəylik əlaqələrini təqdir edir, bundan fəxarət hissi duyduğumuzu bildirirəm. Xalqımızın azadlıq və müstəqillik hüquqlarına dəstək verən mövqenizi yüksək qiymətləndirirəm.

Xahiş edirəm ən xoş arzularımı qəbul edəsiniz.

## MALDİV PREZİDENTİ
## MƏHƏMMƏD MUİZZUDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə, Azərbaycan hökumətinə və xalqına Maldiv Respublikasının Hökuməti və xalqı adından, şəxsən öz adımdan səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Zati-aliləri! İcazə verin, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, həmçinin Azərbaycan xalqına davamlı tərəqqi və firavanlıq arzularımı çatdırım.

**TİMOR-LESTE PREZİDENTİ JOSE RAMOS -HORTADAN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

28 May – Müstəqillik Günü münasibətilə Sizə ən xoş arzularımı çatdırıram.

Bu tarix 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasında mühüm mərhələni təcəssüm etdirməklə yanaşı, Azərbaycan xalqının müstəqil, demokratik və dünyəvi dövlət qurmaq uğrunda əzmkar mübarizəsinin rəmzidir.

Bu bayram günündə illər boyu Azərbaycanda rəhbər tutulan azadlıq, demokratiya və öz müqəddəratını təyinetmə kimi ali dəyərləri böyük iftixar hissi ilə alqışlayıram. Bu günün qeyd edilməsi milli kimliyin, suverenliyə olan sadiqliyin bir daha təsdiqlənməsi və bütün Azərbaycan vətəndaşları arasında birlik bağlarının möhkəmləndirilməsi üçün bir imkandır.

Azərbaycan Respublikası ilə Timor-Leste Demokratik Respublikası arasında diplomatik əlaqələrin 20-ci ildönümünü qeyd etdiyimiz bu ildə ölkələrimiz arasında mövcud olan qardaşlıq və dostluq münasibətlərini daha da dərinləşdirə və genişləndirə biləcəyimizə ümidvar olduğumu vurğulayıram.

Əminəm ki, xalqlarımızın rifahı və ölkələrimizin davamlı inkişafı naminə Timor-Lestenin Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasına (ASEAN) tamhü-

quqlu üzvlük prosesinə aid imkanları araşdırmağa davam edə, habelə ölkəmizin bu yaxınlarda Ümumdünya Ticarət Təşkilatına 166-cı üzv dövlət kimi qəbul olunmasından birlikdə faydalana bilərik.

Qoy Azərbaycanın Müstəqillik Günü sevinc və qürur hissi ilə qeyd olunsun! Azərbaycan Sizin uzaqgörən və müdrik rəhbərliyinizlə inkişafını davam etdirsin!

Cənab Prezident! Sizə yüksək hörmət və ehtiramımı bildirərək, zati-alinizə möhkəm cansağlığı, yeni-yeni uğurlar və rifah arzulayıram.

## PERU PREZİDENTİ DİNA ERSİLİA BOLUARTE ZEQARRADAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə zati-alinizə Peru hökuməti və xalqı adından ən səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram.

Bu əlamətdar gündə Azərbaycan xalqının rifahı və firavanlığı ilə bağlı ən xoş arzularımı yetirirəm. Peru dövlətinin ölkələrimizi birləşdirən dostluq və əməkdaşlıq əlaqələrini möhkəmləndirməkdə maraqlı olduğunu vurğulayıram. Mən həmçinin xalqlarımızı yaxınlaşdıracaq yeni qarşılıqlı maraq sahələrini müəyyənləşdirmək istəyimi ifadə edirəm.

Fürsətdən istifadə edərək, zati-alinizə ən yüksək hörmət və ehtiramımı bildirirəm.

**SENEQAL PREZİDENTİ BASSİRU DİOMAY FAYDAN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Sizə və dost Azərbaycan xalqına firavanlıq və davamlı inkişaf arzulayıram.

Bu fürsətdən istifadə edərək, ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi istiqamətində Sizinlə işləməyə hazır olduğumu və zati-alinizə yüksək ehtiramımı bildirirəm.

## LİVİYA PREZİDENTİ MƏHƏMMƏD YUNİS ƏL-MƏNFİDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Liviya Dövləti ilə Azərbaycan Respublikası arasında tarixi əlaqələrin dost xalqlarımızın müştərək mənafeyi naminə bütün sahələrdə inkişaf etdirilməsi üçün Sizinlə birgə əməkdaşlığa hazır olduğumu vurğulayıram.

Hörmətli cənab Prezident! Sizə dərin minnətdarlığımı bildirir, müdrik rəhbərliyinizlə dost Azərbaycan xalqının tərəqqisinə və firavanlığına yönələn səylərinizdə davamlı müvəffəqiyyətlər arzulayıram.

Zati-aliləri! Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## ŞRİ-LANKA PREZİDENTİ RANİL VİKRAMASİNQHEDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Əlamətdar bayram – ölkənizin Müstəqillik Günü münasibətilə Şri-Lanka hökuməti adından və şəxsən öz adımdan zati-alinizi, Azərbaycan hökumətini və xalqını səmimi-qəlbdən təbrik edirəm.

Şri-Lanka ilə Azərbaycan arasında xoş mərama və qarşılıqlı anlaşmaya əsaslanan sıx və mehriban münasibətlər mövcuddur. Əminəm ki, bu əlaqələr xalqlarımızın qarşılıqlı rifahı naminə növbəti illərdə daha da möhkəmlənəcək və genişlənəcəkdir.

Zati-aliləri! Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm. Sizə cansağlığı, xoşbəxtlik, firavanlıq, Azərbaycan xalqına isə davamlı tərəqqi və rifah arzulayıram.

## VYETNAM PREZİDENTİ TO LAMDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

İcazə verin, Vyetnam dövləti və xalqı adından Sizə və bütün Azərbaycan xalqına milli bayramınız – Müstəqillik Gününün 106-cı ildönümü münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırım.

Sizin rəhbərliyinizlə dost Azərbaycanın ölkə həyatının bütün sahələrində və beynəlxalq arenada əldə etdiyi uğurları diqqətlə izləyir və buna çox sevinirik.

Qürur hissi ilə qeyd edirəm ki, ölkələrimiz arasında ənənəvi dostluq və əməkdaşlıq uzun illər ərzində möhkəmlənir və inkişaf edir. Qəti əminəm ki, tarixi münasibətlərə əsaslanan Vyetnam–Azərbaycan əlaqələri ölkələrimizin və xalqlarımızın tərəqqisi, bütün dünyada sülh və inkişaf naminə gələcəkdə də genişlənəcəkdir.

Azərbaycana daha sürətli inkişaf, xalqınıza isə xoşbəxtlik arzulayıram.

Cənab Prezident! Sizə möhkəm cansağlığı, səadət və ali dövləti fəaliyyətinizdə böyük uğurlar diləyirəm.

**MYANMA DÖVLƏT İDARƏ ŞURASININ SƏDRİ MİN AUNG HLAYNDAN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Myanma İttifaqı Respublikasının xalqı adından və şəxsən öz adımdan ölkənizin Müstəqillik Gününün 106-cı ildönümü münasibətilə zati-alinizi və Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Əminəm ki, ölkələrimiz arasındakı dostluq münasibətləri gələcək illərdə daha da möhkəmlənəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək, zati-alinizə cansağlığı, rifah, Azərbaycan xalqına isə davamlı tərəqqi və firavanlıq arzulayıram.

Zati-aliləri! Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## BANQLADEŞ PREZİDENTİ MƏHƏMMƏD ŞAHABUDDİNDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Əlamətdar bayram – Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və qardaş Azərbaycan xalqına ən səmimi salamlarımı və təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Banqladeşlə Azərbaycan arasında ikitərəfli sıx dostluq əlaqələri mövcuddur. Qəti şəkildə inanıram ki, xalqlarımız dostluq və qardaşlıq əlaqələrini gələcəkdə daha da möhkəmləndirmək istiqamətində birlikdə işləməyə davam edəcəklər.

Sizə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, dost Azərbaycan xalqına isə davamlı sülh, tərəqqi və firavanlıq arzulayıram.

Zati-aliləri! Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## CİBUTİ PREZİDENTİ İSMAİL ÖMƏR QELLEDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Qardaş və dost Azərbaycan xalqı milli bayramının ildönümünü qeyd etdiyi bu günlərdə Sizə səmimi təbriklərimi çatdırmaqdan böyük şərəf duyuram. Cibuti xalqı və hökuməti də ölkənizə tərəqqi, əmin-amanlıq və inkişaf arzulamaqda mənə qoşulur.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycan inkişaf yolunda daha da fəal irəliləyir.

Cənab Prezident! Əmin ola bilərsiniz ki, Siz ölkələrimiz arasında dostluq və əməkdaşlığın möhkəmləndirilməsi naminə həmişə Cibuti xalqı və hökumətinin dəstəyini hiss edəcəksiniz.

Ölkəmiz bütün dünyada sülhün və sabitliyin möhkəmləndirilməsi üçün Azərbaycanla birgə yorulmadan səy göstərəcəkdir.

Cənab Prezident! Sizə bir daha səmimi təbriklərimi çatdırır və qardaşlıq salamlarımı qəbul etməyinizi xahiş edirəm.

**QAMBİYA PREZİDENTİ ADAMA BARROUDAN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimizi çatdırıram. Xalqınızın şücaətini, qətiyyətini və gücünü təcəssüm etdirən bu əlamətdar gün ölkənizin tarixində önəmli bir mərhələdir.

Azərbaycanın keçdiyi müstəqillik yolunu xatırlayarkən, dünya bu illər ərzində əldə etdiyiniz nailiyyətləri və irəliləyişləri yüksək qiymətləndirir.

Xalqlarımız arasında münasibətlər qarşılıqlı hörmət, əməkdaşlıq və ortaq dəyərlər əsasında qurulub. Biz Azərbaycanın regionda və onun hüdudlarından kənarda sülhün, sabitliyin və rifahın təşviqi istiqamətində göstərdiyi səyləri təqdir edirik.

Bu əlamətdar gündə Azərbaycanı onun bütün vətəndaşları üçün daha parlaq və firavan gələcəyə aparan fəaliyyətinizdə müstəqillik ruhunun Sizi həmişə ilhamlandırmasını arzulayıram.

Sizi bir daha bu bayram münasibətilə təbrik edirəm. Qarşıdan gələn illərdə Sizə və Azərbaycan xalqına sevinc dolu bayramlar və davamlı uğurlar diləyirəm.

## İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANI KRALI SALMAN BİN ƏBDÜLƏZİZ AL SƏUDDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Əs-səlamu əleyküm və rəhmətullahi və bərəkətuhu.

Zati-alinizi ölkənizin Müstəqillik Günü münasibətilə təbrik edir, Sizə möhkəm cansağlığı və səadət, qardaş Azərbaycan Respublikasının Hökumətinə və xalqına isə davamlı inkişaf, rifah arzu edirəm.

Zati-alinizə xoş arzularımızı və ehtiramımızı bildiririk.

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ NAZİR MƏHƏMMƏD BİN SALMAN BİN ƏBDÜLƏZİZ AL SƏUDDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Əs-səlamu əleyküm və rəhmətullahi və bərəkətuhu.

Azərbaycanın Müstəqillik Günü münasibətilə zati-alinizə təbriklərimi çatdırıram. Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan Respublikasının Hökumətinə və xalqına isə daha çox inkişaf, firavanlıq arzu edirəm.

Zati-alinizə xoş arzularımızı və hörmətimizi bildiririk.

**BƏHREYN KRALLIĞININ VƏLİƏHDİ VƏ BAŞ NAZİRİ SALMAN BİN HƏMƏD ƏL-XƏLİFƏDƏN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Ölkənizin Müstəqillik Günü münasibətilə zatialinizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Azərbaycan xalqına isə tərəqqi və rifah arzulayıram.

Zati-aliləri! Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## KÜVEYT ƏMİRİ ŞEYX MƏŞƏL ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Dost ölkənizin milli bayramı – Müstəqillik Gününün növbəti ildönümü münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram. Fürsətdən istifadə edərək, dost ölkələrimiz və xalqlarımız arasında mövcud olan möhkəm əlaqələrin davamlı inkişafını diləyirəm.

Hörmətli cənab Prezident! Sizə uzun ömür, cansağlığı, Azərbaycan Respublikasının dost xalqına davamlı tərəqqi və rifah arzulayıram.

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ŞEYX MƏHƏMMƏD BİN ZAİD ƏL-NƏHYANDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycanın Müstəqillik Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Sizə möhkəm cansağlığı, səadət, Azərbaycan hökumətinə və dost Azərbaycan xalqına rifah və tərəqqi arzulayıram.

Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ, BAŞ NAZİRİ VƏ DUBAY ƏMİRİ ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD ƏL-MƏKTUMDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Azərbaycan Respublikasının Hökumətinə və xalqına tərəqqi və firavanlıq diləyirəm.

Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ, BAŞ NAZİRİN MÜAVİNİ, PREZİDENT İŞLƏRİ NAZİRİ ŞEYX MANSUR BİN ZAİD ƏL-NƏHYANDAN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycanın Müstəqillik Günü münasibətilə zati-alinizi səmimi-qəlbdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan məmnunluğumu bildirirəm.

Zati-alinizə möhkəm cansağlığı, səadət, Azərbaycan hökumətinə və dost Azərbaycan xalqına rifah və tərəqqi arzulayıram.

Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## BRUNEY SULTANI HACI HƏSSƏNAL BOLKİAHDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Əssəlamu əleyküm və rəhmətullahi və bərəkətuhu.

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə, Azərbaycan hökumətinə və xalqına ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Biz dövlətlərimiz arasındakı dostluq münasibətlərini yüksək qiymətləndirir və bu münasibətləri həm ikitərəfli əsasda, həm də beynəlxalq forumlarda daha da inkişaf etdirmək imkanlarını alqışlayırıq.

Mən həmçinin Sizə və hökumətinizə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına ev sahibliyi etməklə bağlı bütün hazırlıqlarınızda uğurlar arzulayıram.

Allah-taaladan zati-alinizə möhkəm cansağlığı və səadət, Azərbaycan xalqına sülh və rifah diləyirəm.

Vəssəlamu əleyküm və rəhmətullahi və bərəkətuhu.

## OMAN SULTANI HEYSƏM BİN TARİQ AL SƏİDDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə zati-alinizə səmimi təbriklərimizi çatdırmaqdan məmnunluq duyuram.

Bu fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Azərbaycan xalqına isə davamlı tərəqqi və rifah arzulayıram.

## İORDANİYA KRALI II ABDULLAH İBN AL HÜSEYNDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə İordaniya Haşimilər Krallığının Hökuməti və xalqı adından zati-alinizə və böyük Azərbaycan xalqına səmimi təbriklərimizi çatdırıram.

Bu xoş fürsətdən istifadə edərək, zati-alinizə cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə davamlı inkişaf və rifah arzulayıram.

## KAMBOCA KRALI
## NORODOM SİHAMONİDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimi, dost Azərbaycan xalqına xoşbəxtlik və firavanlıq arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Səmimi-qəlbdən inanıram ki, Kamboca ilə Azərbaycan arasında əlaqələr qarşılıqlı maraq doğuran məsələlərdə, xüsusilə də dünyada sülh və təhlükəsizliyin təmin edilməsində daha da möhkəmlənəcək və inkişaf edəcəkdir.

**QƏTƏR ƏMİRİ ŞEYX TƏMİM BİN HƏMƏD AL TANİDƏN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Ölkənizin Müstəqillik Gününün ildönümü münasibətilə Sizə və qardaş Azərbaycan xalqına Qətər Dövlətinin xalqı adından və şəxsən öz adımdan səmimi salamlarımı və təbriklərimi çatdırıram.

Bu xoş fürsətdən istifadə edərək, zati-alinizə möhkəm cansağlığı və səadət, Azərbaycan xalqına daha çox rifah və tərəqqi, ölkələrimiz arasında mövcud olan sıx münasibətlərin qarşıdakı illərdə daha da möhkəmlənməsini arzulayıram.

**QƏTƏR ƏMİRİNİN MÜAVİNİ, ŞEYX ABDULLAH BİN HƏMƏD AL TANİDƏN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə səmimi salamlarımı və təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Zati-alinizə cansağlığı, rifah, qardaş ölkənizə və onun xalqına isə daha çox tərəqqi və firavanlıq arzu edirəm.

## ƏLCƏZAİR PREZİDENTİ ƏBDÜLMƏCİD TEBBUNDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə Əlcəzair xalqı, hökuməti adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırmaqdan, uca Allahdan zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına isə daha çox inkişaf və firavanlıq diləməkdən məmnunluq duyuram.

Bu xoş fürsətdən istifadə edərək, ölkələrimizi birləşdirən qardaşlıq və əməkdaşlıq münasibətlərinin artan dinamika ilə inkişafından şad olduğumu bildirirəm. Dost xalqlarımıza xidmət baxımından əlaqələrimizin daha da möhkəmləndirilməsi istiqamətində Sizinlə birgə işləmək istəyimi bir daha ifadə edirəm.

Zati-aliləri! Əziz qardaşım, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**MƏRAKEŞ KRALI**
**VI MƏHƏMMƏDDƏN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Əziz qardaşım!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə zati-alinizə şəxsən öz adımdan və Mərakeş xalqı adından ən səmimi təbriklərimizi, möhkəm cansağlığı və xoşbəxtlik arzularımızı çatdırmaqdan böyük məmnunluq duyuram. Həmçinin Sizin müdrik rəhbərliyinizlə Azərbaycan xalqına daha böyük inkişaf və tərəqqi arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək bildirirəm ki, ölkələrimiz arasındakı sıx dostluq əlaqələri əsasında mövcud olan xüsusi münasibətlərimizə böyük dəyər verirəm. Əminəm ki, xalqlarımızın qarşılıqlı rifahı naminə ölkələrimiz arasında bütün sahələrdə əlaqələri genişləndirməkdə və şaxələndirməkdə Siz də mənim qədər maraqlısınız.

## BƏHREYN KRALI HƏMƏD BİN İSA ƏL-XƏLİFƏDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Dost ölkənizin Müstəqillik Günü münasibətilə Bəhreyn Krallığının Hökuməti, xalqı və öz adımdan zati-alinizə səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırmaqdan məmnunluq duyuram.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə tərəqqi və firavanlıq arzulayıram.

Zati-alinizə ən yüksək ehtiramımı bildirirəm.

**NİDERLAND KRALI
VİLLEM-ALEKSANDRDAN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Əziz qardaşım!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə zati-alinizə səmimi təbriklərimi bildirir və Azərbaycan xalqına firavanlıq arzu edirəm.

**İSPANİYA KRALI
VI FELİPEDƏN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə zati-alinizə öz adımdan, İspaniya hökuməti və xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Cənab Prezident! Sizə möhkəm cansağlığı, sevimli Azərbaycan xalqına isə sülh və rifah arzu edirəm.

## BELÇİKA KRALI FİLİPDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına təbriklərimi, cansağlığı, əmin-amanlıq arzularımı çatdırıram.

## TAYLAND KRALI VAÇİRALONQKORNDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi, möhkəm cansağlığı, xoşbəxtlik arzularımı çatdırır, ölkənizə, xalqınıza sülh, inkişaf və rifah diləyirəm.

Tayland ilə Azərbaycan arasında müxtəlif sahələrdə birgə fəaliyyətə əsaslanan, sürətlə inkişaf edən münasibətlər mövcuddur. İnanıram ki, ölkələrimizin və xalqlarımızın rifahı naminə ortaq qətiyyətimizlə və qarşılıqlı dəstəyimizlə ticarət, turizm, təhsil və təmiz enerji sahələrində əməkdaşlığımızın möhkəmlənməsi və genişlənməsi üçün sıx surətdə birgə işləməyə davam edəcəyik.

## MOLDOVANIN QAQAUZİYA MUXTAR ƏRAZİ QURUMUNUN RƏHBƏRİ YEVGENİYA QUTSULDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

İcazə verin, Moldova Respublikasının Qaqauziya Muxtar Ərazi Qurumunun sakinləri adından və şəxsən öz adımdan Sizə ehtiramımı ifadə edim və Sizin şəxsinizdə Azərbaycan xalqına Müstəqillik Günü münasibətilə təbriklərimi çatdırım.

Müstəqillik Günü azadlığı, xoşbəxt həyatı təcəssüm etdirən bayramdır və ölkənin hər bir vətəndaşı üçün sülhün, rifahın və sabitliyin təminatıdır. Bu gözəl gün həmişə bizim qiymətləndirdiyimiz azadlığın və müstəqilliyin əhəmiyyətini xatırladır. Qoy bu gün Azərbaycanın tarixində hər zaman sevinc, hörmət və qürurla anılsın!

Sizə və Sizin şəxsinizdə ölkənin bütün sakinlərinə xoşbəxtlik, sülh və tərəqqi arzulayırıq. Qəlbləriniz həmişə doğma torpağa sevgi və işıqlı gələcəyə inamla dolsun! Hər birinizin daim ölkənizin məğrur vətəndaşı olmasını arzu edirik.

Öz növbəmizdə, Sizi əmin edirik ki, Qaqauziya Muxtar Ərazi Qurumunun rəhbərliyi əməkdaşlığımızın hərtərəfli inkişafına xüsusi diqqət yetirir və biz mövcud imkanlardan istifadə edərək, dostluq və

tərəfdaşlıq münasibətlərinin daha da dərinləşməsinə nail olacağıq.

Cənab Prezident! Fürsətdən istifadə edərək, Sizə yüksək ehtiramımı ifadə edirəm və Azərbaycan Respublikasının daha da inkişafı naminə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

## İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ HÜSEYN İBRAHİM TAHADAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı münasibətilə zati-alinizə və xalqınıza səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram. Uca Allahdan Sizə cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına isə tərəqqi və rifah arzu edirəm.

İslam Əməkdaşlıq Təşkilatı Azərbaycan Respublikası ilə sıx əlaqələrini yüksək dəyərləndirir və islam fəaliyyətinin birgə təşviqi məqsədini daşıyan bu qurumun dəstəklənməsində ölkənizin rolunu təqdir edir. İƏT üzv ölkələrin ümumi dəyərlərinin təbliği və bu ölkələr arasında qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsi işində səylərini bundan sonra da davam etdirəcəkdir.

Üzv ölkələrin xalqları arasında həmrəyliyin gücləndirilməsində və birgə islam fəaliyyəti üçün yeni üfüqlərin açılmasında zati-alinizin dəstəyinə ümidvaram.

Zati-aliləri cənab Prezident! Sizə olan yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## İRAQ ALİ İSLAM ŞURASININ PREZİDENTİ HUMAN HAMMUDİDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Əs-səlamu əleyküm və rəhmətullahi və bərəkatuhu.

Milli bayramınız – Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimizi çatdırmaqdan məmnunluq duyur, Azərbaycan Respublikasına və xalqınıza davamlı tərəqqi, yüksəliş və rifah arzu edirik.

Bu xoş fürsətdən istifadə edərək, ölkələrimiz və xalqlarımız arasında ikitərəfli əlaqələrin sülh, təhlükəsizlik, sabitlik və firavanlıq zəminində gücləndirilməsi əzmində olduğumuzu bildiririk.

**İRAQIN BAŞ NAZİRİ MƏHƏMMƏD ŞİA ƏS-SUDANİDƏN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Əs-səlamu əleyküm və rəhmətullahi və bərəkətuhu.

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə şəxsən öz adımdan, həmçinin İraq Respublikasının Hökuməti və xalqı adından Sizə ən xoş arzularımı və səmimi təbriklərimi çatdırıram.

Bu xoş fürsətdən istifadə edərək, dost ölkələrimiz və xalqlarımız arasında əməkdaşlıq əlaqələrinin uğurla davam edəcəyinə əmin olduğumu bildirirəm.

Zati-aliləri! Sizə davamlı uğurlar və xoşbəxtlik, Azərbaycan hökumətinə tərəqqi, xalqına isə firavanlıq arzulayıram.

**MALAYZİYA KRALI ƏLAHƏZRƏT SULTAN İBRAHİMDƏN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Əlamətdar bayram – Azərbaycan Respublikasının müstəqilliyinin 106-cı ildönümü münasibətilə Kraliça Raca Zarit Sofia ilə birlikdə zati-alinizə səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırırıq.

Əminik ki, Malayziya ilə Azərbaycan arasında mövcud olan möhkəm dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə daha da inkişaf edəcəkdir.

Uca Allahdan zati-alinizə cansağlığı, Azərbaycan Respublikasına və onun xalqına davamlı sülh, rifah və tərəqqi arzulayırıq.

## KANADANIN GENERAL-QUBERNATORU MERİ SAYMONDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Gününün ildönümü münasibətilə Sizi və ölkənizin vətəndaşlarını bütün kanadalılar adından təbrik edirəm.

Kanada Azərbaycanla əlaqələrini, eləcə də fəal Azərbaycan–Kanada icması tərəfindən qurulan xalqlararası münasibətləri möhkəmləndirməyi davam etdirmək əzmindədir. İkitərəfli müsbət əlaqələrimiz qadınların səlahiyyətlərinin artırılması, qlobal təhlükəsizlik və ətraf mühitin mühafizəsi kimi mühüm məsələlərlə bağlı birgə səylərimizlə daha da möhkəmlənir. Həmçinin Kanada demokratik inkişaf və rifah kimi dəyərlərin Cənubi Qafqazda sülhü möhkəmləndirəcəyinə qəti şəkildə inanır.

Kanada bu ilin sonunda Azərbaycanın ev sahibliyi edəcəyi COP29 tədbirini səbirsizliklə gözləyir. Kanada Azərbaycanla münasibətlərini daha da inkişaf etdirməyə, həmçinin vətəndaşlarımız üçün daha yaxşı gələcək naminə birgə səy göstərməyə hazırdır.

Bu bayram münasibətilə Sizə və Azərbaycan xalqına ən xoş arzularımı çatdırıram.

## FİLİPPİN PREZİDENTİ FERDİNAND ROMUALDEZ MARKOSDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycanın Müstəqillik Gününün 106-cı ildönümü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Siz sülh, tərəqqi və xalqın firavanlığı üçün yorulmadan çalışdığınız bir vaxtda biz bu əlamətdar hadisəni və ölkənizin nailiyyətlərini qeyd etməkdə Azərbaycan xalqına qoşuluruq.

Qoy Filippin və Azərbaycan arasında tərəfdaşlıq ölkələrimizin və xalqlarımızın qarşılıqlı rifahı naminə inkişaf etməkdə davam etsin!

Zati-aliləri! Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**KENİYA PREZİDENTİ
VİLYAM SAMOİ RUTODAN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Ölkənizin milli bayramı münasibətilə Keniya Respublikasının Hökuməti və xalqı adından, şəxsən öz adımdan zati-alinizə və Sizin simanızda Azərbaycan xalqına səmimi təbriklərimi çatdırıram. Bu əlamətdar gün ölkənizin tarixində qürurverici hadisə kimi qeyd olunur.

Keniya və Azərbaycan arasında bu il diplomatik münasibətlərin qurulmasının 20-ci ildönümünün qeyd olunduğu vaxtda mən ölkələrimiz arasında mövcud olan dostluq və əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirirəm. Son iki onillikdə tərəfdaşlığımız qarşılıqlı hörmət, əməkdaşlıq və ortaq dəyərlər əsasında inkişaf etmişdir.

İqlim fəaliyyəti, enerji keçidi, ticarət və sərmayələr, turizm və digər sahələr daxil olmaqla, yeni istiqamətlərdə əməkdaşlığımızı inkişaf etdirmək və tərəfdaşlığımızı genişləndirmək üçün böyük potensialın olduğunu qeyd edirəm.

Bu əlamətdar gündə zati-alinizə möhkəm cansağlığı, böyük Azərbaycan xalqına isə rifah arzulayıram.

## KONQO PREZİDENTİ DENİ SASSU-NQESSODAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Möhtərəm Prezident, əziz qardaşım!

Ölkənizin milli bayramı – 28 May – Müstəqillik Günü münasibətilə Konqo xalqı və hökuməti adından, şəxsən öz adımdan Sizə səmimi təbriklərimi çatdırmaqdan şərəf və məmnunluq duyuram.

Cənab Prezident! Sizə və ailənizə cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına firavanlıq və əmin-amanlıq arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək, ölkələrimiz arasında mövcud olan dostluq, həmrəylik və əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsi istiqamətində Sizinlə birgə çalışmağa hazır olduğumu bir daha bildirirəm. Ölkənizə səfərim məndə xoş təəssüratlar yaradıb.

Sizi əlamətdar bayram münasibətilə bir daha təbrik edir, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**TÜRKSOY-un BAŞ KATİBİ
SULTAN RAYEVDƏN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un Baş katibliyi, təşkilata üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurası adından və şəxsən öz adımdan zati-alinizi və qardaş Azərbaycan xalqını 28 May – Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Zati-alinizin müdrik və ardıcıl siyasəti nəticəsində Azərbaycan Respublikası bütün əraziləri üzərində tam hüquqi nəzarəti bərpa edərək, regionda sülhün və əmin-amanlığın təminatçısına çevrilmişdir.

TÜRKSOY ortaq türk mədəniyyətinin inkişafına yönəlik beynəlxalq fəaliyyətində Sizin dəstəyinizi daim hiss edir, Azərbaycanın dünya mədəni irsinə verdiyi töhfələri yüksək qiymətləndirir.

Bu xoş fürsətdən istifadə edərək, TÜRKSOY-a göstərdiyiniz diqqət və qayğıya görə zati-alinizə dərin təşəkkürümü bildirir, Sizə və ailənizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Azərbaycan xalqına sülh, rifah və tərəqqi arzulayıram.

## TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ BAŞ KATİBİ KUBANIÇBEK ÖMÜRALIYEVDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Müstəqillik, suverenlik, bərabərlik, ərazi bütövlüyü və dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı qardaşlıq və dostluq zəminində yaradılmış Türk Dövlətləri Təşkilatının sadiq olduğu təməl prinsiplərdəndir. Azərbaycan Respublikasının təşkilat çərçivəsində tərəfdaşlıq və inteqrasiya proseslərinin inkişafına verdiyi töhfə nəinki üzv dövlətlərimizdə, həmçinin bütövlükdə regionumuzda sülh, sabitlik, təhlükəsizlik və rifahın möhkəmləndirilməsinə xidmət edir.

Əminəm ki, Sizin təşəbbüsünüz əsasında bu ilin iyul ayında Şuşa şəhərində Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi əməkdaşlığımızı daha da gücləndirəcəkdir.

Zati-aliləri! Fürsətdən istifadə edərək, Sizə bir daha dərin ehtiramımı bildirir, Azərbaycan xalqının rifahı naminə işlərinizdə yeni uğurlar diləyirəm.

## RUSİYANIN SANKT-PETERBURQ ŞƏHƏRİNİN QUBERNATORU ALEKSANDR BEQLOVDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Möhtərəm İlham Heydər oğlu!

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırıram.

1918-ci il mayın 28-də İstiqlal Bəyannaməsinin imzalanması güclü müstəqil dövlətin inkişafının bünövrəsini qoydu.

Böyük tarixi və zəngin mədəniyyəti olan Azərbaycan bu gün iqtisadi və sosial sahələrdə mühüm uğurlar qazanır, regionda və dünyada xarici siyasət mövqelərini möhkəmləndirir. Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə qüdrətli və inkişaf edən dövlətə çevrilib.

Bu əlamətdar gündə xalqınız yeni Azərbaycanın təşəkkül tapması, ölkələrimiz arasında dostluq və əməkdaşlığın möhkəmləndirilməsi üçün çox işlər görmüş ümummilli lider Heydər Əlirza oğlu Əliyevin xatirəsini ehtiramla anır.

Sankt-Peterburq 20 ildən artıq müddətdə uğurla inkişaf edən Azərbaycan Respublikasındakı tərəfdaşları ilə etimad və qarşılıqlı hörmət əsasında konstruktiv dialoqu yüksək qiymətləndirir.

Əminəm ki, bu yaxınlarda Sankt-Peterburqun Bakıda mədəni-işgüzar missiyası ölkələrimiz və şəhərlərimiz arasında qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsi istiqamətində mühüm addım oldu. Əldə olunmuş razılaşmalar Peterburq–Azərbaycan əlaqələrini daha da möhkəmləndirəcək.

Azərbaycana tərəqqi, ölkənin sakinlərinə sülh və əmin-amanlıq arzulayıram.

## RUSİYANIN DAĞISTAN RESPUBLİKASININ RƏHBƏRİ SERGEY MƏLİKOVDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Möhtərəm İlham Heydər oğlu!

Sizi və qardaş Azərbaycan xalqını milli bayram – müstəqilliyin 106-cı ildönümü münasibətilə təbrik edirəm.

Azərbaycan Respublikasının ötən onilliklər ərzində qazandığı uğurlar ölkə rəhbərliyinin seçdiyi və ümummilli dəstək alan, respublikanın beynəlxalq arenada nüfuzunun artmasının əsasına çevrilən kursun düzgünlüyünü təsdiq edir.

Xalqlarımızı çoxəsrlik dostluq və mehriban qonşuluq ənənələri, etimad və tərəfdaşlıq ab-havası birləşdirir. Bu gün Rusiya Federasiyasının Dağıstan Respublikası ilə Azərbaycan Respublikası arasında yaranmış əlaqələr qarşılıqlı faydalı və hərtərəfli əməkdaşlığın daha da genişlənməsinin mühüm amilidir.

Hörmətli İlham Heydər oğlu! Sizə möhkəm cansağlığı, sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

## RUSİYANIN HƏŞTƏRXAN VİLAYƏTİNİN QUBERNATORU İQOR BABUŞKİNDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Möhtərəm İlham Heydər oğlu!

İcazə verin Sizə öz ehtiramımı bildirim və zatialinizi Müstəqillik Günü münasibətilə təbrik edim.

Bu əlamətdar gündə Sizə və Azərbaycan Respublikasının bütün vətəndaşlarına möhkəm cansağlığı, xoşbəxtlik, əmin-amanlıq və doğma ölkənizin inkişafı naminə səmərəli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Həştərxan vilayəti ilə Azərbaycan Respublikası arasında uzun illər ərzində davamlı strateji tərəfdaşlıq xarakteri almış çoxplanlı qarşılıqlı fəaliyyətin inkişafına göstərdiyiniz hərtərəfli dəstəyə və şəxsi töhfənizə görə Sizə təşəkkürümü bildirirəm. Əminəm ki, gələcəkdə də birgə səylərlə qarşılıqlı hörmətə və etibarlı əməkdaşlığa əsaslanan ənənələri fəal şəkildə möhkəmləndirəcəyik.

## RUSİYANIN TATARISTAN RESPUBLİKASININ LENİNOQORSK ŞƏHƏRİNİN VƏ LENİNOQORSK RAYONUNUN «BİRLİK» AZƏRBAYCAN MİLLİ-MƏDƏNİ MUXTARİYYƏTİ YERLİ İCTİMAİ TƏŞKİLATININ SƏDRİ RAMİZ MƏMMƏDOVDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Möhtərəm İlham Heydər oğlu!

Rusiyanın Tatarıstan Respublikasının Leninoqorsk şəhərinin və Leninoqorsk rayonunun «Birlik» Azərbaycan Milli-Mədəni Muxtariyyəti yerli ictimai təşkilatı adından Sizi Azərbaycanın milli bayramı – Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.

Sizin illər boyu apardığınız uğurlu daxili və xarici siyasət öz bəhrələrini verir. Azərbaycan sürətlə inkişaf edərək, yüksək nüfuz və hörmət qazanaraq, beynəlxalq arenada layiqli yerini tutub.

Azərbaycan Respublikası Sizin müdrik rəhbərliyinizlə sürətlə irəliləyərək təkcə regional deyil, həm də beynəlxalq arenada inamlı və nüfuzlu mövqelər qazanır, sosial-iqtisadi inkişaf yolu ilə addımlayır.

Sizin daimi diqqətiniz sayəsində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası, xüsusən Tatarıstan Respublikası arasında dostluğa, qardaşlığa, qarşılıqlı hörmətə və xalqlarımızın dəstəyinə əsaslanan ikitərəfli əməkdaşlığın üfüqləri genişlənir.

Azərbaycanın inkişafı, onun nüfuzunun artırılması və dünya miqyasında mövqelərinin gücləndirilməsi, həmçinin Rusiyadakı Azərbaycan ictimai təşkilatlarının dəstəklənməsi, ölkələrimiz arasında münasibətlərin inkişafı istiqamətində gördüyünüz işlərə görə Sizə minnətdarıq. Fəxr edirik ki, müstəqil Azərbaycan dövləti bu gün beynəlxalq miqyasda öz nüfuzunu artırıb.

Cənab Prezident! Sizə və yaxınlarınıza səmimi-qəlbdən möhkəm cansağlığı, hər zaman yüksək əhvali-ruhiyyə və işlərinizdə uğurlar arzulayıram.

## RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİ DÖVLƏT DUMASININ KOMİSSİYA SƏDRİ, ÜMUMHƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASININ BAŞ KATİBİ VİKTOR PİNSKİDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Möhtərəm İlham Heydər oğlu!

Xahiş edirəm Müstəqillik Günü münasibətilə təbriklərimi qəbul edin.

Ümumhəmkarlar İttifaqları Konfederasiyası Azərbaycanın həmkarlar ittifaqları ilə dostluq və tərəfdaşlıq münasibətlərinə böyük əhəmiyyət verir.

Sizə ali dövləti fəaliyyətinizdə səmimi-qəlbdən uğurlar, Azərbaycanın bütün vətəndaşlarına isə rifah və əmin-amanlıq arzulayıram.

**RUSİYANIN TATARISTAN RESPUBLİKASININ RƏİSİ RÜSTƏM MİNNİXANOVDAN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Möhtərəm İlham Heydər oğlu!

Azərbaycan Xalq Cümhuriyyətinin elan olunmasının ildönümü münasibətilə Sizi tatarıstanlılar adından və öz adımdan səmimi-qəlbdən təbrik edirəm. Qoy Azərbaycan xalqının tarixində yeni səhifənin açılmasının rəmzi olan bu böyük bayram ölkənin sakinlərinin qəlblərini onları Azərbaycanın möhtəşəm nailiyyətlər qazanmasına ruhlandıran yüksək əhvali-ruhiyyə, daim möhkəm birlik və yaradıcılıq eşqi ilə doldursun!

Sizə və yaxınlarınıza, ölkənizin bütün vətəndaşlarına səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, bütün təşəbbüslərinizdə uğurlar və hər zaman ümummilli hədəflərə nail olmağınızı arzulayırıq.

Bu mühüm dövlət bayramının sevincini Azərbaycan xalqı ilə bölüşərək, Rusiya–Azərbaycan strateji münasibətləri çərçivəsində Tatarıstan ilə Azərbaycan arasında gələcəkdə də mehriban və məhsuldar əməkdaşlığa ümidimizi ifadə edirik.

Sizə, yaxınlarınıza və Azərbaycan Respublikasının sakinlərinə yüksək ehtiramımızı və xoş bayram arzularımızı çatdırırıq.

## RUSİYANIN QARAÇAY-ÇƏRKƏZ RESPUBLİKASININ BAŞÇISI RƏŞİD TEMREZOVDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Hörmətli İlham Heydər oğlu!

Sizi və Azərbaycan Respublikasının bütün sakinlərini milli bayram – Müstəqillik Günü münasibətilə təbrik edirəm.

Azərbaycan mədəniyyəti və tarixi ilə zəngindir. Ölkə bu gün Sizin rəhbərliyinizlə sosial-iqtisadi inkişaf sahəsində yüksək nəticələr əldə edir. Azərbaycan dünya səviyyəli mədəniyyət və idman tədbirlərində fəal iştirak edir ki, bu da respublikanın nüfuzunun göstəricisidir.

Şübhəsiz ki, ölkənin əsas sərvəti onun qonaqpərvər, zəhmətkeş və müdrik vətəndaşlarıdır. Onların öz əlləri ilə qurub yaratdıqları dünyanın hər yerindən gələn qonaqları heyran edir.

Azərbaycan ilə Qaraçay-Çərkəz Respublikası arasında səmimi dostluq münasibətləri yaranıb. İnanıram ki, əməkdaşlığımız bundan sonra da respublikalarımızın hərtərəfli inkişafına yönələcəkdir.

Sizə və günəşli Azərbaycanın bütün sakinlərinə möhkəm cansağlığı, əmin-amanlıq və tərəqqi arzulayıram.

## RUSİYANIN LUKOYL PUBLİK SƏHMDAR CƏMİYYƏTİNİN SABİQ PREZİDENTİ VAHİD ƏLƏKBƏROVDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizi və bütün Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan sürətlə inkişaf edən ölkədir. Qərb və Şərq sivilizasiyalarının mütərəqqi nailiyyətlərini tətbiq edən Azərbaycan Sizin rəhbərliyiniz sayəsində əsas dəyərləri – mədəniyyəti, mənəviyyatı, milli özünəməxsusluğu qoruyub saxlayır. Ölkədə ailə institutu, yaşlı nəslin xidmətlərinə hörmət, vətənpərvərlik hissi möhkəmlənir.

Hörmətli İlham Heydər oğlu! İcazə verin, fürsətdən istifadə edərək, LUKOYL-un Azərbaycanda fəaliyyətinə göstərilən hərtərəfli dəstəyə görə dərin minnətdarlığımı bildirim, həmçinin Sizə və bütün Azərbaycan xalqına xoşbəxt həyat, sülh və tərəqqi arzulayım.

## İ.M.SEÇENOV ADINA BİRİNCİ MOSKVA DÖVLƏT TİBB UNİVERSİTETİNİN REKTORU, RUSİYA ELMLƏR AKADEMİYASININ AKADEMİKİ PYOTR QLIBOÇKODAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Hörmətli İlham Heydər oğlu!

Sizi milli bayramınız – Azərbaycanın Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Müdrik siyasi xadim və öz ölkəsinin vətənpərvəri kimi, Siz xalqınızın rifah halını durmadan yüksəldir və ölkənizin nüfuzunu bütün dünyada artırırsınız.

Cənab Prezident! Sizə və bütün Azərbaycan xalqına davamlı inkişaf və tərəqqi arzulayıram.

## RUSİYA DÖVLƏT DUMASININ DEPUTATI DMİTRİ SAVELYEVDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Hörmətli İlham Heydər oğlu!

Sizi və Sizin şəxsinizdə qardaş Azərbaycan xalqını milli bayramınız – Müstəqillik Günü münasibətilə təbrik edirəm.

Bu bayram ölkənin zəngin tarixini, onun sarsılmaz suverenliyini və müstəqilliyini, dünya arenasında nüfuzlu mövqeyini, həmçinin Azərbaycan xalqının birliyini təcəssüm etdirir. Azad olunmuş ərazilərin fəal şəkildə bərpası ölkənin nailiyyətlərinin növbəti örnəyi oldu.

Əminəm ki, Azərbaycan Sizin müdrik rəhbərliyinizlə sürətli inkişaf yolunu uğurla davam etdirəcək. Mehriban qonşular olan ölkələrimiz arasında səmimi münasibətlər isə yeni strateji tərəfdaşlıq əsasında və iqtisadi, təhsil, humanitar, mədəni əməkdaşlıq sahələrində xalqlarımızın rifahı naminə daha da möhkəmlənəcəkdir.

Cənab Prezident! Sizə, doğmalarınıza və Azərbaycan xalqına sülh, əmin-amanlıq, cansağlığı, xoşbəxtlik və bütün sahələrdə yeni uğurlar naminə tükənməz enerji arzulayıram.

**BEYNƏLXALQ RUSDİLLİ VƏKİLLƏR ASSOSİASİYASININ PREZİDENTİ HƏSƏN MİRZƏYEVDƏN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Hörmətli İlham Heydər oğlu!

Beynəlxalq Rusiyalı Həmvətənlər Şurasının, Beynəlxalq Rusdilli Vəkillər Assosiasiyasının, Rusiya Vəkillər Gildiyasının, H.B.Mirzəyev adına Rusiya Vəkillik və Notariat Universitetinin adından və şəxsən öz adımdan Sizi və Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə təbrik edirəm.

Azərbaycan Sizin müdrik rəhbərliyinizlə irimiqyaslı siyasi, iqtisadi islahatlar və dəyişikliklər, əhalinin sosial rifahının yüksəldilməsi yolu ilə inamla irəliləyir, aktual beynəlxalq və regional problemlərin həllində fəal iştirak edir.

Sizin uzaqgörən siyasətiniz sayəsində Azərbaycan ilə Rusiya arasında iqtisadi, mədəni, siyasi əlaqələr gündən-günə genişlənir və möhkəmlənir. 2022-ci ilin fevralında imzalanmış «Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə» şübhəsiz ki, bütün sahələrdə ikitərəfli əlaqələrin keyfiyyətli inkişafına kömək edəcək və bu da dost xalqlarımızın maraqlarına uyğundur.

Bir soydaş kimi, tarixi vətənimlə fəxr edirəm, onu əziz tuturam və Azərbaycan Respublikasında

bütün müsbət dəyişikliklərə səmimi-qəlbdən sevinirəm.

Xüsusi vurğulamaq istəyirəm ki, Siz atanızın – Heydər Əlirza oğlu Əliyevin Azərbaycan Respublikasında əsasını qoyduğu islahat kursunun layiqli davamçısısınız. Sizin fəal vətənpərvərlik və vətəndaşlıq mövqeniz, dövlət əhəmiyyətli vəzifələri uğurla yerinə yetirməyiniz Vətənə layiqli xidmət örnəyidir.

Qoy enerji, gümrahlıq və ruh yüksəkliyi daim Sizinlə olsun! Sizə möhkəm cansağlığı, uzun ömür, ali dövləti vəzifənizdə müvəffəqiyyətlər və Azərbaycan xalqının rifahı naminə yeni-yeni nailiyyətlər arzulayıram.

Sizə, yaxınlarınıza və bütün Azərbaycan xalqına cansağlığı, sülh və əmin-amanlıq diləyirəm.

## «MİR» DÖVLƏTLƏRARASI TELERADİO ŞİRKƏTİNİN SƏDRİ RADİK BATIRŞİNDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Hörmətli İlham Heydər oğlu!

«Mir» Dövlətlərarası Teleradio Şirkətinin kollektivi adından və şəxsən öz adımdan milli bayramınız – Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Bu xoş fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, tükənməz enerji, sülh, sabitlik və Azərbaycan xalqının tərəqqisi naminə səmərəli fəaliyyətinizdə uğurlar arzulayıram.

Sizi əmin edirik ki, «Mir» Teleradio Şirkəti gələcəkdə də Azərbaycanın həyatını və baş verən hadisələri maksimum dərəcədə obyektiv və geniş işıqlandıracaq.

## RUSİYANIN «SAFMAR GROUP» SƏHMDAR CƏMİYYƏTİNİN PREZİDENTİ MİXAİL QUTSERİYEVDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Hörmətli İlham Heydər oğlu!

Sizi milli bayram – Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə təbrik edirəm. Müstəqillik Günü Azərbaycan vətəndaşları üçün mühüm bayramdır və onların Vətənin suverenliyi uğrunda fədakar mübarizəsinin gələcək nəsillər üçün böyük əhəmiyyətini əks etdirir. Bu günü 1918-ci il hadisələrindən ayıran zaman kəsiyinə baxmayaraq, Azərbaycan vətəndaşları bir əsrdən çox əvvəl öz əcdadlarının yeni qurduqları müstəqil dövlət ideallarına və prinsiplərinə eyni hörmətlə yanaşırlar.

Azərbaycan xalqının milli qüruru, vətənpərvərliyi və öz gücünə sonsuz inamı ölkə rəhbərliyinin müdrik siyasəti ilə birlikdə respublikaya iqtisadi və sosial sahələrdə uğurlar qazanmağa, ölkənin beynəlxalq aləmdə nüfuzunu möhkəmləndirməyə imkan yaradır.

Hörmətli İlham Heydər oğlu! Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan vətəndaşlarının rifahı naminə bütün səylərinizin həyata keçməsini səmimi-qəlbdən arzu edirəm.

## BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BAŞ KATİBİ ANTONİO QUTERREŞDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Birləşmiş Millətlər Təşkilatı bu əlamətdar günü Azərbaycan xalqı ilə birlikdə qeyd edir.

Bu əlamətdar tarix Dayanıqlı İnkişaf Məqsədlərinin inkişaf etdirilməsinin, iqlim böhranı ilə mübarizənin, hamı üçün fürsətlərin genişləndirilməsi və ümid verilməsinin əhəmiyyətini xatırlamaq baxımından gözəl fürsətdir.

İndi hamı üçün sülhün, davamlı inkişafın, insan hüquqlarının təmin olunmasına kömək etmək naminə həmrəyliyin və ortaq həll yollarının tapılmasının vaxtıdır.

Bu əlamətdar günü qeyd edərkən, gəlin Azərbaycan xalqı və bütün dünya xalqları üçün daha da yaxşı gələcək naminə səylərimizi artıraq.

Zati-aliləri! Ən yüksək ehtiramımı qəbul etmənizi xahiş edirəm.

**ISESCO-nun BAŞ DİREKTORU SƏLİM BİN MƏHƏMMƏD ƏL-MALİKDƏN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ISESCO) adından və şəxsən öz adımdan 28 May – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan böyük şərəf hissi duyuram.

ISESCO üzv ölkələrlə qəti birlik nümayiş etdirərək, xalqınızın bu əlamətdar günündə sevincinizə şərik olduğunu xüsusi vurğulayır.

Biz Sizinlə və xalqınızla birlikdə bu əziz bayramı qeyd edirik.

Bu gün olduğu kimi, gələcək illərdə də ISESCO-nun davamlı dəstəyinə və əməkdaşlığına əmin ola bilərsiniz.

Zati-aliləri! Ən yüksək ehtiramımı qəbul etmənizi xahiş edirəm.

## *bp*-nin AZƏRBAYCAN, GÜRCÜSTAN VƏ TÜRKİYƏ ÜZRƏ REGİONAL PREZİDENTİ QƏRİ COUNZDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Sizi və bütün Azərbaycan xalqını milli bayramınız – Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.

Biz 30 ildən artıqdır ki, Azərbaycanın dünya səviyyəli layihələrini təhlükəsiz, səmərəli və etibarlı şəkildə həyata keçirməklə ölkənin enerji sektorunun bir hissəsi olmaqdan böyük qürur duyuruq.

*bp* şirkəti Azərbaycanla səmərəli əməkdaşlığın davamlı olaraq genişləndirilməsinə böyük əhəmiyyət verir və bu tərəfdaşlığın daha da möhkəmlənməsinə ümid edir.

Zati-aliləri! Sizi bu əlamətdar bayram münasibətilə bir daha təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına isə daimi rifah və inkişaf arzulayıram.

## QAZAXISTANIN BİRİNCİ PREZİDENTİ NURSULTAN NAZARBAYEVDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Sizin dövlətiniz sosial-iqtisadi inkişaf üzrə böyük uğurlar qazanıb və beynəlxalq arenada nüfuzunu ardıcıl şəkildə möhkəmləndirir.

Arzu edirəm ki, ölkəniz gələcəkdə də inkişaf etməkdə davam etsin və yüksək məqsədlərə nail olsun.

Ümidvaram ki, Qazaxıstanla Azərbaycan arasında qarşılıqlı anlaşmaya əsaslanan strateji tərəfdaşlıq xalqlarımızın maraqları naminə davam edəcəkdir.

Hörmətli İlham Heydər oğlu! Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı və uğurlar, qardaş Azərbaycan xalqına sülh və xoşbəxtlik arzulayıram.

## MİSİR–AZƏRBAYCAN DOSTLUQ CƏMİYYƏTİ İDARƏ HEYƏTİNİN ÜZVLƏRİNDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Müstəqillik Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimizi çatdırmaqdan, Sizə möhkəm cansağlığı arzulamaqdan böyük məmnunluq duyuruq. Doğma Azərbaycan Respublikasına və onun xalqına Allah-taaladan daha böyük tərəqqi və rifah diləyirik.

Misir–Azərbaycan Dostluq Cəmiyyəti Misir və Azərbaycan xalqları arasında müxtəlif sahələrdə əlaqələrin möhkəmləndirilməsi və əməkdaşlığın inkişaf etdirilməsi üçün maksimum səy göstərir.

Qoy Azərbaycan Respublikası Sizin müdrik və uzaqgörən rəhbərliyinizlə daim inkişaf etsin və daha da firavanlaşsın!

Xahiş edirik ən xoş arzularımızı və yüksək ehtiramımızı qəbul edəsiniz.

## TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİ FUAT OKTAYDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Müstəqillik Günü münasibətilə zati-alinizi, dost və qardaş Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Sizin rəhbərliyinizlə dost və qardaş Azərbaycan inkişaf edən iqtisadiyyatı, artan nüfuzu və güclü ordusu ilə regionun qüdrətli dövlətinə çevrilmişdir. Azərbaycanın bu uğurlu və şanlı nailiyyətləri təkcə Azərbaycan xalqı üçün deyil, bütün türk xalqı üçün də qürur və xoşbəxtlik mənbəyidir.

Hər çətinlikdə bir-birinə dəstək olan Türkiyə ilə Azərbaycan arasındakı dostluq və qardaşlıq bağlarının qarşıdakı dövrdə «Bir millət – iki dövlət» prinsipi ilə daha da möhkəmlənəcəyinə, qardaş Azərbaycan bayrağının qədim torpaqlarında əbədi olaraq dalğalanacağına inamım qətidir.

Müstəqillik uğrunda canlarını fəda etmiş əziz şəhidlərimizin xatirəsini minnətdarlıq hissi ilə yad edirəm.

Fürsətdən istifadə edərək, zati-alinizə ən xoş arzularımı çatdırır, cansağlığı və firavanlıq diləyirəm.

## «UKRAYNA AZƏRBAYCANLILARI ALİMLƏR ŞURASI » İCTİMAİ TƏŞKİLATININ SƏDRİ ARİF QULİYEVDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Müstəqillik Günü münasibətilə Sizə və Sizin şəxsinizdə əziz xalqımıza «Ukrayna Azərbaycanlıları Alimlər Şurası» İctimai Təşkilatının üzvləri olan soydaşlarımız adından və şəxsən öz adımdan səmimi təbriklərimizi və xoş arzularımızı çatdırmaqdan böyük məmnunluq və şərəf duyuram. Dövlət müstəqilliyimizin ən mühüm hüquqi dəyərlərinin bərpası ilə bizə Zəfər sevincini bəxş etdiyinizə, hər bir azərbaycanlıya qürur və şərəf hissləri yaşatdığınıza görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Fəxr edirik ki, Siz ulu öndərimiz Heydər Əliyevin vəsiyyətini yerinə yetirdiniz, onilliklər boyunca davam etmiş haqsızlığa, ədalətsizliyə, hüquqsuzluğa son qoymaqla BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin tələblərini icra edərək, ikili standartları zərərsizləşdirdiniz. Sizin gördüyünüz işlər bütün Türk Dünyasında qürur hissi ilə qarşılanır.

Əziz və hörmətli Prezident! Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, Azərbaycanımıza əmin-amanlıq, tərəqqi, firavanlıq arzulayırıq.

**GUAM-ın BAŞ KATİBİ**
**ALTAY ƏFƏNDİYEVDƏN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Müstəqillik Günü münasibətilə Sizə və Sizin şəxsinizdə Azərbaycan xalqına Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın – GUAM-ın Katibliyi adından və şəxsən öz adımdan ən səmimi təbriklərimizi çatdırıram.

Azərbaycan Respublikası ildən-ilə öz müstəqilliyini, suverenliyini, regiondakı yerini möhkəmləndirir, beynəlxalq aləmdə daha fəal rol oynayır.

Bu gün Azərbaycan regional tərəqqinin və beynəlxalq əməkdaşlığın mühərriki olmaqla, ən dinamik və inkişaf edən iqtisadiyyatlardan biridir. Azərbaycan, həmçinin bütün dünyada sülh, təhlükəsizlik, sabitlik, eləcə də qarşılıqlı anlaşma və tolerantlığın tərəfdarıdır.

Sizin rəhbərliyinizlə Silahlı Qüvvələrin şanlı Qələbəsindən sonra bu bayram ilk dəfə olaraq suveren Azərbaycan Respublikasının bütün ərazisində qeyd edilir. İşğaldan azad edilmiş torpaqların miqyasına və sürətinə görə misli görünməmiş şəkildə bərpası və yenidən qurulması, abadlaşdırılması və keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması proqramı həyata keçirilir.

Paralel olaraq, ölkə regionda beynəlxalq hüququn norma və prinsiplərinə, qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan ədalətli və davamlı sülhün bərqərar olmasına qətiyyətlə sadiqdir. Biz səmimi-qəlbdən inanırıq ki, sülh regionun böyük əməkdaşlıq və tərəqqi potensialını üzə çıxararaq yeni era açacaqdır.

Azərbaycan özünü və regionu şərqi qərblə, cənubu şimalla birləşdirən yeni münasibətlər arxitekturasının ən mühüm tərkib hissəsi hesab edərək, cari regional layihələrin həyata keçirilməsi və yeni layihələrin inkişaf etdirilməsi üçün səylərini əsirgəmir.

Azərbaycanın fəal siyasəti və dünya miqyasında artan rolu da geniş şəkildə qəbul edilir. «Qoşulmama Hərəkatı»nın aparıcı üzvü kimi, ölkə ədalətli və daha yaxşı dünyaya can atan, bir çox dövlətlərin maraqlarını əks etdirən gündəlik irəli sürür. Azərbaycan davamlı inkişaf üçün «yaşıl gündəliyi» təşviq edən və həyata keçirən aparıcı dövlətlər sırasındadır. Bu il Azərbaycan Ümumdünya İqlim Sammitinə – COP29-a ev sahibliyi edəcək. Ölkə zəngin ənənələrinə əsaslanaraq, mədəniyyətlərarası dialoqun, qarşılıqlı anlaşmanın, tolerantlığın və mədəni müxtəlifliyin təşviqinə yönəlmiş mühüm qlobal təşəbbüslərə də rəhbərlik edir.

Biz Azərbaycanın GUAM-ın təsisçi üzvü kimi, dost ölkələrimiz arasında əməkdaşlığın qurulmasında rolunu yüksək qiymətləndiririk. GUAM-ın sülh, təhlükəsizlik və əməkdaşlığı təşviq etmək üçün nadir və səmərəli regional platforma olduğuna qətiyyətlə inanırıq. Biz strateji əhəmiyyəti getdikcə

artan regionumuzda əməkdaşlığımızı daha da gücləndirməyi səbirsizliklə gözləyirik.

Zati-aliləri! Sizə ölkənin daha da inkişafına, müstəqilliyinin və suverenliyinin möhkəmlənməsinə yönəlmiş fəaliyyətinizdə uğurlar, Azərbaycan xalqına sülh, firavanlıq və tərəqqi arzulayırıq.

## BİRLƏŞMİŞ NÜVƏ TƏDQİQATLARI İNSTİTUTUNUN DİREKTORU QRİQORİ TRUBNİKOVDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

İcazə verin, Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun (BNTİ) direktorluğunun və beynəlxalq kollektivinin adından Sizi Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə təbrik edim.

Fürsətdən istifadə edərək bildirirəm ki, beynəlxalq hökumətlərarası təşkilatımızın Azərbaycanın tədqiqat mərkəzləri və universitetləri ilə qarşılıqlı fəaliyyətinin zəngin tarixi BNTİ-nin yaradıldığı vaxtdan – təxminən 70 il əvvəl başlayıb.

Əməkdaşlığın yeni yekun nəticəsi müstəqil Azərbaycan Respublikasının İnstituta daxil olması ilə əlamətdar olub. Azərbaycanın elmi ictimaiyyəti ilə tarixən formalaşmış əlaqələri möhkəmləndirən institutumuz bu il yaradılmasının birinci onilliyini qeyd edən Milli Nüvə Tədqiqatları Mərkəzi və ADA Universiteti ilə sıx surətdə fəaliyyət göstərir.

Hazırda Azərbaycanın 8 universiteti və elmi-tədqiqat mərkəzi Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun tərəfdaşıdır, onlarla nüvə və relativistik atom fizikası, nəzəri fizika və informasiya texnologiyaları, elementar hissəciklər fizikası və kondensasiya olunmuş maddə fizikası sahələrində birgə işlər aparılır.

Yüksəkixtisaslı kadrların hazırlanması üzrə birgə elmi-təhsil proqramları, ABŞ və İsveçrənin elmi təşkilatları çərçivəsində əməkdaşlıq həyata keçirilir.

Əmin olduğumu bildirirəm ki, səmərəli qarşılıqlı fəaliyyətimiz, eləcə də institutun beynəlxalq əməkdaşlıq platforması kimi yüksək potensialı, tətbiqi və fundamental elm sahəsində kadr potensialının gücləndirilməsi bundan sonra da Azərbaycanın elmi ictimaiyyəti üçün əvəzsiz rol oynayacaqdır.

Möhtərəm Prezident! Sizə möhkəm cansağlığı və yeni-yeni uğurlar, Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

## İTALİYADA FƏALİYYƏT GÖSTƏRƏN NAPOLİ–BAKI ASSOSİASİYASININ SƏDRİ CUZEPPE KANİLİADAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsinin 106-cı ildönümü münasibətilə Sizi təbrik edirik. 28 May zəngin tarixə, mədəniyyətə malik Azərbaycan üçün böyük əhəmiyyət kəsb edən bir gündür. Bu əlamətdar bayram münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi arzularımızı çatdırırıq.

İtaliya ilə Azərbaycanı qarşılıqlı hörmətə, əməkdaşlığa və dostluğa əsaslanan güclü tərəfdaşlıq birləşdirir. Biz ölkələrimizin rifahı naminə bütün sahələrdə əlaqələrimizi daha da gücləndirmək əzmindəyik.

Əminik ki, Sizin müdrik rəhbərliyinizlə Azərbaycan bundan sonra da inkişaf edəcək və bütün sahələrdə daha böyük uğurlar qazanacaqdır. Sizə və Azərbaycan xalqına sülh, sabitlik, firavanlıq və xoşbəxtlik diləyirik.

Yaşasın Azərbaycan!

## ŞANXAY ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ CAN MİNDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Milli bayramınız – Müstəqillik Günü münasibətilə Sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirik. Bu əlamətdar tarix Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsinin, sosial-iqtisadi inkişafında nəzərəçarpan nəticələrin əldə olunmasının, ölkənin beynəlxalq arenada nüfuzunun artmasının rəmzidir.

Mən Azərbaycan xalqının mədəniyyətini və qonaqpərvərliyini hiss etdiyim, çoxlu müsbət təəssüratlar aldığım Bakı səfərimi və Sizinlə görüşümü məmnunluqla xatırlayıram.

Azərbaycan Respublikası Şanxay Əməkdaşlıq Təşkilatı ailəsinin ayrılmaz parçasıdır və təşkilatın dialoq üzrə ən fəal tərəfdaşlarındandır. Əminəm ki, birgə səylərimizlə qarşılıqlı münasibətlərimizin məzmununu gələcəkdə daha da zənginləşdirəcəyik.

Zati-aliləri! Sizə möhkəm cansağlığı və işlərinizdə yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

## MƏRAKEŞ–AZƏRBAYCAN DOSTLUQ CƏMİYYƏTİNİN SƏDRİ MƏHƏMMƏD FƏQİRİDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Mərakeş–Azərbaycan Dostluq Cəmiyyətinin bütün üzvləri adından Sizə Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimizi çatdırıram.

2008-ci ildə təsis ediləndən etibarən Mərakeş–Azərbaycan Dostluq Cəmiyyəti Azərbaycanın əsas tarixi hadisələrini qeyd etmək, ölkə ilə bağlı həqiqətləri geniş ictimaiyyətə çatdırmaq istiqamətində səylərini əsirgəməmişdir. Cəmiyyətimiz, həmçinin müxtəlif sahələrdə ikitərəfli münasibətləri inkişaf etdirmək, hazırkı və gələcək nəsillərimiz arasında əlaqələri möhkəmləndirmək işinə töhfə verməkdə davam edir.

Cənab Prezident! Bu bayram münasibətilə Sizə ən xoş arzularımızı bildirir, Azərbaycana sülh, tərəqqi və firavanlıq diləyirəm.

## TÜRK DÜNYASI MEDİATORLAR BİRLİYİ İDARƏ HEYƏTİNİN SƏDRİ YAKUP ERİKELDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Sizi 28 May – Müstəqillik Günü münasibətilə Türk Dünyası Mediatorlar Birliyi və bütün türkdilli dövlətlərin mediatorları adından təbrik edirəm. Sizin sayənizdə can Azərbaycanımız ərazi bütövlüyünü və suverenliyini tam bərpa edərək, tarixi nailiyyət qazandı.

Sizin andiçmə mərasimində söylədiyiniz «Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu bizim üçün prioritetdir. İndi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk Dünyasıdır» sözləriniz bizi səmimi-qəlbdən duyğulandırdı və Türk Dünyası Mediatorlar Birliyinin fəaliyyəti üçün böyük bir motivasiya oldu. Qalib ölkənin lideri kimi söylədiyiniz bu sözlər bizim üçün strateji «Yol xəritəsi»dir və əsas fəaliyyət xəttimizi müəyyən edir. Bu gün bütün Türk Dünyasının mediatorlarının sevə-sevə təkrarladığı bu sözlər bizim üçün böyük bir şüardır. Eyni zamanda, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdo-

ğanın və Sizin Türk Dünyası, türk dövlətləri ailəsi üçün müəyyən etdiyiniz strateji xətt bundan sonra yüz illər boyu böyük işlərin həm təməli, həm də davamıdır.

Cənab Prezident! Fürsətdən istifadə edərək, Sizə dərin minnətdarlığımızı bildirirəm. Gördüyünüz böyük işlər özündən sonra milyonlarla yol, cığır açır. Biz Türk Dünyası Mediatorlar Birliyi olaraq Türk Dünyası yolunda cızdığınız xətlə peşə istiqamətimiz üzrə addımlayırıq.

Azərbaycanın suverenliyinin və müstəqilliyinin əsas atributlarından biri olan ərazi bütövlüyünün Sizin komandanlığınızla bərpa olunması azərbaycanlı qardaşlarımızın qürur duyduğu çox önəmli tarixi hadisədir. Sizinlə bütün Türk Dünyası qürur duyur.

Sizi bir daha səmimi-qəlbdən təbrik edir və fəaliyyətinizdə yeni uğurlar diləyirik.

## QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI PARLAMENT MƏCLİSİNİN BAŞ KATİBİ ASƏF HACIYEVDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Sizi 28 May – Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.

Artıq bir neçə ildir ki, Azərbaycan xalqı Müstəqillik Gününü qalib xalq kimi qeyd edir. Sizin rəhbərliyinizlə ölkəmizin ərazi bütövlüyü və suverenliyi bərpa edildi, doğma yurdlarından didərgin düşmüş ailələr bu gün Qarabağa – Şuşaya, Laçına, Füzuliyə və digər şəhərlərə qayıdırlar.

Sizin rəhbərliyinizlə hazırda ölkəmizdə böyük bərpa işləri həyata keçirilir, Qarabağa onun əvəzsiz gözəlliyi və mənəvi həyatı qaytarılır.

Azərbaycan beynəlxalq aləmdə özünə layiq yer tutur və COP29 kimi nüfuzlu konfransın 2024-cü ildə Bakıda keçirilməsi qərarı bunu təsdiq edir.

Cənab Prezident! Sizə möhkəm cansağlığı, işlərinizdə böyük uğurlar arzulayıram.

## SAN-MARİNONUN KAPİTAN-REGENTLƏRİ ALESSANDRO ROSSİ VƏ MİLENA QASPERONİDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına San-Marino xalqı adından və öz adımızdan təbriklərimizi, ən xoş arzularımızı çatdırırıq.

Bu əlamətdar gündə zati-alinizə ən yüksək ehtiramımızı bildirir, uğurlar diləyir, Azərbaycan xalqına firavanlıq və rifah dolu gələcək arzu edirik.

**PAKİSTAN PREZİDENTİ ASİF ƏLİ ZƏRDARİDƏN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Milli bayramınız – Müstəqillik Günü münasibətilə Sizə və qardaş Azərbaycan xalqına səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Son 30 ildə ölkələrimiz arasında qardaşlıq münasibətləri xüsusilə iqtisadiyyat və ticarət, mədəniyyət, təhsil, eləcə də müdafiə sahələrində dərinləşən çoxsahəli əməkdaşlığımız əsasında möhkəmlənmişdir. Bu müsbət tendensiyanı davam etdirmək və ikitərəfli əlaqələri yeni zirvələrə yüksəltmək niyyətindəyik.

Zati-alinizin Cənubi Qafqazda sülhün və sabitliyin təmin olunması istiqamətində şəxsi səylərini və qətiyyətini yüksək qiymətləndirirəm. Pakistan sınaqlar zamanı qürurla Azərbaycanın yanında olub və ölkənin suverenliyinə, ərazi bütövlüyünə güclü dəstək verməkdə davam edəcəkdir.

Cənab Prezident! Sizə cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə davamlı inkişaf və firavanlıq diləyirəm.

## İRAN PREZİDENTİ VƏZİFƏSİNİ İCRA EDƏN MƏHƏMMƏD MOXBERDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Xoşbəxtlikdən qarşılıqlı mənafeyə əsaslanan, iki ölkənin dərin tarixi, dini və mədəni ortaqlıqlarından və qohumluq bağlarından qaynaqlanan dostluq münasibətlərimiz daha da dərinləşməkdə və inkişaf etməkdədir.

«Xudafərin» hidroqovşağının istismara verilməsi və «Qız qalası» hidroqovşağının açılışı mərasimində İran İslam Respublikasının mərhum Prezidenti cənab Seyid İbrahim Rəisi ilə olan görüşünüzün, müzakirələrinizin və razılaşmalarınızın əhəmiyyətini vurğulayaraq, əmin olduğumu bildirirəm ki, ölkələrimiz arasındakı dostluq və qardaşlıq münasibətlərinin inkişafı prosesi gələcəkdə də davam etdiriləcəkdir.

Allah-taaladan zati-alinizə möhkəm cansağlığı və müvəffəqiyyətlər, dost, qardaş və qonşu ölkə olan Azərbaycan xalqına isə rifah və xoş günlər arzulayıram.

**LAOS PREZİDENTİ
THONQLUN SİSULİTDƏN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Gününün 106-cı ildönümü münasibətilə Laos xalqı adından və şəxsən öz adımdan zati-alinizə və xalqınıza ən səmimi təbriklərimi, xoş arzularımı çatdırıram.

İnanıram ki, Laos Xalq Demokratik Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq münasibətləri və əməkdaşlıq gələcək illərdə xalqlarımızın rifahı naminə daha da möhkəmlənərək genişlənəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik, ali missiyanızda uğurlar, Azərbaycan xalqına isə davamlı əmin-amanlıq və firavanlıq arzulayıram.

Zati-aliləri! Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## KÜVEYTİN BAŞ NAZİRİ ƏHMƏD ABDULLAH ƏL-ƏHMƏD ƏL-SABAHDAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Dost Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi səmimiqəlbdən təbrik edir və xoş arzularımızı çatdırmaqdan sevinc duyuruq.

Bu xoş fürsətdən istifadə edərək, ölkələrimizi və xalqlarımızı birləşdirən dostluq əlaqələrindən məmnunluğumuzu ifadə edir, münasibətlərimizin ortaq maraqlarımız naminə daha da möhkəmlənməsinə səy göstərdiyimizi vurğulayırıq.

Sizə uzun ömür, cansağlığı, dost Azərbaycan xalqına davamlı inkişaf və tərəqqi diləyirik.

**İRAQ PREZİDENTİ ƏBDÜLLƏTİF CAMAL RƏŞİDDƏN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Əs-səlamu əleyküm və rəhmətullahi və bərəkətuhu.

Ölkənizin milli bayramı münasibətilə zati-alinizi İraq xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik etməkdən fərəh duyur, Sizə müvəffəqiyyətlər, dost Azərbaycan xalqına tərəqqi və rifah arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək, dost ölkələrimiz və xalqlarımız arasında bütün sahələrdə əlaqələri möhkəmləndirməkdə maraqlı olduğumuzu təsdiq edirəm.

## QAYANA PREZİDENTİ MƏHƏMMƏD İRFAN ƏLİDƏN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Müstəqilliyinizin 106-cı ildönümü münasibətilə Sizi, Azərbaycan hökumətini və xalqını təbrik edirəm.

Qayana Azərbaycanın kənd təsərrüfatını həyati vacib sektor kimi prioritetləşdirmək və iqtisadiyyatını daha da gücləndirmək üçün kənd təsərrüfatının modernləşdirilməsi istiqamətindəki təşəbbüslərini və sahəvi siyasətini izləyir və alqışlayır. Qayana da məşğulluğu və ərzaq təhlükəsizliyi perspektivlərini artırmaq üçün iqtisadi tərəqqinin əsas mühərriki kimi bu mühüm sektoru inkişaf etdirməyə sadiqdir.

Ölkələrimiz səmimi münasibətlərə malikdir. Hərtərəfli qarşılıqlı faydamız üçün ümumi maraq dairələri vasitəsilə bu əlaqələrin dərinləşdirilməsinə ümid edirəm.

Zati-aliləri! Ən yüksək ehtiramımı və davamlı rifahınız üçün ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

**EKVADOR PREZİDENTİ DANİEL NOBOA AZİNDƏN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə zati-alinizə Ekvador hökuməti, xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırmaqdan böyük şərəf duyuram.

Fürsətdən istifadə edərək, hökumətimin qarşılıqlı faydalı mövzular üzrə əməkdaşlıq layihələrinin həyata keçirilməsi yolu ilə ölkələrimiz arasında mövcud dostluq münasibətlərinin möhkəmləndirilməsi istiqamətində fəaliyyətinin davam etdirilməsi istəyini Sizə çatdırıram.

Zati-aliləri! Sizə bir daha ən yüksək ehtiramımı bildirirəm.

**LÜKSEMBURQUN BÖYÜK HERSOQU ANRİDƏN**

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Ölkənizin milli bayramı münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Zati-alinizə şəxsi rifah, Azərbaycan xalqına firavanlıq və xoşbəxtlik arzulayıram.

## BRAZİLİYA PREZİDENTİ LUİZ İNASİO LULA DA SİLVADAN

Azərbaycan Prezidenti cənab İlham Əliyevə!

Zati-aliləri!

Azərbaycanın Müstəqillik Günü münasibətilə zati-alinizi Braziliya hökuməti, xalqı adından və şəxsən öz adımdan təbrik edirəm. Azərbaycan xalqına xoşbəxtlik və firavanlıq arzulayıram.

Braziliyanın ölkələrimiz arasındakı dostluq əlaqələrinin möhkəmləndirilməsi və xalqlarımızın qarşılıqlı rifahı naminə bundan sonra da Azərbaycanla birgə fəaliyyətini davam etdirmək istəyini bir daha bəyan edirəm. Bu kontekstdə mən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Bakıda keçiriləcək 29-cu sessiyası (COP29) çərçivəsində Braziliya ilə Azərbaycan arasında səmərəli əməkdaşlığı səbirsizliklə gözləyirəm.

Cənab Prezident! Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## AĞDAM RAYONUNA SƏFƏR

*28 may 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdam rayonuna səfər etmiş və rayonun Tağıbəyli kəndinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlət başçısına layihə barədə məlumat verdi.*

*Bildirildi ki, Tağıbəyli kəndində yaşayış təxminən XIX əsrin ortalarına təsadüf edir. Kənddə 725 ailə – 3018 nəfər rəsmi qeydiyyatda olub. Əhalinin əsas məşğuliyyəti əkinçilik, üzümçülük, baramaçılıq və heyvandarlıq olub. İşğal dövrünə qədər kənddə məktəb, uşaq bağçası, tibb məntəqəsi, Mədəniyyət evi, kitabxana, ərzaq mağazası, maşın-traktor parkı, kənd təsərrüfatı məhsullarının anbarı, qoyun ferması və üzüm bağları fəaliyyət göstərib. O cümlədən Qarabağın məşhur seyidlərindən olan Fuğara ağanın ocağı da burada yerləşir.*

*Kəndin layihələndirilən ərazisi 255,31 hektardır. Kəndə 3840 nəfərin köçürülməsi nəzərdə tutulur. Bunun üçün 885 fərdi ev inşa ediləcək. Layihələndirilən ərazi Tağıbəyli və Suma kəndlərinin ərazisindən ibarətdir. Birinci mərhələdə layihələndirilən sahə 78,05 hektardır*

*və buraya 108 ailənin köçürülməsi planlaşdırılır. Bu mərhələdə tikiləcək 108 evin 22-si ikiotaqlı, 54-ü üçotaqlı, 27-si dördotaqlı, 5-i isə beşotaqlı olacaq. Bundan başqa, kənddə 264 şagird-yerlik məktəb binası, 80 yerlik uşaq bağçası, tibb məntəqəsi, klub-icma mərkəzi, kitabxana, qonaq evi, ticarət mərkəzi, idman-sağlamlıq mərkəzi, inzibati bina, məişət xidməti obyekti, sənətkarlıq emalatxanası, kənd meydanı, Bayraq meydanı, park, yanğınsöndürmə deposu (2 maşın yerlik), qazanxana, su anbarı, idman meydançası, 35 kV-luq paylayıcı qurğu və bazar kompleksi inşa ediləcək.*

*Dövlət başçısı Tağıbəyli kəndinin təməlini qoydu.*

## Güllücə kəndinin təməlqoyma mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdam rayonunun Güllücə kəndinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlət başçısına layihə barədə məlumat verildi.*

*Bildirildi ki, Güllücə kəndində yaşayış təxminən XIX əsrin ortalarına təsadüf edir. Kənddə 988 ailə – 4003 nəfər rəsmi qeydiyyatda olub. Əhalinin əsas məşğuliyyəti əkinçilik, üzümçülük, baramaçılıq və heyvandarlıq olub. İşğal dövrünə qədər kənddə məktəb, uşaq bağçası, tibb məntəqəsi, Mədəniyyət evi, kitabxana, Üzüm emalı zavodu, ərzaq mağazası, aptek, maşın-traktor parkı, kənd təsərrüfatı məhsulları anbarı, mal ferması və üzüm bağları var idi.*

*Ərazisi 388,44 hektar olacaq kənddə 3992 nəfərin məskunlaşdırılması nəzərdə tutulur. Güllücə və İlxı-*

*çılar kəndlərinin ərazisindən ibarət olacaq bu kənddə 1042 fərdi ev inşa ediləcək. Birinci mərhələdə layihələndirilən ərazi 225 hektar olacaq. Buraya 113 ailənin köçürülməsi planlaşdırılır. Kənddə birinci mərhələdə inşa ediləcək 113 evin 22-si ikiotaqlı, 57-si üçotaqlı, 28-i dördotaqlı, 6-sı isə beşotaqlı olacaq. Bundan başqa, kənddə 480 şagird-yerlik məktəb binası, 120 yerlik uşaq bağçası, tibb məntəqəsi, klub-icma mərkəzi, ticarət mərkəzi, bazar, idman-sağlamlıq mərkəzi, inzibati bina, çoxfunksiyalı bina (poçt, bank filialı, ofis), mal-qara ferması, yanğınsöndürmə deposu (2 maşın yerlik), kənd meydanı, Bayraq meydanı, çörək sexi inşa olunacaq. Burada, həmçinin kənd təsərrüfatı texnikasının və maşınlarının təmir müəssisəsi, süd qəbulu və süd məhsulları istehsalı, quru meyvə istehsalı, ət kəsimi və qablaşdırılması sahələri, qarışıq yem istehsalı, barama tədarükü və qurdayırma məntəqələri, mineral gübrələr və kimyəvi maddələr anbarı, muzey, mehmanxana, xalça istehsalı sahəsi, işçi geyimlərinin istehsalı sahəsi, taxta taraların istehsalı sahəsi, dulusçuluq və suvenir istehsalı emalatxanası, bal qablaşdırılması sahəsi, Üzüm emalı zavodu, şirniyyat sexi, taxıl anbarı, suvarmada istifadə olunan elektrik mühərriklərinin və avadanlıqlarının təmiri sahəsi, yanacaqdoldurma məntəqəsi də yaradılacaqdır.*

*Prezident İlham Əliyev Güllücə kəndinin təməlini qoydu.*

## Nəmirli kəndinin təməlqoyma mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdam rayonunun Nəmirli kəndinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlət başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.*

*Bildirildi ki, Nəmirli kəndində 624 ailə – 2515 nəfər rəsmi qeydiyyatda olub. Əhalinin əsas məşğuliyyəti əkinçilik, üzümçülük, baramaçılıq və heyvandarlıq olub. İşğal dövrünə qədər kənddə məktəb, uşaq bağçası, tibb məntəqəsi, Mədəniyyət evi, kitabxana, Üzüm emalı zavodu, ərzaq mağazası, maşın-traktor parkı, kənd təsərrüfatı məhsulları anbarı, heyvandarlıq ferması və üzüm bağları fəaliyyət göstərib.*

*Məlumat verildi ki, kəndin layihələndirilən ərazisi 211 hektardır. Buraya 3036 nəfərin köçürülməsi planlaşdırılır. Bunun üçün 759 fərdi ev inşa ediləcək. Layihələndirilən ərazi Nəmirli və Şurabad kəndlərinin ərazisindən ibarətdir. Birinci mərhələdə layihələndirilən ərazi 50,22 hektardır və buraya 179 ailənin köçürülməsi nəzərdə tutulur. Bu mərhələdə tikiləcək 179 evin 36-sı ikiotaqlı, 90-ı üçotaqlı, 44-ü dördotaqlı və 9-u beşotaqlı olacaq. Bundan başqa, kənddə 528 şagird-yerlik məktəb binası, 80 yerlik uşaq bağçası, tibb məntəqəsi, klub-icma mərkəzi, kitabxana, qonaq evi, ticarət mərkəzi, idman-sağlamlıq mərkəzi, inzibati bina, məişət xidməti obyekti, kənd meydanı, Bayraq meydanı, park, qazanxana, su anbarı, idman*

*meydançası, 35 kV-luq paylayıcı qurğu, bazar kompleksi yaradılacaq.*

*Dövlət başçısı Nəmirli kəndinin təməlini qoydu.*

**Şotlanlı kəndinin təməlqoyma mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdam rayonunun Şotlanlı kəndinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlət başçısına layihə barədə məlumat verildi.*

*Qeyd olundu ki, Şotlanlı kəndində yaşayış təxminən XIX əsrin ortalarına təsadüf edir. Sakinlər buraya Qubadlı rayonunun Zilanlı kəndindən köç etmişlər. Kənddə 606 ailə – 2542 nəfər rəsmi qeydiyyatda olub. Əhalinin əsas məşğuliyyəti əkinçilik, üzümçülük, baramaçılıq və heyvandarlıq olub. İşğal dövrünə qədər kənddə məktəb, uşaq bağçası, tibb məntəqəsi, Mədəniyyət evi, kitabxana, maşın-traktor parkı, kənd təsərrüfatı məhsulları anbarı, ərzaq mağazası və üzüm bağları fəaliyyət göstərib.*

*Bildirildi ki, Şotlanlı və Umudlu kəndlərinin ərazilərini əhatə edəcək bu kəndin layihələndirilən ərazisi 197,4 hektardır. Buraya 3000 nəfərin köçürülməsi nəzərdə tutulur. Bunun üçün 750 ev tikiləcək. Birinci mərhələdə layihələndirilən ərazi 51 hektardan çoxdur və buraya 205 ailənin köçürülməsi planlaşdırılır. Tikiləcək 205 evin 41-i ikiotaqlı, 103-ü üçotaqlı, 51-i dördotaqlı, 10-u isə beşotaqlı olacaq. Burada 540 şagirdyerlik məktəb binası, 90 yerlik uşaq bağçası, tibb məntəqəsi, klub-icma mərkəzi və kitabxana, qonaq evi, ticarət mərkəzi, bazar, idman-sağlamlıq mərkəzi, inzi-*

*bati bina, məişət xidməti obyekti, kənd meydanı, Bayraq meydanı, park, yanğınsöndürmə deposu (2 maşın yerlik), qazanxana, su anbarı, idman meydançası, 35 kV-luq paylayıcı qurğu yaradılacaq.*

*Prezident İlham Əliyev Şotlanlı kəndinin təməlini qoydu.*

## XOCALI ŞƏHƏRİNDƏ 15 ÇOXMƏRTƏBƏLİ BİNADA TƏMİR VƏ YENİDƏN QURULMADAN SONRA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*28 may 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Arzu Əliyeva mayın 28-də Xocalı şəhərində 15 çoxmənzilli binada təmir və yenidən qurulmadan sonra yaradılmış şəraitlə tanış olmuşlar.*

*Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov və Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqov görülmüş işlər barədə məlumat verdilər.*

*Bildirildi ki, Xocalı şəhərindəki yarımçıq tikili olan yaşayış kompleksi əsaslı təmir edilib. Kompleks 3,34 hektar ərazini əhatə edir. Burada hər biri ikigirişli olmaqla, üçmərtəbəli 15 binada ikiotaqlı, üçotaqlı və dördotaqlı 80 mənzil vardır. Kompleksdə uşaq oyun meydançaları, idman qurğuları, idman meydançası, söhbətgahlar yaradılıbdır.*

*Sonra dövlət başçısı və xanımı kompleksdə yaradılmış şəraitlə tanış oldular.*

## XOCALI ŞƏHƏRİNƏ KÖÇMÜŞ SAKİNLƏRLƏ GÖRÜŞ

*28 may 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Arzu Əliyeva mayın 28-də Xocalı şəhərinə köçmüş sakinlərlə görüşmüşlər.*

*Dövlət başçısı və xanımı sakinlərlə söhbət etdilər.*

**İlham Əliyev:** Salaməleyküm.

**Sakinlər:** Cənab Prezident, xoş gəlmisiniz! Qədəmləriniz mübarək.

**Mehriban Əliyeva:** Sizi təbrik edirəm.

**İlham Əliyev:** Salam. Siz də xoş gəlmisiniz!

**Sakin:** Allah Sizi qorusun. Allah Sizə cansağlığı versin. Sizinlə fəxr edirik. Nə yaxşı ki, varsınız. Sizin sayənizdə, hamımız minnətdarıq. Bütün xocalılılar Sizə minnətdardırlar, cənab Prezident. Nə yaxşı ki, bizim belə Prezidentimiz var. Sevincimizin həddi-hüdudu yoxdur.

**İlham Əliyev:** Sağ olun. Bu gün bayram günüdür, Müstəqillik Günüdür. İlk növbədə, Sizi Müstəqillik Günü münasibətilə təbrik edirəm. Bu gözəl gündə xocalılılar artıq qayıdırlar. Həm görüşürük, həm də birinci 20 ailə Xocalıya qayıdır. Bu münasibətlə də sizi ürəkdən təbrik etmək istəyirəm.

**Sakinlər:** Çox sağ olun, Sizə minnətdarıq.

**İ l h a m Ə l i y e v:** Əlbəttə ki, bu qayıdışın Müstəqillik Gününə təsadüf etməsi təsadüfi deyil. Çünki bildiyiniz kimi, keçən il Müstəqillik Günündə mən Laçın şəhərində laçınlılara evlərinin açarlarını təqdim etmişdim. İki il bundan əvvəl Müstəqillik Günü ərəfəsində – mayın 27-də Ağalı sakinləri ilə görüşmüşdüm. Onlar da məhz o gündə köçmüşdülər. Bu gün isə xocalılılar qayıdırlar. Bu, gözəl tarixi hadisədir. Xocalı da gördüyünüz kimi, gözəlləşir, yenidən qurulur. Əvvəlkindən də gözəl şəhərdir və daha da gözəl olacaq. Bu gün sadəcə olaraq, birinci mərhələdir. Bu gün əslində Böyük Qayıdış Proqramının Xocalı səhifəsi yazılır. Yaxın gələcəkdə digər xocalılılar da buraya qayıdacaqlar, əminəm ki, böyük həvəslə.

**S a k i n:** Siz onsuz da qədəmlərinizi haraya qoyursunuzsa, orada gül-çiçək canlanır, bütün torpaqlar çiçəklənir.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Xocalılılar müxtəlif yerlərdə məskunlaşmışdılar və müstəqillik illərini Xocalıdan ayrı keçirməli oldular. Müstəqilliyin bərpası elan olunandan 4 ay sonra Ermənistan Xocalı soyqırımını törətdi, günahsız insanları qətlə yetirdi, insanlığa qarşı cinayət törətdi. Xocalılılar faktiki olaraq, müstəqilliyin bütün illərini başqa-başqa yerlərdə keçirməli oldular, o cümlədən Ağcakənd kəndində. Bildiyiniz kimi, birinci köçkün qəsəbəsi məhz Ağcakənd qəsəbəsində xocalılılar üçün ulu öndərin iştirakı ilə salınmışdı.

**S a k i n:** Qisasımızı aldınız.

**İ l h a m Ə l i y e v:** Mən də, Mehriban xanım da o vaxt orada idik və o vaxtdan bu günədək görün nə qədər gözəl tarix yazdıq, Qarabağı tam azad etdik. Mən bilirəm ki, İkinci Qarabağ müharibəsi başa çatanda xocalılılar inanırdılar, bilirdilər ki, bu gün də gələcək. Mən də bilirdim, şübhə etmirdim, sadəcə olaraq, onun vaxtı var idi. Onu da təxmin edirəm, xocalılılar bəlkə də gözləmirdilər ki, bu qədər tez baş verəcək.Çünki müxtəlif fikirlər var idi, o cümlədən Ermənistanda müxtəlif gözləntilər var idi. Xocalıda, Xankəndidə, o vaxt hələ ki, azad edilməmiş digər şəhər və kəndlərimizdə separatçılar at oynadırdılar. Onlar hesab edirdilər ki, burada separatçılıqla əbədi məşğul olacaqlar. Halbuki bunun heç bir hüquqi, tarixi əsası yox idi. Xocalı qədim Azərbaycan torpağıdır. Mənfur düşmən soyqırımı törədəndən sonra burada qanunsuz məskunlaşma da aparmışdı. Bu da hərbi cinayət sayılır. Xocalının adını da dəyişdirməyə, bir hərbi cinayətkarın adına rəsmiləşdirməyə çalışırdılar. Ancaq hər şeyin vaxtı var və biz qayıtdıq, həm Vətən müharibəsi, həm antiterror əməliyyatı xalqımızın gücünü, iradəsini, əsgər və zabitlərimizin qəhrəmanlığını bütün dünyaya sübut etdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qəhrəmanlığı, fədakarlığı sayəsində biz bu gün buradayıq. Onlar sinələrini qabağa verərək, düşmənə elə bir sarsıdıcı zərbə endirmişlər ki, əminəm, bundan sonra Ermənistan heç vaxt Azərbaycana qarşı hər hansı bir hərbi təxribat törətməyə cəhd etməyəcək. Halbuki Ermənistanda revanşistlər də kifayət qədər çoxdur. Biz son hadisələri izləyirik, görürük ki, bizə qarşı yenidən ərazi

iddiaları irəli sürmək cəhdləri var. Ona görə biz hər an hazır olmalıyıq. Əlbəttə ki, ilk növbədə, ordumuzu daha da gücləndirməliyik və bunu edirik.

Bu gün hərbçilər üçün inşa edilmiş evlərlə də tanış oldum. Bütün Qarabağ və Şərqi Zəngəzur çox möhkəm bir istehkam zonası olacaq və burada artıq bu istiqamətdə işlər görülür. Azərbaycan xalqı əbədi əmin olmalıdır ki, bir daha bu faciələr bizim xalqımızın başına gəlməyəcək.

Bu gün, bax, burada – Xocalıda – cəmi 8 ay ərzində bərpa edilmiş Xocalıda – görüşməyimiz xüsusi məna daşıyır. Məhz Müstəqillik Günündə mən sizinlə yenidən görüşmək istədim. 3 ay bundan əvvəl – fevralın 26-da hər birimiz üçün faciəli gündə Xocalıda Memorial Kompleksin təməlini qoyduq. Bu gün isə artıq xocalılılar qayıdır və şəhər də göz oxşayır – həm abad, gözəl evlər, həm istirahət zonaları. O qədər gözəl təbiəti var ki, burada yaşamaq, yaratmaq hər bir insana xüsusi zövq verəcək. Siz də buna layiqsiniz. Siz 30 ildən çox müxtəlif yerlərdə yaşamısınız – kimi yataqxanada, kimi uşaq bağçasında, kimi qohumların evində, kimi də qəsəbədə. Bilirsiniz, mən işğal dövründə xocalılılarla dəfələrlə görüşmüşdüm – Bakıda və digər yerlərdə qəsəbələr salınmışdı – deyirdim ki, gün gələcək, sizinlə Xocalıda görüşəcəyik. Bax, o gün gəldi. Sizi təbrik edirəm. Sizə cansağlığı arzulayıram.

**Sakinlər:** Çox sağ olun, minnətdarıq. Allah Sizi qorusun.

**İlham Əliyev:** İndi də açarları sizə təqdim edək.

* * *

*Dövlət başçısı və xanımı evlərin açarlarını sakinlərə təqdim etdilər.*

*Xocalı sakinləri ilə xatirə şəkli çəkdirildi.*

*Sonra Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Arzu Əliyeva sakinlərlə birlikdə Xocalı şəhərini gəzdilər, görülən işlərlə tanış oldular.*

**İlham Əliyev:** Xocalının indi quruluşu dəyişir, əvvəllər burada nə olub, yadınızdadır?

**Sakinlər:** Çox dəyişib. Əlbəttə, yadımızdadır. Bura dairə idi, Mədəniyyət evi. Yanğın meydançası var.

**İlham Əliyev:** O vaxt qəsəbənin mərkəzi bura idi?

**Sakinlər:** Xeyr, bura baş hissə idi, mərkəz bir az qabaqdadır. Təqdimat olacaq yer.

**İlham Əliyev:** Xocalının gələcək inkişafı ilə bağlı baş planı da hazırlanıb. Gedək ona bərabər baxaq.

**Sakin:** Allah Sizi var eləsin. Sizin sayənizdə gəlmişik bu gözəl yerə, gözəl vətənə. Bu gün gözəl bayrağın altında sevinc hissi yaşayırıq. Bundan gözəl nə ola bilər?

**İlham Əliyev:** Bəli, Xocalı indi böyük şəhər olacaq. Bu hələ birinci mərhələdir. Siz buna layiqsiniz. Vətəninizdən 30 ildən çox məhrum olmuşdunuz.

**Sakin:** Bəli, cənab Prezident, demək olar ki, 30 ildir. Bizim əhali XX əsrin faciəsini yaşayıb, Xocalı faciəsini. Burada olan bütün insanlar o faciədən çıxmış insanlardır. Bütün bunlara baxmaya-

raq, bu gün biz kədərli olsaq da, sevincimizin həddi-hüdudu yoxdur. Kədərliyik ona görə ki, Xocalı faciəsini yaşamışıq, Xocalı faciəsindən çıxmışıq. Xocalıda elə bir ailə yoxdur ki, həmin faciə vaxtı itki verməsin, şəhid verməsin. Yəni bütün bunlara baxmayaraq, Sizin xarici və daxili siyasətiniz nəticəsində bizim torpaqlarımız azad edildi. Daha sonra keçən ilin sentyabr ayında antiterror əməliyyatı nəticəsində Xocalımız separatçı ermənilərdən təmizləndi və azad edildi. Sizin sayənizdə qısa müddət ərzində Xocalımız belə gözəlləşdi.

**İlham Əliyev:** 8 aya.

**Sakinlər:** 8 aya, bu möcüzədir. 8 aya, bax, belə quruculuq işləri aparıldı.

**İlham Əliyev:** Mən xüsusi tapşırıq vermişdim, antiterror əməliyyatından dərhal sonra dedim ki, birinci növbədə biz Xocalını bərpa etməliyik.

**Sakin:** Cənab Prezident, Xocalıda ilk şəhid mənim qardaşım olub. 1991-ci il sentyabr ayının 9-undan 10-una keçən gecə, 25 yaşında.

**İlham Əliyev:** Necə şəhid olub? Döyüşlər gedirdi, yoxsa hücum etmişdilər?

**Sakin:** Yox, dağdan «Qrad», «Alazan» atdılar. Qardaşım da postda idi, həmin vaxt biz kəndi qoruyurduq.

**İlham Əliyev:** Hansı tərəfdən atırdılar?

**Sakin:** Baxın, o dağın bu üzündən, meşəlikdən. Allah Sizə dəyməsin, bu xoşbəxtliyi bizə Siz yaşatmısınız. Bunu mən həmişə demişəm. Mənim arzum olub Sizi xanımınızla, bax, belə, yan-yana, yaxından görüm.

**Sakin:** Mən onu bilirəm ki, dünyada Sizin kimi Prezident olmayıb, olmayacaq da. Həqiqətən, bunu hamı deyir, təkcə bizim Xocalı camaatı yox, bütün Qarabağ, bütün Azərbaycan xalqı. Bu, son 200 ildə tariximizdə olmayan bir şeydir. İndi Sizin sayənizdə qalib xalq kimi yaşayırıq.

**İlham Əliyev:** Siz yaxşı bilirsiniz ki, o vaxt bura Dağlıq Qarabağ Muxtar Vilayəti idi və burada yaşayan azərbaycanlılar da istər-istəməz erməni rəhbərlərə tabe olmalı idilər. Sizi nə qədər sıxışdırırdılar. Mən xocalılılarla çox görüşmüşəm, hətta burada tam məktəb də olmayıb. Olmayıb ki, uşaqlar gedib orada oxusunlar. Orada da min əzab-əziyyət çəkiblər.

**Sakin:** Bütün yarışlara gedəndə də bizi sıxışdırırdılar, yer vermirdilər. Deyirdilər ki, azərbaycanlısan. Qalmışdıq onların arasında. Həqiqətən, cənab Prezident, Siz Şuşadan – həmin kadrlar mənim yadımdan çıxmır – qardaş ölkənin Prezidenti cənab Ərdoğanla Xankəndiyə baxanda dediniz ki, olacaq.

**İlham Əliyev:** Bir tərəfdə Xankəndi, bir tərəfdə Əsgəran.

**Sakin:** Bu gün mən şadam ki, Xocalıdayam. Yəni 32 il bundan qabaq Xocalını itirdik. Mən əsir düşmüşdüm, yaralanmışdım.

Xankəndidə həmin yerə getmək istədim, dedilər ki, olmaz.

**İlham Əliyev:** Xankəndidə əsir düşmüşdünüz?

**Sakin:** Xocalı faciəsində yaralanmışdım, Xankəndidə saxlayırdılar. Yəni həmin yeri təxmin etdim ki, necə gətirib aparırdılar.

**İlham Əliyev:** Yox, gedib baxmaq olar. Gedib görərsiniz o yerləri. Çünki sentyabr ayından artıq Xankəndiyə də köç başlayır. Birinci köçən tələbələr və onların müəllimləri olacaq. Qarabağ Universiteti fəaliyyətə başlayır. Bir tərəf olacaq Xankəndi, bir tərəf Ağdam. Ağdam şəhərinə də gələn il sakinlər qayıdacaqlar.

**Sakin:** İnşallah. Bəli, cənab Prezident, Sizin sayənizdə, Sizin siyasətinizin nəticəsində biz Xocalıya qayıtdıq və işlərimizi gördük. Min şükür.

**İlham Əliyev:** Allaha şükür. Siz burada əbədi yaşayacaqsınız.

**Səriyyə Cəfərova:** Cənab Prezident, mən bu evdə yaşamışam. Sizi evimizə dəvət edirəm.

**İlham Əliyev:** Gedək, Mehriban xanım da gəlsin, gedək.

**Səriyyə Cəfərova:** Mən bu evdə doğuldum, bu evdə böyüdüm.

**İlham Əliyev:** Sonra ermənilər gəlib evinizdə yerləşdilər, elədir?

**Səriyyə Cəfərova:** Bəli, ermənilər bu evdə yerləşdilər və mənim anamı şəhid etdilər. 3 əmim oğlu şəhid oldu. Anam üç qız uşağını atasız böyüdüb. Bu ev mənim üçün çox doğmadır, əzizdir.

**Mehriban Əliyeva:** Bu həmin evdir qalıb?

**İlham Əliyev:** Bərpa etmişik.

**Səriyyə Cəfərova:** Bu evi bizə yenidən bəxş etdiniz, cənab Prezident. Məni evimə gətirən Prezident, Mehriban xanım, sizə sonsuz təşəkkür edirəm ki, bu mənim üçün yuxu deyil, xəyal deyil, bu, əsl gerçəkdir. Təşəkkürlər, cənab Prezident.

**İlham Əliyev:** Sağ olun, gedək evinizə baxaq. Əminəm ki, ümidlərinizi heç vaxt itirməmişdiniz. Amma çox vaxt keçib təbii ki, 32 il başqa-başqa yerlərdə.

**Səriyyə Cəfərova:** Cənab Prezident, 32 il keçib. Mən Erməni Təcavüzünün Tanıdılması İctimai Birliyinin sədriyəm, tədqiqatçı jurnalistəm, 2017-ci ildə biz Sizinlə görüşmüşdük, cənab Prezident.

**İlham Əliyev:** Harada?

**Səriyyə Cəfərova:** Mətbuat Günündə görüşmüşdük və orada Sizinlə səmimi söhbətimiz də olmuşdu. Yəni Siz həmişə xocalılılara xüsusi qayğı ilə yanaşmısınız.

**İlham Əliyev:** Elədir, düzdür.

**Səriyyə Cəfərova:** Allah elə qismət edib ki, mənə ulu öndərlə də görüşmək nəsib olub. 1995-ci ildə o, xocalılıları qəbul etmişdi. Buyurun, cənab Prezident.

**İlham Əliyev:** Sizin həyətiniz budur?

**Səriyyə Cəfərova:** Bəli, bu həyətdir. Mən həmişə – bayaq qeyd etdiyim kimi – anamın oğul övladı olmadığına görə, bu həyəti becərirdim və deyirdim ki, qoy anam sevinsin.

**İlham Əliyev:** Artıq indi yenidən becərərsiniz.

**Səriyyə Cəfərova:** Yenidən burada elə bir həyat, elə bir gözəllik gördüm ki, bəlkə də bu gün anamın ruhu Sizi görür, bizi görür və nə qədər şad olur. Bunu bizə yaşatdığınız üçün Sizə sonsuz təşəkkür edirəm. Tarixi bir hadisədir ki, Siz mənim evimə gəlmisiniz, cənab Prezident.

**İlham Əliyev:** Ananızın ruhu şaddır.

**Səriyyə Cəfərova:** Şad olur ki, evinə cənab Prezident gəlib. Bundan gözəl hiss harada var, cənab Prezident?

**İlham Əliyev:** Çox sağ olun. Çox gözəl tarixi bir hadisədir. Tarixi günləri yaşayırıq. Həyat də yaxşıdır, böyükdür.

**Mehriban Əliyeva:** Həyat də böyükdür. Gəlin keçək baxaq.

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Arzu Əliyeva Səriyyə Cəfərovanın evində yaradılmış şəraitlə tanış oldular.*

**Səriyyə Cəfərova:** Buyurun, cənab Prezident, xoş gəlmisiniz! Buyurun, Mehriban xanım, xoş gəlmisiniz!

**Mehriban Əliyeva:** Sağ olun, sizinlə bərabər.

**Səriyyə Cəfərova:** Çox sağ olun. Bax, o evdə doğuldum, bu evdə böyüdüm. Bu evdə bizim anamız 3 qızını böyütdü, ali təhsil verdi. Bu gözəlliyi bizə Siz bəxş etdiniz, Xocalını bizə Siz bəxş etdiniz. Çox gözəl, hər şey çox yüksək səviyyədə təmir olunub.

**İlham Əliyev:** Gözəl tikilib. Mən baxıram, divarları da qalındır, möhkəmdir. Çox gözəldir, bura mətbəxdir, qaz da var. Sizi təbrik edirik.

**Səriyyə Cəfərova:** Çox sağ olun. Hər şey var, burada evlər yüksək səviyyədə təmir olunub və bizə bəxş edilib.

**Səriyyə Cəfərova:** Mən bir məsələni də vurğulamaq istəyirəm ki, Erməni Təcavüzünün Tanıdılması İctimai Birliyinin sədri kimi, uzun illərdir Qarabağ həqiqətlərinin dünyada yayılmasında xidmət göstərirəm. Mehriban xanım, Sizin Qarabağ hə-

qiqətlərinin yayılmasında çox böyük xidmətləriniz olub. Mən «Xocalıya ədalət!» kampaniyasına görə Sizə təşəkkür edirəm. Biz də azacıq olaraq ona dəstək vermişik. Xocalı soyqırımını dünyaya tanıtmışıq. Xocalını dünyaya tanıtmışıq.

**İlham Əliyev:** Bəli, «Xocalıya ədalət!» kampaniyasına qədər, siz də yaxşı bilirsiniz, Xocalı soyqırımı haqqında o qədər də böyük məlumat yox idi, dünyada geniş məlumat yox idi. Çünki Ermənistan çalışırdı ki, hər vəchlə bunu ört-basdır etsin, bizdə də o vaxt belə imkanlar yox idi, sözün düzü. Amma «Xocalıya ədalət!» kampaniyası bütün dünyaya səs saldı, geniş vüsət aldı və bunun nəticəsində 13 ölkə Xocalı soyqırımını soyqırımı kimi tanıdı.

**Səriyyə Cəfərova:** Bəli, soyqırımı kimi tanıdı. Bundan sonra da mən inanıram ki, Mehriban xanımın, eyni zamanda, Sizin əməyiniz nəticəsində Xocalı soyqırımı tanınacaq.

Siz bizə 8 ay ərzində belə bir gözəllik bəxş etdiniz. İnanın, mən heç vaxt güman etmirdim ki, evimə bu formada gələcəyəm. Bunu bizə yaşatdınız, cənab Prezident, təşəkkür edirəm.

**İlham Əliyev:** Sağ olun. Xocalı soyqırımı abidəsinin, Memorial Kompleksinin yaradılması ilə bağlı uzun illər məsələlər müzakirə edilirdi, hətta «Ana fəryadı» abidəsinin yanında yer də seçilmişdi, layihə də hazırlanmışdı. Ancaq hər il mən son təsdiqimi vermirdim. Çünki ürəyimdən keçirdi ki, bu Memorial Kompleks Xocalıda yaradılmalıdır və belə də oldu. Həmin o layihəni biz gətirdik və fevralın 26-da Xocalıda xocalılılarla bərabər Xocalı

Memorial Kompleksinin təməlini qoyduq və o, burada inşa ediləcəkdir. Bütün dünya da görəcək ki, erməni vəhşiliyi nədir, bu həqiqətdir və bunu hər kəs bilməlidir. Ermənistan özü bunu etiraf etməlidir, özü bizdən üzr istəməlidir. Ancaq bunu etməklə ola bilsin ki, indiki Ermənistan rəhbərliyi – o vəhşilərin, vandalların, qaniçənlərin günahlarını bir qədər yumuş ola bilər. Bunu etməsə, məncə, Ermənistan özü heç vaxt ayağa dura bilməyəcək. Gərək ilk növbədə, Ermənistan özü bu faciəni, bu cinayəti, hərbi cinayətini tanısın.

**Səriyyə Cəfərova:** Bir daha təşəkkür edirəm. Sizə minnətdarıq, cənab Prezident. Siz gəldiniz, anamın ruhunu şad etdiniz. Mehriban xanım, çox sağ olun. Bu gün mən özümü bu evdə çox xoşbəxt hiss edirəm. Çünki bu işığı mənə Siz bəxş etdiniz. İşığınız sönməsin, Mehriban xanım.

**Sakin:** Cənab Prezident, Mehriban xanım, Sizə minnətdarıq. Soyqırımı qurbanlarının ruhu şaddır. Bu gün xocalılılar sevinirlər ki, bizim gözəl Prezidentimiz qisasımızı yerdə qoymadı. Mehriban xanım, evdə də Sizə dua edirəm. Allah-taala Sizi bir-birinizdən ayırmasın, Sizə cansağlığı versin.

**İlham Əliyev:** Çox sağ olun.

**Mehriban Əliyeva:** Sağ olun.

* * *

*Daha sonra dövlət başçısı və xanımı sakin Müşfiq Sadıqovun evində yaradılmış şəraitlə tanış oldular.*

**İlham Əliyev:** Sizin eviniz buradadır?

**Müşfiq Sadıqov:** Bəli, ata-baba evimiz qabaqdadır. Evin o daşı da orada durur. Yəqin ki, ermənilərin də yadından çıxıb, onu sökməyiblər, qalıb. 1976-cı ildə atamın adı-soyadı yazılıb.

**İlham Əliyev:** Burada qanunsuz məskunlaşmışdılar?

**Müşfiq Sadıqov:** Bəli, bizim evdə məskunlaşmışdılar, cənab Prezident.

**İlham Əliyev:** Böyük həyətin var, təqribən 20 sot olar.

**Müşfiq Sadıqov:** Dədə-baba yerimiz 20 sotdur.

**İlham Əliyev:** 20, görürsən də, necə görürəm.

**Müşfiq Sadıqov:** Buyurun, cənab Prezident, birinci qonağım Siz olun.

**İlham Əliyev:** Sağ olun. Neçə otaqdır?

**Müşfiq Sadıqov:** Dörd otaqdır.

**İlham Əliyev:** Bərpa olunub?

**Müşfiq Sadıqov:** Bəli, əvvəl də 4 otaq olub, sonra da.

**İlham Əliyev:** 3 yataq otağı, bir qonaq otağı. Çox gözəl, təmir yaxşıdır. Bəs istilik?

**Müşfiq Sadıqov:** Kombi sistemimiz var. Çox gözəl təmir ediblər. Allah Sizdən razı olsun.

**İlham Əliyev:** Burada xoşbəxt yaşayın.

* * *

**İlham Əliyev:** O nə binasıdır, məktəbdir?

**Sakin:** Bəli, təzə məktəbdir.

**İlham Əliyev:** Bu o vaxt olmayıb?

**Sakin:** Xeyr, bizim köhnə məktəbin binasını Konserv zavodu ediblər. Bizim məktəb onillik olub.

**İ l h a m Ə l i y e v:** Xocalıda bir məktəb olub?

**S a k i n:** Xeyr, 3 məktəb olub. Biri onillik, biri səkkizillik, biri də dördillik.

**İ l h a m Ə l i y e v:** Bu məktəb neçə şagird-yerlikdir?

**S a k i n:** 132 şagird, çox gözəl məktəbdir.

**İ l h a m Ə l i y e v:** Yəni dərslər sentyabrdan başlayacaq?

**S a k i n:** Bəli, direktor da təyin olunub, müəllim heyəti də formalaşıb.

**İ l h a m Ə l i y e v:** Çox gözəl. Təbiət də, maşallah, göz oxşayır. Siz buna layiqsiniz, bilirsiniz, bəlkə də dünyada sizin qədər əzab-əziyyət çəkən ikinci belə insanlar yoxdur.

**S a k i n:** Ən az əhali, çox şəhid verən, Xocalı balaca bir yerdir. Cənab Prezident, arabir oraya baxıram, öz-özümə fikirləşirəm ki, həmin gecə mən o dağı necə aşmışam?

**İ l h a m Ə l i y e v:** Qarqar çayının qırağı ilə?

**S a k i n:** Yox, Qarqarın o biri üzünə keçdik.

**İ l h a m Ə l i y e v:** O dağın ətəyi ilə?

**S a k i n:** Bəli, dağın ətəyindən keçib 3 günə Ağdamın Şelli kəndinə çatdıq. O beşmərtəbədə qalan insanlardan biri də biz olmuşuq.

**İ l h a m Ə l i y e v:** Çayı keçdiniz, dağın ətəyi ilə getdiniz.

**S a k i n:** Bəli, dağın ətəyi ilə, orada Naxçıvanlı kəndi var idi.

**İ l h a m Ə l i y e v:** Bəli, bilirəm, orada olmuşam.

**S a k i n:** Naxçıvanlıdan keçib Ağdamın Şelli kəndinə getdik.

**İ l h a m  Ə l i y e v:** Həmin o faciə günü?

**S a k i n:** Bəli. Orada ermənilər pusqu qurmuşdular, onu mən gözümlə gördüm, cənab Prezident. Borunu deşib qazı yandırmışdılar. Soyuğa düşmüş camaat da o istiyə qaçdı. İnsanların çoxunu orada əsir götürdülər. Bəli, belə bir pusqu qurmuşdular. İnsan soyuqda haraya qaçar, istiyə. Adamlarımızın çoxunu orada əsir götürdülər.

* * *

*Sonra Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Arzu Əliyeva Sənətkarlar məhəlləsinə gəldilər, əvvəlcə «AzeRobot Education» robototexnika tədris mərkəzinin Xocalıdakı filialında yaradılmış şəraitlə tanış oldular.*

**M ə r k ə z i n  n ü m a y ə n d ə s i:** Mərkəzimiz barədə məlumat verim. «AzeRobot Education» artıq 3 ilə yaxındır fəaliyyət göstərir. Xocalıdakı filialımız 9-cudur. Proqramlaşdırma, mühəndislik və robototexnika. 5 yaşından başlayaraq şagirdlərə və gənclərə IT sahəsini tədris edirik. 17 modulumuz var, yəni süni intellekt, kibertəhlükəsizlik, proqramlaşma. Uşaqları, şagirdləri hazırlayıb həm yerli, həm də beynəlxalq yarışlara gedirik və Azərbaycanı təmsil edirik.

**İ l h a m  Ə l i y e v:** Yəni məktəbdən sonra uşaqlar buraya gəlib məşğul olacaqlar?

**M ə r k ə z i n  n ü m a y ə n d ə s i:** Bəli, məktəbdən sonra. Xocalıda artıq bu fəaliyyət başlanıb. Səksənə yaxın müəllimimiz var. Müəllimlərimiz gənclərdir, hər bölgədən gənclərimiz var. Universiteti bitirən ki-

mi onlar, əlbəttə ki, Qarabağa gəlmək istəyirdilər. Xocalıdan da olan mentorlarımız var idi. İki ildir onları hazırlayırdıq, həsrətlə bu günü gözləyirdilər.

**İlham Əliyev:** Xankəndidə Qarabağ Universiteti də sentyabr ayından fəaliyyətə başlayır. Ora ilə də yəqin ki, əlaqəniz olacaq.

**Mərkəzin nümayəndəsi:** Bizim bütün universitetlərlə əlaqəmiz var. Mexatronika, kompüter, IT sahəsində tələbələr hazırlaşırlar. Onları – uşaqları, gəncləri öyrədirik ki, artıq silahla yox, bu dəfə özlərinin yığdığı pilotsuz uçuş aparatları ilə torpaqlarımızı qorusunlar.

**İlham Əliyev:** Bəli, əlbəttə, inşallah.

* * *

*Prezident İlham Əliyev «Nakhishli» atelyesi ilə tanış oldu.*

**İlham Əliyev:** Salam.

**Atelyenin əməkdaşı:** Həmişə Siz gələsiniz. Çox şadam. Bu gün o qədər şadam ki, Sizi Xocalıda qarşılayıram. Ən böyük arzularımdan birinə çatmışam.

**İlham Əliyev:** Həm də iş başında.

**Atelyenin əməkdaşı:** Bəli, iş başında, ən sevdiyim iş başında. Buraya gəlmək üçün çox çətinliklərdən keçmişik.

**İlham Əliyev:** Allah işinizi avand eləsin.

**Atelyenin əməkdaşı:** Çox sağ olun.

**Mehriban Əliyeva:** Salam. Mən də çox şadam ki, bu günü bir yerdə yaşayırıq. Sizi təbrik edirəm.

**Atelyenin əməkdaşı:** Buralarda Sizin əziyyətiniz var. Xocalıda şəhid olanların hamısının ruhu bu gün şaddır. Ona görə ki, bizim belə Prezidentimiz var, belə birinci xanımımız var. Mən həqiqətən, çox şadam. Ulu öndər Heydər Əliyevi həddən artıq çox sevirdim. İndi də Sizi çox sevirəm. Onun da ruhu şad olsun.

**İlham Əliyev:** Sağ olun, sizi təbrik edirik.

* * *

*Dövlət başçısı və xanımı «Gilabi Ceramics» emalatxanası ilə tanış oldular.*

**İlham Əliyev:** Siz Bakıdan gəlmisiniz?

**Emalatxananın əməkdaşı:** Bakıdan gəlmişik. Başlanğıc olaraq bu işə Bakıda başlamışıq.

**Elçin Yusubov:** Bölgələrimizdə də var.

**Emalatxananın əməkdaşı:** Laçında da başlamışıq. Bu ailə Laçındandır.

**İlham Əliyev:** Laçından? Nə yaxşı. Laçında işləyirlər?

**Elçin Yusubov:** Bəli, işləyirlər.

**İlham Əliyev:** Laçın onsuz da cənnətdir, mən demişəm, Azərbaycanın yəqin ki, ən gözəl rayonlarından biridir, özü də indi, abadlıq işləri aparılandan sonra. Mən demişdim ki, biz Qarabağı cənnətə çevirəcəyik. Yavaş-yavaş çeviririk. Xocalı da elə olacaq.

* * *

*Daha sonra «Sariban» peşə inkişaf mərkəzinin filialı ilə tanışlıq oldu.*

**Mərkəzin əməkdaşı:** Xocalımıza xoş gəlmisiniz!

**İlham Əliyev:** Sağ olun. Salaməleyküm. Siz hansı işlərlə məşğul olursunuz?

**Mərkəzin əməkdaşı:** Peşə inkişaf mərkəzi olaraq Xocalı sakinlərinə mədəniyyətimizlə bağlı sənət sahələrini öyrədəcəyik. Bundan əlavə, Xocalıda məskunlaşacaq sakinlərə müxtəlif peşələr öyrədəcəyik, master-klaslar keçiriləcək.

**İlham Əliyev:** Yəni rəssamlıq, yoxsa?

**Mərkəzin əməkdaşı:** Rəssamlıq da daxildir, təbii-dekorativ sənət növləri də. Şamın hazırlanması, vitraj sənəti, yəni buraya xalq yaradıcılığı da aiddir.

**İlham Əliyev:** Bura təlim mərkəzi olacaq?

**Mərkəzin əməkdaşı:** Təlim mərkəzi olacaq, eyni zamanda, mentorluq proqramı da düşünmüşük, Xocalı sakinləri öyrəndikdən sonra digərlərinə də öyrətsinlər.

**İlham Əliyev:** Çox yaxşı, sizi təbrik edirəm. Sağ olun.

**Mehriban Əliyeva:** Sizi təbrik edirəm.

**Mərkəzin əməkdaşı:** Mehriban xanım, Sizi görməyə çox şad olduq. Sağ olun, bayramınız mübarək.

# QEYDLƏR

**1. Belarus,** B e l a r u s  R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 207,6 min km$^2$, əhalisi 9,2 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minsk şəhəridir. – 5–10, 12, 13, 15–19, 21, 22, 23, 30, 33, 41–44, 150.

**2. Aleksandr Lukaşenko** (d.1954) – Belarus siyasətçisi və dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 5, 6, 8, 15, 16, 21–28, 30–34, 36, 37, 39, 41, 43, 150.

**3. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları –** 7 iyul 2021-ci ildə Azərbaycan Prezidentinin «Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında» fərmanına əsasən yaradılmışdır. Qarabağ iqtisadi rayonuna Ağdam, Şuşa, Füzuli, Tərtər, Ağcabədi və Bərdə rayonları, yeni yaradılmış Şərqi Zəngəzur iqtisadi rayonuna isə işğaldan azad olunmuş Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonları daxil edilmişdir. – 7, 23, 40, 57, 58, 59, 70, 75, 300, 306.

**4. Livan,** L i v a n  R e s p u b l i k a s ı – Qərbi Asiyada, Aralıq dənizinin şərq sahilində dövlət. Sa-

həsi 10,4 min km$^2$, əhalisi 8,8 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Beyrut şəhəridir. – 7, 9, 24.

**5. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belarusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş Nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası İqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 7, 13.

**6. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu Yorkda yerləşir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko Konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanıb və 1945-ci il oktyabrın 24-də qüvvəyə minib. Hazırda BMT-yə 193 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Assambleya, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Qəyyumluq Şurası, Beynəlxalq Ədalət Məhkəməsi və Katiblikdir. Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür. – 8, 74, 91, 118, 122, 144, 158, 168, 169, 176, 192, 200, 221, 262, 289.

**7. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMT TŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 24 oktyabr 2011-ci ildə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 8, 89, 189, 268.

**8. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1976-cı ildə Sov.İKP MK Siyasi Büro üzvlüyünə namizəd, 1982-ci ildə isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğ-

ma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, keçmiş Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın ozamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyunun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi,

elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Keçmiş Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon Sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif

ölkə universitetlərinin Fəxri doktoru və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 9, 10, 11, 13, 15, 24, 30, 33–36, 39, 40, 111, 112, 119, 122, 123, 133, 152, 153, 156, 246, 248, 249, 250, 252, 253, 255, 256, 257, 259, 260, 261, 265, 268, 313.

**9. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon $km^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş Nazir təşkil, Prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 11, 61, 62, 65–74, 77–84, 86, 95, 96, 97, 282.

**10. Pakistan,** P a k i s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 881,9 min $km^2$, əhalisi 241,5 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 11, 137, 138, 281.

**11. Hindistan,** H i n d i s t a n R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 3,2 milyon $km^2$, əhalisi 1,4 milyard nəfərdir. Hindistan Federativ parlamentli respublikadır. Paytaxtı Yeni Dehli şəhəridir. – 11, 162.

**12. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon $km^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vi-

layət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 13, 18, 133, 134, 149, 171, 246, 248, 249, 250, 251, 252, 253, 254, 255, 257, 258, 261.

**13. Ukrayna** – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 14, 101, 124, 125, 134, 149, 172, 173, 268.

**14. Məcnun Məmmədov,** Məcnun Qadir oğlu (d.1983) – 14 aprel 2023-cü ildən Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziridir. – 16.

**15. Qətər,** Qətər Dövləti – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 11,5 min km$^2$, əhalisi 2,6 milyon nəfərdir. Dövlət başçısı Əmirdir. Paytaxtı Doha şəhəridir. – 17, 18, 225, 226.

**16. Birləşmiş Ərəb Əmirlikləri** – Yaxın Şərqdə dövlət. Sahəsi 83,6 min km$^2$, əhalisi 10,2 milyon nəfərdir. Birləşmiş Ərəb Əmirliklərinin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı  Federal Milli Şuradır ki, Prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 18, 104, 105, 218, 219, 220.

**17. Kanada** – Şimali Amerikada dövlət. Sahəsi 9,98 milyon km$^2$, əhalisi 37,6 milyon nəfərdir. Kanada 10 əyalətə və 3 əraziyə bölünmüş federasiyadır. Dövlət başçısı Böyük Britaniya Kralıdır. Onu ölkədə General-qubernator təmsil edir. Qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Ottava şəhəridir. – 18, 240.

**18. Türkiyə,** T ü r k i y ə R e s p u b l i k a s ı – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 85,3 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 18, 85, 132, 264, 267.

**19. İspaniya,** İ s p a n i y a K r a l l ı ğ ı – Cənub-Qərbi Avropada dövlət. Sahəsi 506 min km$^2$, əhalisi 48,2 milyon nəfərdir. İnzibati ərazisi 17 muxtar vilayətə daxil olan 50 əyalətə bölünür. İspaniya konstitusiyalı monarxiyadır. Dövlət başçısı Kral, qanunverici orqanı Korteslərdir. Paytaxtı Madrid şəhəridir. – 18, 231.

**20. COP29** – 2024-cü ildə Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi Konfransı. COP tədbirlərinin məqsədi dünyada karbon qazının miqdarını məhdudlaşdırmaqdır. – 19, 89, 92–94, 103, 122, 135, 137, 143, 148, 158, 168, 169, 175, 186, 240, 270, 279, 289.

**21. Gəncə** – Azərbaycan Respublikasında əhalisinə görə Bakıdan sonra ikinci böyük şəhər. Gəncə şəhəri Kiçik Qafqazın şimal-şərqində, Gəncə–Qazax düzənliyində yerləşir. Sahəsi 173 $km^2$, əhalisi 360,4 min nəfərdir. – 19, 34.

**22. Füzuli** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 $km^2$, əhalisi 144 min nəfərdir. 1993-cü ildə ərazisinin bir hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

27 sentyabr 2020-ci il tarixindən etibarən Azərbaycan Ordusu tərəfindən keçirilmiş əks-hücum əməliyyatı nəticəsində rayonun kəndləri, 17 oktyabr tarixində isə Füzuli şəhəri işğaldan tam azad edilmişdir. – 22, 23, 24, 27, 28, 29, 37, 52, 99, 279, 290.

**23. Zəngilan** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 707 $km^2$, əhalisi 42 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

20 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 22, 46, 51, 52, 54, 56, 57, 58, 59, 60.

**24. Laçın** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Laçın şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 $km^2$, əhalisi 79,9 min nəfərdir. Laçın rayonu 18 may 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanata əsasən, 1 dekabr 2020-ci ildə Laçın rayonu 28 il sonra yenidən Azərbaycan Respublikasının nəzarəti altına keçmişdir. – 22, 27, 39, 52, 125, 279.

**25. Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) –** Azərbaycan Respublikası ərazisində keçmiş muxtar vilayət. Öncə ərazisi 4161 $km^2$ olmuş, sonralar bura müxtəlif ərazilər də daxil edilərək ərazisi 4400 $km^2$-dək genişləndirilmişdi. 1988-ci ilə qədər burada 170 min əhali yaşayırdı.

DQMV inzibati ərazi vahidi kimi 1991-ci il noyabrın 26-da Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə ləğv edilmişdi.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq, Dağlıq Qarabağın işğalına başlamışdılar.

Azərbaycan Ordusunun 2020-ci il 27 sentyabrda başladığı əməliyyatların bir hissəsi keçmiş DQMV ərazisində həyata keçirildi. 2020-ci il noyabrın 8-də Şuşa şəhəri düşmən işğalından azad edildi.

Azərbaycan Ordusunun Qarabağda keçirdiyi uğurlu antiterror və hərbi əməliyyatlarından sonra Qarabağ tamamilə azad edilmişdir. – 22, 29, 31, 32, 39, 40, 43, 44, 81, 89, 279, 312, 313.

**26. Ağdam** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Ağdam şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1150 $km^2$,

əhalisi 202,2 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanata əsasən, 2020-ci il noyabrın 20-də Ağdam yenidən Azərbaycan Respublikasının nəzarəti altına keçmişdir. Ermənistan silahlı qüvvələri Ağdamı boşaldıb Azərbaycan Respublikasına təhvil vermişdir. – 23, 24, 29, 40, 290, 291, 293, 294, 304, 310.

**27. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Ümumi sahəsi 289 $km^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edir. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlandırılmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən, Qarabağ xanlığının tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.

1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

Ali Baş Komandan İlham Əliyevin birbaşa rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu Şuşa şəhərini 8 noyabr 2020-ci ildə işğaldan azad etmişdir. – 27, 30, 32, 33, 36, 37, 38, 39, 40, 41, 42, 43, 44, 245, 279, 303.

**28. Cəbrayıl** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 $km^2$, əhalisi 80,8 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

4 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 27, 46, 47, 48, 49, 51.

**29. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Kəlbəcər şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 3050 $km^2$, əhalisi 93 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanata əsasən, 15 noyabr tarixində təhvil verilməsi qərarlaşdırılan Kəlbəcər rayonu 25 noyabrda Azərbaycana təhvil verildi. Məğlubiyyətlə barışa bilməyən ermənilər bölgədə Azərbaycana qarşı ekoloji terror fəaliyyəti həyata keçirmişlər. İşğaldan azad edildikdən sonra Kəlbəcər yenidən qurulur. – 27.

**30. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri ta-

mamilə yandırmış, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. Faciəni qətliam kimi dünyanın 10-dan çox ölkəsi, həmçinin ABŞ-ın 22 ştatı tanımışdır. – 28, 296, 297, 298, 299, 300, 301, 302, 303, 304, 307, 310, 312, 313, 314.

**31. Natəvan,** X u r ş u d b a n u x a n q ı z ı (1832–1897) – tanınmış Azərbaycan şairəsi. Mehdiqulu xanın qızı, İbrahimxəlil xanın nəvəsidir. «Xan qızı» adı ilə tanınmışdır. Əsərləri dərin səmimiyyəti, incə lirizmi ilə seçilir. Yüksək sənətkarlıq nümunəsi olan şeirlərində təkrir, qoşa qafiyə, rədif, məcaz və s. bədii vasitələri məharətlə işlətmişdir. O həm də istedadlı rəssam olmuşdur. – 30, 31, 33.

**32. Bülbül,** M u r t u z a M ə ş ə d i R z a o ğ l u M ə m m ə d o v (1897–1961) – Azərbaycan klassik vokal məktəbinin banisi, musiqi folkloru tədqiqatçısı, SSRİ Xalq artisti və SSRİ Dövlət mükafatı laureatı. Yaradıcılığı müasir Azərbaycan musiqili teatrı tarixində mühüm bir mərhələ təşkil edir. Bülbül Azərbaycan xalq mahnılarını, təsnifləri böyük sənətkarlıqla ifa etmişdir. – 30, 31, 32, 33, 35.

**33. Üzeyir Hacıbəyli,** Ü z e y i r Ə b d ü l h ü s e y n o ğ l u (1885–1948) – SSRİ Xalq artisti. SSRİ Dövlət mükafatı laureatı. Müasir Azərbaycan musiqi mədəniyyətinin qurucusu, milli operanın, eləcə də Şərqdə ilk operanın banisi, dramaturq, pedaqoq, ictimai-siyasi xadim, Azərbaycan xalqının dahi bəstəkarı. 1899–

1904-cü illərdə Gürcüstanda Qori müəllimlər seminariyasında təhsil almış Üzeyir bəy pedaqoji fəaliyyəti dövründə Azərbaycan dilində «Hesab məsələləri» dərsliyini yazmış, mətbuatda istifadə olunan siyasi, hüquqi, iqtisadi və əsgəri sözlərin «türki–rusi və rusi–türki lüğəti»ni nəşr etdirmişdir.

Həmin illərdə o, Bakıda nəşr olunan «İttihad», «Həyat», «Tərəqqi», «Həqiqət», «İqbal», «Yeni iqbal» qəzetlərində və «Molla Nəsrəddin» jurnalında «Ordan-burdan», «Oyan-buyan» başlığı altında çoxlu məqalə, felyeton və satirik miniatürlər dərc etdirmişdir. 1918–1920-ci illlərdə – Azərbaycan Demokratik Respublikası dövründə Üzeyir Hacıbəyli cümhuriyyətin orqanı olan «Azərbaycan» qəzetinin redaktoru olmuşdur.

Onun 1918-ci ildə yaratdığı «Milli marş» 1992-ci ildən Azərbaycan Respublikasının Dövlət himni kimi qəbul olunmuşdur. «Çırpınırdı Qara dəniz» bəstəsi isə bütün Türk Dünyasının himninə çevrilib.

1908-ci il yanvarın 25-də Üzeyir bəyin «Leyli və Məcnun» operası Bakıda H.Z.Tağıyevin teatrında ilk dəfə tamaşaya qoyulur. Bu əsərlə Azərbaycanda və bütün Şərq aləmində opera sənətinin əsası qoyuldu. 1909–1915-ci illərdə bir-birinin ardınca «Şeyx Sənan» (1909), «Rüstəm və Söhrab» (1910), «Şah Abbas və Xurşudbanu» (1912), «Əsli və Kərəm» (1912), «Harun və Leyla» (1915) operalarını yaratmışdır. 1937-ci il aprelin 30-da Azərbaycan Opera və Balet Teatrında «Koroğlu» operası ilk dəfə tamaşaya

qoyulmuşdur ki, bu əsər Üzeyir bəyin yaradıcılığının zirvəsi hesab olunur.

Opera ilə yanaşı, Üzeyir Hacıbəyli musiqili komediya janrında da əsərlər yaratmışdır.

«Ər və arvad» (1910), «O olmasın, bu olsun» (1911), «Arşın mal alan» (1913) musiqili komediyalarının mətnini də özü yazmışdır. Bununla o həm də Azərbaycan dramaturgiyasında mühüm rol oynamışdır. Tamaşaya qoyulduğu gündən xalqın dilində əzbər olan əsərləri tezliklə bir çox xalqların səhnələrini dolaşmış, «Arşın mal alan» musiqili komediyası 40-dan artıq dilə (rus, ingilis, ərəb, fransız, çin və s.) tərcümə olunmuş və dünya teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. Bu musiqili komediyalar dəfələrlə ekranlaşdırılmışdır. – 30, 31, 32, 34, 35.

**34. Polad Bülbüloğlu** (d.1945) – bəstəkar, müğənni, dövlət xadimi. Azərbaycan Respublikasının Xalq artisti. 1988–2005-ci illərdə Azərbaycan Respublikasının Mədəniyyət naziri olmuşdur. Hazırda Azərbaycan Respublikasının Rusiya Federasiyasında Fövqəladə və Səlahiyyətli səfiridir. Birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin üzvü olmuşdur. Azərbaycan Respublikasının «Şərəf», «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif edilmişdir. – 31, 33, 34.

**35. Gürcüstan** – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici or-

qanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 31, 187, 188, 264.

**36. Birinci Qarabağ müharibəsi** – keçən əsrin 80-ci illərinin sonlarından 1994-cü ilin mayına kimi cənub-qərbi Azərbaycanda yerləşən Qarabağ bölgəsinə Ermənistanın hücumu ilə Azərbaycan və Ermənistan arasında baş vermiş ərazi münaqişəsi. Tərəflər arasında genişmiqyaslı döyüşlər əsasən 1992-ci ildə başlanmışdır. 1994-cü ilin mayında atəşkəs əldə olunmuşdur. Münaqişənin ATƏT-in prinsipləri əsasında sülh yolu ilə danışıqlar vasitəsilə həlli üçün isə ATƏT-in Minsk qrupu yaradılmışdır. Müharibə nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, keçmiş Dağlıq Qarabağ və ətraf rayonları isə işğal olunmuşdur. Müharibə zamanı Ermənistan silahlı qüvvələri minlərlə hərbi cinayət törətmiş, beynəlxalq hüququn bütün norma və prinsiplərini kobudcasına pozmuş, atəşkəs elan olunduqdan sonra belə, Azərbaycan tərəfinin hərbi bölmələrini və dinc insanları mütəmadi olaraq atəşə tutmuş, işğal olunmuş Azərbaycan torpaqlarında etnik, milli və mədəni təmizləmə və ekoloji terror, eləcə də qanunsuz məskunlaşma işləri aparmışdır. – 33.

**37. Zərifə xanım Əliyeva,** Z ə r i f ə Ə z i z q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki,

Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, Prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri vardır. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksəkixtisaslı səhiyyə kadrlarının hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalının redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 35, 36.

**38. Müslüm Maqomayev,** M ü s l ü m  M ə h ə m m ə d  o ğ l u (1942–2008) – görkəmli Azərbaycan opera və estrada müğənnisi. Azərbaycan Respublikası və SSRİ Xalq artisti. Bəstəkar Müslüm Maqomayevin nəvəsi. Keçmiş SSRİ məkanında və bir çox xarici ölkələrdə müvəffəqiyyətlə çıxış etmişdir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 36.

**39. Molla Pənah Vaqif,** P ə n a h M e h d i a ğ a o ğ l u (1717–1797) – Azərbaycan şairi, məşhur ictimai və siyasi xadim, Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin baş vəziri. Vaqif lirikasının əsas xüsusiyyətləri millilik, xəlqilik, realizm, sadəlik və nikbinlikdir. Vaqif yaradıcılığında «Badi-səba, bir xəbər ver könlümə», «Namə gedər olsan yarın kuyinə», «Bayram oldu», «Gözlərin cəlladdır, baxışın yağı», «Durnalar», «Heyran olmuşam» və s. şeirləri xüsusi yer tutur. 12 yanvar 2017-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalamışdır. – 37.

**40. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi, həmçinin Heydər

Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaradılmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə UNESCO və ISESCO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə isə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilmiş ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 37, 42, 51, 57, 128, 296, 297, 299, 301, 304, 306, 308, 311, 312, 314.

**41. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti

UNESCO və ISESCO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 39, 57.

**42. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 29,12 km$^2$, əhalisi 55 min nəfərdir. 1991-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi.

2023-cü ilin sentyabr ayında Azərbaycan Ordusunun həyata keçirdiyi antiterror əməliyyatlarından sonra 29 sentyabr 2023-cü ildə Azərbaycan polisi şəhərə nəzarəti bərpa etmişdir. 15 oktyabr 2023-cü ildə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət bayrağını qaldırmışdır. Zəfər Günü münasibətilə erməni separatçılarından birdəfəlik azad olunmuş Xankəndidə Qələbə Paradı keçirilmişdir. – 40, 296, 299, 303.

**43. Novruz bayramı** – qədim xalq bayramı. Şimal yarımkürəsində astronomik yazın başlandığı gecə-

gündüz bərabərliyi günündə (martın 21–22-də) keçirilir. Qədim zamanlardan başlayaraq, İran, Azərbaycan, Əfqanıstan, Tacikistan, Özbəkistan və bəzi Şərq ölkələri baharın – yeni ilin gəlişini şənliklərlə qarşılayırdı. Respublikamız müstəqillik qazandıqdan sonra Novruz bayramı rəsmi ümumxalq bayramı və istirahət günü elan edilmişdir.

2009-cu ildən Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. BMT Baş Məclisi martın 21-ni Beynəlxalq Novruz Günü elan etmişdir. – 43.

**44. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı– Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 20 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Astana şəhəridir. – 45, 139, 265.

**45. Kasım-Jomart Tokayev** (d.1953) – Qazaxıstan siyasətçisi və dövlət xadimi. 2013–2019-cu illərdə Qazaxıstan Senatının Sədri olmuşdur. 2019-cu ildən Qazaxıstan Respublikasının Prezidentidir. – 45, 139.

**46. Qubadlı** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Qubadlı şəhəridir. 14 mart 1933-cü ildə yaradılmışdır. Ərazisi 802 km$^2$, əhalisi 40,2 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

25 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 46, 51, 294.

**47. «AzərEnerji» –** dövlət şirkəti. Elektrik sistemləri avadanlıqlarının texniki istismarı, elektrik enerjisinin ötürülməsi, bölüşdürülməsi, generasiya güclərinin və şəbəkələrinin planlaşdırılması və inkişaf məsələlərini həll edir. – 53, 54, 56, 57, 68.

**48. Baba Rzayev,** Baba Hüseynağa oğlu (d.1957) – Əməkdar mühəndis. 2006–2015-ci illərdə «Bakıelektrikşəbəkə» Açıq Səhmdar Cəmiyyətinin, 2015–2018-ci illərdə «Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin sədri olmuşdur. 2018-ci ildən «AzərEnerji» Açıq Səhmdar Cəmiyyətinin Prezidentidir. – 54.

**49. Saleh Məmmədov,** Saleh Ərşad oğlu (d.1958) – Əməkdar mühəndis. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədridir.

Azərbaycan Respublikasının «Tərəqqi» medalı və «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 59.

**50. İbrahim Rəisi** (1960–2024) – siyasətçi və dövlət xadimi. 2021–2024-cü illərdə İran İslam Respublikasının Prezidenti olmuşdur. – 61, 62, 63, 64, 65, 67, 68, 71, 74, 77, 78, 79, 84, 86, 95, 96, 282.

**51. Pərviz Şahbazov,** Pərviz Oqtay oğlu (d.1969) – mühəndis, diplomat. 1998–2001-ci illərdə Azərbaycan Respublikasının Avstriyadakı səfirli-

yində müşavir, 2005-ci ildə ATƏT-in Təhlükəsizlik və Əməkdaşlıq Forumunun sədri, 2005–2016-cı illərdə Azərbaycanın Almaniyada səfiri olmuşdur. 2017-ci ildən isə Azərbaycan Respublikasının Energetika naziridir. – 68.

**52. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər, Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 35 $km^2$, əhalisi 95 min nəfərdir. Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan Antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir. E.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal etmişlər. Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər müxtəlif dövlətlərin nüfuz dairəsində olmuş, məhz bu ildən Rusiya imperiyasına birləşdirilmiş və qəza mərkəzinə çevrilmişdir. 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtıdır. – 70, 75.

**53. «Qoşulmama Hərəkatı»** – özlərini heç bir bloka tərəfdar olmadığını bildirmiş 120 dövlətin üzv olduğu, digər 17 ölkənin və 10 beynəlxalq təşkilatın müşahidəçi statusunda birləşdikləri blok. 1961-ci ildə yaradılmışdır. Mənzil-qərargahı Cakartadadır. Azərbaycan Respublikası 25–26 oktyabr 2019-cu il tarixində Bakı şəhərində Hərəkatın 18-ci dövlət və hökumət başçılarının Zirvə görüşünə ev sahibliyi etmişdir. Bakı Sammiti

ilə Hərəkata sədrlik 2019–2023-cü illər üzrə Azərbaycan Respublikasına keçmişdir. – 74, 91, 92, 93, 103, 104, 270.

**54. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – müsəlman ölkələrinin çoxunu birləşdirən təşkilat. 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədə yerləşir. Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 74, 93, 236.

**55. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən isə Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min km$^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 75.

**56. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı** (ATƏT) – 57 üzv, 11 əməkdaşlıq üzrə tərəfdaş dövlətlə dünyanın ən böyük regional təşkilatıdır. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, həmçinin ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «so-

yuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in Zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 76.

**57. Şanxay Əməkdaşlıq Təşkilatı –** Şanxay Əməkdaşlıq Təşkilatı, həmçinin Şanxay Paktı kimi tanınan transkontinental siyasi, iqtisadi, təhlükəsizlik və hərbi ittifaq. Coğrafi əhatə dairəsi və əhalisi baxımından dünyanın ən böyük regional təşkilatlarından biridir. Ali qanunverici orqanı ildə bir dəfə toplanan Dövlət başçıları Şurasıdır. – 82, 275.

**58. Rəcəb Tayyib Ərdoğan** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlamışdır. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur. Ədalət və İnkişaf Partiyasının liderididir.

2002-ci ildə keçirilmiş növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş Naziri olmuşdur, 2014-cü ildən Türkiyə Cümhuriyyətinin Prezidentidir.

Ölkələrimiz arasındakı dostluq və qardaşlıq fəaliyyətinin daha da inkişaf etdirilməsinə görə Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 85, 132, 277.

**59. Latviya,** Latviya Respublikası – Şərqi Avropada, Pribaltikada dövlət. Sahəsi 64,5 min km$^2$, əhalisi 1,9 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 88, 89, 90, 169, 170.

**60. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka və İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulmuşdur. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldə yerləşir. – 90.

**61. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 27 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf etmiş formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 90, 103, 127, 142, 164, 169, 171.

**62. COVID-19** – koronavirus pandemiyası. 2019-cu ilin ortalarında Çinin mərkəzi Hubey əyalətində yerli sakinlərdə naməlum mənşəli virusun yayılması ilə başlanan xəstəlik. – 91.

**63. Özbəkistan,** Özbəkistan Respublikası – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 448,8 min km$^2$, əhalisi 37 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qaraqalpaqıstan Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd şəhəridir. – 98, 99, 100, 151.

**64. Vladimir Zelenski** (d.1978) – Ukraynanın dövlət xadimi, siyasətçi, rejissor, bədii direktor, aktyor. 2019-cu ildən Ukraynanın Prezidentidir. – 101, 124, 149.

**65. İordaniya,** İ o r d a n i y a  H a ş i m i l ə r  K r a l l ı ğ ı – Qərbi Asiyada dövlət. Sahəsi 92,3 min km², əhalisi 11,5 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı Kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Əmman şəhəridir. – 102, 223.

**66. Almaniya,** A l m a n i y a  F e d e r a t i v  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km², əhalisi 84,4 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı Prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 103, 143.

**67. «Euronews»** – çoxdilli xəbər kanalı. Xəbərləri Avropa perspektivindən dünyaya baxış formatında xəbərlər çoxluğu təşkil edir və 9 dildə yayımlanır. – 103.

**68. OPEC+** – neft ixrac edən ölkələr təşkilatı. 1960-cı ildə yaradılmışdır. Tərkibinə İran, Venesuela, Küveyt, Səudiyyə Ərəbistanı, Əlcəzair, Nigeriya, Ekvador, Qabon, Anqola, İraq, Konqo, Liviya, BƏƏ, Ekvatorial Qvineya daxildir. Mənzil-qərargahı Vyanada yerləşir. – 104.

**69. Tacikistan,** T a c i k i s t a n  R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 143,1 min

km$^2$, əhalisi 10 milyon nəfərdir. İnzibati ərazisi Bədəxşan Muxtar Vilayətinə, 2 vilayət və 45 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 106, 107, 108, 109, 110, 111, 112, 113, 114, 115, 116, 117, 118, 119, 120, 121, 122, 123, 155, 156.

**70. Emoməli Rəhmon,** Emoməli Şərif oğlu (d.1952) – Tacikistanın dövlət və siyasi xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin Sədri olmuşdur. 1994-cü ilin noyabrından Tacikistan Respublikasının Prezidentidir.

Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 106, 107, 108, 109, 111, 113, 115, 118, 119.

**71. Rəşad Nəbiyev,** Rəşad Nəbi oğlu (d.1977) – iqtisadçı. 2011–2021-ci illərdə «Azərkosmos» ASC-nin sədri olmuşdur. 2021-ci ildən Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat naziridir.

Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 113.

